


Ön söz.

Əziz oxucular! Bu mənim ilk kitabımdır. Yazmağa 2007-ci ildən başlamışam. Kitabda real həyatda müşahidə etdiyim talelərdən, gördüyüm hadisələrdən bəhs etmişəm. İlk qələmə aldığım əsər "Görünməyən həqiqət" dedektiv povestidir. Bu əsər eyni zamanda dedektiv janrında yazdığım ilk əsərdir. Əsəri 2007-2010-cu illərdə yazmışam. Həmin illərdə eyni zamanda "Açılmayan düyünlər" , "Sevgi zərbəsi", "Zamanın öz məlhəmi" əsərlərini yazdım. Ən son yazdığm isə "Xoşbəxtlik həsrəti" romanıdır. Bütün əsərlərimdə hadisələrin axarında sevgi

macəraları ilə yanaşı, qətl hadisələrinə, uğursuz sevgi acılarına da yer ayırmışam. Sizə təqdim etdiyim bu kitaba bu əsərlərin hamsı daxildir. Kitabda tanış olacağınız bütün obrazlar ("Xoşbəxtlik həsrəti"ndəki Tərlandan başqa) real həyatda yaşayırlar, yəni xəyalımın məhsulu deyil. Obrazların adı şərti olaraq dəyişdirilib. Buradakı hadisələr Azərbaycanın ucqar kənd və rayonlarında cərəyan edir. "Zamanın öz məlhəmi" povestində isə hadisələr Türkiyənin ücqar kəndlərindən birində baş verir.

Hər bir əsərin məzmunu və ümumilikdə aşıladığı fikirlərin cövhərində mənim könül çrpıntılarım, həyat-ölüm, sevgi-nifrət, insanlıq-rəzalət, xoşbəxtlik-bədbəxtlik haqqında düşüncələrim əks olunub. Hansılar ki, biz həmişə bu əksliklərin arasındayıq, onların mübarizəsində üstün çıxanın gətirdiyi, bəxş etdiyi həyatı yaşayırıq.

Bu sayta gəldiyim ilk andan yazılarımı Gülşən xanımla müzakirə etdim, fikir mübadiləsi apardıq, məsləhətlər aldım və onun məsləhəti ilə yazmaqda davam etdim, bu yazılarım ərsəyə gəldi. İndiyə kimi bu yazdıqlarımı ancaq ailəmizdə, qohumlarımızda oxuyurdularsa, artıq Qadın.net saytı öz səhifələrində paylaşıb, hissə-hissə dərc olunub. İndi isə onlar sayt layihəsinə əsasən vahid kitab halında sizlərə təqdim olunur. Bilirəm ki, mənim əsərlərimi sevərək izləyən yüzlərlə oxucum var. Bunu mənə gələn məktublar sübut edir. Oxucu sevgisi arzu etdiyim ən böyük hədiyyədir. Bu hədiyyə üçün Selcan (Ceylan Mumoğlu) xanıma öz dərin minnətdarlığımı bildirirəm. Əziz oxucular, ümid edirəm ki, əsərin əsas maziyyətlərini siz qiymətləndirəcəksiniz. Hər bir irad və təkliflərinizi ehtiramla qəbul edəcəyəm. Bu təklif və iradlar mənim gələcək yaradıcılıq yoluma işıq tutacaqdır.

Hörmətlə: Xəyalə Murad



“Sevgi zərbəsi” roman

## Birinci fəsil

Sevginin nə olduğunu bilmirdi. Amma bilirdi ki, valideynlərə hiss etdiyi sevgidən çox fərqli bir hiss olmalıdır. Sevginin nə olduğunu bilən rəfiqələri vardı. Tez-tez onları bezdirərdi sualları ilə. Yenə də doymurdu aldığı cavablardan. Kitablarda oxuyurdu, əbədi səadətdən, xoşbəxtlikdən. Sevmək istəyirdi. Çox istəyirdi. Son zəngində paralel sinifdə oxuduğu oğlanlardan biri onu rəqsə dəvət etdi. Həzin musiqi sədaları altında Səmra ilk dəfə biri ilə rəqs edirdi. Amma təcrübəsiz olduğunu tərəf müqabilinə bildirmək istəmirdi. Rəqs etdikcə onun ürəyinin döyüntülərini eşitməyə başladı. sankı "Səmra" eşidilirdi, hər döyüntüdə. Gözləri gözlərinə sataşdı özünü itirdi o baxışlarda. Sanki buludlar üstündə rəqs edirdilər. Musiqini isə ürək döyüntüsü əvəz edirdi. Hər ikisi ilk baxışdan aşiq oldular.

Zaman keçdi... Universitet imtahanlarından hər ikisi kəsildi. Valideynləri səbəbi sevgilərində gördü. Sevgisi üçün günahlandırılmış kimi baxırdılar Səmraya. Yenə də çox sevdilər bir-birlərini. O Səmra üçün hər şeyə hazır idi. Bircə evlənməyə yaşları çatmırdı. Həm də imkan yox idi. Gizlin görüşürdülər Səmragilin bağlarında, hasar başında. Elə görüşlərin birində zərbə aldı Səmra. Öyrəndi ki, sevdiyi uzaq səfərə çıxır. İşləyib, pul toplayıb qayıdacaq. Qayıdacaq ki, evlənsinlər, qovuşsunlar bir-birlərinə. Əvvəlcə tərəddüd etsə də, yola gəldi sonunda, Anladı ki, başqa çarə yoxdur. Yolunu son nəfəsinədək gözləyəcəyinə and içdi orda Səmra... O isə "Yolumu gözlə mütləq gələcəm, alıb aparacam səni, evimizin xanımı edəcəm. İnan mənə, sevgimizə ləkə gətirmə".

Bir neçə ay keçdi. Lakin Səmra usanmırdı, gözləyirdi sevdiyini. Bu neçə ayda elçi düşən də olmuşdu ona, amma anasına yalvardı, o da vermədi bircə balasını. Anası qızının sevgisindən xəbər tutmuşdu, təsadüfən gecə ikən. Səmranın yuxuda dediklərindən anlamışdı hər şeyi. Bilirdi, qızının tərs üzünü dedisə, ondan başqasına getmərəm, demək getməzdi. Böyük əziyyətlə böyüdürdü qızını. Hər istədiyini almaq üçün gecə-gündüz calışırdı. Bütün qəlbi ilə onu xoşbəxt görmək istəyirdi.

Bir gün telefonun zəngi calındı. Səmra şimşək tək cumdu götürdü: "Alo, alo". Dəstəkdən bir kəlmə eşitdi: "Anamın gəlini olarsan?" Sevdiyinin səsini eşidib az qaldı havalansın. Deməkk, artıq vaxtı gəldi, sevdiyi kifayət qədər pul toplayıb vətənə qayıdıb, elçi gələcək. Bəli, Səmra sevincindən uçurdu. Odur ki, cavabı tərəddüd etmədən: "Sevə-sevə" oldu. "Onda hazırlaş, 5-ci gün vətənə dönürəm. 6-cı gün sizə anamı göndərəcəm".

Az qalırdı sevincindən havalansın. Yerə-göyə sığmırdı. Ona qovuşacağı günü gözləyirdi. Beşinci gün gecə elə hey bağda gəzdi. "Birdən gələr keçər, ya da axtarar, görmərəm" deyə. Səhərə kimi ağacın altında oturduğu yerdəcə yatıb qaldı. Ayılanda artıq səhər açılmışdı. Başının üstündə əlində jaket tutmuş anasını gördü. İzzah etməyə çalışdı hər şeyi, amma anasının sakit, qayğıkeş baxışlarından hər şeyi bildiyini anladı. Üzündən öpüb: "Ana, bu gün bizə elçi gələcəklər. Razı olarsan?". Anası Səmranın saçlarına sığal çəkib: "Hə, qızım..." - dedi.

Həmin gün yeni aldığı donunda oturmuşdu Səmra. Gələcək qaynanasına özünü bəyəndirmək üçün gözəl görsənməyə çalışırdı. Birdən qonşuluğunda sevinc dolu səs-küy eşitdi. Divar qonşusunun hasarına yaxınlaşıb nə baş verdiyini bilmək istəyirdi. Bu an elə bir aydın səmadan gəldi bir ildırım çaxdı ürəyinin başından. Ayağı üzüldü yerdən, ət kimi oldu bütün bədəni. Anası olmasa, yerə dəyərdi. Hasardan gördüyü mənzərə dəhşət idi onunçün. Dili söz tutmasa da kəkələyərək azacıq " Sən xəyanət etdin mənə..." dedi.

Hər şey aydın idi. Səmranın bütün qəlbi ilə sevdiyi insan indi hasar qonşusunun qızıyla nişanlanırdı. Sındı qəlbindəki güvən hissi köz oldu, ürəyi dağ basdı köksünə. Evdən çıxmadı aylarca. Təmizlik xəstəsi oldu, durmadan hər tərəfi silib-süpürürdü. Kimsənin gözünə baxmırdı. Suala cavab vermirdi. İçinə qapandı, tamamilə. Yox oldu həyat sevgisi.....

## İkinci fəsil

Aylar keçdi o gündən. Səmra təmizlikdən başqa heç nə düşünmür, kimsənin sualına cavab vermirdi. Anası arxası olmadığından o gecə qonşunun evinə getmədi. Qəlbində özünü günahkar hesab edirdi. Əgər həmin gecə nişana mane olsaydı, bəlkə də bircə balasını bu cür görməzdi. Səmra ağlasaydı, qışqırsaydı yenə rahat olardı, amma o tamamilə içinə qapanmışdı. Bəzən gecə ikən yatağına yaxınlaşıb "Qızım yatır, yoxsa oyaqdır"- deyə narahat olurdu. Amma o oyaq olurdu. Səhərə qədər...

Yatarkən kədər dolu gözlərinə yuxu necə gələrdi axı? Uşaqlığa qayıtdı, qonşu qızla dostluğunun başladığı günə getdi bir anlıq. 6 yaşı olardı elə hər ikisinin. Səmra fındıq ağacının altında oturub ağlayırdı. Atasını itirmişdi elə həmin gün. Bu evə yeni köçdüklərindən heç kimlə tanış olmamışdı. Birdən yanında ona baxan mavi gözlü qız gördü -"Burda niyə ağlayırsan? Gəl gedək fındıq dərək. Kimdə fındıq çox olsa, o da qalib gələr". O gündən dostluq edirdi qonşu qızı Zərifə ilə. Məktəbi də bir oxudular. Hər cür sirr bölüşərdilər həmin fındıq ağacının altında. Bir gün Zərifə:"Sənə sözüm var. Amma kimsə bilməsin. Mənim sevdiyim var. Bir aydır tanış olmuşuq. Məktəbə gəlmişdi, sən tanımırsan. Çox xoşuma gəldi. Onun da məndən. Bilirsən, Səmra mən ona aşiq olmuşam, deyəsən elə ilk baxışdan. Amma onun sevgisinə əmin deyiləm. Naz edirəm ki, bəlkə mənə ürəyini aça." Beləcə uşaqlıq sirrlərini sevgi sirri əvəz etdi. Səmra Zərifənin dostluğuna qiymət verirdi. İndi yatağında o günü xatırlamışdı. Demək sevdiyi oğlan elə Zərifənin sevgilisi də imiş. Eyni zamanda həm məni, həm də Zərifəni aldadırmış. Amma sonda onunla evlənməyə qərar verdi. Bəs niyə kişi kimi qarşıma keçib demədi ki, ay Səmra səni daha sevmirəm....

Hər gecəsi elə belə keçərdi. Öz-özünə suallar verərdi, cavab isə çox vaxt tapmazdı. Dan yeri sökülәndә əlində süpürgə həyət darvazasının yanından düz bağa kimi süpürərdi. Bir dənə daş belə qalmamışdı o yolda. Anası tək çarəni bacısında gördü. Zəng etdi məsləhətləşdi. Səmranın bu vəziyyətindən çıxış yol axtardılar. Onun tərs xasiyyətindən xəbərdar idilər Odur ki, tərs insanın öhdəsindən ondan da tərs biri gələ bilərdi. Beləcə xalası öz qızını göndərəcəyini dedi. Bəlkə o, Səmraya kömək olar deyə.

Səmra əlində toz əskisi televizorun tozunu silirdi. Elə bu vaxt darvazaları açıldı. Səmra kim olduğuna baxmaq istəyəndə gələn arxadan onu tutdu-"Salam Səmam necəsən? Çox darıxmışdım."Səmra arxaya çönüb xalası qızı Xədicəni gördü. O gecədən bəri ilk dəfə idi ki, üzü güldü. Onu qucaqlayıb bağrına basdı. Dayanmadan ağladı. Bu 3 ayda bir dəfə də olsun Səmra ağlamamışdı. Xədicə onu sakitləşdirməyə çalışmadı. Çünki anası hər şeyi anlatmışdı. Yaşca Səmradan kiçik olsa da yaşıdlarmış kimi davranırdılar. Səmra onun gözündə ideal insan idi. Güzgü önündə dayananda - "Səmraya oxşayıram görəsən?" deyə özünə sual verərdi. İdeal saydığı doğma xalası qızı tamamilə dəyişmişdi. Dolu olsa da boyunun hündürlüyü gözəllik verirdi Səmraya. Gülərkən yanaqlarında güllər açırdı sanki, saçları təbii qara rəngdə idi. Hər külək əsəndə sanki darayardı Səmranın saçlarını. Hər telinə sığal çkərdi astaca. Gözləri iki qara mirvari tək parlayardı ehmalca. Amma indi qarşısında o Səmradan əsər-əlamət yox idi. Güya heç nədən xəbəri yoxmuş kimi :" Səma (Xədicə Səmraya qısaca Səma deyərdi) , nə olub yoxsa məni görməyinə sevinmirsən? Xalam çağırmasaydı gəlməyəcəkdim, küsmüşdüm səndən. Üç aydır mesajlarıma zəngimə cavab vermirdin. Yaman incimişəm səndən, xain çıxdın." Birdən anladı ki, son sözünü nahaq yerə dedi. Çünki Səmra daha da bərk ağladı.

-Nələr yaşamısan sən, niyə ağlayırsan? danış rahat olacaqsan. At əlindən bunları bəsdir. Onsuz da təmizdir hər yer. Bəs, ürəyini necə təmizləmək istəmirsən?"

Xədicə Səmranı bir təhər razı saldı. Səmra əvvəldən başladı. Mahirlə ilk rəqsindən, görüşlərindən, Rusiyadan etdiyi son zəngindən və hasar başında gördüyü o səhnədən. Səmra o qədər ağlayırdı ki, Xədicə onun ancaq bu yolla rahat ola biləcəyini düşündüyündən dayandırmaq istəmirdi. Ətraflı öyrəndi yaşanmışları. Zərifəni tanıyırdı Xədicə. Onun ən yaxın rəfiqəsinə bunu etdiyi ağlına belə gəlməzdi. Həmin gecə Xədicə başladı düşünməyə: " Axı niyə zəng edib gözlədirdi Səmranı. Məqsədi Zərifə idisə, niyə Səmraya xəbər edirdi ki elçi gələcəyik."

Heç cürə uda bilmirdi Zərifənin hərəkətini. Həmin gecə Xədicə söz verdi özünə ki, Səmraya edilən haqsızlığı cavabsız qoymayacaq. Əgər kişi olsaydı bir-başa Mahirin qarşına dikilərdi. Tələb edərdi ondan Səmraya vurduğu zərbənin

səbəbini. Xalası tapşırmışdı ki, Xədicəni tək qoymasın. Çünki bu günlərdə Zərifənin toyu olacaqdı. İstəmirdi yenidən özünə qapansın. Bircə balasını belə görməyə dözə bilmirdi. Xədicənin gəlişinə ümidi vardı. Çünki bu 3 ayda Səmra hisslərini yaşadıqlarını kiminlə paylaşa bilərdi ki, anası ilə də arada pərdə saxlayırdı. Ona görə xalası işdən gəlib Xədicəni görəndə uşaq tək ağlamışdı.-" Nə yaxşı ki, gəldin Xədicə, Səmranı tənha qoyma. Tez-tez unsiyyət qur, içinə qapanmasın."

Səhər açıldı. Səmra yenə həyəti süpürməyə başladı. Anası işə gedəndə sığal çəkdi başına. Xədicə çayını içərkən belə gözünü Səmradan çəkmədi. Onun bu qədər arıqlamağı, çəkdiyi əzab yetməzdimi? Beynindəki suallara tək cavab verən vardısa, o da Mahirdi. Amma onu tapa bilməzdi. Əvəzində isə Zərifəni tapa bilərdi. Elə stəkanı nəlbəkiyə qoyub iri addımlarla çıxdı darvazadan. Səmra heç nə anlamadı, baxdı arxasınca.

Qonşunun darvazasını iri daşla döydü. Qapının ağzına Zərifə çıxdı. Xədicəni görüb rəngi saraldı. Başını aşağı dikib;

-"Salam Xədicə. Utandığımdan gəlib Səmranın halını soruşa bilmirəm. o necədir?"

Xədicə qəzəbindən nə dediyini bilmədi:

-"Yəni utanmağı da bacarırsan? Sənin kimi dost olmaz olsun. Nədi yer üzündə başqasını tapmadın? Belə tez ərə getmək istəyirdin? Evdə qalmışdın? Səmranın sənə nə pisliyi dəymişdi? Lənət olsun səni tanıdığımız günə."

Xədicə sözünü dedi, amma rahatlaşmadı. Qarşısında başı aşağı yazıq vəziyyətdə dayanmış Zərifə dinmirdi. Sanki başı ilə təsdiq edirdi, onun təhqirlərini qəbul edirdi. Xədicə birdən anladı ki, səbəbi hər nədirsə Səmranında bilməyə haqqı var. Odur ki, çəkinmədən tutdu Zərifənin qolundan

-" Mənimlə gəl, kişi qızı kimi dur Səmranın qarşısında. Niyə bu insafsızlığı etdiyinizi anlat. Onun bilməyə haqqı var."

Zərifə heç nə demədən Xədicənin yanınca Səmranın evinə gəldi.

"Səmra, gəl bura səni görmək istəyən var"-dedi. Pilləkənin başında dayanan Səmra Zərifəni gördü. Aşağı enib üstünə şığıdı. Səni görüm qəlbin kül olsun mənim kimi, burnundan gəlsin dostluğumuz. Bədbəxt olacaqsız, necə ki mən bədbəxtəm. " qırşqıra -qışqıra oturdu yerə gözündən axan göz yaşları nə dərəcədə əzab çəkdiyini göstərirdi. "Axı nə istədiz məndən? Niyə belə elədiz? Zərifə iki qat qalıb üzünü yerdən qaldırmağa utanırdı sankı. İki əlini qoynuna sıxıb için-için ağlayırdı. Amma yenə də Səmranın bilməyə haqqı olduğunu düşünüb sualına cavab verdi.

- "Səmra nə desən haqlısan bilirəm. Amma məni bir dinlə, gör niyə belə oldu. Anamla Mahirin anası bizdə şəkərbura bişirirdilər. Mən də çimmək istəyirdim. Çəndə su olmadı deyə, Mahirin anası dedi ki, al açarı get bizdə çim. Onsuz da kimsə yoxdu. Mahir Rusyadadı. Getdim çimdim. Hamamdan çıxanda Mahiri gördüm. Özün bilirsən ki, ona həmişə qardaş gözü ilə baxmışam. O isə sanki qəfəsdən azadlığa çıxmış şir kimi cumdu üstümə. Kimsəni köməyə çağıra bilmədim. Özümü itirdim. Ayılanda hər şey artıq olmuşdu. Başımın üstündə anamı gördüm. Sonra yanımda yatan Mahiri. Mahirin anası da bizə baxırdı. Mən nə olduğunu anlayana kimi, artıq Mahir də ayıldı. Namusuma ləkə gətirdi mənim. Sevdiyim insana qismət olmadan Mahir sahibləndi mənə. Anla məni tək günahım orda həmin gecə olmağım idi. Allah mənə elə cəza verib ki, bütün qəlbimlə başqasını sevə-sevə məcburam Mahirə ərə getməyə. Əvvəl qardaş görürdüm onu, ancaq o gecədən sonra nifrət edirəm ona."

Səmra dözə bilmirdi eşitdiklərinə. Sanki ardı ardına zərbə alırdı. Amma bilmək də istəyirdi olan-bitəni. Zərifə ağlaya-ağlaya davam edirdi;

-" O gecə anam Mahirin anası ilə bərk mübahisə etdi. Mahir heç nəyi xatırlamırdı. Bir anın içində qərar verdilər ki, səhər tez-bazar nişan etsinlər. Ardınca da toy. Mahir nə baş verdiyini anlayanda o da razı oldu. Bilirəm səni sevir. Amma məni də o, bədbəxt etdi. Evlərində xırda remont işləri gedirdi deyə 3 aydı təxirə salırdılar toyu. Amma gələn həftə toydu. Bu 3 ayda o qədər cəhd etdim ki, ölməyə. (Zərifə qollarını uzadıb kəsikləri Səmraya göstərdi). Amma

hər dəfə məni xilas etdilər. İndi məcburam ərə getməyə bir yandan namusumu təmizləmək üçün, digər tərəfdən atasız övlad böyütməməkçün." Səmra başını qaldırıb Zərifənin əli ilə qarnını göstərdiyini gördü;

"Bəli, mən o gündən hamilə qalmışam. Sevmədiyim, hətta nifrət etdiyim mənə zorla sahib olan birindən. İndi sən de mənə kimdir bədbəxt olan? Sən-sevdiyin insanın xəyanətini yaşayan, yoxsa mən-başqasını dəli kimi sevərkən, onunla quracağımız ailəni düşünərkən, qardaş yerinə qoyduğum tərəfindən zorlanmaq və istəmədən hamilə qalmaq, indi də onunla bir yastığa ömrü boyu baş qoymaq. Bundan artıq cəza ola bilərmi? Sən nə qədər arzulasan da bədbəxt olaq deyə inan ki, iki qat artıq bədbəxtik." Zərifə sözünü deyib ağlaya-ağlaya ordan uzaqlaşdı....

## Üçüncü fəsil

Səmra hələ kiçik yaşlarından atasını itirmişdi. Bu ağır itki günündə Zərifə ilə dostluğuna ilk addım atmışdı. Bu dostluq çox möhkəm idi. Çünki dostluğun təməlində ailəvi dostluq da dururdu. Səmranın anası Mirvari xanım hasar qonşusu Sudabə (Zərifənin anası) ilə həm qonşuluq həm də rəfiqəlik edirdi. Hər gün hasar başında saatlarla oturub söhbət edər dərdləşərdilər. Biri xəstələnəndə digəri onun qayğısına qalardı. Axı Sudabə də demək olardı ki, tənha qadın idi. Çünki yoldaşı Rusyada işləyirdi. İki aydan bir ya gələrdi, ya da gəlməzdi. Lakin vaxtı vaxtında ailəsinə çörək pulu göndərərdi. Buna görə də Sudabənin işləməyinə ehtiyac yox idi. Həm də Zəfər kişi buna icazə verməzdi. Onun nəslində qadınlar heç vaxt işləməyiblər. Olsa olsa tarlada ya da baxçasında nəsə əkər ya becərərmişlər. Hər hansı bir yerdə aylıq maaşa qəti işləməyiblər. Heç Sudabə də işləmək arzunda olmayıb. Zəfərə öz istəyi ilə ərə gəlməmişdi. Lakin buna baxmayaraq ona olan hörməti sevgiyə çevrilmişdi. Övladları doğulduqdan sonra bir-birlərinə daha da alışdılar. Buna baxmayaraq Sudabə qızı Zərifənin sevərək ailə qurmasını arzu edirdi. Qızının könlündən xəbərdar da deyildi. Bir dəfə belə olsun Saleh haqqında soruşmamışdı. Zəfər kişi Qarabağ əldən getdikdən sonra ailənin yarı ac yarı tox vəziyyətinə dözməyib üzünü Rusiyaya tutdu. Bir neçə il çətin olsa da nəhayət özünə uyğun iş tapdı. Bir neçə yerdə icarəyə yer götürdü. Mal aldı, mal satdı. Bəzi fırıldaq işlər də gördü. Lakin qazanmağın yolunu tapdı. Hər ay evinə pul yolladı. Zərifə də beləliklə böyüdü. Səmra ilə birlikdə məktəbə getdi.

Mahirin də ailəsi kasıb idi. Atasını bir yaşında ikən itirmişdi. Anası Gülnaz isə evində dərzi işləyirdi. Gözəl əl qabiliyyəti ilə çox sevilərdi. Sudabə də onu məhz dərzi kimi tanısa da, sonradan rəfiqəlik də etdi. Sirrləri də, dərdləri də bir oldu. Mirvari ilə də az söhbət etməmişdilər. Lakin Mirvari işlədiyi üçün çox zaman evdə olmazdı. Sudabəyə də nə zaman bir şey lazım olsaydı Gülnaza gedərdi. Beləcə gediş-gəlişləri vardı. Zərifə ilə Mahir demək olar ki, birlikdə böyümüşdülər. Eyni məktəbdə təhsil alırdılar. Arada Sudabə nəsə lazım olanda Zərifəni göndərədi. Bir neçə dəfə də elə olmuşdu ki, Sudabə Zərifə üçün nəsə tikdirirdi deyə hər ikisi Gülnazın qonağı olurdu. Mahir də Zərifəni bacı kimi sayar hörmətini saxlayardı. Hər şeydən önəmlisi sevib könül verdiyi Səmranın rəfiqəsi olduğu üçün xətirini çox istəyirdi. Səmra ilə evlənməyə yaşları çatmadığından məcburən işləməli idi. Həm toy üçün pul yığmalı, həm də özünə daimi iş yeri tapmalı idi. Universitetə qəbul ola bilməməsi də bir yandan ağır gəlmişdi. Çünki Gülnaz da Mirvari də uşaqların sevgisindən xəbərdar idilər. Və bu sevgini ali təhsil qazana bilməməklərində təqsirkar bilirdilər. Lakin olacağa çarə yox idi. Artıq olan olmuşdu və tez bir zamanda Mahirə iş tapmaq lazım idi. Buna görə Gülnaz Sudabədən xahiş etdi ki, Zəfər kişi ilə danışsın. Əyər Rusiyada Mahirə uyğun görüləsi iş varsa onu da aparsın. Mahir üçün Rusiyaya getmək olduqca çətin gəldi. Lakin Səmra ilə evlənə bilməsi üçün yetərincə pul və imkan oradan əldə etmək olardı. Rayonda illərlə işləsə də evin təmirini və alınacaq qızıllara pul çatmazdı. Odur ki, anasının qərarını dəstəklədi. Beləliklə Zəfər kişi də Mahiri özü ilə apardı.

Mahirin işgüzarlığı Zəfərin çox xoşuna gəlirdi. Hər dəfə bir iş tapşırar onun məsuliyyətini və düzgünlüyünü yoxlayardı. Heç bir saniyyə də onu bura gətirdiyinə peşman olmamışdı. Bir müddət keçəndən sonra isə Mahir vətənə gedib anasını görmək istədiyini dedi. Zəfər kişi ona bir qədər pul verib yola saldı. Həmin gün işdə çox yorulduğundan elə qatardaca yatmaq istəyirdi. “Təyyarəyə o qədər pulu verməkdənsə qatarla 3 gün yol gedərəm daha yaxşı” demişdi. Bu fikirlə də qatarla yola çıxdı. Yol boyunca eyni otaqda 3 cavan oğlanla qalmalı oldu. Onlarla deyib güldü, əyləndi. Birlikdə yemək yedilər, dərdləşdilər, içdilər. Mahir mehriban insanların aurasında idi sanki. Lakin butun bunlar yalan imiş.

Vağzala çatmazdan 3 saat əvvəl dördü də yeyib içirdilər. Həm tanışlıqlarının, həm də bir daha görüşmək ümidi ilə badə qaldırırdılar. Mahir artıq yetərincə içmişdi. Digərləri də həmçinin. Lakin qatardan enməsinə çox az qalmışdı. Oğlanlardan biri cibindən bir neçə həb çıxartdı. Hərəsinə birini uzatdı. Mahir nə

olduğunu anlamasa da həblərə toxunmadı. Amma xəbəri olmadı ki, artıq bir həb onun içkisində idi. İçkini başına çəkib vidalaşaraq qatardan endi. Qatar stansiyası evlərindən çox da uzaq deyildi. Bir az getmişdi ki, beyni dumanlanmağa başladı. İçkinin təsirindən olduğunu zənn edib, bir neçə addım daha atdı. Məhəllə dostlarından ikisi Mahiri görüb qollarından tutdular. Yarı zarafatca "Heç gələcəyini də demirsən. Bilsəydik ki, içkili gələcəksən qatarın qarşısında gözləyərdik" dedilər. Mahir bunları yarı gerçək yarı yuxulu kimi eşidirdi. Bir onu hiss edirdi ki, bədəni alışıb yanır. Darvazanın qarşısında dostlar Mahirlə vidalaşdılar. O da əl qaldırıb evə keçdi. Evin qapısı açıq idi. İçəri keçib əlindəki yükünü elə qapı ağzına ataraq divana uzandı.

Gülnaz Zərifəgildə bayramlıq şirniyyatı bişirirdilər. Zərifə isə çənin boş olmasından məyus olmuşdu. Saçına sarmısaqlı maska etdiyindən daha dayana bilmirdi. Bir yandan da çəndə suyun olmaması onu lap əsəbləşdirirdi. Gülnaz oğlu Mahirin həmin gün gələcəyini bilmədiyindən arxayınlıqla açarı Zərifəyə uzatdı.

-Get bizdə yuyun. Onsuz da evdə kimsə yoxdu. Çəndə də nə qədər istəsən su var. Zərifə sevincək qaşınan başına dəsmal bağlayıb Mahirgilin evinə yollandı. Qapını içəridən bağlamağı unutsa da həyətdəki hamama doğru getdi. Yuyunub rahatlanıb dəsmalla da hamamdan çıxdı. Havadakı şaxta az da olsa hiss edildiyindən qaçaraq evə girdi. Əynini orda geyinməyə başlamışdı ki, qapı ağzındakı çantaları gördü. Təccüb etməyə macal tapmamış Mahir arxadan çiyninə toxundu. Yarı çılpaq sinəsini örtərək təəccblə: "Mahir? Sən nə vaxt gəlmisən?" dedi. Mahir içindəki istilikdən xilas ola bilmirdi. Üstəlik də qarşısında yarı çılpaq dayanmış qız görəndə özünü saxlaya bilmədi. Zəncirdən açılmış şir kimi onun üstünə cumdu.

Beyni dumanlı idi. Sanki qarışıq yuxu görürdü. Bu nədir anlamağa çalışsa da beyni açılmırdı. Gözləri yumulu idi. Hər yer qaranlıq idi. Arada bəzi səslər eşidirdi: "İlahi, bəs mən nə edəcəm?" Bu yuxuda idi, yoxsa realda? Ayılmaq istiyirdi. Ayıla bilmirdi. Qaranlıq iki əllə tutub beynini sıxırdı sanki. Nəfəsi ağırlaşırdı. Bütün cəhdləri boşa çıxırdı. Birdən hansısa bir qaranlıq tuneldən işıq gördü. Bu işıq get-gedə yaxınlaşırdı. İncə əllər çıxdı o işıqdan. Ona doğru uzanırdı. Bu əllər tanış idi. Səmranın əlləri idi. Yoxsa işıq Səmradır? Yox Səmra işıq tək parlaq idi. Yenə qırıq- qırıq səslər eşidirdi. "Ana, heç nə edə bilmədim". Kimsə ağlayırdı. Mahir isə dərk edə bilmirdi səslər kimə məxsus idi. Yuxu görürdü. Bir tək buna əmin idi. "Səmra hardasan?" deyib sayaqlayırdı. Yenidən işığı gördü. Tunelin sonuna doğru uzaqlaşırdı. Lakin ucadan qışqıraraq: "Sən

xəyananət etdin sevgimizə"…Mahir buz kimi oldu. Bədəni soyuq tər ilə büründü. Titrəməyə başladı. "Yox! Səmra…. Getmə Səmra" deyərək ucadan bağırdı. Gözləri açıldı. Başı üstündə anası Gülnazı və Sudabəni gördü. Yatağında isə ağlayan Zərifəni. Hansı ki, cızıq dolu lüt bədənini yorğana bükməyə çalışırdı…

## Dördüncü fəsil

- Mən nə edəcəm ana?-Ağlayaraq anasına sığındı.

- Sənin edə biləcəyin bir tək yol var. Mahirə ərə getmək.
- Siz nə danışırsız? Mən heç nə xatırlamıram.- Mahir təəccüb dolu baxışlarla Zərifəyə baxdı.
- Oğul bu etdiyin insanlığa sığmaz. Qızın namusunu ləkələmisən. Onunla evlənmək də boynunun borcudu.- Gülnaz əllərini əsəbi halda havada yellətdi.
- Gülnaz qızımı gör nə hala gətirib. Kürəyinə bax.. Sinəsinə bax… İlahi, Bu nə vəhşilikdi? Meşədən çıxıb sanki. Gül kimi qızım bədbəxt etdi. –Südabə Zərifədən beş betər ağlayırdı.
- Mahiri dünyaya gətirdiyimə peşmanam artıq. Onun kimi oğul olmaz olsun. Sən ki, belə deyildin bala. Bu nə insafsızlıqdır, bu nə vəhşilikdir etdin? – Gülnaz alayaraq Mahirə bir sillə vurdu.
- Zəfər bilsə Mahiri də, Zərifəni də, məni də öldürəcək. Tezliklə toy etməliyik.
- Hə başqa çarə yoxdu. Bəs Zəfər bəyə nə deyəcik? –Gülnaz narahat olmağa başladı.
- Bilmirəm, səhər qızımın barmağına üzük tax. Yoldaşımı razı salaram. Nişan etdiyimi demərəm sadəcə üzük taxdıq deyərəm. Ailələr arasında qeyd etdik deyərəm.
- Sabah Səmraya elçi göndərəcəkdim ana…
- Sus mundar! Səmra sənə elə əziz idisə Zərifəninbaşına bu müsibəti gətirməzdin. Sudabə Mahirə acıqlandı.
- Qəti sözüm budur ki, sabah ikisini də nişanlayaq tez bir zamanda toylarını edək. Zəfər qardaşla özün danış. Gerçəyi desən Mahiri öldürər.
- Yox gerçəyi yoldaşıma desəm hamımızı öldürər. Odur ki, bu gecəki sohbəti kimsə bilməməlidi.

Zərifə isə dili tutulmuş insan kimi kənarda yorğana bükülüb oturmuşdu. Arada içdən ağlayırdı. Salehi düşünürdü. Onun üzünə daha baxa bilməyəcəyini, bu illər boyu qurduqları xəyalların heç zaman real olmayacağını dərk edərək ağlayırdı. Daha o xəyallara da xəyanət etmişdi. Səmranın da dostluğunu, inamını, etibarını sevginisini itirmişdi.

## Beşinci fəsil

Səmra yatmısan?"- Xədicə astaca Səmranın yatağına yaxınlaşdı. "Yox, hələ də fikirləşirəm." Səmra Xədicə otura bilsin deyə ayaqlarını bir kənara çəkdi. "Nəyi düşünürsən?"-soruşsa da əslində Səmranın nə fikirləşdiyindən qorxurdu. Ən çox da yenidən içinə qapanmasından, həyatdan küsməsindən qorxurdu. Zərifənin dedikləri Xədicənin yadindan çıxmamışdı. Həm onun halına acıyır, həm də öz sözlərinə görə az da olsa xəcalət çəkirdi. Amma Səmranın nələr düşündüyünü bilmək borcu idi. Axı, o, Səmra üçün gəlmişdi bura. Onu tək qoymamalı idi. Xədicəni fikirlərindən Səmranın dedikləri ayırdı.

"Bilirsən, Xədicə, mən bilmirəm, Zərifənin yerində olmadığıma görə sevinim, yoxsa Mahir kimi alçağı sevdiyimə görə özümə nifrət edim." "Sən heç birini etmə", əslində Xədicə ona təsəlli vermək istəyirdi, amma bacara bilmədiyini hiss etdi.

"Səmra, sən Allaha şükr et ki, Zərifənin taleyini yaşamırsan. Şükr et ki, o alçağı ona ərə getməzdən əvvəl tanıdın. Onun əsl üzünü gördün. Buna görə ancaq şükr et. Özünə nifrət etməli biri varsa, o da Mahirdir, sən yox" ...

O gecə Xədicə Səmranın başqa düşündüklərindən xəbərsiz idi. Çünki daha onunla bu mövzu barədə danışmaq istəmirdi. Əksinə, istəyirdi ki, onun başını bacardıqca qatsın. Bacardıqca Mahirə, sevgiyə, Zərifəyə aid olmayan

mövzulardan danışmasın. Bunun üçün sabahkı gündən başlayaraq Səmranı özü ilə gəzməyə "məcbur " etdi. Bəhanə etdi ki, uşaq vaxtı Səmra ona bir zaman butun rayonu gəzdirəcəyinə söz verib, amma sözünü tutmayıb. Beləcə 3 gün Səmra ilə rayonun mərkəzi küçələrini, bazarlarını, mağazalarını, parklarını gəzdilər. Hər beş dəqiqədən bir Xədicə ağlına gələn ilk mövzu barədə sual verirdi Səmraya. O da susa bilmirdi. Çünki Xədicə o qədər deyib-gülən insan idi ki, Səmra bir an belə nə Mahiri, nə yaşadıqlarını xatırlamadı. Suallar çoxluğundan Xədicə də yorulurdu, amma məcburdu ki, rəngdən, geyimdən, qarşısına çıxan şirniyyat mağazasından, yaylıqlardan, ağaclardan, güllərdən soruşub Səmranın fikrini dağıtsın. O qədər sual verirdi ki, birinə cavab almadan o birinə belə keçirdi. Amma nə fayda yenə axşam eyni vəziyyət. Səmra yerinə uzanır, amma yatmır. Elə düşünür, düşünür, bir sualına belə cavab tapa bilmirdi.

Zərifə ilə Mahirin toyundan bir gün əvvəl Xədicə ilə Səmra bağlarında oturub çay içirdilər. Bunu Xədicə təklif etmişdi. Çünki başqa nə edəcəyini bilmirdi. Səmranın gözü hasar kənarındakı fındıq ağacına sataşdı və gözlərini qırpmadan ona baxmağa başladı. Elə xəyalı gözəl günlərin birinə getdi...

Səmranın ad günü idi. Fındıq ağacının altında günorta vaxtı Zərifə ilə 17 yaşını qeyd edirdilər. Səmranın Zərifədən başqa dostu, sirrdaşı yox idi. Bu cür "şənlik" keçirməyi Zərifə təklif etmişdi. Sanki o fındıq ağacı onların böyüməyinə, sirrlərinə, arzularına şahid idi. "Zərifə, sevgi necə hissdir?

Səmra, sevgini yaşamayan insan onu anlaya bilməz . Çünki mən sevənə kimi sevginin nə olduğunu bilmirdim. Elə səndə də, elə olacaq. Sevdiyini sonradan biləcəksən. Onunla qarşı-qarşıya dayananda, baxışlarında özünü itirəndə, əllərinə toxunanda şam tək əriyəndə biləcəksən.

Zərifə, bəs sənin sevdiyin oğlan necə oldu?

Eh, Səmra sənə dedim axı, ona naz edirəm. O da mənim könlümü almaqdan, şıltaqlığımdan zövq alır. Deyir, xoşum gəlir sənin naz etməyindən. Bilirsən, bir dəfə məni sevdiyini də deyib. Amma o qədər tez dedi ki, eşidib eşitmədiyimə inana bilmədim. Sadəcə görüşə bilməmək bizim aramıza soyuqluq salır. Ayda bir dəfə hasar başında iki kəlmə sözü güclə deyirik bir-birimizə. Ancaq məktubla, telefonla yazışırıq, danışırıq. Bir günümü onun səsini eşitmədən yaşaya bilmərəm. Onunla bir ailə qurmaq, övlad sahibi olmaq istəyirəm.

Həyatımda keç nəyi, heç kəsi bu qədər arzulamamışdım. Onun varlığı ilə o qədər arzularım yaranır ki içimdə. Hər gecə "yuxun bal tək şirin olsun azizim" deyən sözünü eşitməsəm necə yuxuya gedə bilərəm ki... Allahımdan tək onu istəmişəm onu arzulamışam."

"Səmra, sən hara baxırsan? Deyirəm, gərək ərik ağacı da əkərdiz bura. Eşidirsən?" Səmra qəfldən xəyalından ayıldı. "Nə dedin? "- soruşaraq fikrini cilovlamağa başladı. "Deyirəm gərək bura ərik ağacı da əkərdiz. Sən nə düşünürsən Səmra? O fındıq ağacı sənə nəyi xatırlatdı? " Əslində Xədicə özü də anlamırdı ki, niyə Səmraya bu sualı verdi. Qorxdu ki, yenidən Mahirdən danışacaq, amma içinə qapanmaqdansa, danışmağını istədi.

"Bilirsən, Xədicə, o fındıq ağacının kölgəsində başlayıb Zərifə ilə dostluğum. O da bizimlə birgə böyüyüb bu illər boyu. O şahiddir həyatımızdakı bütün sirrlərə. Zərifənin ilk sevgisindən, mənim Mahirə aşiq olmağımdan...." Xədicə hiss etdi ki, Səmra yaşla dolmuş gözlərini ondan yayındırmağa çalışır. Bunun üçün söhbəti dəyişdirməyə başladı.

"Zərifənin sevdiyi oğlanın adı nə idi?"

"Saleh. Niyə soruşdun?" -Səmra fikrini artıq Xədicənin deyəcəklərinə yönəltdi.

"Heç deyirəm bəzən düşünəndə xatırla ki, sənin keçirdiklərini Saleh də keçirdir. Əgər Zərifəni sənin Mahiri sevdiyin kimi sevibsə, o da əziyyət çəkir. Yer üzündə xəyanətdən əziyyət çəkən tək sən deyilsən, Səmam. Məni düzgün anla, Mahir sənin sevginin bir damlasına dəyməz. Dəli şeytan deyir, get Zərifənin atasına danış hər şeyi. Vursun öldürsün Mahiri."

Xədicə anladı ki, yaman coşdu və Səmra onun son sözlərindən inciyə bilər. "İncimədin sözümdən?".

"Yox, niyə inciyim ki, dəli şeytan sənə o yolu göstərir, mənə də deyir ki Mahirlə Zərifə toy günü evdən çıxanda qabaqlarını kəsib tüpürüm Mahirin üzünə, deyim, kişi deyilsən. Sən adam olmayacaqsan. Sənə olan sevgim haramın olsun. "

Birdən Səmra anladı ki, Xədicə ona təəcüblə baxır. Bu səfər Səmra özü mövzunu dəyişdi. "Bilirsən, niyə ərik ağacı əkmirik? Çünki əkənimiz yoxdur " Bu cümlədən sonra Xədicə gülməyə başladı ki, Səmranın da üzü gülsün....

Xədicə uşaq vaxtı yıxıldığı gilas ağacından danışırdı ki, birdən hasardan səs eşitdilər.

"Səmra o nə səsdir?"

Xədicə diksinərək Səmradan bərk yapışdı. "Qorxma deyəsən biri yolunu səhv salıb".

Bəli, hasarın başına dırmaşan Mahir idi. Qəribəsi o idi ki, Səmra onu görüb heç anasını çağırmadı da. Əslində Mahiri görəndə qulaqlarında Zərifənin sözləri cingildəməyə başlamışdı: "Səmra, bir dinlə məni, gör hadisə necə olumuşdu..." Bəlkə də ona görə Səmra Mahirin deyəcəklərini dinləmək istəyirdi. "Sən kimsən burda nə işin var? Rədd ol xalamı çağıracam bu saat." deyən Xədicə onun üstünə yeridi. "Dayan Xədicə, bu Mahirdi. Sevgimizə ləkə gətirmə deyərək son dəfə bu hasardan aşan Mahir, Zərifəni bədbəxt edən, sevgimizə ləkə gətirən, alçaq Mahir... " Səmra bu sözləri dedikcə gözlərindən damla damla yaş axmağa başladı. Sevdiyi insanı uzun müddətdən sonra ilk dəfə idi ki qarşısında görürdü. Üç ay əvvəl bu rastlaşma olsaydı, Səmra uçardı sevincindən. Amma indi hər şey çox qəliz idi. "Sənə qurban olum Səmra, qovma sözümü dinlə. Sənə dediklərim hamısı doğrudur. Səni bir an belə sevmədiyim an olmayıb. Sən mənim tən yarımsan. Bilirəm, gözlərində daha sevgi qatiliyəm. Amma qulaq as mənə, Zərifə hər şeyi sənə danışdığını dedi. Mən də istəyirəm ki, tamamilə hər şeyi biləsən. "

Mahir Səmranın əllərindən bərk yapışdı bütün qəlbi ilə əllərini öpüb sinəsinə sıxdı.

"Çək əlini toxunma birdə. Sənin buna bir damcı haqqın yoxdur. Mənim xəyanətimdən qorxan sən idin. Amma sən özün mənə, sevgimizə, arzularımıza elə böyük xəyanət etmisən ki, əlimdən tutmağa nə cəsarət edirsən? Məni düşünmədin, bəs Zərifənin günahı nə idi? Bu qədər ucuz imiş məhəbbətin, bu qədər adi..."

Bu vəziyyəti dəyişmək Xədicənin əlində deyildi. Axı niyə də mane olardı ki. Hər iki tərəf deyiləcəkləri eşitməli, dərk etməli idilər. Sevgilərinin başladığı kimi, bitməsi də elə burda olmalı idi. Ona görə Xədicə nə xalasını çağırdı, nə də onlara mübahisə etməyə mane oldu. Sakitcə iki ağac uzaq durdu ki, həm lazım olsa Səmraya dəstək olsun, həm də Mahirə etibar etmirdi. Səmranı ondan qorumaq daha asan olsun deyə, ağaca söykənərək onların mübahisələrini dinləməyə başladı.

"Səmram mənim, gözümün nuru sənə qurban olum dinlə məni. Axı bir fikirləş, mən sənin sevdiyin Mahir durduğu yerə bu vəhşiliyi necə edə bildim? Bunu düşün. Demirəm ki, Zərifə yalan deyir. Yox, o gün həqiqətən son xatırladığım qatarda dostlarımla yeyib içməyim və bir də ayılanda yanımda Zərifənin ağlamağı, anamla onun anasının da bizə baxmağı idi. Başa düş. Bu mən olmamışam. Qatarda dostlarla deyib gülürdük. Sənə xəbər etmişdim ki gələn kimi anamı elçi göndərəcəm. Amma anama gələcəyimdən xəbər verməmişdim. Ən böyük arzularımı reallaşdıraraq gəlirdim xaricdən. Səni gəlinlik içində evimə gətirmək isə böyük arzum idi. Qatarda oğlanlardan biri təklif etdi ki, birdə bir-birimizi görməyəcik ona görə tanışlığımızı qeyd edək. Mən axmaq da narazı olmadım, axı mən hardan bilərdim ki, onlar içkimə uyuşdurucu həb atıblar. İçkini içəndən sonra nəyin necə olduğunu, heç necə qatardan düşdüyümü xatırlamıram. Yadımdadır ki, beynim duman idi. Heç nəyi dərk edə bilmirdim. Ayılanda isə o səhnə. Elə bilirsən, mən özümə əhsən deyirəm tutduğum işə görə? Yox, əlbəttə. O andan özümə elə nifrət edirəm ki, ən çox da ona görə ki sənin kimi insana etdim bunu. Bacı yerinə hörmətini saxladığım insanı ləkələdim. Səni canımdan varlığımdan da çox sevirəm, Səmra... Amma gəldim ki, daha əzablarına son verəsən. Mən həyatım boyu bu səhvimi daşımağa məcburam, amma sən daşımalı deyilsən. Unut məni, yalvarıram sənə. Bir qara səhifə kimi cır həyat kitabından. Yox say məni, elə tanışlığımızı da. Yenidən qayıt həyatına, davam et onu. Sənin gələcəyin hələ qabaqdadır. Sevgimizə ləkə gətirdiyim üçün ömrü boyu əzab çəkəcəm. Həyatım boyu səndən başqasını sevməyəcəm, bilirəm. Amma sən sevə bilərsən. Sənin üçün gec deyil.... Səni canımdan cox sevirəm bunu heç zaman unutma... Əgər bir gün bacarsan, bağışla məni... "

## Altıncı fəsil

Səmra qarşısında uşaq tək göz yaşı tökən Mahirə bir kəlmə də demirdi. Sanki heç vecnə deyildi onun dedikləri. Halbuki gözündən yanağına süzülən yaşlar onu ələ verirdi. Yenə də başını dik tuturdu, Mahirdən fərqli olaraq. Bu vaxt bağın qapısı açıldı Səmranın anası Mahiri Səmranın yanında görüb şığıdı üstünə şahin balasını qoruyan tək qorumağa çalışdı bircə balasını.

"Sənin burda nə işin var? Hansı üzlə gəlmisən? Rədd ol, elə eləmə ki qaynatanı çağırım. Bir də bizim hasara azı 10 metr yaxınlaşma eşitdin?! Özünə iynə ucu qədər qiymət verirsənsə birdə qarşımıza çıxma. Əl çək, qızımı yox bil. Sən onun üçün ölmüsən artıq." ....

Xədicə xalasının qollarından yapışıb onu sakitləşdirməyə başladı. Bu vaxt Səmra:

"Dayan, ana, onun üçün əsəbləşməyinə dəyməz. Allah ona sən düşündüyündən də artıq cəza verib. O, ömrü boyu mənim həsrətimlə yaşayacaq. Ömrü boyu....." Səmranın son sözlərindən sonra Mahir hasarın başına hoppanıb: "Əgər birgün bağışlasanız, məni bilin ki, mən son nəfəsimə kimi özümü bağışlamayacam. Səmram mənim..... Xoşbəxt ol....Əlvida..."

Həmin gecə Səmra nə Xədicəyə, nə də anasına bir kəlmə demədi. Bütün günü susdu. Gecə də qapını bağlayıb Xədicənin onun fikirlərini dağıtmamasına mane olmağa çalışdı. Səhər də gec qalxdı yerindən. Qısa-qısa suallara cavab verir, mövzünü tez-tez dəyişirdi. Xədicə də daha onun nə düşündüyünü, nə hiss etdiyini anlaya bilmirdi. Ona bütün qəlbi ilə kömək etmək istəyirdi, amma heç cürə bilmirdi ki, Səmra nə düşünür, nə hisslər keçirir. Amma çox istəyirdi ki, Səmra Zərifənin gəlinlik içində Mahirin qolunda ata evindən çıxmasını görməsin. Bunun üçün Səmranı rayonun harasınasa, nəyəsə görə aparmasını istəyirdi. O isə ya susurdu, ya da "başqa vaxt" deyib otağına gedirdi.

Bu vəziyyət vağzalı səsinin eşidilməsinə kimi davam etdi.... Bəli, artıq bəy evi gəlmişdi və Zərifə ağappaq gəlinlik içində atasının evindən çıxırdı. Qolunda isə Salehin qolu yox, Mahirin qolu idi. Hansı ki, hər ikisinin də üzündən bədbəxtlik yağır. Mahir qolu qandallı həbsə aparılan caninin üzü tək bədbin, Zərifə isə həyasından az qalır yerin dibinə girsin. Gözündən Saleh üçün axan göz yaşları

isə hər kəsdə ata evindən ayrılmaq həsrəti fikrini yaradırdı.  Xədicə disk qoyub gur səslə qulaq asmağa başladı. Düşünürdü ki, bəlkə Səmra vağzalının səsini eşitməz. Amma qəfildən arxasından qapının çırpıldığını eşitdi.

"Səmra, hara gedirsən?" Bir an içində ağlına hər şey gəldi. Ona necə mane olacağını da bilmirdi. Amma bunu etməli idi. Səmranın təmiz adı xatirinə etməli idi. Arxasınca darvazaya kimi qaçdı və qabağını kəsib qollarından yapışdı:

"Səmra, belə eləmə, onlar onsuz da bədbəxtdirlər. Qoy getsinlər. Onların səviyyəsinə enmə. Yalvarıram bacım, özünə gəl..." Bir anlıq düşündü ki, bəlkə Səmra Mahiri bağışlayacaq, ona bunu deməyə gedir, sonra Səmranın sözləri Xədicənin əllərini boşaltdı. "Xədicə, burax məni. Nə qədər ki, gec deyil mən onlara deməliyəm. Onlar bilməlidirlər. Xahiş edirəm, yolumu kəsmə..."

Beləcə, Xədicə Səmranın qollarını buraxdı. Arxasınca sadəcə dayanıb tamaşa etməyə başladı. Səmra gözündən incə-incə süzülən yaşları bir əli ilə silərək bəylə gəlinin önündə dayandı. Ətrafdakı insanlar Səmranın bir rəfiqə kimi Zərifəni təbrik edəcəyini düşünsə də, Mahirin anası oğlu üçün qorxurdu. Axı, Səmranın bir sözü yetərdi ki, Zərifənin atası Mahirin üstünə cumsun...

Mahir başını qaldırıb Səmraya baxa bilmir, Zərifə isə gözündəki yaşları silməkdən başqa heç nə edə bilmirdi. Səmra isə hər ikisinə baxıb çətinliklə də olsa ağzını açdı: "Mən nə qədər ki, gec deyil sizə demək istəyirəm. Bütün yaşanmışları unudaraq sizi bağışlayıram. Qoy, Allah sizi bağışlasın... Gedin, siz də yenidən başlayın həyatınızı.... Mən sizə sadəcə "Xoşbəxt olun" demək istədim....

Xoşbəxt olun, əgər bacara bilsəniz... "

Səmra sözlərini bitirib daha nə Mahirə, nə Zərifəyə baxmadan bir başa evlərinə qayıtdı. Amma Xədicə Səmranın bu addımından qürur hissi duyurdu. "Səmama elə bu hərəkət yaraşırdı..."deyib darvazanı bağladı...

# Yeddinci fəsil

3 il sonra...

-- Səmra, qızım, tələs axı işə gecikirik!

-- Gəldim, gəldim...

Səmra yay donunda tələsərək pilləkənlərdən düşdü. Bir əli ilə saçını düzəldir, digər əli ilə çantasını çiyninə taxırdı. Bəli, Səmra işləyirdi. Son üç ildə o qədər dəyişikliklər olmuşdur ki, Səmranın həyatında.

Mahirlə Zərifəni elə onların toyundan görmürdü. Heç uşağı olduğunu eşidəndə də soruşmamışdı ki, qızdır, ya oğlan. Hər gecə yerinə uzananda Allaha şükr edirdi ki, nə yaxşı ki, Xədicə gəldi və onu bütün olanları bilməkdə kömək oldu. Xədicəni şəhərə yola salan günü Səmra demişdi ki, yenidən universitetə sənədlərini vermək istəyir. Bu xəbərdən sevinən Xədicə ona yola çıxmazdan əvvəl son söz dedi. Hansı ki, Səmra o sözü o gündən qulağında sırğa etmiş və bir gün belə olsun unutmamışdır. "Səmra, atacağın addıma güvən, inan, çünki həyatda hər şey inamdan başlayır".

Səmra 5 ayın içində gecə gündüz bilmədən hazırlaşmışdı. İmtahanın nəticələri açıqlananda sevincindən uçurdu. Universitetə qəbul olmağa kifayət qədər balı çatmasa da, tibb texnikomuna daxil ola bilmişdi. İki il yarım başı aşağı dərsə gedib gəldi. Nə bir qonşuya salam verdi, nə bir tələbə ilə dostluq etdi. Sadəcə özünə güvəndi. Özünə inandı. Təhsilini bitirər-bitirməz iş axtarmağa başladı. Bilirdi ki, rayonda tibb bacısına ehtiyac var. Odur ki, rayondakı bütün xəstəxanaları, poliklinikaları gəzdi. Qapılar onun üzünə bağlansa da, ümidini itirmirdi. Bir gün avtobusla şəhərə iş axtarmağa gedərkən yolda sanki havası çatmadı. Əl atıb sürücüyə dayanmağı işarə etdi. Avtobus dayanan kimi özünü yerə atdı. Dərindən nəfəs aldıqdan sonra qarşısında xəstəxana gördü. Tərəddüd etmədən xəstəxananın həyətinə girdi. Bu ruhi xəstələrin mualicə olunduğu xəstəxana idi. Bu günə kimi bir dəfə də olsun bu xəstəxanaya gəlməmişdi. Amma baş həkimin qəbulundan çıxdıqdan sonra gəlişinə çox sevindi. Səmra 3

aylıq sınaq müddəti ilə işə götürülmüşdü. Artıq onun da öz işi vardı. Anasına mənəvi və maddi dəstək ola biləcəyinə o qədər sevinirdi ki...

"Səmra, sənin marşurutun boşdur get otur, mən isə getdim." Bu sözlərdən sonra Səmra fikirlərindən ayıldı. Anasının işi daha yaxın olduğundan Səmra marşrutla tək gedirdi. Pəncərə önündə özünə yer seçib əyləşdi. Səmra özünü xöşbəxt hiss edirdi. Hər işə gedəndə sanki güllər paltarında yox, yanaqlarında açırdı. Həyatı 3 ildir ki, öz sakit axarı ilə gedirdi ki, birdən arxadan kimsə onun çiyninə toxundu:

-- Səmra, sənsən? - titrək səslə soruşdu.

-- Bəli! -deyib arxaya baxdı. Gözlərinə inana bilmirdi. Bu ki, Zərifə idi. Qucağında da oğlan uşağı. İçindəki bütün hisslər bir anda qarışdı bir birinə. Nə düşünəcəyini, nə deyəcəyini bilmədi. Sevinsinmi, yoxsa danışdırmasınmı?, bilmirdi.

-- Səmra, mən şəhərə gedirəm evə. İki gündür anamgildə idim. Hər dəfə hasardan boylanırdım ki, bəlkə səni görərəm, amma nə səni, nə ananı görmürdüm. Necəsən? Həyatını necə qurmusan?

Yəni, uşaq onundur? Necə də Mahirə oxşayırdı. Fikirlərindən güclə ayılıb kəsə də olsa Zərifəyə cavab verdi.

-- Heç oxuyuram... Əslində yalan deyirdi, amma başqa çarəsi yox idi. Desəydi ki, xəstəxanada işləyirəm bilmək olmazdı, durub gələrdi sabahsı gün nəsə lazım olanda. Odur ki, işlədiyini gizlətdi.

-- Yaxşı edirsən. Oxu sənət qadına da lazımdır.

Zərifənin arxayınlığı Səmranı qıcıqlandırsa da, yenə də soruşdu. Sanki olmayan, yaşamadığı bir hadisədən sual verirmiş kimi birbaşa Zərifənin üzünə verdi sualı:

-- Sən necəsən? Mahirlə aran necədir?

Bir balaca rəngi qızarsa da Zərifə cavab verdi:

-- Lap yaxşıdır. Zakir doğulandan daha bir-birimizi anlamağa başladıq. Zamanla həyatımızı birləşdirməyə alışdıq. İndi xoşbəxtik. Zakir mənim həyatıma yaşamaq eşqi bəxş edib. Mahirə isə sənin onu bağışlamağın. İndi əl-ələ verib övladımızı böyüdürük. Hətta ikinci uşaq da gözləyirik. İnşallah, o da sağ salamat doğular.

Səmra üç il əvvəl düşünsəydi ki, nə vaxtsa Zərifə qarşısına çıxıb Mahirlə xoşbəxt olduğunu desə, o andaca ürəyi tab gətirməz. Amma indi hər şey fərqli idi. Sanki yaralar sağalmışdı. Daha kimsə o yaranı təzələyə bilməzdi.

--- Çox sevindim. Allah xoşbəxtliyinizi min qat artırsın. İkinci balanı da sağlam şəkildə dünyaya gətirəsən. İnşallah... Mən düşürəm. Özünə yaxşı bax.

Bəli, Səmra işinə çatmasa da marşrutu saxlatdırıb düşdü. Nə Zərifənin sohbətlərinə qulaq asmaq, nə də Mahir haqda nəsə eşitmək istəmirdi. Beləliklə, xəstəxanaya kimi piyada getməli oldu.

İşə gec gəlsə də tibb bacılarından biri onun yoxluğunu kimsəyə hiss etdirməmişdi. Ona görə Səmra təşəkkür edib əyninə ağ xalatını geyindi. Sınaq müddətinin bitməsinə hələ ay yarım qalırdı. İlk iş xəstələrin dərmanlarını ordakı tibb bacısına aparmaq idi. Səmra bu günə kimi bir dəfə də olsun xəstələrin arasına girməmişdi. Qapıdan dərmanları verib gedərdi. Tibb bacısı Səmradan dərmanları ardınca gətirməsini xahiş etdi. O, dərmanları götürüb bir-bir xəstələrə uzadırdı. Pəncərə önündən keçəndə tibb bacısı qışqırmağa başladı:

-- Axı nə vaxta kimi dərmandan imtina edəcəksən? İç bunu dedim.

Tibb bacısı əlindəki dərmanı hec cürə pəncərə önündə oturmuş cavan oğlana içirdə bilmirdi.

"Necə də cavandır, görəsən bura niyə düşüb? Yəni o dəli olub? " Bu suallar Səmranın beynində fırlanırdı ki, tibb bacısı onu çağırdı. Əlindəki dərmanı cavan xəstəyə onun verməyini istədi. Səmra, ilk dəfə idi ki, xəstələr arasında idi. Həm buna görə həyəcanlanırdı, həm də qarşısındakı yaraşıqlı oğlanın ağlını itirdiyinə inana bilmirdi. Əlindəki dərmanı ona yaxınlaşdırıb:

-- Bilirəm, içmək istəmirsiz. Amma bir konfet kimi baxın buna. Necə də dadlı görünür, elə deyil? - Səmranın ağlına bunlar gəlmişdi. Bir də baxdı ki, oğlan əlindəki dərmanı özü götürdü və içib stəkanı geri qaytardı. Üstəlik də "Sağolun" dedi. Yəni bu dəlidir ki? Səmra onun yanında özünü dəli hesab etməyə başladı. Axı hansı dəli sağol deyir ki?

Qapıdan çıxanda tibb bacısı onun dərman vermək bacarığını bəyəndiyini dedi. İki gün sonra baş həkimdən aldığı göstərişdə xəstələrə şəxsən dərman vermək də var idi. Beləcə günlər keçdikcə hər bir xəstəyə necə yaxınlaşmağı da öyrəndi. Pəncərə önündə oturan oğlana baxdıqca fikirləşirdi: "Axı o nə düşünür? Həyatınımı, yoxsa onu bura atanlarımı?"

Yanında işləyən tibb bacısından onun haqqında bəzi məlumatlar almışdı. Öyrənmişdi ki, 45 saylı xəstə kimsəylə danışmır. Kimsəylə ünsiyyət qurmur. Tək istəyi pəncərə önündə oturmaqdır. Səmra gələnə kimi kimsənin əlindən dərman içmir, kimsəni yaxına buraxmır. Yanına təkcə atası gəlib gedir. Amma atası ilə nəinki danışmır, hətta çönüb üzünə də baxmır. Bəli, bu cavan oğlan qəribə idi. Amma içindən bir səs onun eynən bir zamanlar Səmranın yaşadığı kimi mənəvi sarsıntı keçirdiyini deyirdi. Axı bir zamanlar Səmra özü də kimsəylə danışmırdı, ancaq təmizliklə məşğul olurdu. Onu nə sağaltdı? Xədicənin reallığı araşdırması... Bəli, həqiqətləri öyrəndikdən sonra həyata yenidən bağılanmışdı. "Bəlkə, o da həyatındakı həqiqətləri bilsə, sağalar?" bu suala hər gün işə gəlib ona tamaşa edərək cavab axtarmağa başladı. Bir gün onun atasını dəhlizdə gördü. Səmra yaşlı kişiyə yaxınlaşıb suallarını verdi. Oğlunun niyə bu halda olduğunu ətraflı bilmək istəyirdi. İnanırdı ki, ona kömək ola biləcək. Atası oğlunun bir zamanlar bir qızı sevdiyini dedi. İki il ərzində elə oldu ki, universiteti bitirib əsgər gedəsi oldu. Qayıdıb gələndə eşidib ki, sevdiyi

qız başqasına ərə gedib... O gündən içinə qapanıb kimsəylə dərdini bölüşmür. Artiq 3 ildir ki, burdadır. Psixiatrdan başqa, kimsəni yaxına buraxmırmış. "Həyatdan əlini üzüb daha ..."

Bu son cümlə Səmraya pis təsir etdi. Bir atanın övladı haqqında bunu deməsi necə də təsirli idi. Amma Səmra artıq onun burda olma səbəbini öyrənmişdi. Odur ki, bir an belə itirmədən psixiatrin yanına getdi. Bir necə dəqiqəlik söhbətdən sonra Səmra həkimdən onunla ünsiyyət qurmaq üçün icazə aldı. Birinci gündən ona yaxınlaşdı. Dərmanı eyni cür verib sonra yanından çəkilmədi.

-- Atanı incitmək, deyəsən, lap xoşuna gəlir? Məgər, yazıq deyil, o boyda kişi boynunu bükə-bükə həkimlərin ağzını güdür ki, bəlkə ümid olar. Sən iradəsizsən! Bilirsən, mən də sənin kimi bir xəyanət yaşamışam. Amma bax, görürsən, həyatımı davam edirəm. Çünki həyat davam edir. Çünki yaşamağa dəyər... Kimlərəsə görə onu niyə yarım qoyum ki? Sən yenə də düşün. Düşün gör axırı nə olacaq bu susmağının.

Səmra uzun monoloqdan sonra onun yanından uzaqlaşdı. Amma hiss etdi ki, dediklərini anlayırdı, hətta bəzi anlarda ona elə gəldi ki, gözləri pəncərəyə deyil, sanki ona doğru baxırdı. Əlbəttə ki, onun sağalması üçün zaman lazım idi. Necə ki, Səmraya lazım olmuşdu. Birdən anladı ki, həmişə 45 saylı xəstə deyərək müraciət etsə sağalmağına ümid olmaz. Odur ki adını onun şəxsi qovluğu arasından oxudu. "Necə? Adı: Saleh??? " Səmra gözlərinə inana bilmirdi. Dərk etməyə çalışırdı. "Yəni Zərifənin sevdiyi Salehdir?" Bəlkə də bir təsadüfdür, amma yenə də dəqiqləşdirmək istəyirdi. Bir daha həkiminə gedib şəxsən Salehin ağzından Zərifə adı eşidib eşitmədiyini soruşdu. Bəli, Saleh elə Zərifənin sevdiyi Saleh imiş. "Təsadüfə bir bax. ... " Səmra heç cürə inana bilmirdi. Evdə anasına hər şeyi danışdı. Anası ona məsləhət verib dedi ki, "əlindən gələn varsa, et qızım. Əgər sən olanlarla barışmısansa, demək o da barışacaq." Zəng vurub Xədicəyə dedi. O da buna bənzər söz dedi. "Xatırlayırsan, demişdim ki, düşünmə ki yer üzündə bu acını çəkən tək sənsən, axı Saleh də eyni acını yaşayırdı. İnanıram ki sən ona öz vaxtı ilə yaşadığın hissləri danışsan, o da tək olmadığını anlayar. "

Hər zamankı kimi Xədicə sirrli məsləhətini verdi. Səmra qərar verdi ki, nə olur olsun Salehə kömək edəcək. Ona həyatı yenidən sevdirəcək... Bir neçə həftə Səmra Salehin dərmanını verdikdən sonra dayanıb saatlarla danışırdı. Salehdən cavab gəlmirdi, amma Səmra hiss edirdi ki, hər gün daha çox fikrini Səmranın deyəcəklərinə yönəldir. Artıq bir ay keçmişdi. Səmra Salehi həyətə təmiz hava almağa aparmışdı. Saleh əslində invalid olmasa da, əlillər üçün arabada otururdu. Gəzintilərin birində Səmra ona əkilmiş qızılgüldən danışdı. Sevgini ona bənzətdiyini, tikanları isə sınan qəlb olduğunu dedi. Əslində demək istəyirdi ki, sınan tək sənin qəlbin deyil. Get-gedə Səmra danışmırdı əksinə, bir başa Salehə unvanlanmış suallar verirdi. Bu nə rəngdir? Bu hansı güldür? Bu yolla istəyirdi ki, Saleh sağa-sola baxsın. Onun işarə etdiyi hər şeyə nəzər yetirsin. Bir gün belə gəzintilərin birində Səmra yenə sual verdi. Bu uçan heyvanın adını de görüm?

"Kəpənək"

Bəli, Səmra yanılmamışdı. Saleh son 4 ay ərzində ilk dəfədir ki Səmranın hansısa sualına cavab vermişdi. Günlər keçdikcə onun sualları artar, cavablar da həmçinin. Əksər cavablar tam doğru olurdu. Bu da Səmranı daha da ruhlandırırdı.

## Səkkizinci fəsil

6 ay sonra...

Səmra hər gün bağçada Salehlə havadan sudan danışardı. Daha Saleh istədiklərini dilə gətirirdi. Hər tərəfə baxır. Təbiəti yenidən sevməyə başlayırdı. Həkimlərlə zarafatlaşırdı. Bəzən Səmranı gülüş mərkəzinə çevirib bütün tibb bacıları arasında gülüşə səbəb yaradardı. Amma Səmra Zərifədən bir kəlmə də demirdi. Zaman keçdikcə işə daha çox həvəslə gedirdi. Bir gün Salehlə unsiyyət qurmasa, qəti özünə yer tapa bilmirdi. Hər gün Salehə yeni bir şey öyrətmək fikri ilə getsə də, geri dönüşdə özü ondan çox şey öyrənmiş olurdu. Nəhayət bir səhər işə gələndə Salehi ayaqüstə gördü. Yavaş-yavaş addım ataraq yeriyirdi. Bu yenilik Səmraya çox xoş gəldi. Axı necə aydır onun həyata bağlanması üçün əlindən gələni edirdi.

Günlərin bir günündə Salehin atası həkimin kabinetindən sevincək çıxdı. Gəlib Salehi bərk-bərk qucaqlayıb bağrına basandan sonra: "Artıq evə gedə bilərik" dedi. Səmra bu xəbərdən nə qədər sevinsə də, bir o qədər kədərləndi. Kədərinin səbəbini anlamırdı, amma onun həyata yenidən bağlanmağına və bunda öz zəhməti olduğunu bildiyi üçün sevinirdi. Salehi axrıncı dəfə elə onunla tanış olduğu pəncərədən gördü. Digər işçilər kimi onunla vidalaşa bilmədi. Amma Saleh gözləri ilə Səmranı gəzirdi. Maşına minənə kimi dəfələrlə arxaya çönüb onu axtarırdı. Amma Səmra bu vidanı istəmirdi. Bilmirdi niyə, amma bilirdi ki, ona "Əlvida" deyə bilməyəcəkdi...

6 ay sonra...

Səmra hər gün işinə gedir, hər bir xəstəyə xüsusi qayğı göstərirdi. Onun bu mərhəməti bütün xəstəxanadakı həkimləri tibb bacılarını valeh edirdi. Səmra isə 6 ay keçməsinə baxmayaraq hər boş olanda Salehin baxdığı pəncərədən yola tamaşa edirdi. Beynində onu düşünürdü. "Görəsən indi necədi? Hardadır? Nə işlə məşğuldur?" Bu suallara cavab tapa bilməzdi, amma yenə də yaxşı olduğunu öz-özünə təkrar edərdi. Nə hisslər keçirdiyini anlamırdı. Dəfələrlə başqa xəstəyə "Saleh"deyirdi. Nə baş verdiyini dərk edə bilmirdi. Tibb bacıları onun Salehə vurulduğunu aralarında şaiə etmişdilər. Onun qəlbində baş verənlər hər kəsə məlum idi, bircə özündən başqa. Bir necə dəfə zarafat naminə Səmraya "muştuluğumu ver Saleh gəldi ", deyib onun edəcəklərini gülüşlər içində izləyirdilər. Səmranın əlləri ayağına dolaşır, gah saçını, gah üstünü təmizləyirdi. Halbuki zarafat olduğunu anlayanda necə də kədərlənirdi. "Yəni Saleh daha xatırlamır məni?..."

Amma qəlbində inam var idi. Hiss edirdi ki, Salehi yenidən görəcək və kişi qızı kimi Zərifənin onun sevdiyi oğlanla evləndiyini deyəcək. Amma əfsuslar olsun ki, hər gün buna inamı get gedə azalırdı.

Bir gün Səmra dayanacaqlardan birində dayanıb hər gün evə qayıtdığı marşrutu gözləməyə başladı. Qəfldən yanında bir maşın dayandı. Səmra ürəyində: "Tərbiyəsizə bax, yer tapmır maşını saxlamağa." deyib üzünü sola çevirdi. Maşının qapısı çırpılanda Səmra dönüb baxdı.

Gözlərinə inana bilmirdi. Saleh burdur, aylar sonra qarşısında dayanıb. Sağlam, gümrah yanağında təbəssümlə, əlində də bir dəstə güllə.

--- Salam Səmra xanım. necəsiz?

Həyəcandan dili tutulsa da, başı ilə yaxşı olduğunu bildirdi. Amma qəlbi bir an yerində dayanmırdı. Bu nə hisslər idi axı? Anlaya bilmirdi özünü. Əlləri titrəyirdi, dili söz tutmurdu. Axı bu nə deməkdir? Saleh niyə geri qayıdıb mənə " Çox Sağol" demək üçün? bu an fikirlərindən qəfl ayıldı, axı Saleh ona müraciət edirdi:

---Səmra xanım yaxşısız? İndi bilirəm, nə düşünürsüz. Deyirsiz, buna bax 6 ay boyunca çox sağol deməyi unudub, indi yadına düşüb? Amma bilin ki, mən sizə başqa söz deməyə gəlmişəm. Bilirsiz, Səmra xanım, sizin hər kəlməniz mənim qulağımda cingildəyir. Gecələri, səhərləri sizin həyat sevginizlə keçirdirəm. Mənə yaşamağa güc vermisiz. Səbəb vermisiz. İnam vermisiz. Sizə təşəkkür etsəm də, azdır. Amma istərdim ki, sizi tez-tez görüm. Ünsiyyətinizə həsrət qoymayın məni, çox xahiş edirəm. Səmranın dili yenə söz tutmurdu, amma yenə də başı ilə razılıq bildirdi.

Bir necə müddət görüşdülər. Səmra Salehə həyata  olan sevgidən danışdıqca Saleh ona daha çox bağlanırdı. Səmra da hər görüşdən sonra sanki qanad açıb uçurdu. Anası hiss edirdi ki, qızı Salehə aşiq olub. Həm də bilirdi ki, Saleh də ona aşiqdir. Bəs bu necə eşq idi? İllər əvvəl başqası üçün döyünən ürəklər necə oldu birdən-birə fikrindən döndü.

Görüşlərin birində Saleh Səmraya çox sevdiyini və onunla evlənmək istədiyini dedi. Səmra bir an içində göyün yeddinci mətrəbəsinə qalxsa da, bir an içində də yerə düşdü. Axı Salehin həqiqəti bilməyə haqqı vardı. Odur ki, Salehin əlindən tutub: "Mən bir zaman sənin könül verdiyin Zərifənin rəfiqəsi olmuşam. 6 yaşımdan onunla dostluq etmişəm. Üstəlik sənin haqqında onun dilindən eşitmişəm. Mənim sevdiyim oğlanın adı Mahir idi. Hansı ki, indi Zərifə ilə evlidir." Sözünə davam edirdi ki, birdən Saleh: "Səmra, mən hər şeyi bilirəm" Təəccübdən özünə gələ bilməyən Səmra parkın stolunda əyləşdi. "Necə yəni bilirdin?"

Saleh Səmranın yanında oturub əlindən tutaraq davam etdi: "Xəstəxanadan çıxandan bir həftə sonra Zərifəni axtardım. Nəhayət, anasının təsadüfən qonşu ilə söhbətini eşidəndə anladım ki, Mahir adlı biri ilə şəhərdə yaşayır. Xəstəxanadan çıxdığımı eşidən dostlarımdan biri mənə dedi ki, bir zamanlar Mahir Zərifəni zorladığı üçün evlənib. Amma kimsə bunun real olduğunu bilmirdi. Odur ki, getdim Mahirin iş yerinə tapdım, ondan olub bitəni anlatmasını istədim. O da hər şeyi danışdı. Sənə olan sevgisindən. Qatarda yaşadığı axmaq yığıncaqdan və nəhayət toy günü sənin onları bağışlamağından. Bəli, Səmra mən bilirəm, ona görə bu 6 ayı səndən uzaqda dayanıb işə gəlişinə, gedişinə tamaşa edərdim. Çünki özümdən asılı olmayaraq səni bir gün belə görməsəm havalanırdım. Sanki həyatım yenidən qaralır kimi gəlirdi mənə. Bir müddət sonra anladım ki, sənə aşiq olmuşam bütün qəlbimlə. Səmra mənə güvən yalvarıram." Səmra Salehə inandı. Güvəndi. Və onun təklifinə razı oldu.

Hal-hazırda:

Mahirlə Zərifə hər şeydən xəbərsiz öz aləmlərində xoşbəxt yaşayırlar. İlk övladları doğulandan Zərifə onu bağışlamış və yoldaş kimi yaşamağa başlamışdı. Mahir daha nə siqaret çəkir, nə də içki içir. İkinci uşağın doğulub-doğulmadığından xəbər yoxdur. Mahirlə Zərifə Salehlə Səmranın ümumiyyətlə tanışlıqlarından və evlənməklərindən xəbərsizdirlər.

Səmra Salehlə evlidir. İki övladı var. Qızının 5, oğlunun 3 yaşı var. Çox xoşbəxtdirlər. Hər gün Allaha bir-birlərini tanıdıqları üçün şükr edirlər. Toylarından iki ay sonra Səmra anasını da özü ilə yaşadığı evə apardı, o evi isə satdılar. Beləliklə, həm gözünün ağı-qarası bircə qızı ilə birlikdə, həm də sevimli nəvələri və qayğıkeş kürəkəni ilə bir evdə yaşayır deyə, həyatından məmnundur.

Həyatın tanımadığımız, görmədiyimiz min üzü vardır. Gəlin həyatımızın hər anından zövq alaq. Yaşanmış hər bir tale bir alın yazısıdır. Həyat düşündüyümüzdən də gözəldir. Yetərki, bir qədər inamın olsun. İnam hər şeydən irəli gəlir. Axı hər şey inamdan başlayır....

2010-cü il.



***"Açılmayan düyünlər" (dedektiv-povest)***

## *Birinci fəsil*

Payız gecələrindən biri idi. Narın yağış yağır, sərin külək əsirdi. Ağaclardan solmuş yarpaqlar titrəyə-titrəyə yerə düşürdü. Mən isə hər zaman olduğu kimi işdən evə qayıdırdım. Yorğun olsam da, azacıq gəzişməyi çox sevərdim. Ona görə də hər gecə olmasa da, ən azı həftədə iki dəfə işdən sonra bu cür gəzintilərə çıxardım. Ayın dəniz üzərindəki mənzərəsi məni heyran edirdi. Sanki bu mənzərə bütün yorğunluğumu özünə çəkirdi. Dincəlirdim...

İş azlığından bu dəfə bir o qədər də yorğun deyildim. Ona görə də dənizə baxmağa getmədim. Yolumu parkdan salıb bir skamyada oturdum. Mən şəhər polis idarəsinin cinayət axtarış bölməsində müstəntiq işləyirəm. Şəhər sakit olduğundan cinayətlər çox az-az baş verərdi. Ən böyük cinayət oğurluq olardı. O isə uzağı iki həftəyə aşkar olunardı. Bunun səbəbi bizim rəisin tədbirləri idi. O bu vəzifəyə gəldiyi gündən cinayət aləmi zəifləmiş, demək olar ki, qismən məhv olmuşdu. Bu düşüncələrlə çox islanmadan evə gəldim. Elə yenicə girmişdim ki, işıqlar söndü. Cib alışqanımla yoluma işıq salıb, mətbəxə keçdim. Pəncərə kənarındakı çırağı yandırdım. Bizim binada bu saatlarda işıqlar sönməzdi. Demək xəbərlərə baxa bilməyəcəkdim. Odur ki, bir başa yatağıma uzandım.

Səhərə yaxın bir qadın qışqırığına ayıldım. Kim idi? Niyə qışqırırdı? Ayağa qalxıb pəncərəyə yaxınlaşdım. Küçənin başında bir neçə qadın və kişi vardı. Qonşuluğumda yaşadıqlarından əksəriyyətini tanıyırdım. Bu vaxtlar işə gedərdilər. Hava hələ tam açılmamışdı. Tez əynimi geyinib, küçənin başına yollandım. Yaxınlaşanda isə bədəni al qan içində yerə sərilmiş qonşum Cavad, yanında isə atası Fərhad kişini gördüm. Təcili yardım çağırtdırıb Fərhad kişini xəstəxanaya yolladıq. Cavad isə artıq ölmüşdü. Ətrafına toplaşmış hər bir kəsi dindirmək, burada nə baş verdiyi barədə daha dəqiq məlumat almağa çalışdım. Hamsı qonşularım idi. Lakin salam-sağ oldan başqa bir kəlmə kəsməmişdim. Küçəyə qara maşında rəisim polovnik-leytenant Məmmədzadə və prokurorluqdan nümayəndə olaraq baş müstəntiq Həsənov gəldi. Onun qəzəbli baxışları, insanın içinə od salırdı. Orta boylu, qara qalın bığlı, dolu biri idi. Asta addımlarla hadisə baş vermiş tərəfə yaxınlaşdı. Məni görüb təəccüblə:

- Mayor Eyvazov, sən də buradasan? Əhsən. Cəld adamışsan.

Baş müstəntiq Həsənov:

- Nə baş verib? - deyərək yerdəki cəsədi göstərdi.
- Sabahınız xeyir! Mən elə bu binada yaşayıram. Səsə ayıldım. Gəldiyimdə isə .... Hadisə yarım saat əvvəl yəni 7-də baş verib. Özü də hər kəsin işə tələsdiyi bir vaxtda. Hər kəsin gözü önündə cavan oğlan öldürülüb. Atası isə xəstəxanaya yerləşdirildi. Vəziyyəti ağır idi.
- Aha.. demək belə!? –ani sükutdan sonra Məmmədzadə soruşdu
- Cinayət nə ilə işlənib?
- Bıçaqla.

Elə bu vaxt digər polis maşınları hadisə yerinə gəldilər. Bizim yaxın yoldaşlardan tibbi ekspertizada öz dəqiq diaqnozları ilə məşhur olan Cəfər Cəfərli də hadisə yerinə gəldi. Çox keçmədən işinə başladı.

- Demək 4 ədəd qarın nahiyəsindən vurulan zərbə nəticəsində elə yerindəcə keçinmişdir. Qatil amansızcasına ara vermədən zərbələri endirmişdir. Yaraların dərin olduğunu güman edirəm. Daha dəqiq məlumatı tibbi baxışdan sonra bildirəcəyəm.
- Yoldaş Məmmədzadə bu cinayət işini sizə tapşırıram. Tezliklə cinayətkarı tutub ədalətə təhvil verməyinizi tələb edirəm.

Baş müstəntiq Həsənov əmrini verib hadisə yerini tərk etdi. Asif Məmmədzadə öz cinayət axtarış qrupunu başına toplayıb ilkin göstərişlərni verdi:

- Heç kəsi nəzərdən buraxmadan ifadələrini alın. Bir başa idarəyə gəlin. Buradakı işiniz bitən kimi ikinizdən biriniz xəstəxanaya yaralı şahidin yanına da gedin.

Bu tapşırıqları verdikdən sonra polovnik-leytenant Məmmədzadə öz maşınına əyləşib hadisə yerindən uzaqlaşdı.

## *İkinci fəsil*

Uca boy, sarışın, bir az arıq olan mayor Səfərli zabit yoldaşım olsa da cinayətlə bağlı heç bir hadisədə bərabər işləməmişdik. Belliklə, ətrafda olan şahidləri siyahıya alıb bir başa idarəyə çağıracağıma və orada dindirəcəyimizi söylədim. Hadisədən təsirlənən şahidlərin suallara daha dəqiq cavab verə bilməyəcəkləri düşündüm. Vaxtım var ikən xəstəxanaya yollandıq. Burada öldürülmüş Cavadın ailəsi xəstəxanada idi. Əməliyyat yenicə başa çatmışdı ki, həkim palatadan çıxdı. Ağlayan qadınlardan ikisi cəld həkimə yaxınlaşıb dayanmadan bir nəfəsə suallar verməyə başladılar:

- Həkim, atamın vəziyyəti necədir?
- Həkim, deyin yoldşım yaşayacaqmı?
- Narahat olmayın biz əlimizdən gələni əsirgəmədik. Bundan sonra xəstənin özünə bağlıdır. Həyata nə qədər çox bağlansa bir o qədər tez ayılacaq. Ümidsiz olmayın.

Belə başa düşdüm ki, iki xanımdan birincisi 20 yaşlarında qızı, digəri isə 40- yaşlarında xanımsa həyat yoldaşı idi. Qızı gənc olduğu kimi də gözəl idi. Uzun qara saçları, qara qaşı və uzun kirpikləri vardı. Yoldaşı isə orta yaşlı olduğundan onu da öz yaşının gənc xanımı adlandırmaq olar. Üzündə çox kiçik qırışlar olsa da uzaqdan qəti bilinməzdi. Qızından fərqli olaraq sarışın və ağbəniz

bir xanım idi. Gözlərindən ardı kəsilmədən yaş axır. Tez-tez nəfəsi ağırlaşırdı. Qızı isə ürəkdən hönkür-hönkür ağlayırdı. Mayor Səfərli onlara yaxınlaşıb sorğu suala başladı.

- Salam. Allah rəhmət eləsin! İnşallah yoldaşınız da tezliklə sağalar. Mən cinayət axtarış şöbəsindən Mayor Yusif Səfərli. Əgər narahat etmirəmsə sizə bəzi suallar verərdim.
- Buyurun! - deyən qadın hıçqırtılarla dolu səsi ilə Yusifə baxdı.
- Xanım, onlar saat 7-də hara gedirdilər? Siz nə isə şübhəli şəxss gördünüzmü?
- Yoldaşımın şəxssi pul dəyişmə məntəqəsi var. Cavadla hər səhər oranı açıb axşam 9 - 10-a kimi işlədirdilər. Bu gün də həmçinin. Axı bu vəhşiliyi kim edə bilər? Ağlıma heç kəs gəlmir. Sanki dəhşətli yuxu görürəm.
- Bəs yoldaşınız işində, tanışları arasında yola getmədiyi və yaxud mübahisə etdiyi kimsə var idi?
- Vallah nə deyim? Əgər varsa da mən bilmirəm. Çünki yoldaşım evdə işə aid, çöldə də evə aid bir kəlmə kəsməzdi. Heç bir söz deyə bilmərəm. – qadın başını yellədərək cavab verdi.
- Bəs siz xanım?

Mayor Səfərli kənarda oturub hönkür-hönkür ağlayan cavan qızdan yəni Fərhad kişinin qızından soruşdu. Dağınıq saçları altından ağlamaqdan gözləri şişmiş gənc xanım:

- Yox tanımıram, bilmirəm, görməmişəm eşitməmişəm.....- deyib ucadan ağladı.

Belə acı hadisəni bir anda yaşamaq heç də asan deyildi. Xanımın davranışı normal idi. Bu sual-cavabdan sonra Yusifə həkimlə də danışmalı olduğumuzu dedim. O da razılaşdı. Lakin bu sual cavabı mənim etməyimi istədi. Və qapının ağzında dayandı. Mən isə əməliyyat edən həkimlə danışmaq üçün kabinetinə girdim. Özümü təqdim etdikdən sonra:

- İstintaqın gedişi üçün sizdən mümkün qədər dəqiq cavab verməyinizi xahiş edirəm. Mümkünsə Fərhad kişinin yarasının dərinliyindən və yerləşdiyi yerindən danışardınız.
- Əlbəttə! Xəstənin kürəyində, ürək nahiyəsindən cəmi bir barmaq yuxarıya 11 sm-lik dərinliyində bıçaq yarası vardır. Yarası dərin idi. Lakin ürəyə toxunmadığından və heç bir daxili qan axma baş vermədiyindən lazımı tədbir görüldü.

- İnşallah xəstəniz tezliklə gözlərini açar. Bizə məlumat verməyi unutmayın. Çox sağ olun...
- Buyurun.

Xəstəxanadan bir başa şöbəyə qayıtdıq. Məmmədzadə cinayətkarı tezliklə ifşa etməyimizi istəyirdi. Əlimizdəki məlumatı onunla bölüşdük. Qovluğu stola yeni qoymuşdum ki, içəri tibbi ekspertizadan kapitan Cəfər Cəfərli girdi.

- Xoş gördük. – Cəfərin içəri girməyi ilə oturmağı bir oldu. - Əlimizdə olan məlumatlarla və tibbi açıqlamalarla sizi də tanış edim. Mərhumun üzərində 4 bıçaq yarası vardı. Yaranın 4-ü də qarın nahiyəsindən. Hər bir yaranın dərinliyi isə 7-9 sm-likdir. Qatil ara vermədən ardıcıl zərbələr endirmişdir. Yaraların dərinliyi qatilin ya var güclə vurduğunu, ya da güclü biri olduğunu sübut edir. Aldığı bıçaq zərbələrindən dərhal sonra Cavad yerindəcə ölmüşdür. - Cəfərli əlindəki ekspertizanın nəticələrini oxuyub yekunlaşdırdı.
- Cərrahdan aldığım ifadəyə görə- bu zaman mən danışmağa başladım- Fərhad kişinin kürəyindən ürəkdən bir barmaq yuxarıya 11 sm-lik dərinliklə sancılmış bıçaq yarası vardı. Əlimdəki ifadəni diqqətlə oxuyaraq dedim. Mənim zənnimcə cinayət bir nəfər tərəfindən eyni bıçaqla törədilmişdir. Hadisə ilə bağlı ətraflı məlumatı şahidlərdən alacağımıza əminəm. Şahidlərdən ikisi artıq buradadır.
- Onları bir azdan qəbul edərik. Bəs sən nə düşünürsən mayor Səfərli? - Məmmədzadə fikirli halda soruşdu.
- Yoldaş Məmmədzadə, düşünürəm ki, vaxt itirmədən Fərhad kişinin pul dəyişmə məntəqəsinə gedib, oradakı insanlardan ifadələr almaq lazımdır. Hadisə çox güman ki, pul zəminində törədilib. Qatil onları bir neçə gün güdə, sonra planlı şəkildə öldürüb pulları alıb qaça da bilər. Onun kimliyi barədə yaralı şahidimiz ayıldığı zaman daha dəqiq fikir söyləmək olar.
- Sizə güvənirəm yoldaşlar. Əgər qətl pula görə olubsa o məqsədinə nail olubmu? Əgər öldürmək məqsədi ilə gəlmişsə bəs niyə Fərhad bəyi yaralı halda qoyub qaçıb? Cinayətkar bilir ki, Fərhad kişinin ayılsa onun kimliyini açıqlayacaq. Bəs qətl törətməyə səbəbi nə olub? Bax bunları dəqiqləşdirmək lazımdır. Xəstəxanaya iki polis göndərin qoy Fərhad kişinin otağını gecə-gündüz qorusunlar. Otağa öz həkimindən və növbətçi tibb bacısından başqa kənar kimsəni buraxmasınlar. Unutmayın bu bir əmrdir!!!

- Oldu polkovnik-leytenant! Şahidləri dindirməyə başlayaq?- deyə soruşdum

  - Bu işi sənə tapşırıram Qədir!

Sözünü yekunlaşdıran kimi yoldaş Məmmədzadə, Cəfərli və Mayor Səfərli kabineti tərk etdilər. İfadə almaq isə mənə qaldı.

## *Üçüncü fəsil*

Ayağa qalxıb qapını açdım. Dəhlizdə ayaq üstə dayanmış leytenant Həsənlini ifadələri yazmaq üçün yanıma çağırdım. Kabinetə geri dönərkən dəhlizdə əyləşmiş şahidlərdən birini içəri dəvət etdim. Dəhlizdə 3 nəfər şahid oturmuşdu. İçəri sadə geyimli, uca boylu arıq qarabəniz orta yaşlı kişi daxil oldu. O yeni köçmüş qonşularımızdan olduğuna görə tanışlığım yox idi. Burada tanış oldum.

- Özünüzü təqdim edin.
- Sahib Zülfü oğlu Zülfüqarov.
- Bu hadisə ilə bağlı gördüklərinizi danışın.
- Cənab müstəntiq mən o vaxtlar işə gedərdim. Elə hər səhər də Fərhad bəy oğlu ilə işə gedəndə rastlaşıb salamlaşardıq. Atası rəhmətlik oğlunu özündən çox sevərdi.
- Cinayət baş verən zaman siz harda idiz?
- Mən əlimdəki pulla daha doğrusu qəpiklərimlə çörək almağa gedirdim. O gün işimdən azad idim. Qızıma ad günü keçirəcəkdim. 1 ay əvvəldən başımı xarab edirdi ki, ata mənə ad günü keçirt, bəs sinif yoldaşlarım da gəlsin.
- Sonra?
- Əlimdə haradasa 7 çörəklik qəpiklərim vardı. Bu vaxt arxamda binamızın blokundan həmin ata-oğul çıxdılar. Öyünərək dedim ki, sizdən fərqli olaraq mən bu gün işə getmirəm. Özümə istirahət ayırmışam. Fərhad bəylə əl uzadıb salamlaşanda qəpiklərim yerə səpələndi. Tez əyilib onları yığmağa başladım. Haradasa 3 qəpik yığmışdım ki, Cavadın Fərhad bəyin qarşısında durub biri ilə mübahisə etdiyini gördüm.
- O insan necə biri idi? Təsvir edə bilərsən?
- Əlbəttə. Qara uzun plaş geyinmişdi. Hündür boy, enli kürəkli bir kişi idi. Düşündüm ki, özgənin işinə qarışmağa haqqım yoxdur. Odur ki, əyilib yerdə səpələnmiş digər qəpiklərimi də yığmağa başladım.
- O şəxss Cavaddan da hündür idi?
- Bir az hə... - Sahib tərəddüdlə cavab verdi.
- Bəs təxminən neçə yaşı vardı?
- Nə bilim cənab müstəntiq üzünü yandan gördüm...
- Saçı necə idi?
- Saçının rəngi qara idi. Adi saçı vardı, nə bilim. Formasına fikir vermədim.
- Demək pulunuzu yığırdınız.....- sualıma davam etdim.

- Hə əyildim qalan pullarımı yığım, bir qadının çığırdığını eşitdim. O an başımı qaldırıb gördüm ki, həmin kişi 2 bina arasında gözdən itdi. Fərhad bəy Cavad da yerə səriliblər.
- Bəs qatil? Qaçaraq uzaqlaşdı?
- Yox.... qaçana oxşamırdı.
- Sizcə Fərhad kişini və Cavadı o vurub?
- Əlbəttə başqa kim var idi ki?
- Yaxşı Əgər vurubsa bəs niyə hadisə yerindən qaçaraq uzaqlaşmadı?
- Nə bilim ay müstəntiq. Mən haradan bilim?!
- Bəs qışqıran qadın kim idi?
- Qadın? Bax onu heç görmədim.- Sahib başını yellədərək cavab verdi.
- Siz mümkünsə daha dəqiq deyin görək qadın nə zaman qışqırdı? Kişi həmin an cinayəti işləyirdi, yoxsa artıq uzaqlaşmışdı?
- Qadın qışqırdı. Başımı qaldırdım ki, kişi iki bina arasına girdi. Həmin an ata-bala artıq yerdə idilər.
- Sən buna əminsən!
- Bəli. Əminəm!
- Yaxşı leytenant Həsənli ilə fotorobot-rəssamın yanına gedin. Gördüyünüz şəxssin şəklini çəkdirin. - İfadəsini şahidə uzadaraq qəfildən soruşdum- Dayan! Harda işləyirsən?
- Marketdə. Gedə bilərəm?
- Hə get. Lazım olsan bir daha çağıracağıq. Həsənli, foto şəkili mənə gətirərəsən.
- Oldu, yoldaş mayor!

Bu şahidlə danışandan sonra bir az da olsa məlumat əldə etdim. Şahid çıxmazdan əvvəl imzaladığı ifadəni cinayət işinə ayırdığım qovluğa bərkitdim. Bu zaman qapı açıldı. İçəri Fərhad kişinin qızı Səbinə girdi. Bu xanımın çox gözəl gözləri varmış. Xəstəxanada o qədər ağlayırdı ki, üzünə baxmamışdım. O incə dodaqları ilə :

- Olar?

- Buyurun keçin əyləşin.
- Çox sağ olun. Sizinlə keçən gün çox kobud rəftar etdiyimə görə üzr istəyirəm. Asan deyil yaşadıqlarımız. Bir tərəfdən də atamın ağır vəziyyəti.... - Səbinə sözünü bitirə bilmədi. Qırmızı yanaqlarına süzülən göz yaşları onun qəlbindəkiləri açıq aşkar göstərirdi.
- Bəs siz həmin hadisə baş verəndə harda idiz?
- Mən həmin vaxt evdə yatırdım.
- Bəs bu acı xəbəri sizə kim dedi?

- Sahibə xanım...
- O kimdir?
- Atamın ikinci yoldaşı. Siz və digər zabit xəstəxanada onunla danışırdınız? Daha doğrusu onun ifadəsini alırdız?
- Demək Sahibə xanım atanızın ikinci yoldaşıdır.. Bəs ananız?
- Onlar hələ biz uşaqkən ayrılmışdılar. Qardaşımla mən onu xatırlamırıq. Onun barədə heç nə bilmirik.
- Demək bu yaşınıza kimi ananızı tanımamısız? Bəs onu axtarmaq istəməmisiz?
- Yox istəməmişik.
- Sahibə xanım atanızla və Cavadla necə davranırdı?
- Normal. Çoxları onun ögey olduğunu bilmirdilər. Atamla bir-birlərini çox sevirlər. Cavad da ona elə uşaqlıqdan "Ana" deyirdi. Bu hadisədən sonra çətin ki özünə gələ. Artıq 2 gündür dilinə bir tikə çörək vurmur. Tezliklə atamın sağalmağını gözləyir.
- Atanızın səhhətinin yaxşılaşmağı bizim üçün də gərəkdir. Hal-hazırda əlimizdə bir şahid yoxdur ki, qatili əməlli başlı təsvir edə. - Azacıq sükutdan sonra yenidən soruşdum - Sizcə Cavadı kim öldürə bilərdi?
- Qardaşımı? Bilmirəm .- Bir qədər susduqdan sonra - O çox cəsur idi. Məni çox sevərdi. Yaxın tanışları çox idi. Amma onun ən yaxın dostunu tanıyırdım. Adı Rüstəmdir. O ki, qaldı ölümünə səbəb, nə deyim? Bilmirəm. Gedə bilərəm?
- Mümkünsə bir sualıma da cavab verin. Sizin atanız işə hər zaman Cavadla eyni vaxta gedərdi?
- Demək olar həftənin ən az 5 günü birgə gedərdilər.
- Oldu çox sağ olun.

Səbinə xanım da getdikdən sonra düşünməyə vaxtım çox oldu.. Cinayətkarı necə ifşa edə biləcəyimizə dair götür qoy etdirdim ki, qapı döyüldü:

-Gəlin!

- Mayor Eyvazov, foto şəkil hazırdır. Onu da qeyd edim ki, bazamızda olan işlər arasında bu şəkilə bənzər hər hansı bir cinayətkar tapılmadı.

Şəkil demək olar natamam idi. Lakin bu şəxss cinayətkar ola bilərdi. Qatilin alnında çapıq vardı. Növbəti ip ucu əlimizdə idi.

*Dördüncü fəsil*

Səhəri gün işə lap tez gəldim dünənki ifadələri yenidən gözdən keçirirdim ki, bu zaman yoldaş Məmmədzadə içəri daxil oldu. Qarşımdakı ifadələrə diqqətə baxdığımı görüb:

- Qədir sənə nə olub?
- Polkovnik? -Cəld ayağa qalxdım- Sizin gəlişinizi eşitməmişəm.
- Heç nə olmaz. Axı demişdiz ki, şahidləri dindirirəm. Cəmi iki şahid gəlib?
- Yoldaş Məmmədzadə bu qovluqda cəmi üç nəfərin ifadəsi var. Sahibə xanımın, Səbinə xanımın və Sahib bəyin. Üstəlik Sahib bəyin şahidliyi ilə foto şəkil tərtib edilib. Dünən iki nəfərin ifadəsini almalı idim. Lakin cəmi bir nəfər ifadə verdi.
- Bəs başqa şahid yoxdur? –Məmmədzadə foto şəkilə baxaraq soruşdu.
- Əfsuslar olsun ki, var. Və biz onun kimliyini bilmirik. İş ondadır ki, hadisə baş verən zaman bir qadın qışqırmışdı. Məni də yuxudan oyadan o səs idi. Düşünürəm ki, qatili dəqiqliklə görən və hadisəni necə törətdiyini Fərhad kişidən başqa görən tək şəxss odur. Lakin o qadın kimliyini gizlədir. Buyurun siz əlimizdəki ifadələrlə tanış olun.

Mayor Məmmədzadə ifadələri oxumağa başlamışdı ki, qapı döyüldü.

- Gəlmək olar?

Qapıdan boğunuq səsli hündür boylu, qara pencəkli lakin çox arıq ağ saçlı bir kişi boylandı.

- Əlbəttə, keçin! Sizə nə köməyimiz dəyə bilər?
- Cənab müstəntiq, mən Fərhad bəyin yaxın dostu Rəşid Ağabala oğlu Orucovam. Dünən gəlmişdim. Bir az gözləyirdim ki, şahidlər çıxıb getsinlər sonra gəlim. Sahib adlı bir nəfər dedi çox gözləmə aşağısı 2 saata çıxacağam. Mənim də tələsən yerim vardı. Nəvələrimi bağçadan götürməli idim.
- Hə nə deyirəm, əsas odur ki, gəldiniz. Buyurun bildiklərinizi danışın.
- Mən hər səhər Fərhadla onun şəxssi pul dəyişmə məntəqəsində görüşərdim. Hal-əhval tutardıq, həm də ki, evim onun yaşadığı binada yerləşir. Demək olar ki, həm dostum, həm də qonşumdur. Bilirsiniz, yoldaşı ilə ayrılandan sonra ailəvi gediş-gəlişimiz azaldı.

Yoldaşlarımız rəfiqə idilər. Sonra yenidən evləndi və yoldaşım onun evinə getməyimə danışmağa başladı. Nə deyəsən, qadın milləti belədir də. Öz ailəmdə söz-söhbət olmasın deyə daha Fərhadgilə getmədim. Onu görmək üçün işinə gedərdim. Hər səhər nəvələrimi bağçaya qoyandan sonra gedərdim düz onun yanına. Yazıq Cavad! Çox yaxşı uşaq idi. Atasını yaman sevərdi. Ailələrində heç mübahisə düşməzdi. Fərhad qardaş hər zaman indiki yoldaşından çox razı danışardı. Uşaqlarına olan rəftarına heyran olduğunu deyərdi. Cavad ona "Ana" deyərdi. Cavad evlənmək istəyirdi. Bunun üçün atasını elçi getməyə razı salmağı xahiş etmişdi.

Rəşid bəy danışdıqca rəislə mən oturub sanki gözəl əsərə qulaq asırmış kimi susmuşduq. Axı bu cür mehriban ata və oğulu kim öldürmək istəsin?! Rəis ayağa qalxıb otaqda o başa-bu başa getməyə başladı. Birdən dayanıb diqqətlə Rəşid bəyə baxdı. Nəhayət soruşdu?

- Bəs siz nə işlə məşğulsuz?
- Cənab müstəntiq mən o vaxtlar mühəndis idim. İndi aylıq əmək haqqımı alıram. Elə yoldaşım da. Bu bizə bəs edir.
  Fərhadla harda tanış olmusuz?

- Bu binaya onda Fərhad təzə köçmüşdür. Cavan idi. Mən ondan düz on beş yaş böyüyəm. Yeni evlənmişdi. Binanın işığı yandığı halda Fərhadın işığı qəfildən sönmüşdü. Bir də gördüm blokdan səs gəlir. Qapını açıb baxdım ki, Fərhad öz qapı qonşusu ilə işıq naqillərini qurdalayırlar. Yaxınlaşıb kömək etdim. Az bir zamanda işıqlarını yandırdım. O da bunun əvəzində məni öz yoldaşımla evinə dəvət etdi. Biz də getdik. Yoldaşım məndən 17 yaş kiçikdir. Elə Fərhadın yoldaşı ilə həm yaşıddırlar. Bax bu cür başladı bu dostluq.
- Fərhad yoldaşına necə münasibət göstərirdi? – polkovnik-leytenant soruşdu.
- Mən onda çox da fikir verməmişdim. Amma sonralar evlərindəki mübahisələrdən bezən dostum mənimlə dərdləşirdi. Mübahisələrə səbəb elə Zərifə xanım idi. Hər gün işdən yorğun gələn yoldaşına qulluq etmək belə yorucu gəlirdi. Özündən başqa heç nə ilə maraqlanmazdı. Arada Zərifənin hansısa işə düzəlmək istədiyi üçün mübahisə edərdilər. Fərhad da bütün bunlardan bezmişdi. Bir dəfə mənə də bax deyə, geyimimlə evimlə maraqlan deyə qışqırardı. Sonra öyrəndim ki, əkiz uşaqları olub. Cavad və Səbinə. Fərhad çox sevinirdi. Uşaqların 3-4 yaşları olardı ki, ayrıldılar.
- Bəs uşaqların vərəsəliyi kimdə idi?- Mən soruşdum.

- Zərifə xanım boşananda uşaqları götürmək istəməmişdi. O çox imkanlı bir şəxssin qızı idi. Atası nəvələrini nəinki görmək, hətta onları qəbul etmək istəmirdi. Qızına da demişdi ki, Əgər boşandıqdan sonra uşaqları özü ilə götürsə onu hər şeydən məhrum edəcək. Bu da azmış kimi ölümündən sonra da bir qəpik pul verməyəcək. Yoldaşım deyirdi ki, atasının bu əmrinə tabe olmaq Zərifə xanıma çox baha başa gəlib. Uşaqlarını çöllərdə ac susuz necə saxlayacağını, onlara ali təhsil verə bilməyəcəyini düşünüb uşaqlarından imtina etməyə məcbur qalıb. Boşanmadan düz bir il sonra Fərhad Sahibə xanımla evlənir. Lakin onların bu evliliklərindən övladı olmadı. Buna baxmayaraq bir-birilərini sidqi ürəkdən sevirdilər. İnciklik, küsülük demək olar ki olmazdı, ya da elə ciddi olmazdı.
- Bəs siz Zərifə xanımın harada yaşadığını bilirsiniz? - Mən qəfildən soruşdum.
- Mən yox. Ancaq yoldaşımla hələ də əlaqə saxladıqlarına görə çox güman ki, o bilər.
- Bu foto şəkildəki şəxssi tanıyırsızmı? Ya da Fərhad bəyin,Cavadın tanışları arasında rast gəlmisizmi?
- Xeyir. İlk dəfədir bu şəxssi görürəm. –Diqqətlə şəkilə baxan Rəşid dedi.
- Yoldaşınızı bir saat ərzində bura gətirsəniz yaxşı olar. - deyən Məmmədzadə Rəşidə ciddi nəzərlərlə baxdı.
- Baş üstə cənab müstəntiq! Bir saata qalmaz gələrik.

Bu sözlərdən sonra Rəşid tələsik çıxdı. Məmmədzadə isə asta-asta addımlarla pəncərəyə yaxınlaşdı. Onun nə fikirləşdiyi mənim üçün də çox maraqlı idi.

- Qədir, sən bu cinayət barədə nə kimi fikrə gəldin? Səncə qatil kimdir?
- Asif müəllim, mən hələ o qışqıran qadını yəni əsas şahidi görməmişəm və Əgər onunla danışsaq əminəm ki, tez bir zamanda qatili tutarıq.
- Bəs görəsən o qadın kim ola bilər? Yaxşı bu iki gündə niyə özünü gizlədir? Çox güman ki, qatil onun qışqırığını eşitdiyi üçün Fərhad bəyi öldürməyə macal tapmır, beləliklə yaralı vəziyyətdə qoyub qaçmağa məcbur olub. Digər fərziyyəm də o qadının qatillə əlbir olmasıdır. Bu zamana kimi polis idarəsinə gəlib bir söz deməməyi buna sübutdur. – Məmmədzadə pəncərə önündəki stulda əyləşib alnını iki əlli ovuşdurmağa başladı. - Görəsən Səfərli hansı məlumatla gəlir?

- Gəlir?- deyə yerimdən soruşdum.
- Hə maşından indi düşdü: - Polkovnik pəncərəni işarə etdi. Cəmi üç dəqiqə sonra Səfərli qapıdan içəri girdi. Hər ikimiz onun ağzını güdürdük. Bəlkə, cinayətlə bağlı ip ucu məhz onun əlindədir? O isə kabinetə daxil olduğu andan susdu. Dinmədən stullardan birində əyləşdi. Sanki bizim nə düşündüyümüzü anlamışdı. Məmmədzadə ona doğru inamla addımlayıb:
- Nə oldu Yusif? Nə isə baş verib?
- Yox... İş ondadır ki, mənə bağladığınız ümidlərin puç olmasını sizə deməyə cəsarətim yoxdur. Sizinlə vidalaşıb getdim həmin məntəqəyə. Orda Fərhad bəyi hətta yoldan keçənlərdən də soruşdum. Kim onu tanıyırdısa Cavadı da, Fərhad bəyi də çox yaxşı geniş ürəkli insan kimi tanıyırdılar. Heç kəslə mübahisə, ya da bir fikir ayrılığı olmadığını deyirlər.
- Axı niyə bu cinayət belə qarışıqdr? Görən qatil bu cür mehriban, əliaçıq insanlardan nə istəyib? - əlini havada yellədərək gileylənən polkovnik-leytenant yenidən Yusifə müraciət etdi:
- Sən də bax qatilin foto şəklini çəkiblər. Lakin həqiqətən qatil budurmu? Burası çox vacibdir.

Səfərli foto şəkilə və özünün yoxluğunda mənim dindirdiyim şahidlərin ifadələrini nəzərdən keçirməyə başladı. Bir az sükutdan sonra o:

- Mənim fikrimə görə yenidən Sahib adlı şahidi və Fərhad bəyin ilk yoldaşı Zərifə xanımı, Cavadın da yaxın dostu Rüstəmi dindirməliyik. Bu necə olursa olsun o qadın oğlunun öldürüldüyünü bilməyə haqqı var. Bəlkə də qatilin kimliyini üzə çıxartmağa kömək oldu. Nədənsə mənə elə gəlir ki, o qışqıran qadın Zərifə xanım ola bilər.
- Tutaq ki, fərziyyələrin doğru oldu. Bəs Sahibi ikinci dəfə niyə danışdıraq?
- Asif müəllim, siz düşünürsünüz ki, əlimizdə olan ilk şahid gördüyü hər şeri deyib? Bəlkə qatillə əl-bir olub? Nədənsə onun ifadəsi qəribə görünür. Hansı qatil əl qolunu sallayaraq cinayət yerindən uzaqlaşar? Həm də camaat artıq hadisə yerinə toplananda.
- Sənin fikirlərin çox maraqlıdır Yusif. - Ayağa qalxıb sözümə davam etdim: Bəs səncə səhər saat 7-də Zərifə xanım küçədə nə edirmiş?
- Bax bunu dəqiq öyrənmək lazımdır: - deyən Məmmədzadə barmağının ucu ilə yenidən pəncərəni göstərdi. Heç bir dəqiqə keçməmiş Rəşidin yoldaşı Simuzər xanımla içəri daxil oldu.
- Rəis olar?
- Buyurun keçin, əyləşin! Adınız və soyadınız?

Simuzər xanım ona göstərilən yerdə əyləşib:

- Simuzər Qasım qızı Eyvazova.
- Rəşid,siz mümkünsə dəhlizdə gözləyin. Biz təklikdə Simuzər xanımdan ifadə almalıyıq. – deyərək təkid etdim.
- Hə? Nə deyirəm. Təki qatil tapılsın. Yazıq Fərhad!....- ah çəkə-çəkə otağı tərk etdi. Məmmədzadə verəcəyimiz sualları konkretləşdirməyə çalışırdıq ki, Səfərli ilk sualı verdi.
- Simuzər xanım, suallarımıza doğru cavab verməynizi məsləhət görürük. Əks halda sizi yanlış ifadə verdiyiniz üçün həbs edə bilərik. Siz Zərifə xanımla hələ də görüşürsüz?
- Bəli hələ də danışırıq. O ki, qaldı yalan ifadəyə mən həyatım boyunca yalan danışmamışam. Danışmaram da. Zərifəni soruşmaqda məqsədiniz nədir?
- Xanım, sualları biz veririk. Deyin görüm Zərifə xanımla son dəfə harda, necə danışmısız?
- Elə onun evində. Çox qonaqpərvər qadındır. Var dövlət içində yaşasa da sadəliyini heç zaman itirmədi.
- Sizinlə son görüşündə nə danışırdı?- mən soruşdum.
- Hər zaman olduğu kimi bu dəfə də uşaqlarını soruşurdu. Mən də onların artıq böyüdüyündən və Cavadın Rəşidə atasını elçi getməyə razı salmasını xahiş etdiyini də dedim.
- Bəs o?
- Nə o? O da yaman sevinirdi! Az qalırdı qanad açıb uça. Övladlarını canından çox sevirdi. İndi isə....
- İndi isə nə? - Yusif sualına davam etdi.
- Cavad öldürülən günü ona zəng edib xəbər verdim. Dedim ki, Cavad dalaşıb yüngülcə yaralanıb. Öldüyünü deyə bilməzdim axı. Yaralı olduğunu dediyimdə elə hönkürtü ilə ağladı ki, sanki, öldüyünü hiss etmişdi. Lap yazığım gəldi. Cavad ona “Ana” deməsə də heç vaxt inciməzdi. Əksinə ümidi vardı ki, bir gün Cavad onu bağışlayacaq. Cavad Zərifəni uşaq ikən onları atdığı üçün günahlandırırdı. Zərifə Cavadı onun beş yaşı olanda görmüşdü. Elə o andan indiyə kimi xəbərlərini məndən alardı.
- Bəs Səbinə necə?- mən soruşdum.
- Səbinə də Cavadla eyni. Münasibətləri yox idi.
- Bu foto şəkildəki şəxs sizə tanış gəlirmi?
- Bu kimdir? İlk dəfədir görürəm.
- Zərifə xanıma deyin səhər 9-da burda olsun! – polkovnik-leytenant ciddi baxışlarla qadını süzərək dedi.
- Olar, deyərəm. İndi gedə bilərəm?
- Əlbəttə. Sadəcə ifadənizi imzalayın. Gedə bilərsiz.

Mən ifadəni  Simuzər xanıma uzadıb, imzalatdım. Sonra kabinetdən çıxdı. Qol saatıma baxdm. Axşam saat 10 idi. Çox gec olduğundan yaman yorulmuşdum. Asif müəllim də bunu hiss edib:

- Bəlkə bu günə kifayət edər, hə? Necə düşünürsüz?
- Bəli yoldaş Məmmədzadə həqiqətən də qarışıq gün idi: - deyən Səfərli qarşısındakı sənədləri yığmağa başladı.
- Yoldaş Məmmədzadə, icazənizlə çıxardım. –mən ayağa qalxıb soruşdum.
- Əlbəttə gedin dincəlin. Səhərədək!
- Gecəniz xeyrə qalsın! -deyib otaqdan çıxdım. İfadələri incələmək üçün özümlə götürdüm.

***Beşinci fəsil***

Müəyyən müddətdən sonra bloka daxil olub evimə doğru pillələri çıxırdım ki, Fərhad bəyin mənzilinin qapısının açıldığını və Səbinə ilə Sahibin çıxdığını gördüm. Yaxınlaşanda məni görən Sahib təəccüb  dolu baxışlarla:

- Müstəntiq? Siz burada nə edirsiniz?
- Mən bu sualı sizə verməliyəm Sahib bəy. Siz burda bu saatda nə iş görürsüz? - Bu an mənə elə gəldi ki, Səbinə nə isə demək istəyirdi. Lakin  Sahib onun sözünü ağzında qoyub dilləndi:
- Qızıma görə. Mənim qızım sözümdən çıxır, dərslərində də zəifləmə müşahidə etmişəm. Gəldim xahiş edəm ki, onunla maraqlansın. O da sağ olsun qəbul etdi. Elədirmi Səbinə xanım? –deyərək yanağı qızarmış Səbinəyə baxdı.
- Bəli, yoldaş müstəntiq elə onu deməyə gəlmişdi.- Səbinə alçaq səslə dilləndi.

- Yaxşı nə deyirəm. Təki elə olsun. Amma Sahib, sizi səhər saat 10-da şöbədə gözləyəcəyik.
- Baş üstə cənab mayor. Gələrəm.- Bu sözləri deyən Sahib tələsik pilləkənlərdən aşağı düşdü.
- Səbinə xanım, bu foto şəkildəki şəxssi tanıyırsızmı?-Əlimdəki şəkli ona uzatdım.
- Bu kimdir? Yox ilk dəfədir görürəm.

Yaxşı sağolun. Səbinə xanımın qapını bağladığını görüb öz evimə yollandım. Evə daxil olanda yorğunluqdan heç yemək yeməyə belə taqətim yox idi. Bir fincan çay süzüb televizor qarşısında əyləşdim. Stolun üstünə qoyduğum ifadələri ara bir nəzərdən keçirirdim. Hər yorulduğumda ay işığında dənizə tamaşa etməyə getsəm də, bu dəfə əlimdə ifadələrlə getməməyə qərar verdim. Məni yoran işin çoxluğu deyildi. Əksinə, beş il əvvəl gün ərzində bugünkündən qat-qat artıq şahid ifadəsi aldığım cinayət hadisələri də vardı. Məni yoran əsas məsələ məhz qatilin və o qışqıran qadının kimliyini nəyin ki, heç cürə aşkar edə bilməmək, hətta ip ucu belə tapa bilməmək idi. Çox qarışıq hadisə idi. Bu düşüncələrlə oturduğum yerdəcə yuxuya getmişəm. Qəflətən telefon zənginə ayıldım. Divardakı saata baxdım. Gecə saat 12 idi. Dəstəyi götürüb:

- Alo, buyurun!
- Eyvazov, yatmışdın? – Bu polkovnik-leytenantın səsi idi. Çox sevincək xəbər verəcəkmiş kimi həyəcanlı idi.
- Nə isə olub yoldaş Məmmədzadə? - gözlərimi ovaraq soruşdum.
- Mümkün qədər tez zamanda bizə gəlin. İfadələri də unutmayın.
- Elə indi?- təəccübləndim.
- Bəli elə indi. Gözləyirəm.
- On beş dəqiqəyə gələrəm.

Dəstəyi qoyduqdan sonra təəccüb hissim hələ də məni tərk etməmişdi. Axı Asif müəllimi bu qədər sevindirən nə ola bilərdi!? Yaxşı sevincini böləcəksə məni niyə ifadələrlə çağırır? Bəlkə, qatilin kimliyini tapıb? Əlbəttə ki, sualların cavabını yalnız Məmmədzadə özü verə bilərdi. Vaxt itirmədən yola düşdüm. Onun mənzili bizim binadan 5 məhəllə sonra idi. Tam 15 dəqiqə sonra çatdım. Sonuncu dəfə buraya nə zaman gəldiyimi belə xatırlamırdım. Axı o məni heç nədən evinə çağırmazdı. Həm də bu saatda?! Nəhayət qapının zəngini çaldım. Asif müəllim evinin qapını açıb, mehribancasına içəri dəvət etdi.

- Buyur Qədir.

- Bir daha salam. Mən düzünü desəm çox təəccüb edirəm. Axı nə baş verib?
- Çox önəmli bir hadisə! Salona keç! Özün hər şeyi anlayacaqsan.

Polkovnik-leytenant sözünü kəsib mənə salonun yolunu göstərdi. Amma salona keçməzdən əvvəl ayaqqabımın bağını açmaq üçün əyildim. Dəhlizdə daha bir cüt qara kişi ayaqqabısı vardı. Təxminimə görə 42-43 ölçülü olardı. Əynimdəki plaşımı soyunub asılqana uzadanda orada qara uzun plaş və qara papaq gördüm. Artıq anlamışdım ki, bu geyimlər yoldaş Məmmədzadənin salonunda oturan qonağındır. Əlimdə qovluq içəri keçdim. Asif müəllim otada yanan divar sobasının kənarında əyləşmiş şəxsi mənə göstərərək:

- Tanış olun, bu mənim ən yaxın dostum milis polkovniki Murad Muradlıdır.

Yaxınlaşıb əlimi uzatdım. O da ayağa qalxıb böyük sadəliklə gülümsündü:

- Xoş gəldiz! - : dedi.
- İşdən gələndə yoldaşım dedi ki, məni çox önəmli qonaq gözləyir - Məmmədzadə sevinclə mənə baxıb danışırdı – Ağlıma da gəlməzdi ki, həmin qonaq mənim 35 illik yaxın dostum, sirdaşım və vaxtilə iş yoldaşım olan Muraddır.

Görünür polkovnik-leytenant bu şəxssə çox dƏgər verirdi. Murad bəy görünüşdə çox sadə birinə bənzəyirdi. Alnından saçı tökülmüş, orta boylu, çox arıq, qalın qara qaşlı, üzü səliqə ilə qırxılmış, iti baxışı və qonur gözü olan, klassik geyimli, haradasa 50-52 yaşlı bir şəxs idi. Rəis Məmmədzadə söhbət ərəfəsində 2 fincan çay içsə də Murad bəy hələ ilk fincanını içirdi. Çayı qəndsiz içdiyi məlum idi. Çünki masada şəkər əvəzinə şəkər tozu vardı. Mən də divanda əyləşib ev xanımının dəmlədiyi çaydan bir fincan içdim. Söhbətdən məlum oldu ki, polkovnik Muradlı Asif müəllimlə beş ildir ki, görüşmürlər. Demək Məmmədzadə bura təyin aldığı zamandan bəri görüşməmişlər. Muradlı Rusiyada orta məktəbi bitirib. Sonra ali məktəbə daxil olub elə orda da Məmmədzadə ilə tanış olub, dostlaşmışlar. Beş illik təhsil aldıqdan sonra vətənə qayıdıb 10 il birgə polis idarəsinin cinayət axtarış şöbəsində işləmişlər. Muradlının savadı heç də Asif müəllimin savadından fərqli deyilmiş. Lakin Muradlının daxili istedadı varmış. Birgə işlədiyi müddətdə cinayətkarı qısa zamanda ifşa edib tezliklə həbs edərmiş. Mükəmməl iş fəaliyyətindən sonra Muradlı Rusiyanın Rostov şəhərinin cinayət axtarış bölməsinə işləməyə təyinat alır. İki dost beləcə iyirmi illik ayrı düşüblər. Lakin hər ay bir-birilərinə məktub yazmağı unutmamışlar. Sonuncu dəfə Məmmədzadə dostu ilə beş il əvvəl

Bakıda görüşüb. O zamandan indiyə kimi, yalnız telefon və məktub vasitəsi ilə əlaqə saxlayıblar. Muradlı Məmmədzadənin məktublarından şəhərimizin sakit bir yer olduğunu və ağır cinayətlər baş vermədiyini anlamışdı. Lakin Məmmədzadə əksinə Muradlının yazdığı məktublardan maraq dolu danışırdı. Onun sözlərindən mənə məlum oldu ki, Muradlıdan çox şey öyrənmək olar. Sevinc dolu emosiyalı sözlərini dinlədikcə Muradlının heç nə danışmadığına maraqla tamaşa edirdim. Qəflətən Məmmədzadə susdu. Bu zaman Muradlı mənə baxaraq dedi:

- O hər zaman belə çox danışardı. Əgər danışmağa qoymasaydım qəti susmazdı. Çay içdiyi müddətdə isə qəti bir kəlmə söz deməz. Bu onun çoxdankı vərdişidi.

Həqiqətən də Murad bəyin dediyi kimi oldu. Asif müəllim əyləşib bir fincan çay süzüb içməyə başladı. Mən anladım ki, bu iki dost bir-birilərini nəinki yaxşı tanıyır, hətta mimikalardan nə istədiklərini anlayırdılar.

- Siz bir daha xoş gəlmisiz! Asif müəllimin belə gülər üzlü olduğuna inanmağım gəlmirdi. İş çoxluğundan buna şərait də yol vermir.

Çayını yenicə bitirmiş Məmmədzadə dostuna:

- Murad, sən gəlmişkən bizə kömək edərsən?

Muradlı:

- Nə barədə kömək edim?
- Cinayət var. Onun tədqiqatına.
- Mən hər zaman sənə güvənmişəm dostum. Sən özün də az cinayət açmamsan. Mənim kömək etməyim əbəsdir. Lakin azacıq köməklik edərəm. Necə düşünürsən?
- Olar. Dostum sən sadəcə bu dolaşıq qətl hadisəsinin düyünlərinin yerini təyin etməyə kömək etsən işimiz asanlaşar.
- Nə deyirəm. Buyur danış görüm. Amma əvvəlcədən xahiş edirəm. Bacardığın qədər bir söz də ötürmə. Hər xırda məsələ istənilən cinayətin açarı olar.

Bu sözlərdən sonra mən sanki bütün yorğunluğumu unudub daha ciddi əyləşdim. Məmmədzadə danışdıqca xəfiyyə Muradlı çox ciddi baxış alıb düz ocağa baxırdı. Baxışları o qədər iti və sərt idi ki, elə bil cinayətin necə törədildiyini öz gözləri ilə görürdü. Məmmədzadə gah masa başında əyləşib danışır, gah da pəncərə önünə keçib siqaretini tüstülədirdi. O Murad bəyə şahidlərin dindirilməsinə kimi hər bildiyimizi danışdı. Bu ərəfədə söz mənə

verildi. Özümlə gətirdiyim qovluğu açıb Muradlıya təqdim etdim. Beləliklə sözə başladım:

- Şahidlərin dindirilməsində şəxssən özüm iştirak etmişəm. Onu da qeyd edim ki, hadisə mənim yaşadığım binanın həyətində baş vermişdi. Ssəhər saat 7 də yuxudan məhz qadın qışqırığına oyanmışam. Lakin durub pəncərədən baxdığımda orada qonşulardan başqa kimsəni görmədim. Müəyyən andan sonra anladım ki, camaat arasında nə isə hadisə baş verib. Ardında baş verənləri isə rəis artıq məruzə etdi. O ki qaldı şahid ifadələrinə, bu tamamilə qarışıq bir məsələdir. O qışqıran qadının kimliyi bizə məlum olmadı. Daha doğrusu düşünürəm ki, kimsə boynuna almadı. Həmçinin yoldaş Səfərlinin dindirdiyi şahidlərdən də kimsə uzun qara geyimli, enli kürək kimisə təsvir edə bilmədilər.

Mən danışdıqca Muradlı ifadələr ilə tanış olurdu. Foto şəkilə də diqqətlə baxdı. Bu an pencəyinin qoltuq cibindən dəftərcə çıxardıb, nəsə qeyd etməyə başladı. Mən öz sözlərimi artıq bitirmişdim ki, o:

- Mayor Eyvazov adınız nədir?
- Qədir! Qədir Eyvazov!
- Siz dediniz ki, Cavadla Fərhad bəyin yaşadığı binada qalırsız?
- Bəli. Daha doğrusu eyni blokda yaşayırıq.
- Qadın qışqırdığında ilk olaraq nə etdiniz?
- Ayağa qalxıb pəncərəyə yaxınlaşdım.
- Gözünüzü açan kimi cəld pəncərəyə yaxınlaşdız?
- Xeyir: - Düşündüm ki, Muradlı daha ətraflı təsvir etməyimi istəyir. Odur ki, hər xırdalığı danışmağı qərara aldım. - Demək, əvvəlcə səs eşitdim. Gözlərimi açdım. Divardakı saata baxıb, ayağa qalxdım. Təxminən çarpayıdan pəncərəyə yeddi addımdan sonra yaxınlaşdım. Ardını artıq bilirsiniz.
- Bəs eşitdiyiniz səs necə? Güclü idi? –Muradlı maraq dolu baxışlarla məni süzdü.
- Səs elə gəlirdi ki, sanki boşluqdan əks-səda verirdi.
- Ətraflı məlumat verdiyinizə görə minnətdaram. Səhər kimlərin ifadələrini alacaqsınız?
- Zərifə xanımın, Sahib bəyin və Cavadın dostu Rüstəmin.
- Lap yaxşı amma mümkünsə bu sual cavabda mən də iştirak edim.

Məmmədzadə cəld yerindən sıçrayıb:

- Əlbəttə, dostum! Sənin fitri istedadına ehtiyacım var. Tezliklə qatili həbs edib cəzalandırmaq istəyirəm. Yaxşı bəs Sahib bəyi növbəti dəfə ifadə vermək üçün kim çağıracaq?
- Mən onu artıq çağırmışam. Evimə gedəndə Sahibin Fərhad bəyin evindən Səbinə ilə çıxdığını gördüm. Soruşdum ki, bu vaxt burda nə işi var? Dedi qızının təhsilindəki geriliyi üçün Səbinə xanımdan kömək istəyirmiş. O da razılaşıb.

Sözümü diqqətlə dinləyən Murad Bəy:

- Demək razılaşdı!
- Bəli.
- Daha gecdir yoldaşlar. Yatıb dincəlmək lazımdır. Qədir sən də gecəni mənim evimdə keçirt. Bir də yorğun niyə gedəsən?!

Təklif tam ürəyimcə idi. Çünki yorğunluqdan daha bir az da olsun ayaq üstündə dura biləcəyimə şübhə edirdim. Odur ki, rəisin təklifini qəbul etdim.

## *Altıncı fəsil*

Həmin gecəni Məmmədzadənin evində geçirməli oldum. Otaqlardan birində iki yeni salınmış yataq vardı. Birində Muradlı, digərində isə mən yatdım. Mən uzananda Muradlı cibindəki dəftərcəni yenidən çıxardıb qeydlər edirdi. Son xatırladığım da bu idi. Bir də gözümü açanda gördüm ki, Muradlı çarpayısında yoxdur. Gecikdiyimi düşünüb, cəld əynimi geyinib salona keçdim. Masa ətrafında Məmmədzadə Muradlı ilə çay içirdi.

- Sabahınız xeyir! Deyəsən yatıb qalmışam.
- Xeyir, Qədir! Tam vaxtında qalxmısan. Əyləş, sən də bir tikə çörək ye.

Əl- üzümü yuyub mən də onlara qoşuldum. Yediyim pendir o qədər dadlı idi ki, hələ isti təndir çörəyini demirəm. Çoxdandır təmiz yatağa, dadlı yeməklərə həsrət idim. Axı hələ də subayam. Evdə özüm üçün nəyisə edəndə digərini etməyə tənbəllik edirəm. Lap tezliklə evlənmək həvəsinə düşdüm. Xəfiyyə Muradlı iştaha ilə qəlyanaltı etdiyimi görüb gülümsündü:

- Qədir, sənin neçə yaşın var?
- 33- Qəfil sualdan təəccüblənərək cavab verdim.
- Bəs bu yaşa kimi niyə subay gəzirsən?

Murad bəyin mənim subay olduğumu necə anladığına təəccüb etdim. Amma polovnik-leytenant Məmmədzadə məndən daha çox təəccüb etdi. Çünki o məni tanıdığı beş ildə bir dəfə də səliqəsiz və ya natəmiz vəziyyətdə görməmişdi. Məhz buna görə də evli olmadığıma inana bilmirdi.

Süfrədən qalxar qalxmaz işə tələsdik. Xəfiyyə Muradlı da bizimlə gəlirdi. Asif müəllimin maşınına əyləşib düz idarəyə yollandıq. Yolda Muradlı Məmmədzadəyə müraciətlə dedi:

- Mümkünsə Rüstəmi ilk şahid olaraq dindirin. Səbinə xanımı da, Sahibə xanımı da çağırtdırın.
- Əlbəttə niyə də olmasın!

Muradlı yolda nə düşünürdüsə də bizimlə bölüşmürdü. Sadəcə olaraq cibindəki dəftərcəyə qeyd edərdi. Polovnik-leytenant Məmmədzadə ona çox ümid edirdi. Daha doğrusu əmin idi ki, Muradlı qatili tez bir zamanda ifşa edəcək. İdarəyə çatar çatmaz Muradlı Məmmədzadədən xahiş etdi ki, onun xəfiyyə olduğunu kimsə bilməsin. Axı indi o məzuniyyətdə idi. Muradlı dəftərçəni bağlayıb cibinə qoyanda üzündəki əminliyi açıq aydın gördüm. Hiss etdim ki, o artıq qatilin kimliyini bilir.

Otağa daxil olan kimi masa arxasında əyləşən mayor Səfərli ayağa qalxdı.

- Polkovnik Muradlı sizi bir daha görməyimə çox şadam.

Nə mən, nə də ki, polovnik-leytenant Məmmədzadə Səfərlinin Murad bəyi haradan tanıdığını bilmirdik. Odur ki bu səhnəyə sadəcə tamaşa etməli olduq. Muradlı əlini sıxan mayor Səfərliyə diqqətlə baxıb:

- Yusif, oğul sənsən?
- Bəli, Murad dayı mənəm.
- Bala sən hara, bura hara?
- Məktəbi bitirdikdən sonra təyinimi buraya göndərdilər.

Bu söhbətdən məlum oldu ki, Səfərli Muradlının dayısı qızı Xuramanın oğludur. Yusif hələ kiçik yaşlarından Murad bəyə heyran olub, onu özünə ideal seçibmiş. Hər zaman onun kimi bacarıqlı olmaq arzusunda olub. Müstəntiq olmaq səbəbi də budur. Muradlı bu təsadüfi rastlaşmadan sonra daxilən Yusiflə fəxr etdiyini anladıq. O əlini mayor Səfərlinin çiyninə astaca toxundurub:

- Əhsən oğul! Əhsən! -dedi.

Həmin gün hava sakit olsa da, çox gözəl narın yağış yağırdı. İnsanın ruhunu oxşayan, əsəbi insanı belə rahatlaşdıran bir yağış idi. Polkovnik Muradlı stulunu özü ilə götürüb pəncərənin önündə əyləşdi. Məmmədzadə, mən və mayor Səfərli öz yerlərimizdə əyləşdik. Bir az sonra qapı döyüldü. Gələn polis zabiti idi. O şahidlərin artıq dəhlizdə olduğunu bildirdi. Mən dəhlizə çıxar çıxmaz Sahib bəy qabağıma yüyürdü:

- Yoldaşlar, mən gördüyüm, bildiyim hər şeyi demişəm də, yazmışam da. Axı məni yenə niyə çağırdız? İşim başımdan aşır. Sonra çatdıra bilməyəcəyəm.
- Nə qədər lazımdır, o qədər də gəlib gedəcəksiz. Biz də bekar deyilik. Oturun yerinizə. Sizi özümüz çağıracıq.
- Yaxşı nə deyirəm, Siz bilən məsləhətdir.

Sahib yenidən dəhlizdəki stuluna əyləşdi. Lakin əlləri ilə mənə toxunanda ovcunun içinin tərli olduğunu hiss etdim. Eşitdiyimə görə bu yalnız həyəcanlı və ya əsəbi insanda olur. Demək Sahib nəyisə istintaqdan gizlədə bilərdi. Bəlkə də mən səhv edirəm. Dəhlizdə Rüstəmdən başqa hər kəs vardı. Odur ki, gözləməli olduqlarını deyib yenidən otağa qayıtdım. Rüstəmin yoxluğundan istifadə edərək mayor Səfərli:

- Polkovnik Muradlı, sizcə bu qara uzun plaşlı, hündür boy, enli kürəkli orta yaşlı şəxs kim ola bilər?
- Bunu bizə yalnız Sahib bəy deyə bilər. Lakin az sonra...

Muradlı yenidən susub cibindəki dəftərçədə nəyisə qaraladı. Elə bu zaman qapı açıldı. Həmin polis zabiti Rüstəm bəyin gəldiyini xəbər verdi. Rüstəm içəri girər-girməz polkovnik Məmmədzadə:

- Keç oğul! Keç əyləş.
- Çox sağ olun!

Zahirən arıq uca boy, sarışın, cavan oğlan, ilk baxışdan düzgünlük tərəfdarı olduğu hiss olunurdu.Ən azından gözlərindən çoxbilmişlik yağmırdı. Bizim bildiyimizə görə Rüstəm Cavadın yeganə dostu idi.

- Siz hadisə baş verdiyi zaman harda idiz?- Səfərli qəfildən sual verdi.
- Evimdə. Yatmışdım.
- Bunu kim təsdiq edə bilər?
- Yoldaşım. Atam, anam. Həmin gün gecə növbəsində işdə olmalı idim. Tezdən durmağımın mənə xeyri olmazdı. Yuxudan düz saat 12 də ayıldım. Yoldaşım dedi ki, Səbinə ağlayaraq zəng edib. Elə onda oyandım. Bircə qatilin kimliyini bilsəydim.....

Muradlı oturduğu yerdən:

- Bilsəydin nə edərdin?
- Ən azından üzünə tüpürərdim. Cavad mənə olmayan qardaş idi. Bizi dostdan çox qardaş bilirdilər. Mən evləndikdən sonra o da evlənmək həvəsinə düşmüşdü. Deyirdi atamı razı sala bilsəm elçi göndərəcəm. Bir qədər susub gözlərinin yaşını sildi.

Mən:

- Cavad öz doğma anası haqqında nə deyirdi?
- Bu barədə qəti danışmazdı. Mən də Səbinədən öyrəndim ki, Sahibə xanım onların analığıdır. Çünki bu vaxta kimi bundan şübhə də etmirdim.

Polkovnik Muradlı:

- Nə zaman bildin?
- İki ay olar.
- Səbinə iki ay əvvəl anasının başqası olduğunu deyib?
- Bəli. Cavada başa salmağa çalışırdı ki, analarına daha kin saxlamasın. Bağışlasın. Cavad isə əsəbiləşib getdi. Səbinə də mənə danışdı. Cavadı yumşaltmağımı xahiş etdi. Mən də bir gün onunla danışmaq istədikdə "Əgər xətrimi az çox da olsa istəyirsənsə bir daha bu sözü açma" dedi.

Asif  Məmmədzadə:

- Səbinə anasını bağışlamışdı?
- Dəqiq deyə bilmərəm. Ya bağışlamışdı, ya da bağışlamağa hazırlaşırdı. Daha sualınız yoxsa .....
- Bu foto şəkilə diqqətlə bax. Cavadın tanışları arasında bu şəxsi daha əvvəl görmüşdün?
- Dəqiq bilirəm ki, alnı çapıqlı birini görsəydim yadımdan çıxmazdı. Bu şəxsi ilk dəfədir görürəm.

Mayor Səfərli:

- Bəs yaxşı kimdən şübhələnirsiz?

- Düzünü desəm ətrafımızda elə bir tanışımız yox idi ki, Cavaddan inciyə, ya da ona kin saxlaya. Çox yaxşı və düz adam idi. Heç doğma qardaşım ölsəydi bu qədər yanmazdım. Hər kim edibsə göydə Allaha, yerdə sizə tapşırıram. İnşallah tezliklə qanun qarşısında cavab verər.
- İndi gedə bilərsiz! - Polovnik-leytenant Məmmədzadə dilləndi.
- Əgər lazım olsam mütləq xəbər verin. Əlimdən gələni əsirgəmərəm. Təki qatil tapılsın. Dostumun təmiz qanı yerdə qalmasın. Sağ olun.

Polkovnik Muradlı:

- Xudahafiz.... Sahibə xanım gəlibsə çağırın gəlsin.

Mən ayağa qalxıb dəhlizə çıxdım. Orada Zərifə xanımda oturmuşdu.

- Sahibə xanım, buyurun keçin. Sizi gözləyirik.
- Çox sağ olun. Mən də xəstəxanaya tələsirdim.

Sahibə xanımın tələsdiyi davranışlarından da məlum idi. O içəri keçər keçməz salam verdi və təklif gözləmədən əyləşdi. Murad bəy onu diqqətlə süzdü. Söhbəti uzatmadan əsas məsələyə keçdi.

- Sahibə xanım, Səbinə sizinlə necə davranır?
- Necə məgər? Əlbəttə ki, normal. Hər kəs necə davranırsa o də elə. Hörmət də edir. Sözümdən də çıxmır. Niyə soruşursuz?
- Yaxşı, deyin görək Səbinə harada işləyir?

Xəfiyyə Muradlının sualından tutulan Sahibə xanım cəld ayağa qalxdı.

- Siz nə danışırsız? Səbinə heç yerdə işləmir. Buna yoldaşım icazə verməz.
- Oturun xanım. İstintaq naminə verilən hər bir suallara yanlış cavab vermək olmaz. Bunun müqabilində sizi həbs edə bilərik.

Məmmədzadə:

- Sizə sual verildi. Cavabınızı deyin.

Sahibə xanım bir az qızardı. Lakin anlayırdı ki, başqa çıxış yolu yoxdur. Bildiyini danışmalıdır. Odur ki, yerinə əyləşib ifadəsinə davam etdi:

- Səbinə bir bağçada tərbiyəçi işləyir. Uşaqlarla başını qarışdırır. Hər gün saat 5-də evdə olur deyə heç kəs bilməzdi. Əgər ikisindən biri evə vaxtından əvvəl gəlsəydi, mən Səbinənin ya yatdığını, ya da rəfiqəsigildə olduğunu deyərdim. Səbinə son aylar məndən yaman uzaqlaşıb. Nə gizlədim cavab da qaytarır. Sözümə heç qulaq asmırdı. Hər fürsəti olanda ögey anası olduğumu xatırladardı. Düşünmüşdüm ki, işlədiyini gizlətməklə ona köməklik etsəm, bəlkə, əvvəlki Səbinə olar. Amma görünür yanılmışam.....

Polkovnik Muradlı ciddi nəzərlərlə Sahibə xanımın gözlərinə baxıb:

- Həmin gün səhər saat 7 də qışqıran Səbinə idi?
- Hə! Hər ikisi evdən çıxan kimi Səbinə də hazırlaşdı. Dedi bağçada yoxlanış olacaq, tez getməlidir. Onlardan 4 dəqiqədən sonra o da evdən çıxdı. Blokdan çıxar çıxmaz atasının kiminsə tərəfindən bıçaqlandığını görüb qışqırmışdı.
- Qatil Səbinəni gördü?
- Bilmirəm. Amma o qaça-qaça evə girdi. Dəli kimi ağlayırdı. Sakitləşdirməyə, nə isə soruşmağa çalışdım. Amma o fəryad qoparırdı. Bir neçə dəqiqə sonra dedi ki, yoldaşımı da Cavadı da öldürdülər.

Bu sözləri demək Sahibə xanıma heç də asan olmadı. Gözlərindən axan yaş dayanmırdı. Muradlı onu azad buraxmağımızı istədi.

## *Yeddinci fəsil*

Sahibə xanımın ifadəsindən bir qədər sonra mayor Səfərli Səbinə xanımın bir daha dindirilməsinə təkid etdi. Odur ki, leytenant Həsənli dəhlizə çıxaraq Səbinə xanımı kabinetə dəvət etdi. Bir dəqiqə sonra Səbinə gəldi. Stolu çəkib əyləşdi. Polkovnik-leytenant Məmmədzadə:

- Siz cinayət baş verən zaman harda idiz?
- Demişdim axı, yatmışdım. Sahibə xanım gəlib oyatdı! :Əlləri titrəyən Səbinə cavab verdi.
- Körpə uşaqları çox sevirsiz?- mən suala davam etdim.
- Əlbəttə, onları kim sevməz?!
- Bəs işlədiyinizi atanızdan və qardaşınızdan niyə gizlədirdiz?

Rəngi qəflətən dəyişən Səbinə başını aşağı salıb:

- Bəs siz haradan öyrəndiz?
- Bunun əhəmiyyəti yoxdur. Suala doğru cavab verin!
- Ona görə demirdim ki, o zamanlar anamla elə məhz işləmək istədiyi üçün mübahisə edərdi. Bu mübahisələrin nəticəsində də ayrıldılar. Qorxurdum ki, işləmək istədiyimi desəm mənə icazə verməz. Mən isə gözəl arzumdan əl çəkmək istəmirdim.

Polkovnik Muradlı ayağa qalxıb otaqda o başa, bu başa getməyə başladı. Qəflətən dayanıb Səbinəyə ciddi nəzərlərlə baxdı.

- Sizi işə kim düzəldib? - Muradlı soruşdu.
- Heç kəs. Özüm getdim bağçaya. Soruşdum ki, tərbiyəçi müəlliməyə ehtiyacınız varsa, işləmək istəyərdim. Müdir də razı oldu. Şənbə, bazardan başqa hər gün işə 7: 30-da gedib, saat 17: 00-da geri qayıdardım. Yoxluğumdan kimsə şübhə etməzdi. Çünki atam ya qardaşım tez gəlsəydilər Sahibə nəsə uydurardı.
- Ananızla illər sonra harda görüşdüz?
- Mən? –qəfil sualdan həyəcanlanan Səbinə davam etdi - Mən anamla görüşməmişəm. Heç kəs bunu sübut edə bilməz.
- Çox güman ki, kimsə sübut edə bilməz. Ancaq işə düzəlmək, həm də indiki zəmanədə biraz qəliz məslədir. Ananız sizin üçün o işi həll etmiş ola bilərdi. Qızım, sən verdiyin səhv ifadələrə görə böyük məsuliyyət

daşıyırsan. Qanun qarşısında cavab verməyə hazırsanmı? Gəl sən nə bizi yor, nə də özünü. Açıq aşkar nə olubsa danış!

Görünür Səbinə xanım polkovnik Muradlının sözlərindən təsirləndi. Söz verdi ki, bildiyi hər şeyi danışacaq. Bircə onu yalan ifadəyə görə həbs etməməyimiz üçün yalvarmağa başladı. Məmmədzadə də razı oldu. Səbinə də sözə başladı:

- Mən orta məktəbdə oxuyandan anamız bizimlə danışmağa fürsət tapmışdı. Cavad o vaxtdan ona kin saxlayırdı. Düşünürdü ki, bizi mal-mülk əlindən getməsin deyə atıb. Lakin mən hər zaman onu həsrətlə gözləyirdim. Sahibə pis insan deyil. Amma yenə də öz anam sağ ikən yad birisinə necə ana deyərdim?! Sağ olsun Simuzər xala. O anamdan mənə, məndən də anama xəbər çatdırardı. Nəhayət bir il əvvəl görüşüb danışdıq. İşləmək istədiyimi demişdim. Tezliklə mənə bu işi tapdı. Dedi ki, müdirlə danışıb həll eləmişəm. İş saatların qısadır. Odur ki, atamgil gəlməzdən əvvəl evdə olaram. İki ay əvvəl də Cavadla danışmaq istədi. Lakin Cavad onun haqqında eşitmək belə istəmirdi. Qardaşımı çox sevirdim. Əgər yaşasaydı anamızla barışdığımı və onun necə yaxşı qadın olduğunu deyərdim. Əminəm ki, ilk görüşdən sonra anamızı bağışlayardı.
- Yaxşı səhər saat 7:30 da işə gedirsinizsə niyə cinayət baş verən gün yatdığınızı deyirsiz? Bizim əlimizdə sübut var ki, həmin vaxt siz nəinki oyaq olmusuz, hətta cinayətin necə törədildiyinin şahidi olmusuz!

Səbinə əllərini üzünə tutub hönkür-hönkür ağlamağa başladı. Sanki hər şeyi yenidən görürdü. Üzünü polkovnik Muradlıya tutub dedi:

- Hər zaman olduğu kimi həmin gün də işə gedəcəkdim. Bağçada yoxlama olacağından saat 7-də işdə olmalıydım. Cavadla atam çıxar çıxmaz mən də hazırlaşdım. Cəmi 4-5 dəqiqə gözləyib evdən çıxdım. Blokun qapısına yaxınlaşanda atamla Cavadın bir kişi ilə mübahisə etdiyini gördüm. Azacıq dayanıb gözlədim ki, bəlkə mübahisə bitər və mən işə gedərəm. Lakin Cavadın onu itələdiyini gördüm: - Səbinə titrək səsi ilə sözünə davam etdi: - o kişi cibindən bıçaq çıxardıb əvvəl Cavada vurdu. Atam onu qolları arasında tutanda atamın da ürəyindən bıçaqladı. Cavad ayağa qalmaq istədiyi an qatil ona yenidən bir neçə dəfə bıçaq sancdı. Qorxumdan qışqırdım. Düşündüm ki, hər ikisi də öldü. Amma o bloka yaxınlaşdı. Mən evə doğru qaçdım. O da arxamca qaçırdı. Evin qapısına az qalmış məni tutdu. Bıçağı boğazıma dirədi. Dedi əgər kiməsə nə isə desəm məni, anamı və yaxınlarımı da öldürəcək. Mən də razılaşmalı oldum :- Səbinə sözlərini yarım qoyub

boynundakı yaylığını açıb boğazındakı bıçaq izini göstərdi: - Sonra əlimi boğazıma sıxıb içəri keçdim. Ağlamaqdan az qalırdı ürəyim partlaya. Boynumdakı qanı Sahibə görmədi. Çünki, içəri keçən kimi otağa girib, arxadan bağladım.

- Qatil Sahibdir?- Muradlı qəfildən sual verdi.
- Mən qorxuram. Desəm anamı da öldürər, yaralı atamı da, məni də.

Məmmədzadə:

- Siz qatili nə vaxta kimi gizlətmək fikrindəsiniz? Narahat olmayın, biz sizi qoruyarıq. Amma gizlətməyə təkid etsəniz sizi cinayətkara yardım etdiyiniz üçün həbs edəcəyik.

Polkovnik Muradlı:

- Qızım insafa gəl, de görüm, qatil Sahibdir? Dünən sizin evə sənə növbəti dəfə xəbərdarlıq etmək üçün gəlmişdi? Danış, qorxma! Unutma ki, heç bir qatil şahidi sağ buraxmaz.

Mən:

- Səni də bir zaman öldürəcək. Axı atan hələ sağdır. Ona yazığın gəlsin.

Mayor Səfərli:

- Bəs Cavad?! Onun qanını yerdə qoyacaqsan?

Səbinə qətiyyətlə cavab verdi:

- Bəli atamı da Cavadı da bıçaqlayan qonşumuz Sahib idi!!!

Bu vaxt qapı açıldı. Sahib qapıdan boylanıb:

- Rəis, bəlkə sabah gələrəm? Hə? İşim gücüm var axı!

Polovnik-leytenant Məmmədzadə bizə əmr etdi:

- Tutun onu! Ciblərini yoxlayın.

Səfərli və mən Sahibi cəld tutduq. Qollarına qandal vurub, ciblərini gəzdik. Oradan cib dəsmalı, kağız parçası, və cib bıçağı tapdıq.

Dəhlizə çıxıb bıçağı polis zabitinə uzatdım. Təcili ekspertizaya aparıb qısa zamanda cavab göndərmələrin istədik.

Sahib:

- Mənim günahım yoxdur. O çörək bıçağımdır. Mağazada para çörək satanda onunla kəsirəm. Hara aparırsız? Nə ekspertiza, siz nə danışırsız? Mən qatil deyiləm!!!

Polkovnik Muradlı:

- Demək günahın yoxdur?
- Hə. Günahsızam.
- Yaxşı nə deyirəm. Bəs hadisə baş verdiyi zaman nə edirdin?
- Demişdim axı. İfadəmdə var. Çörək almağa düşmüşdüm. Qızımın ad günü idi. Onda Cavadgillə rastlaşdım.
- Aha... demək çörək alırdın?
- Hə qəpiklərim də yerə tökülmüşdü. Onda görmüşdüm ki, yerə sərildilər. Qatil isə əllərini sallaya-sallaya gedir.
- Qəpiklərin?
- Hə, qəpiklərim. 7 çörəklik qəpiyim vardı, əlimdən yerə dağılmışdı.
- Nəyə görə siz çörək satdığınız halda evinizə çörəyi məhz pulla alırsız?- Muradlı davam etdi- Bizi axmaq yerinə qoymayın Sahib bəy. Əlimizdə Səbinənin etirafı var. Günahınızı boynunuza xoşluqla alın. İş ondadır ki, polkovnik-leytenant Məmmədzadə, bu şəxs qara plaşlı alnı çapıqlı qatili uydurub ki, sizi səhv yola salsın. Məhz onun verdiyi yanlış ifadə sizin cinayəti açmanıza mane olub. Düyünün harada olduğunu soruşurdunuz. Baxın düyünün özü elə qarşınızda əyləşib. Əks halda siz bu cinayəti çoxdan açmışdız. Sahibin qatil olduğunu göstərmək üçün Səbinənin ifadəsi bəs edərdi. –üzünü yenidən Sahibə tutub - Yaxında Fərhad bəy də ifadə verə bilər. Onda çıxış yolunuz olmayacaq.

Sahib bir qədər başı aşağı oturdu. Nə isə qərarlaşdırdığını hiss etmişdim ki, sözə başladı:

- Bəli yoldaş müstəntiq daha gizlətməyin yeri yoxdur. Qatil mənəm! İş ondadır ki, axmaq nəfsimin qurbanı olmuşam. Hər həftə ailəmdən xəbərsiz qumar oynayardım. Düşünürdüm ki, bir zaman külli miqdarda pul udaram və ailəmi kasıblıqdan xilas edərəm. Lakin alınmadı. Bir gün oyunun ən qızğın yerində pulum bitdi. Tərslikdən dükanımın sənədləri cibimdə idi. Əlimə keçər keçməz düşünmədən oyuna qoydum. İnanırdım ki, udaram. Amma şansım yox imiş. Uduzdum. Beləliklə, ailəmi necə deyərlər “çörək ağacından” məhrum etdim. Başqa iş də əlimdən gəlmirdi. Bacardığım tək şey ticarət idi. O andan özümə bir daha qumar oynamayacağıma söz verdim. Tövbə etdim. Dükanımı uduzduğum şəxs insaflı oldu. Dedi sənədi 5 min manatın müqabilində qaytaracaq. Amma cəmi 3 gün vaxt verdi. Üç günə 5 min manatı necə tapardım. Elə bir tanışım, dostum da yox idi. Dükan da atamdan mənə qalma idi. İşlədikcə ərazisini genişləndirmişdim. 100-200 manat deyil ki, tanışlarımdan tapam. Mənim üçün 5 min manatı tapmaq özü də 3 günə qeyri-mümkün idi. Həmin gecəni yata bilmədim. Götür qoy edib borc ala biləcəyim insan axtarırdım. Nəhayət Fərhad bəy və onun ilk yoldaşı Zərifə xanımı xatırladım. Səhər açılan kimi blokun ağzında

Fərhad bəyi gözlədim. Bilirdim ki, işə gedəcək. Axı hər səhər rastlaşırdıq. Ondan xahiş etdim ki, mənə bu məbləği borca versin. Lakin Fərhad bəy pulu mənə yalnız 4 gün sonra verə biləcəyini dedi. Hal-hazırda isə o qədər milli pulu yoxmuş. Buna çox məyus oldum. Yenə də düşündüm ki, bəlkə qumarda uduzduğum şəxslə danışıb, pulu 4 gün sonra verəcəyimə razı salım. Ancaq o qəti dedi ki, “Pul iki gün sonra onda olmalıdır. Əks halda dükanını əbədi unut! ” Məcbur qalıb getdim Zərifə xanımın sahib olduğu zavoda. Bir neçə dəqiqə sonra katibəsi Zərifə xanımın məni bu gün qəbul etməyəcəyini dedi. Yalvar-yaxar etdim ki, desin çox vacibdir. Görüşməliyəm. Nəhayət razı oldu. Cəmi iyirmi beş dəqiqə dəhlizdə ayaq üstə gözlədikdən sonra məni qəbul etdi. Etməz olaydı.

- Niyə? - mən soruşdum.
- Çünki, o əfi ilandır. Yox...yox.... Daha betər. Gürzədir, İblisdir! İnanın ki, başqa yolum yox idi.
- Sözünün qısası....- Məmmədzadə əsəbiləşdi.
- Düşündüm ki, Zərifə xanımla pulu ay-ay vermək şərti ilə danışsam, bəlkə mənə lazım olan məbləği verər. Bilirdim ki, onun hər zaman pulu var. Özüm də bir neçə dəfə dükanım üçün onun zavodunun ixrac etdiyi mallar almışam. Ona görə Zərifə xanımla tanış idik.
- Dayan! - deyə Muradlı səsləndi :- Dəhlizdən Zərifə xanımı da çağırın.

İki dəqiqə sonra Zərifə xanım içəri daxil oldu. O Sahibi əlində qandal, polis zabitinin nəzarəti altında başı aşağı oturduğunu görəndə rəngi dəyişdi. Zərifə xanım şabalıdı saçlı, üzərində iki qalın xətt ağ saçları, şabalıdı gözlü, yumru sifət olsa da bədən quruluşuna görə qızı Səbinədən heç də geri qalmayan, orta boylu, adı kimi zərif, geyimindən də imkanlı olduğu nəzərə çarpan qadın idi. Səbinənin doğma anasına sevgisi və hörməti elə burada da görünürdü. Zərifə xanım içəri keçər-keçməz Səbinə oturduğu yerdən qalxıb, yerini anasına göstərdi. O da qızının üzünə sevgi ilə sığal çəkib əyləşdi. Bu zaman polkovnik Məmmədzadə:

- Zərifə xanım, sizi görməyimizə şadıq. Polkovnik- leytenant Məmmədzadə! – özünü təqdim etdikdən sonra - ayaq üstə duran şəxs mayor Səfərli və mayor Eyvazov, pəncərə önündəki şəxs isə Murad Muradlı.
- Tanışlığımıza şadam.

Zərifə xanım bu ərəfədə başı ilə astaca salam verirdi. Arada isə çönüb Sahibə baxırdı. Bu zaman polkovnik Muradlı:

- Hə, Sahib! Gəldin Zərifə xanımdan borc almağa. Davam et!....

- Bəli cənab! Zərifə xanımdan pul istəməyə gəlmişdim. Dedim 5 min manat pul lazımdır. Neçə aya istəsə dükandakı gəlirimlə ödəyərəm. O isə..
- O, nə?
- Elə təhqirlər, elə alçaldıcı sözlər eşitdim ki, dəymişim dura-dura kalım töküldü.

Zərifə xanım yerindən heç tərpənmədən, bir baş Sahibə baxıb:

- Necə lazım idi elə də elədim. Sən özünə hörmət etməyəndən sonra, başqasından nə hörmət gözləyirsən?
- Davam edin. O pulu verdi ya yox?
- Çox and-aman etdim. Əgər bilsəydim ki, pulu yoxudur, istəməzdim!
- Beş min manat onun üçün heç nə idi. Amma o pul əvəzində şərt kəsmək istədi.
- Şərt? Nə şərti?
- Dedi pulu yalnız bir şərtlə verərəm, heç geri də istəmərəm. Əvəzində mən də şərtinin nə olduğundan asılı olmayaraq razı oldum. Kaş ki, olmasaydım. Biləndə ki, beş min manat müqabilində Fərhad bəyi öldürməyimi istəyir..

Bu zaman Səbinə yerindən sıçrayıb:

- Nə? Nə istəyir?
- Mən beş min manatın müqabilində Fərhad öldürməli idim. Əvvəlcə qorxuya düşdüm. Axı indiyə kimi kimsəni öldürməmişdim. Əvvəlcə düşünərəm deyib evə qayıtdım.

Səbinə Sahibin etiraflarını eşidib dəhşətə gəlirdi. Anasına gözü yaşla dolu baxıb:

- Ana, sən bunu necə edə bildin axı? Bəs Cavadın günahı nə idi?

Zərifə xanım isə:

- Səbinə sus! Sonra danışarıq. Cavadın yerinə kaş mən ölərdim. –sonra Sahibə baxıb :- Axmaqsan! Gül kimi balama qıydın.

Məmmədzadə qəzəblənib:

- Dayanın, görək Sahib nə danışır!
- Gecəni səhərə kimi yata bilmədim. Ailəmi düşündüm. Övladlarımı düşündüm. Çox pis vəziyyətə düşdüm. Axırda getdim düz Zərifə xanımın işinə. Razıyam deyib pulumu istədim. O da dedi ki, get öldür. Sonra pul sənindi. Mən isə ticarətçi olduğumdan pulumu əvvəldən aldım. Gedib pulu qumarda uduzduğum şəxsə verib dükanımın

sənədlərini geri aldım. Əslinə qalsa nə Fərhad , nə də Cavadın mənə pisliyi dəyməmişdi. Həm də ilk dəfə insan öldürəcəkdim.

Səbinə qışqıra-qışqıra:

- Allah cəzanızı versin! Qatillər!
- Sakit olun. Mane olursuz! Davam edin! - dedim.
- Gözlədim ki, səhər Fərhad bəy blokdan çıxsın. Gördüm Cavad da gəlir. İnanın ki, məcbur idim. Nəyisə dəyişmək əlimdə deyildi. Ardını da özünüz bilirsiniz. Onsuz da o andan yerin dibinə batmışam. Cəzam nədirsə onu da çəkməyə hazıram.
- Sizin sözünüz yoxdur Zərifə xanım? Özünüzü bir övlad qatili kimi necə hiss edirsiz? - deyən polkovnik Muradlı ciddi nəzərlərlə Zərifə xanıma baxdı.
- Bütün bunları inkar etməyəcəyəm! Düzdür Fərhada ayrıldığımız andan nifrət edirdim. Bundan əlavə iyirmi il onun növbəti evliliyinə görə oğlum Cavaddan da olmuşdum. Oğlum doğma anası dura-dura yad birinə "Ana" deyirdi. Mən Sahibə Fərhadı öldürməyi tapşırmışdım. Amma bu alçaq Fərhadı yaralı qoyub gül kimi balama qıydı. Allah sənin cəzanı versin!

Həyəcan dolu səsi ilə sözlərini bitirən Zərifə xanım ayağa qalxıb Sahibə əl-qol uzatdı. Bu zaman Məmmədzadə:

- Allahı deyə bilmərəm. Amma cəzanızı qanun mütləq layiqincə verəcək! Bəs Fərhadı necə oldu ki yaralı qoydunuz? Buna açıqlama verin ki, ifadənizdə hər şey ətraflı olsun!
- Mənim də məqsədim Fərhadı öldürmək idi. Lakin onlara yaxınlaşıb bıçağımı qaldıranda Cavad mənə atasını qorumaq üçün güc gəldi. Odur ki, Cavada qarın hissəsindən heç xatırlamıram da iki ya da üç heç də dərinə getmədən bıçaq sancım. Məqsədim şahid buraxmamaq olsa da Cavadın aldığı yaradan sağ qalacağına inanırdım. Bu ərəfədə Fərhad məni itələdi. Cavadı qolları arasına qaldırıb qışqırıb köməyə çağırmaq istəyirdi ki, cəld tərpənib həmin bıçaqla düz onun ürəyinə axıra kimi basdım. Mənə qaranlıq qalan onun hələ də sağ olmağıdır. Bu necə ola bilər, axı mən onun ürəyinə bıçağımı tam sonunadək basmışdım.

Mayor Səfərli Sahib bəyin sualına açıqlama verdi:

- İş ondadır ki, Sahib bəy siz bıçağı 2 sm yuxarı basmışdız.. Cavad isə daxili qanaxmadan ölmüşdü.

Bu vaxt ekspertizadan cavab da gəldi. Sahibin bıçağının həqiqətən cinayət törədilən bıçağın eynisi olmaqla yanaşı, hətta üzərində Fərhad kişinin qurumuş

qanı aşkar edilmişdi. polkovnik Məmmədzadənin göstərişi ilə Sahib və Zərifə xanım həbs edildi. Otaqdan çıxmazdan əvvəl Muradlı Zərifə xanıma:

- Sizə lap yazığım gəlir. Həyat yoldaşınızın öldürülmə cəhdi sizə heç nəyi vermədi. Əvvəlcə yoldaşınızdan, sonra oğlunuzdan, indi isə sizə bu qədər sevgi və hörmət bəsləyən qızınızdan məhrum oldunuz.

Bu sözlərdən sonra Zərifə xanımın gözlərindən iki damla yaş axdı. Başını aşağıya salıb qolları qandallı otağı tərk etdi.

## *Səkkizinci fəsil*

İki gün sonra mayor Səfərli xəbər verdi ki, Fərhad kişi artıq ayılıb və bizə ifadə vermək istəyir. Odur ki durmadan xəstəxanaya yollandıq. Otağa daxil olanda çarpayıda uzanmış üzünü saqqal basmış, təxminən orta boylu arıq, qara saçlı Fərhad sağ əlini qaldırdı. Biz də növbəmizdə salamlaşıb ona şəfa dilədik. Məhkəmədə əsas şahid kimi çıxış edəcəyini də xəbər verdik. Fərhad bəyin təkidi

ilə ondan elə oradaca ifadəsini alıb Sahibin bir daha qatil olduğunu eşitdik. Fərhad bəy zahirən sağlam görünsə də, ürəyi qan ağlayırdı...

Qatilin həbsindən artıq üç gün keçmişdi. Polkovnik Murad Muradlı, mayor Səfərli və mən, polkovnik Məmmədzadənin evində toplaşıb çay içirdik. Muradlı artıq Rusiyaya qayıtmalı idi. Səfərli Muradlını yenidən gördüyü üçün çox sevindiyini və ona hər ay məktub yazacağını deyirdi. Məmmədzadə isə otuz beş illik dostunu yenidən gördüyündən məmnunluq hiss etdiyini və onu evində görməyə hər zaman şad olduğunu deyirdi. Mən də öz ürək sözlərimi dilə gətirmək istədikdə, telefon zəng çaldı. Məmmədzadə dəstəyi qaldırdı:

- Eşidirəm!
- Yoldaş Məmmədzadə, növbəti qətl hadisəsi baş verib.
- Yaxşı. Hadisə yerinə ekspertləri göndərin! Prokurorluğu xəbərdar edin. Mən də gəlirəm.

Dəstəyi asıb üzünü mayor Səfərliyə tutdu:

- Səfərli sən mənimlə gedirsən. Əziz dostum, təəssüf olsun ki, səni qatar dayanacağına yola sala bilməyəcəyəm. Mümkünsə incimə. Mayor Eyvazov səni ötürər. Sonra hadisə baş verən əraziyə gələr.
- Əlbəttə, sən vəzifəni yerinə yetir. Məndən də nigaran qalma. Rusiyaya çatar-çatmaz teleqram vuracağam. İndi isə tələs.
- Etdiyin köməkliklərə görə sənə çox minnətdaram. Növbəti görüşümüzü səbirsizliklə gözləyəcəyəm. Xudahafiz!
- Xudahafiz, əziz dostum!

Xəfiyyə Murad Muradlı ilə tanışlıq mənim həyatımda və xüsusilə də işimdə öz müsbət təsirini göstərdi. Həmin gün onu hava limanından yola saldım. Vidalaşanda öyrəndim ki, o tədqiqat boyu cib dəftərində yalnız mülahizələrini və nəyə daha diqqətli olmaq lazım gəldiyini qeyd edirmiş. Hələ yoldaş Məmmədzadənin evində ifadələri oxuduğumda Muradlı Sahibdən şübhələnirmiş. Mənə bir neçə hikmətli sözü də xatırlatdı. Dedi ki:

- Qulaq as oğul! Müdriklik və mərdlik - əzəmətin təməlidir. Bunlar əbədidir və insana əbədiyyət bəxş edir. İnsan daha çox öyrəndikcə, daha çox insan olur. Müdrik olmasa, müdriklik faydasızdır.

İyun-2008 ci il.



**“Xoşbəxtlik həsrəti” (Roman)**

***Birinci fəsil.***

--Musa, qardaş!  Təbrik edirəm. Gözəl-göyçək bir qızın doğuldu...

Bu xəbəri artıq beş il idi ki gözləyirdi. Xanımı Dilarə ilə hər gün Allaha dua edərdilər. Ondan təkcə övlad arzulayardılar. Budur artıq ata olmuşdu. İnana bilmirdi qulaqlarına. Diz üstə oturub əllərini göyə qaldırdı :

-- Sənə min şükür Ya Rəbbim! Arzularımızı dualarımızı eşitdin... Sənə şükürlər olsun...

Allaha şükr edən bir insana tamaşa etmək hər insana nəsib olmasa da, Cəmilə həkimə bu gün qismət olmuşdu. Musanın qızının doğulduğunu eşidib göz yaşları içində Allaha şükrlər etməsinə özü də qəlbən sevindi.

--Cəmilə xanım, bəs Dilarə necədir? Yaxşıdırmı?

--Əlbəttə, o da qızınız da lap yaxşıdır. Hər ikisi sağlamdırlar. Heç narahat olmayın. Yaxşısı budur deyin görüm qızınızın adını nə qoyacaqsız?

--Sevinc!

-- Cox gözəl addır. Adıyla böyüsün İnşallah...

Cəmilə həkimin razılığı ilə hər ikisi  Dilarəni və yeni doğulmuş uşağı görmək üçün evə girdilər...

Bütün bu illər Mahmudovlar ailəsinin xatirəsində çox xoş keçdi. Musa işləyir, Dilarə evdar qadın kimi evi dolandırır Sevinci tərbiyə edirdi. Kəndin ən hörmətli sakinlərindən biri idi Musa. Yaşından aslı olmayaraq hər kəsi mehribanlıqla qarşılayar, mehribanlıqla yola salardı. Dilarə də səmimi, gülərüz xanım-xatın bir qadın idi. Musa ilə uzaqdan uzağa sevmişlər bir-birlərini. Amma Musa əsgər gedib gəldikdən sonra daha sevgisini gizlətməmiş elçisini göndərmişdi qapılarına. Bəxtindən atası da Musanı bəyəndiyi üçün vermişdi yeganə qızını ona. Çox xoşbəxt idilər. Çatışmayan isə tək övladları idi. O da Allahın qisməti ilə beş il sonra doğuldu. Musa qızının adını Sevinc qoydu. Çünki, ailəsinə sevinc bəxş etmişdi gəlişi ilə.

On dörd il sonra...

Musa artıq həyatda yox idi. Uzun və mubarizəli xəstəlikdən sonra dünyasını dəyişdi. Dilarə onun yoxluğuna alışa bilmirdi. Hələ Sevinc yazıq qız atasından bir an belə ayrı qalmağa dözə bilmirdi, o ki qala ölümünə dözmək. Amma zamanla hər kəs alışdı. Bütün qonşular, qohumlar, alışmayan tək Dilarə və Sevinc oldu. Dilarənin qardaşı hər həftə onlara bazarlıq edib gələrdi. Əlavə də pul verərdi ki, birdən nəsə lazım olsa alsın. Üstəlik də bir sözü sanki əzbər etmiş kimi hər gəlişində Dilarəyə təkrar-təkrar deyirdi- "Dilarə, mənim evdə bir sürü külfətim var 4 cü uşaq da yoldadı. Üstəlik də sən və qızın. Ona görə çalış bir az qənaət et ki, mənə də yük çox düşməsin" Bəli bu sözlərə Dilarə həmişə eyni cavab verərdi-"Əlbəttə qardaş, səni gözəl başa düşürəm".

Buna baxmayaraq Dilarə boş oturmurdu. Əlindən çox gözəl hörgü və tikiş işi gəlirdi. Səliqəsinə söz ola bilməzdi. Ona görə dərziliyə başladı. Gecə-gündüz bilmədən işləyirdi evində. Qonşuların çoxuna tanışlıq üçün nisyə etsə də yenə də əli dara düşəndə o pul əlinə gələrdi. Hər gününə şükr edərdi. Sevinc də anasına hər zaman kömək edərdi. Bağdakı bütün kişi işini Sevinc asanlıqla görürdü. Elə kişi kimi böyümüşdü. Dərsini də yaxşı oxuyardı. Elə imkansızlığa görə ali təhsil almaq barədə düşünmədi.

Sevincin sevgisindən dəli divanə olan Tərlan həmişə kənardan ona tamaşa edərdi. Artıq 17 yaşları vardı. Və bir gün ona qəlbini açacağı günü gözləyirdi. Amma heç cürə onu tək tuta bilmirdi. Həmişə harasa gedəndə ya yanında anası vardı, ya da qonşu qızı "rəfiqəsi" Arifə. Baxmayaraq ki, Sevinc ona sevgisi üçün bir səbəb verməmişdi, amma yenə də əlində deyildi. Uşaqlıqdan Sevinclə oynadığı gizlən-qaçdan bəri sevirdi onu.

Arifə isə Tərlanın Sevincə olan gizli sevgisini hiss etmişdi. Lakin bu sevginin baş tutmamağı üçün nə lazım olsa etməyə də hazır idi. Sevinci həmişə qısqanırdı. Onun paxıllığını elə lap uşaqlıqdan çəkirdi. Hər zaman atasının, anasının sevimlisi olmuş, oyunlarda daim qalib olmağı bacarmış, məktəbdə əlaçı olmuş, hər kəsin mehriban və şirin qız kimi sevgisini qazanmış Sevincin paxıllığını edirdi. Üstəlik pəncərədən baxanda hər dəfə Tərlanın Sevincə necə baxdığının şahidi olduqca ağlına hər fikir gətirirdi. Tək istəyi, məqsədi artıq Tərlan olmuşdu. Beynində qərar vermişdi ki, nə olur-olsun Sevinc Tərlana ərə gedə bilməsin. "Sevincdən nəyim əskikdir ki, elə özüm gedərəm ona" deyərdi. Həmişə Sevincgilə üzünə "rəfiqə" maskası taxaraq gedərdi. Tərlanın onu tək tuta bilməməsi üçün əlindən gələni də edirdi. Sevinc hara getsə yanına düşərdi. Guya onu çox istəyir, evdə də oturmaqdan ürəyi partlayır. Sevinclə birgə onun anasının tikdiyi paltarları sahiblərinə verib gələrdilər.

Vaxt beləcə keçirdi. Gün gəldi Tərlan əsgər getdi. Onun əsgər getməsinə Arifə çox sevinirdi. Çünki planında Tərlanın əsgərlikdə olduğu vaxt ərzində Sevincə bir ər tapmaq vardı. Çalışırdı ki, Tərlan gələnə kimi onun "başını bağlasın" . Bunun üçün şəhərdə yaşayan əmisi qızına zəng vurdu:

"Əgər oralarda kimsə evlənməyə kənd qızı axtarsa de, biri var Sevinc. Atası rəhmətə gedib 18 yaşı var. Gözəl-göyçək qızdı. Anası dərzidi. Savab qazanarsan"

Əmisi qızı şəhərdə tibb bacısı işləyirdi. Günlərin bir günü elə təsadüfən iş yoldaşının qardaşı haqqında danışdıqlarını eşitdi:

-- Qardaşım Rusiyada işləyir. Atamın, anamın tək oğludur. İstəyirik bir halal süd əmmiş qız tapaq. Ona qalsa illər keçsə də tapa bilməz. Cəmi 28 yaşı var. Atam xəstədir. Deyirik, nə qədər ki, yaşıyır oğlunun toyunu görsün. Amma öz aramızdı, hardadı indiki zəmanədə halal süd əmmiş qız? Olsa-olsa kənd yerində olar, ya olmaz. O da tanıdığım yox, bildiyim yox...

Elə onda əmisi qızı Arifəyə zəng vurub dedi ki, bəs, təcili qızın rəsmini göndər. Arifə də böyük məharətlə Sevincin albomuna baxmaq bəhanəsi ilə şəkillərindən birini gizlincə götürdü. Poçta gedib onu bir zərfə qoydu. Çatacağı

ünvana kimi qeyd edib evinə gəldi. Əmisi qızı şəkili əldə etdiyi gün elə iş yoldaşı tibb bacısına göstərdi. O da evlərinə aparıb qardaşına və atasına anasına göstərdi. Hamısı bəyəndikdən sonra xəbər etdilər ki, bəs, əmin qızına de ki, o qızın evinə elçi gedəcək bu yaxınlarda.

Arifə xəbəri eşidən kimi həm paxıllıq etdi ki :"qızdakı bəxtə bax e, bir göz qırpımında elçilər hazırdı". Bir yandan da sevindi ki, "Tərlana qismət olmayacaq. Əsgər gələnə kimi Sevinc də ərdə olar. O da məcbur qalar məni alar. Məgər məndən başqa kimi bəyənər ki, anası"...

Bəli Arifə artıq Tərlanın anasının gözünə girməyi də bacarmışdı. Axı yeganə balası əsgər idi. Buna görə onlara tez-tez baş çəkir, evdə ya mağazalıq nəsə ehtiyacı olub-olmadığnı soruşardı. Hətta bir necə dəfə ev işlərində də kömək etməyə girişmişdi. Elə xəbəri eşidər eşitməz Sevincə deməyə tələsdi.

Sevinc bu vaxt bağdakı solmuş yarpaqları süpürürdü:

--Sevinc, ay qız bəxtəvərsən e, sənə şəhərdən elçilər gəlir.

-- Necə məyər, elçilər? Nə şəhər, nə elçi?

-- Əmim qızı təsadüfən iş yoldaşının qardaşı üçün kənd yerindən qız axtardığnı eşidib mənə zəng etdi. Mən də səni dedim. Onlar da elçi gəlirlər. Bəyənməsən, özün bilərsən. Amma ağlın olsun dur get.

-- Arifə sən nə deyirsən? Mənim ərə getmək fikrim yoxdu hələ. Bəs anam təkcə neyləyəcək?

-- Ay qız, guya hec ərə getməyəcəksən? Elə gülməli danışırsan ki... Deyirəm şəhərdəndir e elçilərin. Get ərə kef elə də. Nə var bu palçıqlı asfaltsız kənd yollarında nə edəcəksən? Onsuz da bir qız bir oğlanındır. Bunu bəyənməzsən getməzsən, nə məcburdur.

Əslində Arifə bütün qəlbi ilə onun ərə getməyini "Tərlana sahiblənmək yolundan çəkilməyini" istəyirdi. Beləliklə, Sevinc anasına Arifənin dediklərini dedi. Dilarə qızını çox sevirdi və əgər qızı istəməsəydi məcbur kimsəyə verməzdi. Zaman gəldi. Oğlan evi elçi gəldi. Elçiləri Sevincin dayısı qarşıladı. Oğlan anası Dilarəyə oğlunu tərifləməyə başladı: "Oğlum Vahid Rusiyada işləyir. Öz əli-öz başı. Evlənsə hər ayda bir dəfə gedəcək işlərinə baş çəkib gələcək. Ailəcanlı oğlandır. Nə içki içər, nə siqaret çəkər. Rusiyada kiçik fabrik işlədir. Yəni həmişə orda olmağına ehtiyac yoxdu. İşçilərinə tapşırıq verib geri

dönür. Şəraitimiz də maşallah necə lazımdır. Beş otaq evimiz var. İkisi sənin qızının. Yaşasınlar xoşbəxt olsunlar. "

Dilarə qəlbən qızının uzağa; şəhərə ərə getməsini istəmirdi. Amma qardaşı dilə gətirdi ki, qoy getsin. Sənin kimi əziyyət çəkməsin. Əslində Sevincin dayısı dolandırmalı olduğu bir insanın azalmasını istəyirdi. Elə oğlan evinə ordaca "hə" də qəlbində bu sözü təkrar etdi: "Yükümün biri azaldı"

Onsuz da Vahidin ailəsi imkanlı idilər və Sevincin ailəsindən cehiz olaraq heç nə istəmədilər. Beləliklə bir ayın içində nişan və toy oldu. Sevinc ata evindən Vahidin evinə onun xanımı olaraq qədəm qoydu...

## *İkinci fəsil*

Toy günlərindən düz iki ay keçmişdi. Bu iki ayda Sevinc Vahidə alışmışdı. Ona hörmət edir, sözünü tərəddüd etmədən yerinə yetirirdi. Elə Vahidin ailəsinə də alışmışdı. Qaynatası xəstə yatağında olsa da ona da qulluq etməyi özünə bir övlad borcu hesab edirdi. İki baldızı vardı. Biri ailəli idi. 3 uşaq sahibi idi. Digər baldızı isə ailə qurmamışdı. Çünki həmişə bir sözü deyib dururdu : "Mən həyatımda bir dəfə sevənlərdənəm." Bəli baldızı illər əvvəl sevdiyi insanı itirdiyi üçün daha evlənmək barədə nə düşünmür, nə də kiməsə düşünməyə qoymurdu. Qaynanası Zəminə xanım elə zəhimli qadın idi. Sevinci ilk gördüyü andan bəyənsə də biruzə verməzdi heç zaman. Sanki yeganə oğlunu ona qısqanırdı. Paylaşa bilmirdi.

Vahid də xasiyyətcə mehriban, deyib gülən, şən oglan idi. Hələ əsgərlikdən qayıdandan Rusyaya işləməyə getmişdi. Bu neçə illər ərzində özünə həm vətəndaşlıq həm də yaxşı iş qazanmışdı. Kiçik fabriki vardı. Bütün günü telefonda asılı qalırdı. Sevinc də buna bir o qədər əhəmiyyət verməzdi. Çünki varlığı ilə kimsənin həyatının dəyişməyini istəmirdi.

Qaynatası Veysəl kişi artıq Sevinci doğma qızı kimi çox istəyirdi. Hətta dəfələrlə olmuşdu ki, Sevinc təkbaşına ona qulluq edirdi. Suyunu, yeməyini, çayını canla başla verirdi. Atasını itirdiyi andan bu ana ilk dəfə idi ki ata qayğısı, ata sevgisi hiss edirdi. Bunu o da hiss etmişdi. Sevinc üçün elçi gedə bilməsə də onu gəlinlikdə gördüyü andan qızı kimi sevmişdi. Hər gün mehribancasına söhbətlər edər, ona həyatından, zəmanədən, bu yaşına kimi yaşadıqlarından, gördüklərindən danışardı.

Günlərin bir günü elə evdə ikisi idi. Veysəl kişinin vəziyyəti çox ağır olsa da Vahid Rusyaya iki günlüyə getmişdi. Qaynanası Zəminə xanım isə bacısının oğlu uçun keçirdiyi xeyir işdə idi. Baldızı da iş yerində. Yəni Sevinc kimsəni köməyə çağıra bilmirdi. Tək güc onun çiyinlərinə düşdü. Qaynatasının sifətinin rəngi heç xoşuna gəlmirdi. Bu iki ayda ona elə alışmışdı ki, "İlahi sən onu bizlərə çox görmə"- deyərək qəlbində yalvarmağa başladı. Tez telefona əlini atıb baldızını, qaynanasını çağırdı. Hər ikisi də dedilər ki, "Bu saat gəlirik". Amma yarım saat keçmişdi. Kimsə gəlmirdi ki, gəlmirdi. Sevinc Veysəl kişinin nəfəs almasının belə normal olmadığını hiss edirdi. Sanki bir an içində doğma atasını yenidən itirirmiş kimi bərkdən ağlayırdı.

Qapı zərbə ilə açıldı. Zəminə əlində çantası özünü güclə saldı evə. Gördüyü mənzərədən isə dəhşətli baxışı bir o qədər böyüdü. Bəli artıq Veysəl kişi canını tapşırmışdı. Qaynatasının əllərini bərk-bərk sıxan Sevinc isə hönkür-hönkür ağlayırdı.

Artıq bir il keçmişdi o gündən. Amma nə Sevinc unudurdu o günü, nə də unutmağa qoyurdular. Zəminə xanım hər gün onu günahlandırırdı. Elə baldızı Firəngiz də ondan geri qalmırdı. Sağa keçirdi bir söz, sola keçirdi bir söz eşidirdi. Bu bir ili o qədər çətinliklə yaşamışdı ki, bir Allah bilirdi. Vahidə heç zaman evdəki söz sohbətləri deməzdi. Gizlədərdi ki, evdən soyumasın. "Yoldaşının əzizləri, mənim əzizlərimdir"- deyərək özünə təsəlli verirdi. Hətta anası ilə bir aydan bir zəngləşəndə ondan da gizlədirdi. İçində çəkirdi bütün dərdi. Hətta bir gün Arifə qəfl zəng etmişdi onlara. Telefonda Sevincə:

--Sevinc, necəsən? Ay qız deyirəm getdin şəhərliyə, daha bizləri sayıb eləmirsən. Niyə gəlib getmirsən? Anandan eşitdim uşağın yoxdur bəs niyə?

Sevinc bu zəngdən təsirlənmişdi. Düşünmüşdü ki, Arifəyə desə anlayar. Ona təskinlik verər. Amma Arifənin kinayəli sözlərinə görə ona etibar etmədi sirrini. Sadəcə "yola verdi" və dəstəyi asdı. Çox çətin il yaşamışdı. Bir yandan da uşaq olmaması onu incidirdi. Hər gecə yerinə uzananada ilk düşündüyü də bu idi: "Görəsən mən sonsuzam?"

Evdə vəziyyət hər ay daha da pisləşirdi. Vahid də ayda bir dəfə yox ayda 3 dəfə Rusyaya gedirdi. Gedəndə də bir həftə qalırdı. Yəni hər ayın cəmi bir həftəsi Vahidlə keçirdi. O yanında olanda evdə kimsə Sevincə güldən ağır söz demirdi. Əksinə onu mehribancasına nəyəsə buyururdular. Sevinc də hər dəfəsində: "Vahid heç nədən narazı qalmasın" deyib içini yeyib qurtarmışdı.

Artıq toylarından iki il keçmişdi. Bu iki ildə Dilarə qızını cəmi 3 dəfə görmüşdü. O da təsadüfən Vahid gedib onu gətirmişdi. İki gün qızının yanında

qalıb ona doymadan yenidən gedərdi kəndə. İstəyirdi ki, ona görə qızının evinə söz söhbət düşməsin. Hamı mehriban olsun. Hətta bir dəfə Zəminə xanıma "Sevinci deyirəm bir həkimə aparaq müayinə etsin. Bilək görək nədəndir uşaq olmamağı" deyəndə. Zəminə xanım az qalmışdı əlindəki stəkanı nəlbəkiyə yox elə bir başa Dilarənin üstünə ata.

--Yoxlanmalı heç nə yoxdur Hər şey açıq aydın göz qabağındadır. Gün gələr o da olar Allahın köməkliyi ilə... - deyib söhbəti bağlamışdı.

Əslində Zəminəyə elə bu da lazım idi. O istəyirdi ki, tezliklə Sevinc ata evinə qayıtsın. Uşağın olmamağı onu incitmirdi. Əksinə əmin idi ki, Vahidlik deyil. Çünki Vahidin Rusyada evli olduğunu və ondan iki qızı olduğunu bilirdi. Buna görə arxayın idi ki, Sevinc sonsuzdur. Dilarə özü də beş il Sevincin arzusunda olmuşdu. Övladı olmamaq nədir yaxşı bilirdi. Qızının nələr yaşadığını da, nələr hiss etdiyini də başa düşürdü. Elə Sevinci o vəziyyətdə görməsin deyə tezliklə kəndə qayıtmışdı.

Anasının son gedişindən düz 2 ay keçmişdi. Sevinc telefonu götürüb Vahidə mesaj yazdı. Amma tezliklə cavab olaraq ona mesaj gəldi. Açdı və rus dilində nəsə gördü. Çox heyf ki, bu dili Sevinc bilmirdi. Amma əmin idi ki, Vahid heç vaxt ona hər zamankından yəni "tezliklə gələcəm, işlərimi qaydasına salım gələcəm, ya da ki, fabrikdə ciddi problemlər var. Hələ bir neçə gün də qalacam" kimi mesaj yazardı. Ona görə Sevinc arxayınlıqla telefonu Zəminə xanıma uzatdı. xahiş etdi ki, Vahidin rus dilində yazdıqlarını tərcümə etsin. Zəminə xanım da "fürsətdir düşdü əlimə onsuz da rus dilini bilmir. Nə biləcək düz tərcümə etdim ya yox." düşündü.

-- Qızım, Vahid burda yazıb ki, mən daha burda qalacam. Və burdakı ailəm uşaqlarım səndən dəyərlidir. Sən də tezliklə get atan evinə. Məni də unut.

Sevinc Zəminə xanımın "oxuduqlarına" inana bilmirdi. Yəni Vahid belə yazıb? Əvvəlcə heç etmədiyi bir zarafat kimi dşünüdü. Sonra bir an içində həyatı alt-üst oldu. Zəminə xanım ona həqiqəti dedi:

-- Bəli Sevinc, Vahid 24 yaşında orda evlənmişdi. Nadejda adlı yoldaşı var. Mənə şəklini göndərmişdi. Mən də demişdim ki, rus-mus mənilk deyil. Öz millətimizdən olsun gəlinim deyim hə. Bax onda o da acığıma evləndi. Sonra iki ekiz qızları oldu. Sveta, Sima şirin baladılar. Albomda var e şəkilləri. Dayan göstərim.- Zəminə xanım termoya yaxınlaşıb kiçik albom çıxartdı. Sevinc yığışdıranda görmüşdü. Amma heç zaman başqasına aid bir şeyə baxmadığı üçün, bu alboma da baxmamışdı. Amma halbu ki, Zəminə xanım albomu göz qabağına qəsdən qoymuşdu ki, Sevinc görsün.

Zəminə xanım sanki qonşu oğlundan və qonşu qızından danışırmış kimi elə sakit və soyuq idi ki. Albomu da rahatlıqla açıb verdi Sevincin əlinə. Dedi:

-- Bax bu Nadejdadı. Toylarında çəkiblər. -Sevinc gəlinlik içində olan sarışın xanımı gördü. Vahidi də üzündə təbəssüm əynində bəyliklə...

-- Bax bu da Nadejda ilə bal ayında olanda çəkdiriblər. Antalyaya getmişdilər. -Sevinc yenə Vahidin yanağındakı təbəssümü və Nadejdanın necə qucaqladığını gördü.

--Bax bu da ekiz nəvələrim. - Zəminə xanım elə ağız dolusu danışırdı ki, sanki qarşısındakı insan deyil, elə bir cansız əşyadır. Sevinc uşaqlara da baxdı. Bəli şəkildəki uşaqlar Vahidə çox bənzəyidilər. Albomda uşaqların doğum evində, 6 aylığında, bir yaşlarında, və başqa-başqa yerlərdə Vahidlə və Nadejda ilə birlikdə çəkilmiş şəkillər ilə dolu idi.

-- Yəni qızım, artıq özün də uşaq deyilsən. Başa düşürsən ki, Vahidim nə zamana kimi sonsuz biri ilə yaşamalıdır? Onun o Nadejdaya yenidən qayıtmasına sən səbəb oldun. Vaxtında uşaq versəydin ona o da orda-burda olmazdı.

İlk dəfə idi ki, Sevinc özündən çıxdı:

-- Necə yəni? mənəm günahkar? Onun evli olduğunu gizlədən sizlər deyilsiz? Bu vaxta kimi məni fil qulağında yatızdıran? Həkimə gedək deyəndə ağzımdan vuran siz deyildizmi? Kimdir burda günahkar olan? Bilirsiz nə var? Əyər Vahid kişi kimi xanımın yanında olsaydı bütün ay boyunca baxın onda uşaq da olardı....

Sevinc özü də anlamadı nə etdiyini. Bircə onu bilirdi ki, Vahid onun deyildi. Və daha bu evdə heç bir şeyə dəyəri yoxdur. Tez otağına getdi. Zəminə xanım da iki illik gəlininin ilk dəfə onun sözünə söz deməsini uda bilmirdi. Tez Vahidə qısa-qısa zəng edirdi. Nəhayət Vahid zəng etdi:

-- Ana nə olub, nəsə vacib işdir?

-- Hə bala sənin bu arvadın özündən çıxıb. Sizin Nadejda ilə olan albomunuzu tapdı. Bəyaqdan görəsən mənə nələr demir. Elə bil məcbur gətirmişəm bunu bura. Bax sənə deyirəm o qız bu evdən gedəcək. Onsuz da sonsuzdur. Nəyinə lazımdır bala. Qoy getsin. Sən də özünə başqasını taparsan. O da gəncdir. Gedər evlənər biri ilə tutmayaq burda. Madam ki, sənin evliliyini qəbul etmək istəmir özü bilər. Deyək gülə-gülə.

Vahid bir an içində anasının dediklərini nə dərk edə bilirdi, nə də özü nəsə düşünə bilirdi. Amma çox qəzəblənmişdi. Buna görə də anasına dedi:

--Hanı o ver telefonu ona. - Zəminə xanım otağın qapısını çırparaq açdı telefonu yatağa atdı ki, "ala ərin zəng edir"

--Alo, Alo, Sevinc!

--Vahid bütün bunlar nə deməkdir?

--Sən kimsən ki, məndən haq-hesab soruşursan?

--Necə yəni nəyəm? Mənəm Sevinc eşidirsən?

--Lap yaxşı eşidirəm. Qulaq as tez ol anamdan üzr istə. Evliyəm sənə nə. Guya bilmirsən ki burda işi gücü olan, vətəndaşlığı olan evli olur? Bilmirsən ay axmağın qızı atamı bezdirdin öldü, indi də anama keçmisən?

--Vahid sən nə danışırsan?

--Sənlə evləndiyim günə bir qara daş düşəydi. Gör mən səni tanımamışam. Get atan evinə bir də qayıtma. Onsuz da uşaq da olmur. Get yaşa həyatını. Unut bizi. Yığışdır nəyin var get. Gələndə səni gözüm görməsin.

Sevinc telefonda eşitdiklərinə inana bilmirdi. Bu nə deməkdir axı? Özü də "nəyin var götür get atan evinə" deyib zəngi kəsməsi son nöqtə idi. Bəli Sevinc o evə təkcə gəlinliklə gəlmişdi. Heçnəsiz. Amma indi də aparılası bir tək öz canı idi. Odur ki, gözünün yaşını silərək. Qapıdan çıxdı...

## ***Üçüncü fəsil***

Dilarə qızının nələr yaşadığını yaxşı bilirdi. Özü də Sevincin arzusunda olmuşdu illərlə. Buna baxmayaraq o beş il ərzində Allaha həmişə şükr edib ki, "Allahım nə yaxşı ki, Musa kimi bir insanı qarşıma çıxartmısan."

Bəli, Dilarə yoldaşını çox sevirdi. Onun ölməyinə baxmayaraq, namusu ilə qızını böyütmüşdü. Qardaşı Cavidin köməyi ilə acılı günləri geridə qoymuşdu. Amma o yağışlı gecə Sevincin suyu süzülə-süzülə qapıdan girməsi heç gözünün önündən getmirdi.

- Görəsən balama nə olub? Axı niyə susur?

Sevinc artıq 2 gün idi ki, ata evinə gəlmişdi. Vahidin evindən çıxanda üstündə sadəcə yol pulu vardı. O pul isə rayona kimi gəlməyə yetərli idi. Rayondan

kəndə kimi isə Sevinc piyada gəlmişdi. Yağış güclü yağırdı. Lakin Sevincin gözlərindəki yaşı yuyub apara bilmirdi. Bütün yolu ağlamışdı.

"Vahid, axı mənə niyə yalan dedin? Axı məni niyə qovdun?", Bu cür fikirlər Sevinci tərk etmirdi...

Anasının 2 gündür bitib-tükənməyən suallarına cavab vermirdi. Daha doğrusu cavab vermək belə ona ağır idi. Lakin daha susmayacaqdı. Axı bir tək anası vardı. Onu incidə bilməzdi.

-Sevinc, qızım, nə olub axı? Niyə dinmirsən?

-Heç nə olmayıb ana, səninçün darıxmışdım.

-Bəs niyə Vahid səni gətirmədi? Niyə o gecə piyada gəlirdin?

-Vahid telefonda danışanda dedim anam üçün darıxmışam. Dedi get gör ananı. Yolda marşrut xarab oldu. Başqasının maşınına da minmədim.

Bəli, Sevinc ilk dəfə idi ki, anasına yalan deyirdi. Amma bu Dilarənin gözündən yayına bilməzdi. Axı qızını çox yaxşı tanıyırdı. Hər suala cavab verərkən gözlərini yayındırması, yanağının qızarması, əllərinin titrəməsi çox şeydən xəbər verirdi. Sevincin yayındırdığı gözlərə baxaraq "Axı niyə? Niyə yalan deyir mənə?" bu suallar onun beynində fırlanmağa başladı. Birdən qərara gəldi:

- Sevinc sən ki, mənə düzünü demirsən, onda gedirəm Arifəgildən sizə zəng etməyə. Qoy, qaynanan mənə desin görüm nə olub.

- Dayan! Ana, getmə.

Sevinc həyəcanlandı. Amma anasına neçə gün yalan deyəcəkdi ki?

-Gəl hər şeyi danışım. Amma bir də zəng etmə o evə. Xahiş edirəm.

Sevinc anasının əllərindən tutub divanda əyləşdi. O ana kimi yaşadıqlarının hamsını danışdı. Vahidin Rusiyada evli olmağından. Hətta iki qızından, qaynanasının sözlərindən və nəhayət Vahidin zəngində dediyi son sözlərinə kimi hər şeyi danışdı.

-Aman Allah! Qızım, sən nə danışırsan belə? Gör, yazıq balam nələr çəkib. İlahi sənə şükrlər olsun. Sən ki, balamı sağ-salamat o evdən xilas edib mənə çatdırmısan. Sənə şükürlər olsun.

-Ana, nə danışırsan? Yaşadıqlarımdan sonra hələ üstəlik şükr edirsən?

-Əlbəttə, qızım. Allaha hər anımız üçün şükr etməliyik. Sənin yaşadıqların, acıların hamısı qismətdir. Düşün ki, bundan da pis ola bilərdi. Bax onda Allaha hər gün şükr edərsən ki, nə yaxşı ki, zamanında sənin gözlərini açdı. Bəlkə, sən onunla heç xoşbəxt olmayacaqdın da... Axı bu iki ildə səni xoşbəxt edə bilməyib. Sənsə hey arzusunda olduğun övladı gözləmisən. Şükr elə, qızım, şükr elə. Hər şey üçün şükr elə.

-Ana, iki il arzuladım dua etdim. Övlad istədim. Mənə onu vermədi. Əksinə ailəmdən etdi. Vahidin evli olduğunu öyrəndiyim an həyatım söndü. Onun mənə "Get atan evinə bir də qayıtma. Onsuz da uşaq da olmur. Get yaşa həyatını. Unut bizi. Yığışdır nəyin var get. Gələndə səni gözüm görməsin."- sözündən sonra isə içimdəki inamım etibarım, sevgim öldü. Başa düşürsən?

Bu vaxt darvaza açıldı:

- Dilarə, xala! Evdəsən? Tərlanın şalvarını tikmisənsə, ver aparım geyinsin. İşə gecikir.

Bəli, bu Arifə idi. Tərlanın anasının gözünə girməyi bacarmışdı. Artıq o, əsgər gəlib Sevincin ərə getdiyini öyrənəndə aylarla qəlbində yas saxladı. Sevinci çox sevirdi. Tezliklə bir işə düzəlib başını qatdı. Anası da hər gün baş-beynini doldururdu ki, "Arifə çox yaxşı qızdı. Mənə sən olmayanda hər gün baş çəkirdi. Gəl ona elçi düşüm. Evlənin də. Gözümün önündə böyüyüb. Anasını da, atasını da tanıyıram. " Tərlan isə hər zaman qəti etiraz edərdi. Amma bir qış günü anası pilləkənlər sürüşkən olduğu üçün yıxıldı. Ayağı bərk əzildi. Müalicə etdilər. Amma həkim Tərlana tapşırdı ki, ona kömək lazmdır. Qəti ağır iş görməsin. Pilləkənləri bir müddət çıxıb düşməsin. Elə o gündən sonra Arifə gün boyu onlarda olurdu. Bir axşamdan axşama yatmağa evlərinə gedirdi. Anasına Tərlanı sevdiyini və onun anasına da daim kömək etmək istədiyini demişdi. Tərlan da məcburiyyətdən anasına kömək olsun deyə Arifə ilə evləndi. Həm də Sevinc artıq ona aid deyildi. Bunu həm də mənəvi dərk edə bilsəydi...

- Sevinc? Sən hara, bura hara?

Arifə darvaza önündə dayanmaq əvəzinə yuxarı başa keçmişdi. Sevinci divanda anası ilə əl-ələ tutub oturduğunu görəndə təəccüb etdi.

- Ay qız, deyəsən yolunu azmısan, hə? İki ildi getmisən, heç demirsən, bu Arifəyə bir sağol deyim.

- Sənə sağol düşmür.

Sevinc hirsindən ayağa qalxdı. Mat qalan Arifənin gözlərinin içinə baxa-baxa dedi:

-Sən və sənin əmin qızı olmasaydız, mən indi bədbəxt olmazdım. Getdin, şəklimi gizlin göndərdin. Əmin qizi oğlan tapdı iki daş arasında. Heç soruşmadın ki, bu oğlan evlidir, ya yox?

-Necə məgər? Vahid evli idi ki?

-Hə! İki ekiz qızı da var. Özü də Rusiyada evi -eşiyi, işi- gücü. Ona ata-anasına, bacısına qulluqçu lazım imiş. Sən də məni göstərdin. Bunun üçün sağol istəyirsənsə, onda eşit- Çox sağol!

-Sevinc, vallah bilməmişəm. İnan mənim heç nədən xəbərim yoxdu.

-İnanmıram Arifə. Daha kimsəyə inanmıram. Nə üçün gəlmişdinsə götür, get bir də bu qapıdan içəri girmə.

-Tər-tər-tərlanın şalvarı üçün gəlmişdim.

Arifə dili topuq vura-vura sözünü deyə bildi. Dilarə şalvarı gətirib verdi. Amma heç Arifənin üzünə də baxmadı. Arifə rəngi ağarmış vəziyyətdə qapıdan çıxdı.

"Yəni bu bizim Sevinc idi?" qəlbində təəccüb edirdi. "Gör, sakit təbiətli, kimsəyə acı söz deməyən, canla- başla köməyə qaçan, hər işdə uğur qazanan, hamının sevimlisi olan Sevinc necə də dəyişilib."

-Qızım sən kinli olma. Unut getsin. Arifə də pislik etmək istəməyib sənə. Əminəm ki, bilsəydi, heç zaman göz görə-görə səni oda atmazdı. Xəbərin yoxdu axı sənin Tərlan əsgər gələndə anası yıxıldı. Ayağı sındı. O da məcbur qaldı Arifə ilə evləndi ki, anasına kömək olsun. Yaman yaxşı uşaqdı Tərlan. Allah ona da övlad versin.

-Onun da uşağı yoxdu?

-Hə qızım. Həkimdən yoxlanıblar keçən ay. Arifə məcbur apardı onu. Getdilər şəhərə analiz verdilər. Cavab çıxdı ki, Tərlan sonsuzdur. Amma Arifənin uşağı ola bilər. İndi Arifə də bir cür bədbəxtdir də. Tək sən deyilsən ki? Ona görə sən Allahına şükr elə. Nə qədər ki, mən varam, səni ac qoymaram. Sən də istəsən, mənə kömək olarsan. Yaxşı dərziliyi də öyrətmişəm vaxtında. Başımızı aşağı salıb dolanarıq balam.

-Can, Ana. Nə yaxşı ki, sən varsan. Allahım , sənə şükrlər olsun. Elə hər şey üçün min şükr!

Bəli, Sevinc artıq şürk edirdi. Bir neçə gün keçdi. Dayısı Cavid də Sevincin geri dönməsindən xəbər tutdu. Elə bütün kənd də. Dayısı qəzəbləndi. Amma səbəbi biləndə bir söz demədi. Anası kimi normal qarşılayan çox oldu. Kimsə kimsənin qəlbində deyil və nələr yaşadıqlarını bilə bilməz.

Arifə də hər gün Tərlana göz qoymağa başladı. Hiss edirdi ki, Tərlan hələ də Sevinci sevir. İllər keçməsinə baxmayaraq Sevinci bir dəfə uzaqdan görəndə tanımışdı. Yaxınlaşmağa belə çəkinmişdi. Axı heç subay vaxtı Allahın salamını verməyə utanırdı. İndi necə yaxınlaşsın? Nə desin. Onun həyatının belə qurulmasına üzülürdü. Əlində olsaydı hər şey edərdi ki, təki yenidən Sevincin yanağında həmişəki təbəssümü görsün. Lakin mümkün deyildi. Daha hər şey fərqli idi. O ərindən ayrılmış gəlin. Tərlan isə evli bir kişi idi. Sevincin adına ləkə gəlməsin deyə hər gün işdən sonra çayxanaya gedərdi. Gün ərzində olan bitən orda kəndin kişiləri tərəfindən müzakirə edilirdi deyə, düşünürdü ki, birdən kimsə onun haqda nəsə danışar. Lazım olsa ağzının payını verər. Amma Sevinc heç yerə çıxmırdı. Kimsə onu görmürdü. Cəmi iki dəfə anası ilə tikilmiş paltarı sahibinə verməyə gedəndə görmüşdü onu uzaqdan. Ondan sonra çıxmamışdı heç yerə. Heç gedəsi yeri də yox idi axı.

Vahidin evini tərk etdiyi gündən artıq iki həftə keçirdi. Sevinc səhər yuxudan oyanar-oyanmaz başı hərləndi. Dilarə türkə-çarələr ilə ona kömək oldu. Amma hardansa gələn yumurta qoxusu onun ürəyini bulandırdı. Özünü güclə çölə atdı. Mədəsi qaynıyırdı. Dilarə nə baş verdiyini anlamırdı. Birdən qonşuluğundakı həkim Cəmilə xanım yadına düşdü. Elə Sevinci o vəziyyətdəcə qoyub həkim arxasınca gedə bilməzdi. Ağlına gəldi ki, küçədən keçən bir tanış olsa, etibarlı biri ona tapşırsın həkimi çağırmağı. Belə də etdi. Qaçdı darvazanı açdı. Küçədən Tərlan keçirdi. Nə etsin qızının halı pis idi. Məcbur qaldı. Həm də Tərlandan etibarlı kim ola bilərdi ki.

-Tərlan, oğul! Sevincin halı pisləşib. Sən Allah get Cəmilə xanımı bizə gətir.

- Sevincə nə olub, Dilarə xala?

- Bilmirəm bala, suala tutma. Get Cəmilə xanımı tez gətir.

Tərlan işə getmək üçün çıxmışdı evdən. Amma Sevincin sağlamlığı ona işindən də vacib idi. Odur ki, gözünü belə qırpmadan Cəmilə həkimin evinə getdi.

-Ana, götür burdan yumurtanı. İyrənirəm.

-Qızım, hər səhər yumurta yeyən sən deyilsən? Niyə iyrənirsən?

-Başım partlayır. Uzanmağa gedirəm.

-Uzan qızım, uzan! Cəmilə xanım da indi gələcək. Tərlanı gördüm küçədə. Dedim. Getdi gətirməyə.

-Nahaq yerə. Mən artıq yaxşıyam. Tərlan da işindən oldu indi.

-Hanı xəstəmiz?

Şirin dil Cəmilə həkim tənginəfəs girdi içəri. Tərlan da onunla bərabər. Amma bir an içində Sevincin solmuş bənizini görüb ürkdü. Daha qəlbi dözmədi. Tez ordan uzaqlaşdı.

- Sevinc! Qızım, nə oldu sənə?

- Bilmirəm, Cəmilə xanım! Oyanan kimi başım hərlənirdi. Sonra ürəyim bulandı.

- Aha. Bəs quzu bala, de görək ürəyini nə bulandırdı?

- Hm, Cəmilə xanım bu hər səhər yumurta yeyən adam bu gün deyir yumurtadan ürəyim bulanır. İyrənirəm.

- Aha. Deməк belə. İndi Dilarə, canım, icazənlə mən Sevinci müayinə edim.

- Sən Allah doktor, ciddi şeyi yoxdu ki?

- Canım Dilarəm, dedim axı, müayinə edim bəlli olacaq.

Cəmilə həkim 20 il əvvəl elə burda- bu evdə Sevincin dunyaya gəlməsinə səbəbkar olmuşdu. Elə Musaya da qızının doğulduğunu xəbər verən o idi. İllər keçməsinə baxmayaraq həmişəki kimi şirin dili ilə hər kəsə "qızım, quzum" deyərdi.

Bir neçə dəqiqə keçdi və artıq Cəmilə xanım yatağın kənarından durub stulda əyləşdi.

- Cəmilə xanım, sizcə mənə nə olub?

- Ax quzu bala, sənə verdiyim suallara cavabın və hal-hazırkı vəziyyətin yalnız və yalnız bir şeyi izah edir.

- Ay həkim, axı nəyi???

- Ay Dilarə, səni də, elə qızım səni də təbrik edirəm. Sevinc hamilədir.

O an hər kəsin səsi bir-birinə qarışdı. Sevinc bilmirdi sevinsin, ya ağlasın. Dilarə gah həkimə sağol deyir, gah Allaha şükr edirdi. Gah da Sevinci qucaqlayıb öpürdü.

Tərlanın fikri Sevincdə qaldığından işə zəng edib gec gələcəyini dedi. Evə girib biraz uzandı. Arifə nə baş verdiyini soruşanda hər şeyi olduğu kimi dedi.

-Birdən kömək lazım olar deyə gözləyirəm. Ayıbdır kişi xeylağı yoxdur evlərində, mənə ehtiyac olar birdən.

-Məgər Sevincə nə ola bilər ki?

Arifə ən çox da marağından getdi Sevincgilə. Guya canı yandı eşidəndə Tərlandan. Darvazaya yaxınlaşanda sevinc dolu səs-küyü eşidib lap çox maraqlandı.

- Ay Dilarə xala, Sevinc necədi?

- Gəl Arifə, Gəl.

- Çox sağolun ey, Tərlan dedi. Mən də gəldim görüm nolub?

- Gəl, qızım! Sən ki, yad deyilsən. Keç Sevincin yanına.

Arifə yataqada uzanmış Sevincin yanına keçib salam verdi. Sonra bir küncdə ondan küsübmüş kimi oturdu. Dilarə xanım da Cəmilə xanımı şirinliklə yola salıb evə girdi.

- Ay, qızım, belə Allah səni də yada salsın. Sənə də qismət eləsin.

- Çox sağolun Dilarə xala, Amma nəyi ?

- Mənim nəvəm olacaq ey! Həkim indicə dedi.

Paxıllıqdan içi alışıb yanan Arifə bir yandan da sevindi ki, "hamilədirsə Vahid gəlib onu aparar. Tərlanın da fikri yenə mənə qayıdar".

- Çox sevindim, Sevinc. Çox. Allah başacan versin.

- Hələ sabah Sevinci rayona aparacam. Qoy öz həkimi olsun. Daim nəzarət eləsin.

- Ay Dilarə xala, bəs Vahidə zəng etməyəcəksiz?

- Vahidə? Görüm elə başı batsın onun. İki qızına yiyə çıxmayan gəlib mənim nəvəmə yiyə çıxacaq?

- Yox axı, atasıdır. Bilməyə haqqı var. Sevinc düz demirəm?

- Mən Vahidə deyəcəm, ana. Qoy bilsin.

- Yaxşı bala. Həyat sənindir. Qarışmaram. Get zəng elə.

Dilarə əslində qızının qərarını dəstəkləmirdi. Amma məcbur idi. Əgər Sevinc xoşbəxtliyini Vahidlə görürdüsə, razı olmaq borcu idi.

- Ana, gedirəm Arifəgildən zəng etməyə.

- Get qızım. Allah köməyin olsun. Zəng elə tez gəl.

Arifə Sevincin qoluna girdi və sanki ona dəstək olacaqmış kimi, "rəfiqəlik" etmək istədi.

- Sevinc, bu kişilər belədir də. Etibar yoxdu onlara. Amma sən gəl Vahidi bağışla. Balanız da olacaq. Peşiman olacaq eşitsə. Səni də gəlib evinizə aparacaq.

- Mən sadəcə ona bir balası olacağını deyəcəm. Daha heç nə!

Artıq telefonun dəstəyi əlində idi. Nömrə də yığılmışdı. Tərlan yatdığını desə də, əslində Sevincin səsini eşidib qapıdan qulaq asmağa başlamışdı. Arifə də guya onu telefonda rahat danışsın deyə tək qoymuşdu. Halbuki, o da digər qapıdan qulaq asırdı.

- Alo, kimdir?

- Salam, Vahid evdədi?

- Yox, evdə yoxdu. Kimdi soruşan?

- Sevincdi.

- Salam Sevinc, Əsmərdi. Niyə getmisən ora?

- Vahidin evli olduğunu bildim. O da gizlətmədi. Vahid özü dedi get atan evinə.

- Ay qız, qardaşım elədir də. İki ildə tanımadın onu sən? Son sözünü birinci deyir həmişə. Dur qayıt evinə gəl. Sabah da Vahid gələcək. Barışarsız.

- Yox, Əsmər, Vahidə deyərsən ki, hamiləyəm balamız olacaq.

-A-a-a! Nə yaxşı. Səni şad xəbər olasan. Nə vaxt bildin?

- Elə bugün həkim dedi.

- Sən narahat olma. Sabah gəlsin onun qulağını çəkəcəm. Sevinci incitmək nədir biləcək.

Birdən Sevinc dəstəyin o biri ucunda qaynanasının kobud səsini eşitdi: "Ay qız kimlə danışırsan? Gəl, çay süz mənə." Sevinc özündən aslı olmadan dəstəyi qoymaq istədi. Məcbur sözünü kəsə etdi.

-Yaxşı sağol Əsmər! Sadəcə Vahid bilsin, bəsimdir.

Tərlan qulaqlarına inana bilmirdi. İçində olan son ümid də ölmüşdü artıq. Amma yenə də sevindi. Çox sevindi. Axı Sevinc iki ildir övlad arzusunda idi. Nəhayət arzusu gerçək olacaqdı.

- Arifə çox sağol! Mən gedim evə.

- Danışdın? - guya heç nə eşitməmiş kimi davrandı.

- Hə, baldızım idi. Dedi sabah gələcək deyəcəm.

- Gördün ki, səni o evdə hələ də, istəyən var.

- Sağol Arifə...

O gün Sevinc üçün qeyri-adi başladı. İki il sonra məhz bu gün ana olacağını öyrəndi. Bu xəbəri Vahidin evində olanda alsaydı başqa cür sevinərdi. Amma indi başqa şərtlər altında idi. Görən Vahid məni aparmağa gəlsə, unuda bilərəmmi yaşadıqlarımı? Axı onun iki balası var, bir də Nadejdası. Bəs, mən onu bağışlaya bilərəmmi? Onun son sözlərini... Hələ anasının dediklərini? ....Yox! Əsla bağışlamaram!

## *Dördüncü fəsil.*

-Vahid! Bala, hara gedirsən gecənin bu vaxtı?

- Ana Sevinci geri gətirməyə.

- Necə-necə? Sevinci? Onun o sözlərindən sonra düşünürsən ki, yenidən gəlinim deyib boynuma mindirəcəm?

- Bu nə deməkdir? O ki sənə qarşı bir dəfə hörmətsizlik etməyib.

- Necə yəni etməyib? Bəs son dəfə burda olanları necə unudum. Hə? Sən unuda bilərsən. Amma mən unutmaram.

- Ana, başa düş. Bizim artıq balamız olacaq. Sənin bu dediklərin əbəsdir. Mən onu geri gətirəcəm. Balamızı birlikdə böyüdəcik. Səndən də sadəcə anlayış istiyirəm. Bir valideyn kimi sevin mənim yerimə. Nolar ki?

- Noldu bu 2 ildə uşağa qalmadı? Bir ay sonra uşaq var dedi? Mən inanmaram belə şeylərə. Uşaq başı aldadır, elə bil.

Anasının heç cür yola gəlmədiyini görən Əsmər Vahidə dəstək çıxdı:

-Ana , sən indi hansı zəmanədə yaşayırsan? Məyər görmürsən ki, Sevincin yeri bura, Vahidin yanıdır? O bu evin gəlinidir. Sənin də gələcək nəvənin anasıdır. Bunu qəbul etsən hər birimizə yaxşı olar.

- Heç nə məni fikrimdən döndərə bilməz. Bax Vahid sənə deyirəm. Əyər o ölmüşü bu evə geri qaytarsan özündən küs. Məni o andan ölmüş bil bala. Haqqımı sənə halal eləmərəm. Di get...

Vahid anasına çox dəyər verirdi. Atasını itirdiyi vaxtdan anasını da itirmək qorxusu ilə bacara bilməmişdi. Daim düşünərdi anasını itirdiyini, onsuz olan həyatını. Buna görə Sevincin arxasınca o gecə getməməyi qərara aldı. Əsmər ona Sevinclə olan telefon danışığını danışanda o qədər sevinmişdi ki, heç kimi və heç nəyi düşünmədən yola çıxacaqdı. Lakin, anasının o sözləri onu yolundan etdi. Qərar verdi ki, səhər açılar açılmaz anası ilə bir də danışıb, onu razılığa gətirsin. Beləliklə, anasını razı salmaq hər gün daha da qəlizləşidi. Beləcə günlər keçdi...

Sevinc anası ilə başını aşağı salıb həyatını yaşayacağını, balasını böyüdəcəyini xəyal etməyə başlamışdı. Bir yandan da Vahidi düşünürdü. "Görəsən Əsmər ona dedi? Bəs Vahid niyə gəlib məni aparmadı? Yox onsuz da gəlsə də getməyəcəm. Onu bağışlamamışam, bağışlaya bilmərəm. Heç vaxt...." Hamilə olduğunu bildiyi gündən içində bir ümid işığı yanırdı. Gələcəyini, balasını düşünürdü. Hər gün haldan -hala düşsə də, alışırdı hər bir şeyə. Amma dayısı Cavid Sevincin hamilə olduğunu eşitdiyi andan əsəbi idi. Elə hey bir yol axtarırdı ki, Vahidə zəng vursun. Amma bacısının sözlərini də unutmurdu: "Qardaş, Sevinc Vahidin gəlişini gözləyir. O mütləq gələcək ailəsini yanına aparacaq. Burda hələ ki, çətin vaxtlarını ötürür. Orda kim baxacaq Sevincə? Qoy Vahid gələnə kimi burda qalsın. Yaxşılaşsa sən özün apararsan". Hər kəs alışmağa çalışırdı. Tərlan isə bacarmırdı. Sevinci çox sevirdi. Arifə kimi insanla ailə qurduğuna da peşman idi. Nə Tərlana qayğıkeş, gülər üzlü həyat yoldaşı, nə də anasına layiqli gəlin olmadı. Amma nə etsin onun kitabında boşanmaq sözü yox idi. Sevincin hamilə olduğunu biləndən elə hey onu düşünürdü: "Görəsən Vahid niyə gəlib aparmadı onu? Yəni bu qədər alçaqdır? Sevinc! Ehhh.... İlahi sən özün ona kömək ol!

O gecə Tərlan niyəsə yata bilmədi. Səhərə kimi yerinin içində "qaynıyırdı". Səhərə yaxın sübh azanının səsi gələndə yerini tərk elədi. Pəncərəni açıb azanı dinləməyə başladı. Qəlbində isə ylanız və yalnız Sevinc üçün dua edirdi. Birdən yandakı otaqdan tappıltı eşitdi. Nə olduğunu anlamdı. Amma səs anasının otağından idi. İri addımlarla yandakı otağa girdi. Qarşısındakı mənzərə acı da olsa real idi. Anası yatağın kənarında yerə sərilmişdi....

-Allah rəhmət eləsin!.

-Allah ölənlərinizə rəhmət eləsin.

Budur Tərlan ağlamaqdan boğazı gözü şişmiş halda ona baş sağlığı verənlərə boğuq səslə cavab verirdi. Taqəti yox idi daha. Anasını bir an içində itirmişdi. Arifə: "Allaha şükr et ki, anan əzab çəkmədən öldü." deyərdi. Başqaları isə boş-boş baş sağlığı verərdilər. Quru təsəllilər Tərlanı bezdirirdi. Heç bir dəyəri yox idi onun üçün. Tərlan anasını itirmişdi. Bu heç də adi acılara bənzəmirdi. Nə dərd, nə kədər, nə göz yaşları, nə baş sağlıqları onu geri qaytara bilməzdi.

Tərlanın için-için ağlamaqdan boğazı şişmişdi. Mətbəxə keçib Arifədən isti su istədi. O da isti suyu gətirənə kimi Tərlan ordaca kiçik stulda əyləşdi. Bu vaxt Sevinc qadınların məclisi üçün çay aparmağa gəldi. Tərlan Sevinci görər görməz özünü itirdi. Heç onun burda olduğundan xəbərdar deyildi. Arifə də Sevincin ardınca mətbəxə dönəndə bu qarşılaşmanın şahidi oldu. Nə danışacaqlarını rahat eşitmək üçün qapıya doğru döndü:

-Sevinc?

-Tərlan, Allah rəhmət eləsin! Yeri Cənnət olsun!

-Sağol Sevinc, Çox sağol...

- Bu qədər özünü incitmə. Olacağa çarə yoxdur. Onun qisməti bura qədərmiş. Dərdə salma özünü.

- Mənim üçün nigaran olma Sevinc. Sən balanı düşün. Sənin xoşbəxt olmağını hər şeydən çox istəyirəm. İnşallah Vahid sənin qədrini anlayar.

Əslində Tərlan özü də bilmədən utanmadan Sevincə ürəyindəkiləri dedi. Amma sevgisindən başqa...

- Hə? Demək belə Tərlan! Sən hələ də bu "sərçəni" sevirsənmiş. "Sənin xoşbəxt olmağını hər şeydən çox istəyirəm" Puah, sən öləsən! Mənə də Arifə deyərlər. Sizi elə günə qoyum ki, dəymişiniz dura dura kalınız tökülsün. Dayanın....

Arifə öz -özünə deyinməyə başladı. dodağının altında qara ürəyində nələr düşündüsə telefonu götürüb dal otaqlardan birinə girdi. Hirsindən özünə gələ bilməmişdi. Nömrəni əlləri əsə-əsə yığdı:

-Alo, Alo....

-Alo, eşidirəm. Buyurun!

-Vahidgildəndi?

-Bəli. Danışan Vahiddir. Buyurun!

- Mənəm Arifə. Sevincin kənddəki rəfiqəsi.

- Hə? Salam necəsiz? Sevincə nəsə olub? Sabah gələcəm onun arxasınca.

- Hara gəlirsiz? Ağlın olsun. Bu ifritə səndən doymadı, keçdi mənim ərimə. İndi onnan eşqbaşlıq edirlər. Elə bilirsən uşaq səndəndi? Ay axmağın oğlu aç gözünü 2 ildə sənə uşaq verməyən bir ayda verdi?

- Bu nə danışıqdır? Ola bilməz! Belə şey mümkün deyil! Mənim Sevincim bunu etməz...

- Edər, niyə etmir! Onsuz da mənim ərim onun dərdindən ölürdü. Bu da səndən qayıtdı gördü ki mənlə evlənib girdi aramıza. İndi dey deyib gülürlər mətbəximdə. Sənsə hələ də "Sevincim" deyirsən. ...

Telefonu yerinə necə asdı xatırlamdı. Bir tək onu anladı ki, Əsmər onu silkələyib nə baş verdiyini soruşurdu....

O gündən artıq aylar keçirdi. Sevinc tezliklə doğulacaq balasını qollarına alacağı günün həsrətində idi. Dilarə isə Vahidin hələ də gəlmədiyinə inana bilmirdi. Arifə də "rəfiqə" maskası ilə hər gün gəlib gedirdi. Tərlan isə anasının ölümündən sonra lap pis olmuşdu. Artıq 8 ay keçməsinə baxmayaraq hələ də barışa bilmirdi. Bir yandan da Sevinci tənha görməsi xoşuna gəlmirdi. Dayısı Cavid isə hər ay gəlib Sevinci danlayıb gedərdi. Bunu da qəbul edə bilmirdi Tərlan. Bəzən olurdu ki, Arifə evdə deyinirdi Sevincin arxasınca. O an az qalırdı Arifəni tutub boğsun. Özünü, hisslərini cilovlaya bilmirdi. Arifəyə nifrət edirdi artıq. Çünki onun əsl üzünü hər gün görür və ömrünü onunla məhv etdiyinə görə özünü qınıyırdı. Hətta dəfələrlə Arfəyə demişdi ki, getsin atası evinə. Qismət olar kimləsə evlənər uşaqları olar. Onsuz da Tərlan sozsuzdur. Həyatını niyə çürütsün ki? Həm özünü məhv edirdi, həm də Tərlanı.

Sevinc də hər dəfə dayısının kinayəli qəzəbli sözlərindən təngə gəlmişdi. Ona borclu idi. Hər şeydə. Yediyi yeməyin 50 faizini dayısı təmin edirdi. İndi də uşaq olacaq deyə iki qat tərsliyə düşmüşdü ki," Səni özüm aparacam Vahidin evinə. "

Sevinc bunu istəmirdi. O Vahidin üzr istəməsini, arxasınca gəlməsini peşman olmasını istiyirdi. Amma bunu görsəydi də Vahidi bağışlamamaqda israrlı idi. Dayısı Cavid də buna görə qəzəblənirdi. Hər gəlişində də bütün küçəyə yayılırdı səsi. Bu gəlişlərin birində Sevincin ağrıları başladı. Dayısının sözlərinə dözə bilmədi nə o nə də körpəsi...

- Xəstənin yaxınları kimdir?

- Bizik doktor. Balam necədir?

- Lap yaxşıdır. Uşaq da ana da hər ikisi sağ salamatdırlar. Gözünüz aydın oldun qzı uşağı dünyaya gəldi.

- Ay sizi şad xəbər olasız. İlahi sənə şükürlər olsun! Sağol doktor, çox sağol.

- Bax sənə son sözümdür. - Cavid baş barmağını silkələyə-silkələyə Dilarəyə deyirdi.- Sevinc xəstəxanadan çıxar çıxmaz aparıb Vahidin qapısına qoyacam. Sevincə də beləcə çatdır. Ər arvad arasında hər şey olur. Daha uşaqları da oldu barışsınlar. Ağ eləməsinlər.

Sevinc artıq ana olmuşdu. Balasını sinəsinə basıb necə ağlamışdısa hamı mat qalmışdı.

- Balam, sən indi yəni mənimsən? Necə də şirinsən. gözlərin tamamilə atana bənzəyir. Burnun mənə, Çənən? Hə... bildim o da mənə. Bax bir tək gözlərin atana bənzəyir. Körpə balam. Necə də xoş ətrin var....

Artıq dörd gün keçmişdi. Həkimlər Sevinci evə buraxdılar. Dilarə nəvəsi üçün cürbəcür paltarlar, bələklər hazırlamışdı. Sevinclə bir-başa evə gələcəkdilər. Xəstəxanadan çıxr çıxmaz dayısı Cavid maşınla gəldi:

- Sevinc əyləş!

Maşında dayısı qızı Cəmilə də vardı. Dilarə hər şeyi anlamışdı. Sevincin alnından opüb sağollaşdı.

-Sevinc də Vahidi bağışlamamışdı. Amma balasının xatirinə gedirdi. Dayısı qızı Cəmilə də yol boyu ona mənəvi dayaq olurdu. Sevinc bir an belə olsun balasından gözünü çəkmirdi. Elə hey ürəyində onunla danışırdı. Əllərinin qurluşuna, saçının hər telinə, kipriklərinə, qaşına kimi süzürdü balasını.

Dayısı qapının zəngini basdı.

- Gəldim, Gəldim!

Budur Vahiddir. Onun səsidir. Sevinc həyəcandan az qaldı özünü itirə. Qapı açıldı:

- Sevinc?

Təəccüb dolu baxışlarla Sevinci və qucağındakı körpəni süzdü. Bir an içində Arifənin dediklərini xatırladı. Qəzəbləndi. İçində sanki vulkan püskürdü.

- Sən hansı üzlə bu qapıya gəlmisən? Utanmaq yox abır yox, Namusumu heç nə etdin. Qeyrətimi tapdaladın. Sənin nə azzarın var bu qapıda?

- Vahid?

Sevinc Vahidin bu dediklərindən şok keçirdirdi. Onu heç vaxt belə görməmişdi.

_ Dayan görüm. Bax bala bu sənin yoldaşındı bu da sənin balandı. Barışın hər nədir aranızdakı həll edin.

- Siz dayanın, Cavid bəy. Siz nə danışırsız mənim uşağım deyil. Sevinclə olan kəbinimizi pozmuşam.

- Necə yəni Mənim uşağım deyil? Vahid sən nə danışırsan?-

Sevinc qulaqlarına inana bilmədi.

- Elə eşitdiyin kimi də danışıram. Ləzzət eləmədi? Bura bax onun bunun küçüyünü mənə sığışdırmağa çalışma. Get kimdən qazanmısan ona da götür.

- İlahi bu nə cür təhqir....

Sevinc az qalırdı yerə deyə.

- Bəli Cavid bəy sizin bacınız qızıyla olan kəbinimi pomuşam. Onu görməyə gözüm yoxdu. Uşağı da qəbul etmirəm.

Qapı ağzında baş verənlər Sevinci üzdüyü üçün dili söz tutmadı daha. Dayısı Cavid də qəzəbindən dəli olmuşdu. Beynində bir an içində qərar verdi: "Mən ömrü boyu elə bacımın yetiminə baxmışam. Bir də onun yetiminin yetiminə baxası gücüm yoxdu."

- Bilirsən nə var Vahid, ala tut bu uşağı. Əlvida!

Sevinc qollarından zorla alınan balasını son dəfə orda gördü.

- İlahi dayı nə edirsən?...

- Nə lazımdırsa onu da edirəm...

- Balam. Vahid geri qaytar. Ver mənə...

- Yox daha gecdir...- Dayısı Sevincin qollarından yapışıp pilləkənləri sürüyə-sürüyə maşına apardı.

Sevinc baş verənlərli qəbul edə bilmirdi. Elə hey qışqırırıdı:

- Vahid balamı ver!... Dayı, sən insan deyilsən!... Vahid qızımı ver!...

Bir an içində yaşadığı bütün sarsıntılardan Sevinc özündən getdi. Dayısı Cavid isə yolda bir an belə olsun dayanmadan maşını sürətlə kəndə doğru sürdü...

## *Beşinci fəsil.*

- Ay, Allah! Nə gec oldu...

Vahid evlərinə ən yaxın xəstəxananın dəhlizində o baş bu başa səbirsiz halda gedirdi. Bir yanda körpə uşağın dayanmadan ağlaması, bir yandan anasının kinayəli sözləri onu daha da əsəbləşdirirdi.

- Vahid, nahaq yerə bura gəldik. Bax sənə deyirəm. Sən bu uşağın atası ola bilməzsən. Həm noldu 2 il ər evində olmadı, durdu ata evində hamilə də qaldı, uşaq da oldu. Bu nətər işdi. Baş açmıram.

- Ana, hər nədir, həkim indi deyəcək. İclasda imiş. Bitsin gəlib hər şeyi deyəcək.

- Daha nəyi deyəcək, bala? Heç uşağın üzünə baxmısan? Ala de- Zəminə qucağındakı 3 günlük körpəni Vahidə uzatdı.- Bir bax da! Yaxşı yaxşı bax! Gör sənə bir yeri bənziyir???

Vahid bu əl boyda körpənin onun olmasını çox istiyirdi. Bu xəstəxanaya gəlişinə də səbəb məhz o idi. Sevincin gözlərindəki o oxuya bilmədiyi acı, kədər hamsı gözünün önünə gəlirdi. Amma bir yandan da Arifənin dedikləri: "Onsuz da mənim ərim onun dərdindən ölürdü. Bu da səndən ayrıldı. Gördü ki, Tərlan mənlə evlənib, girdi aramıza. İndi deyy deyib gülürlər mətbəximdə. Sənsə hələ də "Sevincim" deyirsən. ..."

-Eh bu nə dərddir mən düşdüm ilahi? Bir çıxış yol olmalı. Kimsə durduq yerə öz yoldaşına şər atmaz ki. Arifə niyə Tərlana şər atsın? Çox güman ki, Sevinc onunla olub. Ya yalan olsa.... Offf.... Bu nədir? Həkimin iclası da bitmək bilmir ki, bilmir. Aha deyəsən gəldi...

-Salam. Doktor Hüseynov, cavablar bəllidir?

- Bəli Vahid bəy! Hal-hazırda analiz edilmiş körpə həqiqətən sizin öz doğma balanızdır. Yəni uşağın atsı sizsiz.

Həkimin sözlərindən sonra Zəminə az qaldı özündən gedə.

-Bu nə deyir? Ay, doktor! Bəlkə səhv salmısız. Hə?

- Xeyir, xanım! Heç bir yanlışlıq ola bilməz. Bu sizlərdən aldığımız qan nümünələri. Bu da onların cavabları. Uşaq 99, 9 %- Vahid bəyin qızıdır.

O gecəni yuxuya gedə bilmirdi. Bacısı Əsmərin köməkliyi ilə körpəni tezliklə rahatlayıb yatızdıra bildi. Zəminə isə uşağa yaxın durmadı. "O, hörmətsizin, əxlaqsızın qızı ondan artıq olmayacaq!"- deyirdi. Amma Vahid çıxılmaz bir vəziyyətdə idi. Boş tavana baxıb elə hey götür qoy edirdi: "Görəsən Sevinci geri gətirim? Eh... Vahid ağlını başına yığ! Sən ki, xəyanətkar bir insanla ömrünü bölüşməyəcəksən. Bəs uşaq? O ki mənim qızımdır. Sevinclə mənim. Offf.... Nə olsun ki. Ağlı olardı, Tərlanla eşqbazlıq etməzdi. İndi bütün kənd onlardan danışır. Mən hələ üstəlik gedib onu geri gətirsəm, dost-düşmən içində biyabır olaram. Yox! Yaxşısı budur uşağı elə özüm böyüdüm. O da Tərlandan birini peydahlayar. Getsin həyatını yaşasın. Mən qızımı böyütməyi bacararam. " Bu fikirlərdən sonra qəti qərarını verən Vahid dərin yuxuya getdi.

O gecəni isə Sevinc heç yatmadı. Axı necə yatardı? Bir yandan qızdırma verən sinəsi, bir yandan bala həsrəti ilə çırpınan ürəyi, bir yandan tapdalanmış namusu, qeyrəti, bir yandan da Vahidin böhtanları...

- Ya, Rəbbim! sən özün kömək ol balama. Bu nə dərddir çəkir bu yaşında?. İlahi. Mən nə deyirəm. Yox! Yox! Şükür etməli ikən gör nələr deyirəm. Sən məni bağışla Ya Rəbbim! Sənə şükürlər olsun. Min şükür sənə İlahi! Hər bir əzabın sonu vardır. Hər xəstəliyin bir şəfası. Sənin də sınaqların vardır. Hansı ki, ondan çıxış yolu biz bəndələrin üzərindədir. Allahım! Sənə hər şey üçün min şükür!

Sevinc anasının yan otaqda səsli halda Allaha dua etdiyini eşidirdi. Əllərini açıb Allaha dua etdi. Tezliklə balasına qovuşmaq ümidi ilə duasını bitirdi. Və yuxusuz gecələrinə beləcə qədəm qoydu...

Dayısı Cavidin həmin gün uşağı Vahidə verməsinə səbəbi Dilarə sonradan güclə də olsa öyrəndi. Cavidin dediyinə görə Vahid südəmər uşağı anasız qoymaz. Mütləq arxasınca gəlib aparacaq. Amma o gündən düz 3 ay keçirdi. Nə Vahiddən bir xəbər vardı, nə də gəlib gedən. Bu üç ayı Sevinc canlı ölü kimi yaşadı. Nə kimsəylə danışar, nə də evdən çölə çıxardı. Körpəsindən ona qalan tək yadıgar qol yazısı idi. Hansı ki, uşaq doğularkən qoluna bağ vururlar. Beləcə ananı və uşağı daha rahat tapa bilirlər deyə. Bu 3 ayı yastığının altında saxladığı o kiçik bir bağ onun üçün tək təsəlli idi. Amma cansız, dilsiz, ruhsuz bir təsəlli. Hər gün Arifəgildən şəhərə zəng edirdi. Vahidlə Zəminə evdə olanda Əsmər də danışa bilmirdi. Lakin bu 3 ayda Əsmərdən tək öyrəndiyi o olmuşdu ki, Vahid evlənib. Tamamilə təsadüfən rayonlardan birinə qonaq gedib. Orda yaşayan bir qızla evlənib. İndi o yad qız Sevincin qızına "analıq" edir. O gün Sevinc sanki ən hündür binadan yerə zərbə ilə dəymişdi. "Mən ki, ölməmişəm. Balamın anası mən ola-ola başqa biri niyə "analıq" etsin ona? " Əsmər hər fürsət düşdükcə ayda bir dəfə Sevincə körpəsi haqqında uzun uzadı məktub yazıb, poçtla göndərərdi. Sevincə məktubu isə Tərlan gətirərdi. Çünki Tərlan rayonun mərkəzində işləyirdi. Hər gün Sevinc poçta gedib gəlməsin deyə, Dilarə ondan xahiş etmişdi. Lakin Tərlan bunu bir sirr kimi Arifədən saxlamışdı. Sevinci çox sevirdi. Məktub poçta gələnə kimi Tərlan Sevincin gözünə görsənməzdi. Elə ki, məktub əlində idi, ildırım sürəti ilə Sevincgilə gedərdi. Elə darvazadan Sevincə verib gedərdi. Bu bir növ Sevincin gözlərindəki sevinci görmək arzusu idi. Onun dərdi Tərlanın dəri idi sanki. Sevincin bu 3 ayda yaşadıqları onun gözü önündən getmirdi. Hər gün Arifə də "canı yanan rəfiqə" maskası taxıb Tərlanın yanında ondan danışırdı. Vahidin evləndiyini eşidəndə Tərlan az qalırdı gedib Vahidlə dalaşsın. "Ay, əclaf! bu cür yoldaşın balan ola-ola sən hansı ağılla evlənirsən?" Tərlan Vahidin Sevincdən ayrılmasına səbəbi bilmirdi. Heç bunu Arifə də demirdi. Amma Tərlan Sevinci xoşbəxt görməsindən başqa arzusu yox idi.

-Vahid, oyan da!

- Nolub yenə?

- Daha nolacaq? Mən nə vaxta kimi sənin uşağına baxacam? Mən də ana olmaq istiyirəm.

- Olarsan da. Məyər ailə quranda qəbul etdiyin şərtlərimin içində uşaq da olduğunu unutmusan?

- Yox! Amma daha demədim ki, hər gün gecə gündüz mən baxacam ona. Bir Əsmər də baxsın da.

- Yaxşı, yaxşı! Deyinmə. Sənə demişəm axı deyinən insanlardan xoşum gəlmir. Get ver uşağı Əsmərə gəl yat.

Vahid 2 aydır evli idi. Fidanı tamamilə təsadüfən görüb bəyənmişdi. Həm də evlənməli idi. Nə vaxta kimi uşağa Əsmər baxacaqdı. Gərək uşağa analıq edən olsun. Bir yandan da "hələ cavanam" deyib yenidən evlənmək eşqinə düşmüşdü. Budur iki aydır evli idi. Zəminə gəlinini tərifləyər. Əsmər isə yola getməzdi. Amma bütün bunlar müvəqqəti idi. Zamanla hər kəs uşağa da gəlinə də alışdı. Uşağın adını çox fikirləşdilər. Və nəhayət Əsmərin bəyənərək irəli sürdüyü adı hamı qəbul etdi. Adını Mələk qoydular. Əslində Əsmər bu adı özündən yox, Sevincdən öyrənmişdi. Sevincə yazdığı son məktubunda uşağa hələ də ad qoymadıqlarını demişdi. O da :" Əyər mümkün olsaydı balamın adını Mələk qoyardım"-yazmışdı. Ona görə Əsmər də "Mələk" adını istəmişdi. Hətta Fidan da başqa bir ad demişdi. Amma Əsmər onu elə yerinə otuzdurmuşdu ki, Fidan onu heç unutmadı. Zəminə də hər gün gəzintisindən qalardı. Mələyə hər kəs bağlanmışdı. Fidan da ilk 6 ay yaxşı davrandı. Amma sonra Əsmərin uşağı ona qısqanmağını hiss edib bir neçə dəfə mübahisə də etmişdi. Vahid hər dəfə Rusyaya gedəndə hər evli cütlükdən fərqli olaraq, həsrət və sevgi dolu ismarıclar deyil, narazılıq və şikayət dolu ismarıclar alırdı. Artıq o da bezmişdi: "Nə qədər olar ey. Hər dəfə bir söz, bir söhbət! Bu Əsmər də alışmadı ki, alışmadı." Əslində Əsmər Sevinci çox istədiyindən deyil, Fidanın səmimiyyətinə inanmadığından onunla yola getmirdi. Zəminə isə əksinə ona "qızım" deyə müraciət edirdi. Düşünürdü ki, hər nədir Sevincdən min dəfə gözəl və yaraşıqlıdır. Yaxında uşaqları da olar. Amma bir gün xəstələndi və yatağa düşdü. Təzyiqini heç cürə endirə bilmirdi. Əsmər gah sağa, gah sola qaçıb bir çarə axtarırdı. Fidan isə ayağını ayağına qatlayıb divanda oturmuşdu. Arada bir məsləhət verirmiş kimi: "Təcili yardım çağırın. Gəlsin baxsın da."-deyirdi. Təcili tibbi yardım gələnə kimi Zəminə Fidanın rahatlığından partlamaya düşdü. Qəlbinin dərinliyində hətta Sevinclə onu müqayisə etdi. Sonra fikrini dağıtdı. Nəhayət damarından vurulan iynənin təsirindən halı normallaşdı. Fidan isə heç "necəsən?" belə demədi. Bu yadlıq, soyuqqanlılıq Zəminənin ona olan sevgisini öldürdü.

Fidan Vahidlə yaşıd olsa da onunla rastlaşana kimi ailə qurmamışdı. İstəyənlər, elçi gələnlər çox olsa da yalnız oxumağı seçmişdi. O da atasız

böyümüşdü. Sevinc kimi. Amma Sevincdən fərqli olaraq Fidan oxumuşdu. Ali təhsilli diş həkimi idi. Lakin Vahid onu işləməyə qoymurdu. Həm maddi sıxıntıları olmadığından, həm də Mələyə baxsın deyə. Evliliklərinin ilk 6 ayında evdə oturmağa razı olsa da, sonra razılaşmadı. Hər Vahid gələndə mübahisələri, söz-söhbətləri olurdu. Nəhayət Vahid onun işləməsinə razılıq verdi. Fidan üçün bu ilk "uğur" idi. İşlədikcə qazancını anasına göndərirdi. "Kənd yeri olsa da, şərayiti olsun!" -deyirdi. Onsuz da Vahidin onun puluna ehtiyacı yox idi. O Rusiyadakı xanımından ayrılmışdı. Bunu Fidan tələb etmişdi. Həm də sadəcə qızlarını görmək üçün ayda iki dəfə gedərdi. Özü də onlarsız çox darıxırdı. Amma bir dəfə də olsun Sevincin Mələkdən ayrı qaldığı günlərdə nə halda olduğunu, nələr yaşadığını düşünmədi.

Artıq bir ildən çox keçmişdi ki, Sevinc Mələyini görmürdü. Onun qol bağını hər gün qoxulayıb sinəsinə sıxardı. Arifə ilə də çox danışmazdı. Hər şeyin günahkarı kimi baxardı ona. Sadəcə anasının xahişi ilə susurdu. Ona qarşı kobudluq etmirdi. Qızının adını "Mələk" qoyduqlarını öyrənəndə çox sevinmişdi. Amma bu gün onun bir yaşı olacaqdı. Körpə balasının bu günə kimi nələr yaşadığını necə böyüdüyün görmədən. Hər ay Əsmərin yazdığı məktublardakı sətrlərdən gözündə çanlandırırdı. Əsmər söz vermişdi ki, ad günündə Sevinc üçün Mələyin şəklini çəkib göndərəcək. Əsmər Sevincin sədaqətinə inanırdı. Özü də bilmirdi niyə. Amma bilirdi ki hər ana balası üçün canından belə keçməyə hazırdı. Əyər Vahid 3 ay içində evlənməsəydi, özü gedib Sevinci evə geri gətirəcəkdi. Mələyin ad günündə hər kəs körpənin başına toplaşıb təbrik edirdilər ki, Fidan kənarda odlanırdı. Onun da uşağı olsun istiyirdi. Mələyin hər güləndə yanağının batmağı, şip şirin gülüşü, ana həsrəti ilə parlayan körpə gözləri Əsmərin qəlbini sızladırdı. Kimsə onun gördüklərini görmürdü.

Budur Sevinc həyəcanla darvaza qapısı qarşısında o baş bu başa gedirdi.
-Ay bala gəl gir içəri. Bu şaxtada sən orda neyniyirsən?

- Ana, təkid etmə. Əsmərdən məktub gözləyirəm. Bilirəm ki, ondan məktub gələcək. Son məktubunda yazmışdı ki, ad gününün səhərsi sənə məktubla Mələyin şəklini də göndərəcəm. Balamın şəklini görmək üçün ən şaxta havada belə donmağa razıyam. Sən keç içəri. Məndən narahat olma.

- Nə deyirəm bala. İndilərdə Tərlan işdən gələsidi. Gəlib verər.

Dilarə qızının acısını başa düşürdü. Onun nələr çəkdiyini bu bir ildə çox görmüşdü. Amma hər məktub alacağı günü elə səbrsizlənirdi, elə həyəcanlanırdı

ki, sanki ölü birinə yenidən can verilirdi. Sevinc Mələyin ad günündən hesab edirdi. Bilirdi ki Əsmər ad günün səhərsi məktubla şəkili göndərəcək. Ona görə həmin günün üzərinə 3 gün də əlavə etmişdi. Bilirdi ki, məktub o poçtdan bu poçta üç gün içində gələcək. Həm də arada gecikmə olurdu. Amma bu dəfə o gecikmənin olmayacağına sonsuz ümidi vardı. Budur addım səsləri eşidildi. Qarın üzərindəki o addım səslərinin Tərlana aid olmasını bütün qəlbi ilə arzuladı. Darvaza iki dəfə ara vermədən döyüldü. Budur Tərlandır. Onun döyüşüdür. Tez qapını açdı:

- Tərlan, salam!

-Salam Sevinc. necəsən?

- Həyəcanla məktubumu gözləyirəm. De görüm almısan məktubu?

-Hə, budur! - Əlindəki əlcəyi çıxardıb, kurtkasının cibindən bir konvert çıxartdı.

-Əzilməyib?

-Yox! Yox! Sən demişdin ki, Mələyin şəkli olacaq içində. Ona görə əzmədim. - Bu sözləri dedikcə, Sevincin gözlərinə baxırdı. İlahi! Göz bəbəkləri iki mirvari tək necə də parlayırdı. "Kaş bir dəfə ona "Səni sevirəm" deyə biləydim. Kaş! Necə də çətindir. Allahım, sən özün qoru Sevincimi. Onun xoşbəxtliyi üçün əbədi daşa çevrilməyə razıyam. Təki onu xoşbəxt görüm. Vahid sənə layiq deyildi. Mən də Arifəyə."

- Çox sağol Tərlan. Sən hər dəfə məni o qədər sevindirirsən ki, sevincdən sənə sağol belə deyə bilmirəm. Dayan açım balamın şəklinə baxım. Sən də baxarsan. Getmə! Gəl evə.

- Tərlan, ilk dəfə idi ki, Sevincin onu evə dəvət etdiyini eşitdi. Ona görə bir an belə tərəddüd etmədən razılaşdı.

O gün Tərlan çox gec gəlirdi. Evdə tək olan Arifə qışın soyuğundan sobanın bir yanında isinirdi. Bu günə kimi Sevincin balasından ayrı çəkdiklərini görüb tutduğu işdən peşman olmuşdu. Geriyə də yol yox idi. Axı Vahid evli idi. Geriyə dönüş yox idi. Tərlanın Sevincə olan sevgisi isə bitmək bilmirdi. "Bu necə məhəbbətdir, İlahi?" Hər şey edirdi ki, Tərlan onu düşünməsin. Amma nə fayda. İnsan ki, mənəvi olaraq sənin deyilsə, ruhu, qəlbi sənin deyilsə, cismi də də buz kimi olur. Uşaqları isə heç olmayacaqdı. Tərlanı ailəyə bağlayacaq tək vasitə uşaq ola bilərdi. Amma Tərlan sonsuz idi. Uşaq olmayacaqdı. Arada fikirlərdən ayılıb Tərlanın gecikməsindən nigaran qalırdı. "Bu niyə gec gəlir görəsən?"

- Ana! Ana, gəl baxaq.

- Nolub, bala?

- Gəl Tərlan. Keç içəri. Ana, Mələyimin şəklini görəcəm. İstiyirəm ki, siz də görəsiz. Ayağını soyunub evə keçən Tərlan bir qədər sıxılsa da Sevincin bu həyəcanlı anlarını gözündən yayındırmağa qorxurdu. Budur konverti asta-asta açırdı. Əlini içinə salıb ilk olaraq şəkili götürdü. Gözlərini yumub, dərindən nəfəs aldı. Yavaş-yavaş gözlərini açıb şəkilə baxdı. Bu an son bir ildə Sevincin həyatındakı ən xoşbəxt an idi. Tərlan Sevincin bu addım-addım etiyi hər bir hərəkəti izlədikcə qəlbi alışırdı. Hələ şəkilə ilk baxanda necə də parıldadı gözləri. Yanağına iki damla yaş süzüldü. Çox təsir etmişdi Tərlana. Sevinc bütün bu acıları yaşamamalı idi. O bunlara layiq deyildi.

- Mənim şip-şirin Mələyim! Ana, Tərlan siz də baxın.

-Elədir qızım. Həqiqətən nəvəm gözəldir. Allah bəxtini gözəl yazsın. Amin.

- Tərlan, çəkinmə. Sən də bax.

- Çox gözəl uşaqdır. Sevinc sənə çox oxşatdım. Allah saxlasın.

- Çox sağol Tərlan. Allah sənə də bir övlad qismət etsin.

Bu sözlər Tərlana çox təsir etdi. Onun uşağı olmayacqdı.

- Yaxşı, mən gedim. Arifə nigaran qalıb yəqin.

-Çox sağol bala. Sən ki, hər ay mənim qızımı belə sevindiririsən. Qoy Allah da səni sevindirsin.

-Çox saolun, Dilarə xala. gecəniz xeyrə qalsın!

Ayağını geyinib, darvazadan çıxmışdı ki, Arifəni qarşısında gördü. Onun gözlərindəki kin, qəzəb bir an içində Tərlanı "deşib" keçdi.

-Sən bu vaxtı burda neyniyirsən? Tərlan səninləyəm. Mən neçə saatdır sənin yolunu gözləyirəm. Sənsə Sevincgildən çıxırsan?

Tərlan heç bir söz demədən evlərinə doğru addımladı. Arifə qəzəbindən ürəyində "Sən ki, belə etdin? Yaxşı gör indi mən sizin başınıza nə oyun açacam!" dedi...

## *Altıncı fəsil*

Hər zaman olduğu kimi işdən evə qayıdan Fidan mədəsindəki göynəmədən əziyyət çəkirdi. Bütün günü özünü yaxşı hiss etməmişdi. Buna görə yolüstü əczaçıdan test almışdı. Yoxlayacaqdı. Qəlbində bir ümid vardı. Onun üçün uşaq hər kəsdən öndə idi. Vahiddən belə. Tək arzusu uşağın olması idi. Vaxtı ilə ailə qurmaq istəmirdi. Lakin öz balası olmağını da çox istiyirdi. Buna görə Vahidlə evlənmişdi. Mələyə isə meylini sala bilmirdi. Çünki daima onu görən hər kəs Sevinci xatırlayırdı. Mələk belə anası Sevincin adını Əsmərdən o qədər eşitmişdi ki, qulağı alışmışdı. Fidan da buna görə Əsmərlə daima savaşa çıxardı. Mübahisələri heç bitməzdi. Fidan Əsməri iki üzlülükdə günahlandırırdı. Əsmər isə Fidanı ögeylikdə. Ona daim ögey olduğunu xatırladırdı. Mələyə yaxın durmağa qoymazdı. Mələkdən ötrü Fidanın da "ürəyi getmirdi." Sadəcə kefi yaxşı olanda onunla oynamaq istiyirdi. Əsmər Mələyə daha çox vaxt ayırsın deyə işindən müvəqqəti ayrılmışdı. Fidan isə kimsənin üzünü görməsin deyə səhər işə gedib axşam yatmağa gələrdi. Zəminə belə Fidanın son zamanlar boş yerə yaratdığı söz söhbətdən bezmişdi. Vahidə bir kəlmə deyə bilmirdi. Zəng edən kimi Vahid əvvəlcədən sözün hara gedib çıxacağını bilirdi. Anasına dəfələrlə "Fidanı bəyənsən də bəyənməsən də o mənim yoldaşımdır. Bunu bir dəfəlik qəbul et. Sevinci də bəyənmirdin. Noldu hamı pisdir, sən yaxşı?"

Bu sözləri anasına deyən sanki əvvəlki Vahid deyildi. Özü də bilmirdi neyləsin. Əsmər narazı, Fidan narazı, anası narazı. Bütün mübahisələrdən əziyyət çəkən isə günahsız Mələk idi. Vahid çıxış yol tapa bilmirdi. Amma bir dəfəlik Rusiyada yaşamağı da düşünmüşdü. Fidanı və Mələyi bura gətirəcəkdi. Mələksiz bir gün qala bilməzdi. Rusiyada olduğu vaxtlar Əsmərə zəng edib Mələyin telefonda səsini eşidərdi. Ona hər 20 gündən bir gələndə nələr-nələr gətirərdi. Qapıdan girən kimi ilk Mələyi axtarardı. Onsuz qala bilmirdi. Əsmər isə "Rusiyada yaşasanız Mələk mənimlə qalsın." deyirdi. Çünki Mələyə Fidan heç baxmayacaqdı. Vahid də Mələksiz qala bilmədiyindən Rusiyaya bir dəfəlik köçməyi ağlından çıxartdı. Yenə hər zaman olduğu kimi 20 gündən ya 15

gündən bir evə gələrdi. Sevincli günlərini çox axtarmışdı. Onunla yaşadığı müddətdə necə də firavan və xoşbəxt idi. Lakin qədrini indi anlasa da onun üçün Sevinc artıq "ləkəli" insan idi.

- Əsmər, Əsmər! Mən test elədim. Bax!
- Nə test? Baxım?

Əsmər Fidanın vanna otağından sevincək çıxmasından çaşıb qaldı. Testi əlinə alıb baxdı. İki xətt vardı.

- Bu nə deməkdi ki?
- Bu o deməkdir ki, Əsmər xanım, tezliklə Mələyə ya bacı ya qardaş gəlir.

Əsmər bilmədi sevinsin ya əsəbləşsin. Sadəcə hörmət əlaməti kimi təbrik etdi. Quru da olsa Fidan təbrikini qəbul etdi. Zəminə bu xəbərdən çox sevinmişdi. Deyirdi: "Heç olmasa Vahidin bu dəfə oğlu olar. İki qız Rusiyada, biri burda. Fidan da oğlan verər. İnşallah." Fidan üçün fərq etməzdi. Ona övlad lazım idi. Vahid bu xəbəri elə bir anda aldı ki, sevincinin həddi hüdudu olmadı. Həmin gecə evinə döndü. Mələklə Fidanla bir yerdə dərin yuxu yatdı. Vahidin də ümidi vardı. O da oğul arzusunda idi. Allaha için için dua edib, tezliklə ona oğul verməyini istədi.

Tərlan istirahət günü kəndin Çay evinə getdi. Bütün yoldaşlar qonşular hamsı orda otururdu. Bir qədər çay içib söhbət etmək fikirlərini dağıtmaq istiyirdi. Arifənin o gecə səhərə kimi susmamasından təngə gəlmişdi. "Sən Sevinci daim sevmisən. Bir dəfə mənə ona baxdığın kimi baxmamısan." Nə etsin bilmirdi. Arifənin də xoşbəxt olmasını istiyirdi. o gecə ona boşanmaq barədə bir daha demişdi. Lakin Arifə yenə eyni cavabı vermişdi: "İki dünya bir olar, amma mən sən səndən boşanmaram". Sevincin bu iki ildə çəkdiklərini elə demək olar ki Tərlan da çəkirdi. Onun hər dəfə bir parça məktub üçün nə qədər qol qanad açdığını görəndə sevincdən çox kədər hissi ilə boğulurdu. Ona necə kömək edəcəyini də bilmirdi. Dünən gecə ən son məktubu da tələsik vermişdi. Arifə görməsin deyə. Amma nə fayda. Zəhərli ilanın gözündən heç nə yayınmırdı. Tərlanın gələcəyi saatı dəqiqliklə bilirdi. Tez-tez küçənin qapısını açıb yola boylanardı. Elə Tərlanın da növbəti dəfə Sevincgilə getməsini görmüşdü: "Bu dəfə lap ağ elədiz"...

Sevinc kədərli halda pəncərə önündə oturub elə hey fikrə getmişdi. Dilarə qızının dünən gecə aldığı məktubdan sonra belə olduğunu bilirdi. Səbəbi də məlum idi. Əsmər ona məktubda Fidanın hamilə olduğunu yazmışdı. Sevinc gözlərindən süzülən iki damla yaşı anasından gizlədə-gizlədə silirdi. Amma nə qədər gizlədəcəkdi ki?...

- Heç bilirsiz nolub?

Tərlanın yeni əyləşdiyi çay evindəki masalardan birindən bir kəndli səsləndi.

- Nə olub Mirzə?

- Rəhmətlik Musanın qızı boşanıb, əri də evlənib yad xanımla.
Tərlan bir an içində fikirlərdən ayıldı. Söhbətin Sevincdən getdiyini aydınlaşdırmaq üçün diqqətlə qulaq asmağa başladı.
- Mirzə, sən canı doğurdan? Bəs niyə boşanıb Sevinclə?
- Əşi başa düş də. Guya kəndə gəlmişdi təmiz havada uşağı dunyaya gətisin. O da ki, getdi bir gədə ilə gizli eşbazliq etdi.
Tərlan eşitdiklərinə inana bilmirdi. Özünü güclə saxlayırdı ki sözün davamını eşitsin.
- Kimdi o gədə? Əri bilib deyə boşuyub?
- Hə də. Hələ elə bilir ki, kəndin dünyadan xəbəri yoxdu. Bu de oturub burda çay içir.
Tərlan başını geri çevirib Mirzənin onu göstərdiyini gördü. Cəld ayağa qalxıb yaxasından yapışdı. Qalın jaketdə olsa da Mirzənin sinəsindən bərk tutub çay evinin divarına çırpdı.
- Sən nə dedin?
- Burax! Burax dedim sənə!
- Buraxmaram. De görüm sən bunları hardan uydurmusan? Utanmırsan xalxın qızına gəlininə ləkə yaxırsan? Əclaf!
Tərlan Mirzəyə bir zərbə vurdu. Burnu qanasa da yerə yıxılmadı. Masalardan birindən tutub ayağa qalxdı.
- Dayan Tərlan! Bu sözü mən çıxartmıram. Bütün kənd bilir. Sən onunla eşqbazlıq edirsən. Əri də xəbər tutub boşuyub onu. Uşağı da əlindən alıb.
-Əclaf!
Tərlan bir zərbə daha vurdu. Mirzə yerə sərildi. Taqəti olmadı yenidən durmağa. Tərlan hirsindən dəli kimi idi.
- Mənim ona bir dəfə pis niyyətlə baxdığımı görmüsüz? Nankorlar! Alçaqlar. Arvad kimi qiybət edirsiz. Camaatın anasına, bacısına, gəlininə söz atırsız. Ləkələyirsiz. Kim uydurub bunları? Kim? Sevinc yoldaşının rəfiqəsidir. Ona bir insan kimi kömək etmişəm. Sadəcə budur. Aramızda isə heç bir zaman heç nə olmayıb. Salam-sağoldan başqa.
- Bunu biz uydurmuruq! Tərlan, bütün kəndin arvadları danışır sizin sevgi marəcanızdan.
- Nə dedin, Cəfər?
Tərlan bir zərbə də Cəfər ilişdirdi. Özünü olduqca pis hiss edirdi. Bir an içində eşitdiklərinə dözə bilmirdi. "Yəni Vahid buna görə Sevinclə ayrıldı?"
Cəfər, üst başını düzəldə düzəldə dedi:
- Sən indi bizim hər birimizə bir zərbə vuracaqsan? Bunu bütün kənd danışır.
- Kim? Kim danışır? Gəlsin çıxsın qarşıma. Kim?
Tərlan qışqıra-qışqıra öz küçələrinə getdi.
- Deyin də? Deyin kim danışır? Bütün sakinlər, gəlinlər, qızlar, qaynanalar, qaynatalar, oğullar, hamsı küçəyə çıxdı. Tərlan qışqıra qışqıra soruşurdu:
- Kimdir bizə ləkə yaxan? Kim deyib bunu sizə? Kim?

Arifə Tərlanın səsini eşidib çölə çıxdı. Bütün qonşuların Tərlanın dediklərinə tamaşa etməsinə pis oldu. Tərlan isə susmurdu. Küçənin ortasında var qüvvəsi ilə qışqırırdı. Sevinc də evdə diksindi.

- Bu kimdir? Ana eşidirsən?
- Hə, bala! Deyəsən Tərlanın səsidi.
- Nə deyir axı? Niyə qışqırır?
- Nə bilim? Başım çıxmır. Gəl gedək baxaq görək? Bəlkə içib?

Hər kəs sanki tamaşaya çıxıbmış kimi küçə ortasında qışqıran Tərlana baxırdılar.

- Tərlan havalanmısan? Gəl evə. Ayıbdı. Qonum qonşu baxır.
- Belə cəhənnəmə ki. Məyər bu qiybət sevər insanların ən sevdiyi şey deyil? Alçaqlar! Sizlərdən belə pak olan insana ləkə yaxırsız? Allahdan heç qorxmursuz? Xainlər!
- Ana, Tərlan kimdən danışır?
- Bilmirəm bala. Dayan görüm. Bəlkə mənim sözümü eşidər evinə girər.

Dilarə iri addımlarla Tərlanın yanına gəlib qolundan tutdu.

-Gəl, bala, gəl! Gir evə oturaq görək nə deyirsən?
- Yox! Mən bilməliyəm. Dilarə xala, siz deyin bu alçaqlara. Mənim Sevinclə bir salamdan sağoldan başqa sözüm söhbətim olubmu?

Dilarə Tərlanın verdiyi sualdan yerindəcə donub qaldı.

- Yox. O nə sözdü? Niyə soruşursan?
- Bu xainlər Sevinci ləkəliyirlər. Onun ən pak insan olduğunu belə qəbul edə bilmədilər. Allah sizlərin cəzanızı verəcək.

Arifə yenə qəzəbləndi. Tərlan hər kəsin içində Sevincin paklığından danışdı. Hər kəsi ləkəli onu təmiz insan adlandırdı. Hirsindən özünü ələ ala bilməyən Arifə var gücü ilə Tərlanın sinəsinə şığıdı.

- Demək bu qədər dəyərlidir Sevincin hə? Bütün bunlar həqiqət deyil? Səni neçə dəfə işdən gələndə onlara getdiyini görmüşəm. Neçə dəfə... Danış da! Niyə susursan? Hər kəsin bildiyi həqiqətdir. Vahid Sevinci elə Tərlanla olan eşqindən xəbərdar olub atıb. Bir dəfəfə olsa ona baxdığın kimi mənə baxmadın. Bir dəfə sevdiyini demədin! Sənin uşağın olmasa da qəbul etdim. Ömrümü sənə qurban verməyə razı oldum. Amma sən Sevincini unutmadın.

Olan bitən Sevinci şoka salmışdı. Dili söz tutmurdu. Vahidin dediyi o böhtanlar Arifədən çıxıbmış. Tərlan yerində donub qldı. Arifənin hər kəs önündə belə deməsi, özü də bu söz söhbəti Arifənin yayması onu mənəvi və fiziki məhv etdi. Ayaqları və əlləri sümüksüz ət kimi boşaldı. Bir an içində özünü idarə edə bilmədən yerə dəydi. Nə baş verdiyini anlaya bilməsə də çox qorxdu. Hər kəs başına toplaşdı. Arifə də. Tərlan ətrafı dərk edirdi, amma bədənini hiss etmirdi.

- Tərlan? Noldu sənə? Vay dilim quruyaydı. Sənə nə oldu? Dur ayağa.

Tərlan dili güclə söz tuta-tuta dedi:

- Hə-ə-ə-r şeyi sən etdin!...

Mirzə maşınını ora sürüb Tərlanı Cəfərlə köməkləşib maşına mindirdi. Arifə də onunla maşına əyləşib getdi. Dilarə bir an tərəddüd etmədən Sevincin qolundan tutub evə girdi.
- Ana, Arifə nə dedi?
- Bilmirəm, Başlarına hava gəlib. Geyin gedək.
-Hara?
- Hara olacaq? Xəstəxanaya. Tərlandan mənə pislik dəyməyib. Onu bu halda qoya bilmərəm. Öz oğlum kimi çox istiyirəm.
- Yaxşı. Gözlə gəlirəm.

Xəstəxana dəhlizində o başa bu başa gedən Arifə özünü günahlandırırdı.
- Dilm quruyardı. Dilim....
Dəhlizdə Sevinclə Dilarəni görüb özünü itirdi. Dilarə Arifəyə baxıb altan yuxarı üzünü türşütdü. Sevinc isə özünü saxlaya bilmədi:
- Arifə, o nə sözlərdi dedin? Ayıb deyildi sənin üçün? Sən ki bilirsən Tərlanla aramda heç nə olmayıb, olması da mükün deyil!
- Sevinc, bura söz söhbət yeri deyil. Allaha tapşır onu bəsindir. Sən günah etməmisən. Qoy günahı edən qorxsun. Yazıq Tərlan gör Arifədən nələr çəkirmiş. Cavanca oğal uşağı, turp kimi oğlan göz önündə şam kimi əridi. İnana bilmirəm hələ də...

Dilarənin sözlərindən yerindəcə alışıb yanan Arifə it kimi peşman olmuşdu. Tərlanı sevmədiyini düşünmüşdü. Amma belə deyilmiş Neçə illərdi bir yastığa baş qoyduğu insanı necə sevməz olardı? Özü də Tərlan kimi xoş xasiyyətli, yola gedən mülayim insanı...

Bir ay keçməsinə baxmayaraq Arifə hər gün xəstəxanaya gedirdi. Tərlan xərçəng xəstəsi idi. Bir aydır tez-tez əsəbləşdiyi üçün qıc olmaları tutduğundan xəstəxanaya yerləşdirilmişdi. Ona sadəcə sakitlik lazım idi. O da ki, yalnız Arifədən uzaqda idi. Tərlan onu görməsin deyə qapı ağzından tibb bacısına ərzğı geyimi keçimi ötürürdü. Həkim tapşırmışdı ki, Tərlanın qıc olmalarını yalnız sakitlik və rahatlıq apara bilər. Tərlan xərçəng olduğunu bilirdi. Gecikdiyindən müalicə belə ala bilməzdi. Ona vurulan iynələr yanlnız güclü ağrı kəsicilər idi. Təsirindən bir müddət sonra ayılırdı. Daha bədənini hiss edir, tez-tez havasını dəyişmək üçün xəstəxananın bağçasında gəzərdi. Sevincin indi nə halda olduğunu ürək ağrısı ilə düşünürdü. Bu bir ayda nələr yaşamış, nələr eşitmişdi. Heç Əsmərdən məktub alıb almadığını da bilmirdi. Bacardıqca həkimlərə yaxşı olduğunu və son aylarını evində keçirtmək istədiyini deyirdi. Lakin hələ çox zəyif idi. Bir tərəfi qurumaq üzrə idi. Başqa çarəsi yox idi. Gözləməli idi. Məqsədi isə evdə dincəlmək yox, Vahidi axtarıb tapmaq idi. O evli olsa da yanlış yerə Sevinci günahlandırdığını bilməli idi.

Bir neçə ay da keçdi. Fidan hamiləliyin ləzzətini çıxardırdı. Əsmər Sevincə yazdığı məktuba cavab gəlmədiyindən narahat olurdu. Zəminə Fidanın hər nazına dözürdü. Lakin son iki həftədə Əsmər susurdu, Zəminə başlayırdı. Fidan

hamilə olsa da dilini dinc qoymazdı. Tez- tez atmacalar atar, tikanlı sözləri ilə evdə hamını incidirdi. Bir gün necə bərk mübahisə etdilərsə Fidan yalandan ağrıdığını bəhanə etdi. Yataq otağına keçib bir neçə geyim və pulunu götürüb qapıdan çıxdı.

- Ay, qız hara gedirsən?
- Burda uşağa bir şey olar. Gedirəm anamın yanına. Təmiz hava mənə də lazımdı. Vahid gələndə deyərsiz dincəlməyə getdi.
- Başına hava gəlib? Vahid bilsə əsəbləşəcək.
- Mənə nə? Hər gün sizlə dilləşməkdən bir təhər olmuşam. Elə arvad qədri biləndi arxamca gələr.

Zəminə bu gedişi xatırlayırdı. Lakin o gedən Sevinc idi. Arxasınca şər böhtan atan isə Zəminə. O yağışda pulsuz əşyasız yola çıxmışdı.

Bir an içində Sevincin yaşadıqlarına üzüldü. Özünü günahkar bildi. Mələyi bərk- bərk bağrına basıb öpdü. Sanki qəlbi Sevincdən üzr istəməyə can atırdı. Zəminəni fikrdən Vahidin zəngi ayırdı.

- Alo?
- Ana, Mələy necədi? Fidan necədi?
- Mələk yaxşıdı. Fidanı bilmirəm.
- Necə yəni bilmirəm? Yenə mübahisə etmisiz? Axı o hamilədi. Yazığınız gəlsin.
- Vahid! Bala, eşit gör nə deyirəm. Fidan dedi gedirəm anam mənə baxsın. Təmiz kənd havası uşağa da xeyir olar. Vahid arvad qədri bilirsə arxamca gələr dedi.
- Yenə siz nəsə etmisiz. Durduq yerə Fidan niyə getsin ki? Onu da qovmusan? Sevinci qovduğun kimi?
-Sevinci mən qovmadım. Düzdü günahkaram. Amma onu qovan sən idi oğul!
- Hər nə isə. Fidani indi Əsmərlə gedin geri qaytarın. Mən gəlincə evdə olsun.

İki gün sonra Zəminə Əsməri də götürüb yollandı Fidanın anasının evinə. İsti bir yandan, susuzluq bir yandan, yolu tapa bilməməkləri də bir yandan. Nəhayət soruşa soruşa bir təhər Fidanın ata evini tapdılar. Fidana aparmağa gəldiklərini deyəndə: "Mən heç yerə getmirəm. Vahid özü gələr ayağıma aparar. Sizlərlə bir addım da atmaram. Adamı küçə ortasında ac susuz qoyarsız."

Bir neçə ay keçsə də Vahid tərsliyinə salıb arxasınca getmədi. Lakin uşağın bu günlərdə olacağını bildiyindən ürəyi dözmədi. Vaxtı ikən Sevincin arxasınca getmədiyinə görə mənəvi əzab çəkdiyindən bu dəfə də eyni səhvi etmək istəmədi. Səhər açılan kimi Fidanın arxasınca getdi. Lakin Fidanı qucağında uşaqla görüb təcüb etdi. Uşaq vaxtından 15 gün tez doğulmuşdu. Vahidin oğlu olmuşdu. Fidan inadkarlıq edib Vahidlə geri dönmədi. "Mənə bir uşaq lazım idi. O da budur qucağımda min şükür. Get həyatını yaşa. Mən Sevinc kimi əfəl deyiləm ki, əlimdən almağa cəsarət etsən görərsən Fidan kimdi!" Vahid Fidanın bu üzünü görməmişdi. "Hamı haqlı imiş Əsmər, anam sözün düzü deyirmişlər. Ondan insan olmaz. Yox mən özüm insan deyiləm. Sevincin qədrini bilmədim.

İlahi ona görə məni cəzalandırırsan? Oğlumu bir dəfə öpməyə də qoymadı. Bu necə insafsızlıq? Bəs mən mən ki eynisini Sevincə etmişəm. İl yarımdı Mələyi ona göstərmirəm. Mən... Mənəm günahkar!... " Vahid ordan kor peşiman evinə döndü. Qapıdan girəndə divanda əyləşən bir cavan oğlanı görüb özünü itirdi. Bir an içində dərdini boğub salamlaşdı.
- Buyurun?
- Vahid bəy, sizinlə danışmaq üçün çox uzaqdan gəlmişəm. Zamanım da azdır. Xərçəng xəstəsiyəm. Son həftələrim son günlərimdir. Amma sizin həqiqəti bilməyiniz üçün burdayam.
- Siz axı kimsiz?
- Tərlan!
- Tərlan? Arifənin yoldaşı?

Bəli. Tərlan xəstəxanadan nəhayət ki, çıxa bilmişdi. Qıc olmaları olsa iynəsini vuracaq insan var deyərək. Arxayın etmişdi həkimlərini. Lakin nə fayda? Onsuz da öləcəkdi. Heç olmasa Sevinci ölərkən xoşbəxt görmək istiyirdi. Sakitlik çöksə də Vahid Tərlanı dinləməyə məcbur idi. Axı mənəvi əzab çəkirdi.
- Sizin Sevinclə eşqbazlıq etdiyinizi Arifə zəng edib demişdi. Mən o andan Sevinci həyatımdan sildim. Mələyi də ona göstərmədim. Hətta uşağın da sizin olduğunu Arifə mənə demişdi.

Tərlan ani olaraq sarsıntı keçirtsə də Arifədən bunaları gözlədiyindən özünü ələ aldı.
- Vahid bəy, mən sonsuzam. Bunu Arifə ilə toyumuzdan bir neçə ay sonra şəhərdə müayinə zamanı öyrənmişik. Arifə bunu yaxşı bilirdi. Sevincə bir dəfə olsun pis niyyətlə baxmamışam. Lakin uşaqlığımdan onu sevmişəm. Bir dəfə olsun onun adına ləkə gəlməsini istəməmişəm. Arifə ilə evlənəndə Sevinc çoxdan sizinlə evli idi. Onu yenidən hamilə olanda gördüm. Çox sıxıntı keçirtdiyini də yoldaşım Arifədən öyrəndim. Anam öləndə bizə gəlmişdi. Kömək etməyə. Bir dəfə onda baş sağlığı verəndə danışmışıq. Bir iki kəlmə. Bir də Mələyin ad günündən 3 gün sonra Əsmər xanımın məktubunu ona verəndə Mələyin şəklini göstərəndə danışmışıq. Kəndə də Arifə qısqandığı üçün şayə yayıb. Lakin hər şeyin doğrusunu bir Allah bilir. Bir Sevinc bir də sizlə mən. İnsana şər yaxmaq asandır. Lakin gün gəlir etdyin yanlşlıq mənəviyyatını incidir. Doğru etmədiyini gec də olsa dərk edir insan.

Zəminə eşitdikcə alışıb yanırdı günah içində. Vahid bir insanın həyatının son anlarında yalan deməyəcəyini bildiyi üçün inanırdı. Həm də Sevincin yeri bura idi. Mələyin və onun yanı. Bu ev eşik yalnız onun ayaqları altına atılacaq qədər ucuz idi. Bir an belə dayanmadan Tərlana qoşulub yola çıxdı. Zəminə də Mələyi götürüb onlarla birgə getdi. Maşında Tərlan ona həyatdakı hər şeyin qədrini bilməyini, kimsənin sözündən ötrü kimsənin qəlbinə dəyməməli olduğunu başa saldı. Tərlan Sevincin xoşbəxtliyi üçün bu səfərə çıxmışdı. Hiss edirdi ki, taqəti daha qalmayıb. Vahiddən son arzusunu istədi: "Sevinci dünyanın ən xoşbəxt anası, ən xoşbəxt həyat yoldaşı və ən xoşbəxt insanı et!". Vahid onun son istəyini qəbul edib. Əməl edəcəyinə söz verdi. Beləliklə, Sevincin ata evinə

çatdılar. Qapını açıb evə girdilər. Tərlan bir tərəfinin tamamilə tutulduğunu hiss etsə də bu anı görməli idi.
- Vahid??? Mələk!!!!
Sevinc Vahidi görüb çox təəccüb etsə də Mələyi Zəminənin qucağında görüb ona doğru atıldı. Sevincinin həddi hüdudu yox idi. "Balam! Şip-şirin balam." Vahid artıq Tərlandan öyrənmişdi ki, Əsmər hər ay Sevincə məktub yazırmış. Mələyin bu günə kimi necə böyüdüyündən bəhs edirmiş. Buna görə sadəcə ona təşəkkür borclu idi. Bir ananı balsından ayrı qalsa da ondan xəbəri olması ümid yeridir. Sevinci Mələksiz yaşadan da elə o ümid idi. Budur Mələyi bərk -bərk bağrına basıb öpür, ətrini içinə çəkirdi. Qəribəsi odur ki, Mələyin də qanı bu yad insana qaynamışdı. Başqaları onu öpəndə üzünü çəkən o uşaq Sevincin öpüşlərindən yayınmırdı. Bu səhnəni görən tək Tərlan deyildi. Maşını görən hamı darvazadan boylanıb baxırdı. Arifə də gəlmişdi. Dilarə Vahiddən gəlişinin səbəbini artıq anlasa da bir daha eşitmək istədi. Vahid hər kəsin bərəlmiş gözlərinin onlara zilləndiyini görüb dedi:
- Mən bir zamanlar Arifənin yalanına, böhtanına inanıb gül kimi xanımımı tərk etdim. Qızımızı da ona həsrət qoydum. Arifənin sayəsində günah ardınca günah etdim. İndi həqiqəti öyrənmişəm. Və gəlmişəm ki, Sevincdən üzr istiyib evimizə geri aparam. Sevinc gözləri dolsa da Mələk üçün razı oldu. Vahidə isə dedi: "Səni də Zəminə xanımı da mən bağışladım. İndi qoy Allah sizi bağışlasın!"
Bu Tərlanın son gördüyü və eşitdiyi sözlər idi. Ordaca dünyasını dəyişib əbədiyyətə qovuşdu. Söylənməyən, eşidilməyən tək bir cümlə qaldı: "Mən səni həmişə sevmişəm və sevəcəyəm Sevinc!"...

**Hal-hazırda:**
Sevinc Vahidlə çox xoşbəxtdir. İkinci uşaqları doğulmaq üzrədir. Mələk ilk andan anasına isindi. Əsmər onların xoşbəxtlikləri üçün əlindən gələni əsirgəmir. Sevincə ev işlərində və Mələyə baxmağa çox kömək olur. Ailə həyatı qurmamaqda hələ də israrlıdır. Zəminə etdiyi yanlışlıqları yuya bilmək üçün tövbə edib Allah yoluna gəlib. Fidan kənddə diş həkimliyi edərək oğlunu heç nəyə ehtiyac duymadan böyüdür. Arada Vahid də Sevinclə onlara baş çəkir. Nadejda başqa biri ilə ailə qursa da iki balasını da Vahidə görməyə icazə verir. Vahid hər ay maddi olaraq köməklik edir.

**SON**

*Həyat paylaşılmağa dəyər. Lakin onu paylaşdığımız insanlara bir nəzər yetirməli, ondakı mənfi cəhətlərdən çox müsbətləri axtarmağa da zaman ayırmalıyıq. Hər insan ikinci şansa layiqdir. Bunu kimsədən əsirgəməyək. Ən önəmlisi isə yaşanan hər bir çətinliyə, hər əzaba, hər xoşbəxtliyə daim şükr*

*edək. Allaha şükr edərək günümüzü başlayıb, şükürlə də bitirək. Aldığımız hər nəfəsə görə Allaha  min şükür!!!*

**Müəllif: Xəyalə Murad (29. 05.2012)**



***"Zamanın öz məlhəmi"***

***povest***

## *I  Fəsil*

### *1970-ci illər*

Uzaq bir kənddə balaca daxma vardı. Bu daxmalardan burda çox idi. Kənd sakinləri yaşadıqları daxmaları öz əlləri ilə zəhmətləri ilə inşa etmişdilər. Həmin daxmaların birində yaşayan ailənin qızı dünyaya gəlir. O qız ki, həyatının onun uçun hazırladığı acı taledən, yaşayacağı ən acı faciədən xəbərsizdi.

Valideynləri yeni doğulan körpəyə Səma adı verirlər. Onun səma tək gözəl olduğunu düşünürdülər. Həqiqətən də o gözəl idi. Qara gözlü, qara qaşlı, sifət cizgilərinə görə normal olan burnu və dodaqları vardı. Çoxlarının paxıllıq edəcəyi bir gözəllik vardı Səmada.

Zaman keçdikcə o böyüyür və daha da gözəlləşirdi. Qonşuluğunda yaşayan bütün yaşıdları ona həsəd aparır, günbəgün gözəlləşən bu simaya valeh olurdular. Səmanı gözəl edən təkcə onun gözəl siması deyildi. Onun parlaq və uzun saçları vardı. Tamamilə düz olan şabalıdı rəngli ipək saçları gün işığında daha da parlaq olurdu. Bəzən yaşlı nəsil nümayəndələri Səmaya bu gözəlliyi Allahın sevimli bəndəsi olduğundan verildiyini deyirdilər. Əlbəttə, Səma da öz gözəlliyinin fərqinə varırdı. Bilirdi ki, gözəl olduğu üçün başqa qızlar tərəfindən qısqanılır. Hər axşam güzgü qarşısında dayanıb öz gözəlliyinə tamaşa edirdi. Qulaqlarına taxacağı qızıl sırğaları xəyal edirdi. Ona qızılın necə də yaraşacağını düşünürdü. Beləcə xəyallar qurararaq yuxuya gedərdi.

İllər keçdikcə Səma daha da gözəlləşirdi. Artıq on iki yaşına çatmışdı. Lakin bilmirdi ki, həyat onu geriyə dönüşü olmayan sınıq körpünün astanasına gətirib çatdırıb. Nə etsə də alın yazısından qaça bilməzdi. Onda yaşayacağı acı taledən bixəbər idi. Tezliklə özündən böyük olan qardaşına elçi gedirlər. Qısa zamanda toy məclisi qurulub, evə gəlin gətirildi. Yeni ailənin rahat yaşamağı üçün atası bağda bir otaqlı ev tikib oğluna hədiyyə edir. Az bir zamanda qardaşı əsgər gedir. Beləcə gəlin tək qalmasın deyə Səma onunla bir evdə yaşamağa başlayır. Gəlin ilk gündən Səmanın ürəyinə yatır. Onunla böyük bacı kimi rəftar edir. O da həmçinin Səmanı çox sevir. Hər gecə onun saçlarını darayıb hörür. Maraqlı əhvalatlarla başını qatırdı. Aralarında elə də böyük yaş fərqi yox idi. Səmanın 12 yaşı, gəlinləri Cəmilənin isə 16 yaşı vardı.

Bir gün Səma saçlarını yumaq uçun odun üzərinə su ilə dolu qazan qoyur. Cəmilədən də xahiş edir ki, su isinən kimi çağırsın. Müəyyən vaxtdan sonra Cəmilə suyun qaynadığını görür. Səmaya əziyyət olmasın deyə qaynar su ilə dolu qazanı odun üzərindən götürüb Səmanın saçlarını yuyacağı dama gətirir. Bura bütün ailə üzvlərinin yuyunması üçün tikilmiş xüsusi yer idi. Cəmilə suyun çox qaynar olduğunu bilib, soyuq su gətirməyə gedir. Bu zaman Səma Cəmilədən xəbərsiz dama girib suyun artıq orada olduğunu görür. Saçlarını açıb, başını aşağı əyir. Sutökənin köməkliyi ilə qaynar qazandan su götürüb başına tökür. Elə o andaca yanır. Qışqırığına qonşular belə toplaşır. Səma od tutub yanan başının ağrısından fəryad qoparır. Bu anı sözlə təsvir etmək belə acı gəlir insana. Qonşuluqda yaşayan Xosrov adlı həkim Səmanı muayinə edir. Qaynar su ilə yanmış başa baxaraq:

- Əfsuslar olsun ki, ev şəraitində nəsə etmək mümkün deyil. Tez bir zamanda xəstəxanaya aparılmalıdır.

Qonşuların köməkliyi ilə Səma xəstəxanaya yerləşdirilir. Həkimlər əllərindən gələn yardımı əsirgəmirlər. Cəmilə baş vermiş hadisədən yalnız özünü günahkar bilərək hər gün Səmadan dönə - dönə üzr istəyir. Allaha dua edir ki, Səmaya heç nə olmasın. Bir gün sonra həkim Səmaya həyatını alt üst edəcəyi dəhşətli xəbəri verir. Səmanın saçı, eləcə də qızıl sırğalarını taxacağı qulaqları tamamilə yanmışdı. Nə hər gün darayaraq uzunluğundan və parlaqlığından fərəhləndiyi saçı, nə də normal quruluşa malik qulaqları olmayacaqdı.

Bir ay beləcə keçdi. Səma daha insanlar arasına çıxmır. Mənliyi ilə tək tənha yaşayırdı. Hərdən Cəmilə ilə danışar, lakin daha gülməzdi. Taleyin acı yazısı həyatdan küsdürmüşdü Səmanı. Yaşamaqda heç bir məna görmürdü. Daha kim ailə qurmaq istərdi Səmayla? Kim fəxrlə gəlinlik geyindirib qoluna taxaraq atası evindən aparardı Səmanı? Yox idi o kimsə. Olmayacaqdı da. Səma da bunun fərqinə varırdı. Cəmilə daha Səmanın yanında saçını daramazdı. Səma pis olmasın deyə hətta qulaqlarından toy sırğalarını çıxartmışdı. Xəcalət çəkirdi öz hərəkətindən. Əyər Səmaya suyun qaynar olduğunu öncədən xəbər versəydi bütün bunlar gəlməyəcəkdi yazıq qızın başına. Hər gün atasının, anasının, qohumların, qonşuların tikanlı sözləri və iyrənc baxışları ilə üzləşməyəcəkdi Səma. Çox çətin idi qızcığaza yaşmaq. Buna yaşamaq belə demək olmazdı. O sürünürdü tale yolunda.

## *II Fəsil*

Günlərin bir günü Səma yuxusunda uzun gözəl saçları olduğunu görür. Lakin bu hər gecə öz saçlarının xəyalı ilə yataraq gördüyü kimi deyildi. Bu taxma saç idi. Səma yuxusunda yanmış başına taxma saç qoyduğunu, xoşbəxt olduğunu, hər kəsin onunla mehriban davrandığını görür. Lakin bu xoşbəxtlik uzun çəkmir. Qəfildən Cəmilənin səsindən oyanır.

- Sən bu vaxt niyə gülürsən? - Cəmilə heyrətlə soruşdu.
- Qəribə yuxu görürdüm. Heç inanmayacaqsan. – deyən Səma yatağının ortasında oturdu.
- De bəlkə inandım.
- Cəmilə, yuxumda görürdüm ki, mənim taxma saçım var. Taxma olsa da heç kəs bunun normal saçdan fərqləndiyini hiss etmir. –Səma sevinərək yuxusunu danışdı.

Cəmilə həmin gecəni səhərə qədər düşündüyündən yatmamışdı. Səmanın yuxusunu gerçəkləşdirmək istəyirdi. Amma bilmirdi ki, taxma saçı haradan tapsın. Yatağında sağa çevrilərkən öz saçı üzünə toxundu. Elə bu an da hər şeyin çarəsini tapdı. Səhər açılan kimi Səmanı oyatdı.

- Səma, oyan! Sənə sözüm var.

- Nə olub? – Səma yuxulu gözlərini ovxalaya-ovxalaya soruşdu.
- Daha nə olacaq, sənin yuxun gerçək olacaq.
- Necə yəni gerçək? - təəccüblənmiş Səma soruşdu
- Bax elə bu cür gerçək. – bu zaman Cəmilə öz saçını əli ilə göstərərək dedi.
- Sən, - Səma yatağından qalxıb Cəmilənin saçlarına toxundu - yəni sən öz saçlarını mənə verəcəksən?
- Niyə də yox?! Onsuz da onlar çox uzanmışdı. Nə vaxtsa kəsməli idim ya yox.

Səma Cəmilənin bu təklifinə etiraz edə bilməzdi. O çox şad idi ki, nəhayət ki, onun da saçı olacaq. Taxma olsa belə bir daha yanıq başla, yanıq yarımçıq qulaqla heç yerə gizlənməyəcək. Utanmayacaq. Hər normal uşaq kimi o da yaşıdları ilə bir daha oyunlar oynayacaq, bir daha incə yanağına təbəssüm qonacaqdı. Cəmilə də öz saçlarını çox sevirdi. Lakin Səmaya bəxş edəcəyi sevinc, xoşbəxtlik, gələcəyi üçün ümidləri hər bir şeydən vacib idi. Səmadan xahiş etdi ki, axşamadək səbir etsin. Yuxuya getdikdən sonra kəssin. O gün axşamadək Səma planlar qurdu. Taxma saçını necə düzəldəcəyi barədə götür qoy etdi. Nəhayət axşam oldu. Cəmilə o gecə sonuncu dəfə uzun qara saçlarını sığalladı. Yatağına uzanıb yuxuya getdi. Bir neçə saatdan sonra Səma Cəmilənin yatdığını görüb qayçı ilə onun saçını kəsdi. Lakin Cəmilənin göstərdiyi kimi çiyinlərindən yox, daha aşağı belindən kəsdi. O Cəmilənin bu fədakarlığını ömrü boyu unutmayacaqdı.

Həmin gecəni səhərə qədər yata bilmədi. Çox həyəcanlı idi. Tezliklə taxma saçlarını düzəltmək istəyirdi. Nəhayət səhər açıldı. Günəş öz isti şüaları ilə torpağı isitdi. Cəmilə oyanıb saçlarının gözlədiyindən daha uzun qaldığını gördü. Səmadan bunun səbəbini soruşmaq üçün onu oyatmağa qərar verdi. Səma yenicə yuxuya getmişdi. Amma Cəmilə bundan xəbərsiz idi.

- Səma, oyan!
- Nə olub? - yuxulu gözlərini güclə açmağa çalışan Səma soruşdu.
- Sənə demişdim ki, bir az çox kəs. Sən isə göstərdiyimdən az kəsmisən. - əli ilə saçlarını işarə edən Cəmilə soruşdu.
- Mənə o qədər də bəs etdi. – Səma gülümsünüb dedi - Çox sağ ol. Sən mənə doğma bacı qədər əzizsən. Sənin etdiyin bu yaxşılığı bir çoxları etməzdi. Allah bu yaxşılığının əvəzini sənə mütləq verəcək.
- Mən bunu sənin üçün etdim. Səni bir daha gözü yaşlı görmək istəmirəm. –Bu sözləri kövrələrək deyən Cəmilə Səmanı qucaqlayıb bağrına basdı.

Səhər yeməyindən sonra kəsib götürdüyü saçları özü üçün düzəltməli idi. Bunun üçün o ilk növbədə bərk parça axtardı. Anasından xahiş etdi ki, guya stol üstünü silmək üçün gec cırılan parça lazımdır. Anası da heç nədən şübhələnmədən köhnə pərdələrinin cırılmış hissəsindən bir parça kəsib verdi. Səma anasından parçanı alıb sevincək geri qayıtdı. Gəldiyində Cəmilə nahar üçün yemək bişirirdi. O çox qoçaq gəlin idi. Hər bir işin öhdəsindən asanlıqla gəlirdi. Səma hələ indiyə kimi görməmişdi ki, Cəmilə hər hansı işi bacarmasın. Ona kömək etmək barədə təklif etmədən bir başa otağa keçdi. Saçları cüt-cüt sıra ilə düzdü. İynə sapla saçları çüt-çüt həmin parça üzərinə tikməyə başladı. Çox yuxusuz olmağına baxmayaraq həvəslə işləyirdi. Vaxtın necə keçdiyindən xəbəri belə olmadı. Bir də baxdı ki, artıq axşamdır. Cəmilə onun yatağını düzəldir.

- Daha çox gecdir Səma. Gəl uzan dincəl. Səhər yenidən davam edərsən.
- Mən inanıram ki, tezliklə yekunlaşdıracam. Sən yat. Mən də yuxum gələn kimi yataram.
- Yaxşı. Amma mütləq uzan dincəl. Yoxsa gözlərin ağrıyar.
- Arxayın ol!

Səma dayanmadan tikirdi. Çox xırda iş olduğundan həm də ki, ilk dəfə etdiyindən yaman əlləşməli oldu. Səhər açılanda Cəmilə taxma saçın hazır olduğunu gördü. Səma bütün gecəni yatmadan onu tikib yekunlaşdırmışdı. Cəmilə Səmanın yuxusuz olduğunu bildiyindən oyatmadı. O gün Səma axşama kimi yatdı. Ayılanda artıq şər qarışırdı. Taxma saçı götürüb diqqətlə hər tərəfinə baxdı. İlk dəfə idi ki, belə bir iş görürdü. Kimsənin köməyi olmadan öz fantaziyasını işə salaraq şəxsi fikrində sənət əsəri yaratdı. Əslində isə heç də tam dəqiq tikməmişdi. Lakin onun üçün vacib olan bu deyildi. Səma çalışırdı ki, taxma saçla kimsədən seçilməsin. Yenidən uşaqlarla oyunlar oynasın, uşaqlığını yaşasın. İnsanlar arasına çıxmaqdan daha qorxmaq istəmirdi.

Beləcə aylar keçdi. Səma taxma saçı ilə oyunlar da oynadı. Yeni dostlar da qazandı. Yanağına yenidən gülüş qondu. Amma özü də bilmirdi ki, bu müvəqqəti xoşbəxtliyin bir zaman sonu gələcək. Onu tanımadığı birinə məcbur verəcəklər. Həyatı alt – üst olacaq. İki gün əvvəl atası ilə anası Səma üçün gəlmiş elçidən başlıq pulu alıb razılıq vermişdilər. Baxmayaraq ki, Səma hələ 14 yaşına yeni qədəm qoymuşdu, öz yaşıdlarından daha gözə gəlimli idi. Anasının elçilərə verdikləri qərarı öyrənəndən sonra gecə gündüz ağladı. Cəmilə ona nə qədər təskinlik versə də, Səma susmadı. Bir az da olsun rahatlamadı. Hələ ərə getmək

istəmirdi. Lakin xəbərsiz idi ki, onunla evlənmək istəyən şəxs özündən qat-qat yaşlı olan bir kişidir. Hələ bu da azmış kimi üstəlik o kişinin üç Səma yaşında övladı da vardı. Səma bu haqda məhz toy günü öyrəndi. Əvvəlcə ərə gedəcəyi insanın özünü sonra isə öz yaşıdları olan uşaqlarını görəndə bildi. Ağ gəlinlik içində qapıdan məcburən hər iki qollarından dartılaraq ərə verilən 14 yaşlı taxma saçlı Səma ah nalə çəkib qarğışlar yağdırdı. Əvvəl atasına, sonra anasına, daha sonra ərə getdiyi kişiyə və öz taleyinə...

## *III FƏSİL*

Zaman bütün yaraları sağaldır deyirlər. Bəs Səmanın yanağındakı bədənindəki yaraların məlhəmi nə olacaqdı? O toy günündən indiyə kimi hər gecə gündüz əri və ərinin uşaqları tərəfindən amansızcasına döyülür, işgəncələr görürdü. Sanki erməni qanı içmişdi zalımlar. O qədər amansızlıq, murdar işgəncə, nadanlıq yalnız erməni millətinin qanında var. Səma sanki əsirlikdə idi. Nə yeməyi yemək, nə halı hal idi. Ayaq üstə güclə dayanırdı. Nə ailəsindən kimsə onu görməyə gələrdi, nə də ona hasardan kənara çıxmağa icazə verərdilər. Bəs nə edərdi Səma? Hansı dağa arxalanardı. Hansı çiyinlərdə ağlayıb dərdini bölüşərdi. Daha belə yaşaya bilməzdi. Dərin quyuya düşün biri çıxmağın tək yolunu kəndirlə dırmanmaqda görürsə, Səma da bu vəzittəydən çıxış yolunu yalnız qaçmaqda gördü. Nəhayət bir gecə hər kəsin yatdığından əmin olub, evdən qaçdı. Hər tərəfin qaranlıq olduğuna baxmayaraq içindəki qorxu hissini boğub qaçmağa başladı.

O gecə Cəmilə yuxuya gedə bilmirdi. Gözlərini yuman kimi qorxunc sifət görüb diksinirdi. Bunun nə ilə bağlı olduğunu anlamırdı. Yatmamağa qərar verdi. Dörd saat əvvəl dəmlədiyi kəklik otu çaydan bir fincan süzüb içməyə başladı. Səmanı düşünürdü. Ən son onu gəlinlikdə atası evindən zor gücünə aparılanda görmüşdü. O gündən bir xəbər belə almamışdı ondan. Cəmilə Səmanı çox sevirdi. Evin tək övladı olduğundan kimsəyə bacı qardaş deməmişdi. Bunun nə olduğunu da anlamırdı. Lakin ailə qurub baldızı Səmanı tanıdıqdan sonra bacının nə olduğunu gözəl anlamışdı. Bilirdi ki, Səma ona baldızdan əlavə, həm də doğma bacı kimi əzizdir.

Fikirli halda çayından bir qurtum içmişdi ki, qapı bərk-bərk döyüldü. Amma gecənin bu vaxtında evə kim gəldiyini anlamadı. Şirin yuxuda olan yoldaşı Rəşidi tələsik oyatmağa başladı:

- Rəşid, oyan! Kimsə qapını döyür.
- Gecənin bu vaxtında nə qapı? – gözlərini ovxalayan Rəşid ayağa qalxmağa çalışdı. Qapı yenidən döyüldü. – hər kimdirsə Allah xeyrə calasın.
- Amin.

Rəşid əyninə yüngül paltar geyinib qapını açdı. Qapı önündə titrəyən halsız bacısı Səmanı görüb mat qaldı. Nə düşünəcəyini bilmədi. Amma onu yenidən gördüyünə çox sevindi. Kiçik bacısını qucaqlayıb bağrına basdı.

- Xoş gəldin, Səma! Gecə vaxtı nə olub niyə belə titrəyirsən?
- Mən o evə bir də qayıtmaq istəmirəm. – Səma dili topuq vuraraq dedi.

Çox qorxduğu ilk baxışdan aydın idi. Gözlərinin altı göyərmiş, dodağının kənarı partlamışdı. Cəmilə Səmanın halsız olduğunu görüb özü ilə yatağa apardı. Bir qədər yatmağını xahiş etdi. Səmanı təpiklə o qədər döymüşdülər ki, ayağı belə axsayırdı. Bütün bədəni gömgöy göyərmişdi. Rəşid bacısını əsgər getdiyi gündən sonra ilk dəfə idi ki, görürdü. Kaş görməz olaydı. Cəmilənin and amanı olmasaydı Rəşid elə gecə ikən bacısını bu vəziyyətə salan alçaq ərindən qisas almağa gedəcəkdi. Ən azından onları Səmanın halına salacaqdı. Axı hansı qardaş bacısını bu vəziyyətdə görmək istəyərdi? Heç kəs...

Səhərə kimi otaqda sağa-sola əsəbi halda gəzişən Rəşid, nəhayət bir küncdə əyləşdi. Cəmilə isə həm Səmanın qayğısına qalmış, həm də yoldaşına səbirli olmağı məsləhət görmüşdü. Dan yeri sökülәndə Rəşid atasını oyatmağa getdi. Bu ərəfədə Səma da artıq oyanmışdı. Ər evindən qaçarkən dəfələrlə yıxıldığından hər tərəfi sızıldayırdı. Tərpənməyə halı yox idi. Cəmilənin yatağının kənarında görüb çox sevindi. Onu yenidən qucaqlayıb ağlamağa başladı. Ərindən və onun amansız uşaqlarından çəkdiklərini danışmağa başlamışdı ki, qapı taybatay açıldı. Atası ilə anası təlaş içində evə girdi. Əvvəl biri sonra digəri Səmanı danlamağa tənbeh etməyə başladılar. Rəşid isə kənarda dayanıb bu vəziyyətə çıxış yol axtarmağa başladı. Bir də gördü ki, atası Səmanın işgəncələrdən yanmış göyərmiş qolundan dartaraq ər evinə aparmağa çalışır:

- Sənə icazə vermərəm ki, məni camaat içində rüsvay edəsən. Get ərivin yanına, canın çıxsın mehriban ol.

- Ata yalvarıram sənə məni ora göndərmə. Orda yaşamaqdansa qapında zəncirli it olum bəsimdi.
- Hələ danışmağa dilin də var? –anası da danlamağa başladı - Kişindir də bir gün döyər, bir gün sevər. Get otur xarabanda sözə qulaq as. Yoxsa südümü sənə halal etmərəm.
- Sənə qurban olub ay ana. Nə olar kömək elə. Mənim halıma acıyın.
- Dayanın! –Rəşid yerindən sıçradı - Bacım heç yerə getməyəcək!

## *IV FƏSİL*

Rəşidin qərarından sonra ata-anası ondan üz döndərdi. Sizin kimi övlad olmaz olsun dedilər. Hər iki valideyn yalnız özlərinin cəmiyyətdəki mövqeyini düşünərək hərəkət etdilər. Rəşid işdə olduğu zaman Səmanı güclə yoldşının evinə apardılar. Səma çox qorxurdu. Atasına çox yalvavırdı. Lakin onu dinləyən yox idi. Yoldaşı pillələri düşüb qaynatasına (əslində yaşıd idilər) sağol deyib xanımı Səmanın qolundan tutdu. Ağlayan qızını o evdə də qoyub getdilər.

Valideynləri şam yeməyinə əyləşmişdilər ki, qapı zərbə ilə açıldı. Rəşid Səmanın məcburən ər evinə aparıldığını öyrənib dəliyə dönmüşdü. Atasının yaxasından tutub divara dirədi.

- Sən necə insansan? Sənin ata ürəyin harda qaldı? Bəs vicdanın buna necə razı oldu?
- Burax məni. Unutma ki, atanla danışırsan.
- Sənin kimi...

Rəşid artıq özünü idarə edə bilmirdi. Atasının sinəsini buraxıb iti addımlarla evdən çıxdı. Bir başa Səmanın evinə getdi. Gördüyü mənzərə isə o qədər dəhşətli idi ki, Səmanı bura geri gətirən atasına min dəfə söydü. Çünki Səma ölümcül vəziyyətdə idi. Onu gətirildiyi andan o qədər vəhşiliklə döymüşdülər ki, nəfəs belə ala bilmirdi. İnək damında bir otluğun üstünə atmışdılar. Orda da qalmışdı. Rəşid göz yaşları içində bacısının taxma saçına sığal çəkdi. Onun ayılmadığını görüb daha da qəzəbləndi. Ayağa qalxıb Səmanı bu hala salanlardan hesab almağa getdi. İçəri girib qarşısına keçən hamıya bir sillə ilişdirdi. Səmanın yoldaşına isə o qədər vurdu ki, kişi ayaq üstdəgüclə dayanırdı. Əvvəl bacısını xəstəxanaya apardı. Sonra Cəmiləyə xəbər göndərdi ki, bacısının yanında olsun. Yol üstü rayon polis idarəsinə girib ərizə yazdı. Şikayətçi

olduğunu bildirdi. Beləliklə, bacısı Səmanın da dilindən ifadə alındı. Onu bu hala salanları ifadə üçün idarəyə apardılar. Lakin heç bir fayda vermədi. "Ər arvadına əl qaldırar da" deyib buraxdılar. Ədalət öz yerini tutmasa da Rəşid and içdi ki, onları boşadacaq. Beləliklə, bacısının kəbinini pozdurdu. Səma bir həftə xəstəxanada yatdı. İki qabırğası əzilmişdi. Ağzıdan qan gəlirdi. Çox pis günlər yaşadı. Cəmilə hər gün ona qulluq etdi. Atası da anası da qızlarının bu halını görüb etdikləri əməldən peşman oldular. Lakin Səma onları görmək istəmirdi.

Bir neçə ay keçdi. Səma tamamilə sağalmışdı və artıq bibi olmuşdu. Cəmilə ilə Rəşidin bir oğlu doğulmuşdu. Adını Əhməd qoydular. Səma Cəmiləyə hər işdə gömək edirdi. Onlarla birgə yaşayırdı. Rəşid bir otaqlı daxma evi 3 otaqlı kürsülü ev ilə əvəz etmişdi. Hər daşı daş üstünə dostlarının köməkliyi ilə qoymuşdu. İllər aylar ötdükcə Səma darıxırdı. Nə isə etmək istəyirdi. Düzdü evdən çölə addım atdığını görən hər kəs onu təhqir edirdi. Saçı yox, qulağının biri yox. Digəri yarımçıq halda idi. Taxma saç isə bu illər ərzində yetərincə köhnəlmişdi. Ona nə qədər səliqə ilə baxsa da daha istifadəlik halda deyildi. Daha Cəmilədən saç istəməyə üzü gəlməzdi. Haqqı da yox idi. Səma özünə saç axtarmağa başladı. Əvvəlcə qonşu kəndə yollandı. Hər kəsə elan etdi ki, kim saçının uzunluğundan bezibsə kəsdirib mənə versin. Əvəzində toyuq verirəm. Beləliklə, bir neçə rəngdə iki torba saç yığdı. Toyuqları isə atasnın həyətindən aparmışdı. "Buna haqqım var" deyə düşünmüşdü. Artıq valideynləri ona bir söz demirdi. Çünki yaşadıqlarının ilk təqsirkarı elə onlar idi. Səma evə gəlib iki gecə oyaq qaldı. Gecə gündüz özünə yeni taxma saç düzəltdi. Bu dəfə ilk işindən də gözəl alındı. Sözün əsl mənasında bəyənərək istifadə etdi. Hər bir saç rənginə uyğun taxma saç düzəltdi.

Səmanın artıq 20 yaşı var idi. Rəşid onun evdə ilk olaraq özü üçün tikdiyi taxma saçları çox bəyənirdi. Bacısının tikişə olan həvəsini görüb onu dərzi yanına tələbə kimi yazdırdı. Beləliklə, Səma dərziliyi öyrəndi. Hər gün həvəslə ustasının yanına getdi. Ondan hər bir tikişin incəliyini öyrəndi. Parçaların növündən tutmuş sapların növünə kimi nə lazımsa mənimsədi. Beləliklə, ustası onun kimi bacarıqlı tələbəni itirmək istəmədiyindən yanında işləməyini məsləhət gördü. Rəşid heç

düşünmədən qərar verdi. Lakin heç də peşman olmadı. Çünki bacısı bu işdən çox xoşbəxt olurdu. Bacısının yanağında təbəssümü görmək isə hər qardaşın arzusudur.

Səma artıq özünə daimi müştəri də tapmışdı. İşdə yorulmağına baxmayaraq evdə də tikirdi. O qədər sevirdi ki bu sənəti. Özünə də, Cəmiləyə də cürbəcür geyimlər hazırlayırdı. Rəşidə ad günündə bir pencək də tikmişdi. O pencəyi çox sevərək xeyir şər məclislərinə geyinirdi. Lakin bir gün işlədiyi tikiş fabrikini bağladılar. Səbəbi hər nə idisə bu fabrikin işçilərinə də Səmaya da çox təsir etmişdi. Günlərlə işsiz qaldı. Rəşidin bir zaman onun üçün aldığı tikiş maşınını belə açmırdı. Həvəsi yox idi artıq heç nəyə. Bu vəziyyəti dəyişmək kimsənin əlində deyildi. Səma yenidən qəmgin olub içinə qapandı.

## *V Fəsil*

Bir gün qonşudan su gətirməyə gedəndə öz ustasını gördü. Bir qədər hal-əhval tutandan sonra öyrəndi ki, həmin fabrik kiçik təmirdən sonra yenidən açılıb. Lakin indi başqa müdriyyət işlədir. Və çox sərt biridir. Vaxtı vaxtında işə gəlib gedən işçi axtarır. Həftədə bir gün icazə günü verir. Maaşı da həftəlik verir. Bu şad xəbər Səmanın ürəyindən olur. Müdriyyətin çox tələbkar olmasından qorxmur. Əksinə tezliklə o fabrikə yenidən işə düzəlmək istəyir. Ustasından çox xahiş edir ki, onun üçün iş danışsın. O da Səmanın müəllimtəsi olduğundan necə gözəl tikiş tikdiyinin şahidi idi. Bu səbəbdən müdriyyətlə danışıb Səmanı işə yazdırır. Beləliklə, hər gün yenidən işinə gedib yorğun halda evinə döndürdü. İlk iki ay heç müdriyyət ilə rastlaşmadı da. Gün boyu bir tikişə bir geyimə yüz dəfə baxırdı ki, nədəsə əyirilik olmasın. Əks halda işdən qovula bilərdi. Həftəlik maaşını alanda isə körpə uşaq tək sevinirdi. Lakin pulunu xərcləməzdi. Həm də xərcləməyə yeri yox idi. Nə alacaqdı ki? Geyimdi özü tikirdi. Ayaqqabıdı qardaşı alırdı. Bir dəfə özü də almışdı. Öz maaşı ilə. Rəşid biləndə isə incimişdi. O gündən maaşını üst üstə yığırdı. Cəmilə o pulların gələcəkdə Səmaya lazım olacağını düşünürdü. Onun yenidən ailə qurmasını oğul-qız sahibi olmasını arzu edirdi. Axı hələ 21 yaşı vardı. Çox gənc idi. Mütləq onun qisməti açılacaqdı. Cəmilə gecələr Allaha dua edərdi. Ondan Səmanın xoşbəxtliyini arzu edərdi.

Günlərin bir günü usta başı Səmanın həftəlik maaşını verərkən müdirin onu görmək istədiyini deyir. Bu xəbəri alarkən heç də ürəyi açılmır. Əksinə müdirin necə təmizkar və səliqəli olduğunu bu iki ay ərzində dəfələrlə eşitmişdi. Elə buna görə də qorxur. Düşünür ki, hansısa tikdiyi geyim müdirin xoşuna gəlməyib və onu işdən qovmaq üçün çağırır. Ayaqları titrəyə-titrəyə otağın qapısını döyüb, bir az gözlədikdən sonra açır.

- Gəlmək olar?
- Bəli. Keçin əyləşin-pəncərə onunda dayanmış orta boylu, dolu kişi dedi.
- Məni çağırtmışdız.

Mehdi bəy qapı önündə dayanmış Səmaya diqqətlə nəzər salıb əyləşməyi göstərdi. Səma yaman ürkmüşdü. Qovulmaq istəmirdi. İşini sevirdi. Onun üçün bu iş bir əyləncə idi. Zövq alırdı hər zəhmətindən. Bura gələrkən başındakı iş yaylığını açmadığından tez-tez yaylığın ucunu barmağına dolayırdı. Bununla bir az həyəcanını dəf etməyə çalışırdı.

- Siz iki aydı bu fabrikdə çalışırsız.
- Bəli.
- Sizə söz verəndə danışarsız. –qəzəbli halda Səmaya baxdı.
- ....
- Ustanızın sizi işə götürməyimi israr etdiyində ona demişdim. Cəmi iki ay vaxt verəcəm o xanıma. Əyər işini bəyənməsəm, iki aydan artıq fabrikimdə çalışmasına icazə verməyəcəm demişdim.

Səma artıq qorxmağa başlamışdı. Lakin ustası ona bildirməmişdi ki, iki ay işinə nəzarət edəcəklər. Bu xəbər onu titrətsə də, bu otaqda olmasının səbəbini də bilmək istəyirdi. Mehdi bəy davam edirdi.

- Hər gün sizin tikdiyiniz geyimlərə şəxsən özüm baxmışam. Və onu qeyd edim ki, səliqənizi alqışlayıram. Hər bir tapşırığınızı çox səliqəli və zamanında tikib təhvil vermisiz. Məhz bu baxımdan sizin işdən azad olmayacağınıza zəmanət verirəm. Yetər ki, ilk iki ayda olduğu kimi səliqəli tikişinizi zamanında təhvil verəsiniz.

- ...

- Bir söz demək istəmirsiz?

- Siz dediz axı söz vermədən danışmayım. – Yanağı qızaran Səma dedi.

- İndi ki, söz verdim.

- Çox sağolun. Sınandığımı bilmirdim. Ustam deməmişdi. Lakin əmin olun ki, mən bu işi çox bəyənirəm və zövq alaraq tikirəm. –Barmağını yenə yaylığın ucuna apardı.

- Lap yaxşı. İndi gedə bilərsiz. –Səmanın həyəcalı halda yaylığını oynatmasına baxaraq dedi.

- Sağolun. –Səma kabineti tərk etdi.  Fabrik müdiri ilə ilk dəfə qarşılaşsa da onu yetərincə sərt biri kimi tanıdı.

Bir neçə ay daha fabrikdə işlədi. Bu aylar ərzində Mehdi bəy demək olar hər həftə müəyyən bəhanələrə Səmanı kabinetinə çağırırdı. Əslində Bu sadə qızdan xoşu gəlmişdi. Çox səliqəli tikməsindən əlavə, həm də ağılı başdan çıxara biləcək gözəllik vardı. Onun gözlərini çox bəyənirdi. Hər dəfə kabinetinə çağıranda sözünü gözlərinə baxaraq deyərdi. Səmanın yaylığını neçə oynatması isə ona çox xoş gəlirdi.  Fabrikin qaydasına görə hər bir işçi başına yaylıq geyinər, əyninə önlük taxardı. Səma da digər işçilər kimi başının yaylığını əskik etməzdi. Mehdi bəy isə bir dəfə də olsun onun saçlarını açıq halda görməmişdi. O sadəcə o gözlərə vurulmuşdu. O iki qara mirvariyə.... O gözlərə hər gün baxmaq istərdi. Lakin aralarında yaş fərqi vardı. Düz 20 yaş. Bu az rəqəm deyildi. Ona görə də qəlbindəkiləri Səmaya açmırdı. Səma isə hər şeydən xəbərsiz müdiri çağırır deyə gedərdi. Hər kabinetə girərkən həyəcan keçirərdi. Ona zillənən gözlərdən isə yayınmağa çalışardı. Fikrini deyiləcək əmrə yönəltməyə cəhd edirdi. Həyəcan isə buna imkan vermirdi. Mehdi bəyin məhz Səmanı tez-tez çağırması, əmrlərin onun tərəfindən işçilərə çatdırılması, hər kəs tərəfindən bir mənalı qarşılanmırdı. Əksər işçilər onun arxasınca danışardılar. Ustasının qulağına nəsə çatanda ordaca paylarını verərdi. Səmaya kimsənin artıq əskik söz deməsini istəmirdi. Lakin Səma hiss edirdi ki, iş yoldaşları ona söz atırlar. Nahar zamanı acı sözlər deyirlər. Ona baxıb pıçıldaşırlar. Bütün bunların səbəbini isə tezliklə ustasından öyrəndi. Həmin gün isə səhərə kimi yuxuya gedə bilmədi. Axı Səmanın heç bir səhvi yox idi. Müdir çağırır deyə kabinetə gedirdi. Başqasını çağırsa getməzdimi? Hər bir işçinin borcudur müdirin çağırışına cavab verməq.  Necə deyə bilər ki getmirəm? Bu düşüncələr ilə fikrində

qətiləşdi. Gələn dəfə kabinetə getməməkdə israr edəcəyini düşündü. Ən azından söz söhbətlər bitsin deyə. Adına söz yaymasınlar deyə.Təxminən dörd gün sonra ustabaşı Səmaya Mehdi bəyin onu kabinetinə çağırdığnı dedi. Səma da:

- Get Mehdi bəyə de ki, əlində tikiş-tikir.

Bu cavabdan mat qalan ustabaşı məcburən müdirin otağına gedib, Səmanın gəlməyəcəyini deyir. O gün Mehdi bəy dəfələrlə ustabaşını Səmanın arxasınca göndərir. Lakin hər dəfə eyni cavabla gedir qayıdır. Səmanın bu hərəkədi Mehdi bəyi əsəbləşdirir. Və işdən qovulması üçün ərizəsini tələb edir.

Səma işdən çıxmaq istəmirdi. Onu Mehdi bəyin kabinetinə getmədyi üçün qovacaqdılar. Bütün söz söhbətlərə baxmayaraq kabinetin qapısını döyür.

- Gəlin!

- Bağışlayın Mehdi bəy. Mən...

- Siz özünüzü nə zənn edirsiz? Məgər bilmirsiz ki, müdir işçini çağırarkən əlində hər nə iş görürsə kənara qoyub, əmrə tabe olmalıdır?

- Mən.... Mən bilirəm. Lakin...

- Lakin nə? Məgər işdən qovulmaq istəyirsiz? Elədirsə, sizə bu imkanı verirəm. Buyurun, ərizənizi yazın və çıxın.- Bu sözləri qəzəbli olduğu üçün deyirdi. Əslində isə Səmanı incitmək niyyəti yox idi. Sadəcə gün boyu onun əmrinə tabe olmamağına yanırdı.

- Mən işdən çıxmaq istəmirəm. Siz məni qovursuz?

-Xeyir! Sizin kimi işçiyə ehtiyacımız var. Lakin sizin bugünkü hörmətsizliyiniz məni bu qərarı verməyə vadar etdi.

- ...

- Gəlməməyinizin səbəbi nə idi? Hər halda ciddi səbəb olmalıdır ki, müdirin əmrindən çıxasız.

- İşçi yoldaşlarım.

- Anlamıram. İzzah edin.

- İşçi yoldaşlarım məni tez-tez çağırmağınızdan dedi-qodu edir. Mən də daha çağırmayasız deyə...

- Necə? Yəni o qədər boş qalıblar ki, mənim kabinetimə kimi çağırdığımı, neçə dəfə çağırdığımı güdürlər?

- ...

-Bu saat! – tələsik yerindən durub kabineti tərk etdi.

-Mehdi bəy, çox xahiş edirəm. –Səma onun bütün işçiləri qova biləcəyindən qorxdu. Lakin düşündü ki, elə iş tutsa müdir işçisiz iflas ola bilər. Ona görə Səma kabinetdən çıxmadı. Arada qulağına Medi bəyin səsi gəlirdi.

- Siz o qədər bekarsız? İşinizin öhdəsindən gəlməyi öyrənin. Onun bunun arxasınca söz etməyi yığışdırın. Müdir olaraq kabinetimə kimsəni çağırmağa haqqım yoxdu məgər? Bu cür axmaqlığı bir daha görməyim, eşitməyim! Bu ilk və son xəbərdarlığımdır.

Bu müddət ərzində Səma boş vərəq götürdü. İbditai təhsili vardı. Kəndlərində o zamanlar qızları oxutmurdular. Səma da yaşadığı faciədən sonra məktəbə gedə bilmədi. İndi bu söz söhbəti müdirinə dediyi üçün peşman olmuşdu. İş yoldaşlarının gözündə lap müdirin sevgilisi kimi görünəcəkdi. O isə bunu istəmirdi. Ona görə bütün işçilər danlanmışdı. Tez bir zamanda işdən çıxmağa qərar verdi. Ərizəni hərf -hərf yazsa da cəmi iki cümlə ilə kifayətləndi. Qısa zamandan sonra Mehdi bəy kabinetə döndü. Çox əsəbləşmişdi. Hisslərini cilovlaya bilmirdi. Üstəlik kənar insanların onun hisslərini anlamaları xoşuna gəlməmişdi. Çünki o hisslərin sahibi Səma heç nədən xəbərsiz idi. Onun adının hallanmasını ağlına da gətirmək istəmirdi. Səmanın oturduğunu görüb masasına yaxınlaşdı. Üsünə yeni qoyulmuş ağ vərəqi əlinə alıb oxudu: “Ailəmin məsləhəti ilə işimdən çıxmağa qərar verdim. Bu işə yaramadığımı düşünürəm”.

- Bu nə deməkdir?
- ....
- Siz işdən könüllü getmək istəyirsiz?
- Bəli.
- Axı niyə? Mən ki, dedim sizə ehtiyacımız var.

- Mən məcburam.
- Bəs nə edəcəksiz?
- Hər zamankı kimi evdə tikəcəm.
- Belə olmaz. Burda işləyənlərdən qat-qat bacarıqlısız. Deyilən sözlərə fikir verməyin. Əgər lazım olsa sizi heç çağırmaram kabinetimə. Sözüm olsa ustabaşınıza deyərəm çatdırar. Amma çıxmağı ağlınıza gətirməyin.
- Sağolun Mehdi bəy. –deyərək kabineti tərk etdi.

## *VI Fəsil*

Səma üçün son dərəcə ağır keçən günlər başladı. Həm işdə yayılan şayələr onu incidir, qürüruna toxunur, həm də işə bir həftədir getməməsinə üzülürdü. Əslində xəstələnmişdi yataqda idi. Yoxsa qəti işindən qalmazdı. Axı Mehdi bəy ərizəni o kabineti tərk etməzdən əvvəl çırmışdı. Demək ki, onun işdə qalmasını çox istəyirdi. Lakin qəfl xəstələnib yatağa düşüdüyündən nəinki işə, heç evinin həyətinə addım ata bilmirdi. Boğazı şişib, nəfəs ala bilmir. Yemək uda bilmirdi. Qonşuluqdakı təbib baxmışdı. Lakin ciddi bir şey olmadığını demişdi. İndi isə ayaqlarında keyləşmə hiss edirdi. Bəzən ağrıyırdı da. Bu bir həftə ərzində ustası gəlib baş çəkmişdi. Halından xəbərdar olmuşdu. Mehdi bəyə də gəlməməyinin səbəbinin xəstəlik olduğunu demişdi. O günə kimi isə düşünürmüş ki, Səma ondan inciyib. Tərslik edib işə gəlmir. Ustanın verdiyi xəbərdən narahat olmuşdu. Səmaya nə olub deyə gecəni yata bilmədi. Səhər sürücüsünə Səmanın ünvanını verdi.

Mehdi əslən bəy nəslindən idi. Onun həyatı demək olar ki, dərdsiz, qəmsiz keçmişdi. Lakin ailədə xoşbəxt ola bilməmişdi. Xanımı evliliklərinin ilk ilində dünyasını dəyişmişdi. Ani itgi Mehdi bəyi çox sarsıtmışdı. Xanımının qanında gedən proseslərdən heç kəsin xəbəri olmamışdı. Bənizi ağ olsa da, onun anadangəlmə rəngi bu olduğunu düşünərdi. Mehdi bəy onu vaxtında müayinə etdirmədiyinə çox peşman olmuşdu. Sevərək ailə qurmuşdular. Bu evlilikdən övladı belə dünyaya göz açmadan xanımın bətnindəcə məhv olmuşdu. Bu Mehdi bəyə çox ağır yük olmuşdu. İllər boyunca heç bir insana könül verməmişdi. Artıq 17 il idi ki, xanımının yasını saxlayaraq, ziyafətlərdə belə ona maraq göstərən xanımları yaxına buraxmamışdı. Ta ki, Səmanı gördüyü anadək.

Həmin gün yağış yağırdı. Səma fabrikə üz tutmuşdu. Mehdi bəy də şəxsi maşınında işə gedirdi. Tamamilə təsadüfən Səma Mehdi bəyin maşını önündən keçir. Başını aşağı salıb simasını hər kəsdən gizlədən yaylıqlı xanım onun diqqətini çəkir. Sürücüyə o qızın arxasınca getməyi tapşırır. Hər dəfə pəncərədən xanımın üzünü görməyə cəhd etsə də alınmır. Səma üzünü gah yan tərəfə çevirir, gah da yerə. Lakin Mehdi bəy Səmanın yanağında təbəssüm görür. Ustası ilə fabrik önündə salamalaşarkən yanağında güllər açılır. Həmin gün Səmanın yeni təmirdən çıxmış fabrikdə ilk iş günü olacaqdı. Mehdi Səmanın təbəssümünə vurulur. İşləməsinə razı olur. Hətta qarşısına bir müddət çıxmamağa çalışır. İşdən hər gün evə gedərkən Səmanın hiss etmədiyi şəkildə yolun müəyyən hissəsini arxasınca izləyir. Heç saçlarının nə rəngdə olduğuna da baxa bilmir. Axı o hardan bilsin ki, Səma uşaq olanda saçları yanıb. İşdə kimsə bu faciəni bilməzdi. Səmanın ünsiyyət qurduğu tək şəxs ustası idi.

- Salam. Mən Səma xanımın müdiri Mehdi bəyəm. Xəstə olduğunu öyrəndim. Bir köməyə ehtiyacınız varsa...
- Xoş gəldiz. Keçin əyləşin. –Rəşid qapısına gələn qonağı salamladı.
- Çox sağolun. Səma xanım necədir?
- Nə yalan deyim, dərdini bilmirik. Qızdırmadan alışıb yanır. Heç nə yeyə bilmir. Türkəçarə nə bildiksə etdik. Bir saat yaxşı olursa, sonra yenidən eyni hala düşür. Hər şey kənara dursun, ayağa belə qalxa bilmir. Ayaqları tutmur.-Rəşid çox məyus olmuşdu.
- Narahat olmayın. Mənim bir yaxın dostum həkimdir. Səma xanımın dərdindən o anlayar. İcazənizlə Səma xanıma baş çəkərdim.
- Əlbəttə, buyurun.

Rəşid azacıq sevindi. Bacısını sağaltsınlar başqa heç nə istəmirdi. Səmanın halından xəbər tutan ata-anası da arada baş çəkrədilər. Mehdi bəy otağa daxil olanda yataqda yatan Səmanı gördü. Cəmilə də onun ayaq tərəfində oturmuşdu. Alnındakı islanmış dəsmalı tez –tez dəyişirdi. Buna baxmayaraq qızdırması düşmürdü. Bu səhnə Mehdi bəyin qəlbini sızladır. Səmanı hec bu halda görməmişdi. Bənizi ağarmış taqətdən düşmüşdü. Gözlərini açıb yatağının kənarında dayanmış Mehdi bəyi gördü. İki qara mirvari tək gözləri parıldadı. O ilk dəfə idi Mehdi bəyin

gözlərinin içinə baxırdı. Əvvəlcə qızdırmanın təsirindən sayıqladğnı düşündü. Ona görə dayanmadan o gözlərə tamaşa etdi. Ani olaraq bu baxışlar toqquşdu. Amma o an dəqiqələrlə saatlarla davam etmiş kimi hiss bəxş etdi hər ikisinə. Səma kekələdi:

-Mehdi bəy....

-Bəli, Səma xanım.

-Siz burdasız  həqiqətən?

-Bəli. Bir az olar gəlmişəm.

-Məndən incimisiz bilirəm.

-Özünüzü yormayın. Həkim dostum gələcək. Sizi sağaldacaq. Yenidən ayağa qalxacaqsız.

-...

-Mən ərizənizi çırmışdım.

-Bilirəm.Kabinetdən çıxarkən gördüm.-Səma halsız cavab verdi.

Mehdi bəy anladı ki, Səmanın halı çox pisdir. Lakin eyni zamanda xəstəliyindən xəbərsiz olduğu öz xanımı gözü önünə gəldi. Zamanında müayinə etdirsəydi, bəlkə də,  sağ olacaqdı. Üstündən bu qədər illər keçmişdi. Səmaya sevgi bəsləməyə başlamışdı. Lakin icazə verməzdi ki, hansısa xəstəlik növbəti dəfə onun xoşbəxtliyini əlindən alsın. Buna imkan verməzdi. Mehdi bəy həkim dostunun arxasınca öz maşınını yollamışdı. Sürücüyə təlimatı hələ Rəşid bəylə danışarkən vermişdi.

-Mehdi bəy, məndən nigaran qalmayın tezliklə sağalıb işə dönəcəm.

-Sizin sağlamlığınız vacibdir Səma xanım. İş haqda düşünməyin.

Bu zaman qapı açıldı. Cəlal həkim Səmanı müayinə etməyə başladı. Hər kəs otaqdan çıxdı. Cəmilə isə Səmaya kömək edirdi. Bu müayinə zamanı Səmanın ustası gəldi. Mehdi bəyin maşınını küçədən keçərkən görmüşdü deyə Səmanın necə olduğu ilə marqlanmaq istəmişdi. Lakin həkimin

müayinəsinə mane olmamaq üçün digər otaqda Mehdi bəyin yanında əyləşdi.

-Səmanı gördüz?

-Bəli. Çox halsız idi.

-Allah sizdən razı olsun. Həkim çağırmısız.

-...

- Səma yazıq doğulandan bədbəxtdi.

-Niyə doğulandan? Gül kimi valideynləri, qardaşı var.

-Eh Mehdi bəy. Mən Səmanın dərd yoldaşıyam. Həyatını sizə desəm bu kiçik yaşında yaşadıqlarına məətəl qalarsız.

- Siz nədən danışırsız?

-Səma uşaq olanda başı yanıb. Saçının əksər hissəsi və qulağının biri demək olar yoxdur. Gül kimi qızdır. Öz əlində düzəldir o taxma saçları. Başına işdə yaylıq bağladığından kimsə bilmir.

-...-Mehdi bəy yerində qurumuşdu.

- Hələ 14 yaşında atası bunu zorla yaşlı birinə ərə verir. Başlıq pulu alır. Səma ağlasa, da sızlasa da qıza yiyə çıxan olmur. Deyirlər onsuz da səni bu halında alan olmayacaq. Heç olmazsa yaşlı birinə ərə get. O kişi də uşaqları ilə onu hər gün döyürmüşlər. Yazığa əsir kimi davranıblar. İnək damında yatırmış. Sonra qardaşı Rəşid əsgərlikdən qayıdanda Səma ərinin evindən qaçıb qardaşına sığınıb. Rəşid ona sahib çıxır. Kimsəyə də qoymur artıq söz desin bacısına.

Eşitdiklərindən sarsılan Mehdi bəy kimsəyə bir kəlmə demədən evi tərk edir. Maşına əyləşib bir-başa evinə sürməyi tapşırır. Yol boyunca götür qoy edir  Çox pis olmuşdu. Bilmir Səmanın yaşadıqlarında kimi günahlandırsın. Onu çox sevirdi. Onun üçün saçının olub olmaması bir məna vermirdi. Axı  Mehdi bəy bu günə kimi Səmanın saçını görməmişdi. Onun gözlərinə təbəssümünə aşiq olmuşdu. Yox... bunu belə qoya bilməzdi. Səmanı çox sevirdi. Yaşadıqları insanın ağlına belə gəlməzdi,

lakin Səma kiçik qəlbində bu qədər əzabı yaşamışdı. Bir yük kimi də bu günə kimi daşımışdı. Artıq ona ağır gəlirdi bütün yaşadıqları. Çəkdiyi mənəvi sarsıntılardan xəstələnmişdi. Yatağa düşmüşdü.

-Dayan! Geri dön! Həmin evə. –Mehdi qəfl sürücüsünə əmr etdi.

-Baş üstə.

Daha o tənha qalmayacaq. O boş quru divarlara baxmayacaq. İllərlə özünü günahkar bildiyi üçün qaranlıq otaqlarda içki içməyəcək. Artıq Səma vardı onun üçün. Arada 20 yaş fərqləri olsa da çox sevirdi Səmanı. Onun gözlərini bir daha görməzsə yaşaya bilməyəcəyini sandı. Onsuzluq hissindən qorxmağa başladı. Maşın evin önündə dayanan kimi iri addımlarla evə girdi. Həkim Səmanın otağından çıxmışdı. Mehdini görüb ona doğru yaxınlaşdı. Rəşid fikrini həkimin ağzına yönəltmişdi. Bir ümid axtarırdı bacısı üçün.

-O necədi Cəlal bəy?

-Səma xanımın ciddi bir xəstəliyi yoxdur. Qızdırmasına səbəb məhz boğazıdır. Onun artıq əti var. Ola bilsin yetişdiyi üçün incidir. Ayağının tutulmasına belə səbəb o olub. Ən qısa zamanda əməliyyat olunmalıdır. Ürəyinin sağlamlığına da mane ola bilər. Sabah xəstəxanaya gətirin. Bir həftəyə yenidən ayaq üstə görəcəyinizə söz verirəm.

-Çox sağolun Cəlal bəy. Mehdi bəy sizə necə təşəkkür etsəm azdı. –Rəşid sevincək Cəlal həkimin əlini sıxdı.

-Cəlal, məni maşında gözlə mümkünsə.

-Əlbəttə. Sağolun Rəşid. Sabah sizi Səma xanımla otağımda gözləcəm.

-Baş üstə. Arxayın olun. Mütləq gələcəyik.

-Rəşid, sizdən bir xahişim var. Bu pulu alın. Səmanı əməliyyat edin.

-Mənim pulum var Mehdi bəy. Səma işlədiyi bu müddət ərzində maaşının bir qəpiyini də xərcləməyib. O pulla əməliyyatını etdirə bilərik.

-Əhsən Səma xanıma. –Mehdi bəy bir daha qəlbinin sahibi ilə fəxr etdi.

-Mən... Yaxşı... Rəşid bəy onda mən gedim.

-Oturub bir stəkan çayımızı içərdiz. Sizə ömür boyu borclu olacam.

-Yox, heç bir borcunuz yoxdur. Səma xanımı ayaq üstə görüm mənə dünyalara dəyər.

Mehdi son sözlərindən sonra cəld maşına doğru getdi. Rəşid bir şey anlamadı. Amma hiss etdi ki, Mehdi bəyin Səmada könlü var.

O gündən düz bir ay ötdü. Səma artıq əməliyyat da olmuşdu. İşə də başlamışdı. Rəşid bu ay ərzində artıq əmin idi ki, Mehdi bəy bacısı Səmanı sevir. Lakin bu aradakı yaş onu incidirdi. Axı Səmanın ilk yoldaşı da Səmadan qat –qat yaşlı idi. İndi görəsən Mehdi bəyin sevgisindən Səmanın xəbəri vardımı? Cavabsız suallar canını sıxmağa başlamışdı. Bacısının xoşbəxtliyindən vacib heç nə yox idi onun üçün. Mehdi bəy gözəl insan idi. Lakin Səmanın Mehdi bəyə bir hissi olub olmadığını bilmirdi. Bunu araşdırmalı idi. Əvvəlcə Cəmiləyə hər şeyi danışdı. Səmanın da Mehdi bəyə hissləri olub olmadığını öyrənməyi xahiş etdi. Səma bir gün işdən gəldiyində otağına keçib uzun- uzun danışdılar. Əvvəl uşaqlıqlarından, sonra havadan sudan. Nəhayət Cəmilə sözünün mətləbinə keçdi:

-Səma, bilirsən ki, bizim sənin xoşbəxtliyindən başqa bir arzumuz yoxdur.

-Bilirəm.

-Mehdi bəyin sənə olan hisslərini bilirəm. Daha doğrusu özü də bundan xəbərsiz mənə hiss etdirib.

-Necə yəni?... Mənə hissləri var?

-Hə. O səni xəstə halda yatağında görəndə nə hala düşdü, bir Allah bilir. Həkim gəlməzdən əvvəl yatağının kənarında oturub sənə baxırdı. Sən də ona baxırdın. Amma deyəsən onda qızdırman çox idi. Mehdi bəyin hərəkətləri, davranışı onu ələ verirdi. Sanki burda yanında qalmaq istiyirdi, amma kimsə nəsə anlayar deyə qaçıb gedirdi. Əməliyyat olunan günü də dəhlizdən çəkilmədi. Elə hey o baş bu baş gəzişdi. Həkim sənin sağlam olduğunu deyəndə belə məndən çox sevindi. Daha doğrusu elə

sevindi ki, mən belə sevincimi bu qədər bildirə bilməzdim. Sənin yatağının kənarında hər səhər gül dəstlərini o qoyurdu. Sən yatarkən.

-...

Səma Cəmilənin dediklərini anlayırdı. Mehdi bəyin davranışlarına da, bu günlər ərzində ona qarşı tamam dəyişilməyinə də cavab tapmışdı: “Demək Mehdi bəy məni sevir”. Fikrindən yenə ayıldı.

-O səndən düz 20 yaş böyükdü.

-Bilirəm. Lakin mənə qəlbini açmayıb.

-Əyər açsa nə deyəcəksən?

-Heç özüm də bilmirəm. Aradakı yaş kənara dursun. Bu yanıq saç dərdimdən bixəbərdi. Əyər bilsə əminəm ki, məndən üz döndərəcək.

-Əyər bu faciəndən xəbərdar olsa səndən üz çevirsə demək ki, sənə layiq biri deyil. Sevən insan heç nəyə baxmadan sevər.

-Sabah ondan uzaq gəzəcəm. Başqa çarəm yoxdu. Onsuz da bu iş baş tutmayacaq. Məni fəxrlə cəmiyyət arasına çıxara bilmədikdən sonra...

-Elə demə, Səma! Sən çox gözəlsən. Taxma saçın olsa belə, bugünə kimi işdə kimsə bu dərdindən xəbərdar olmayıb. Özünə yüksək qiymət ver. Daha bəsdi dərd içində üzüldün. Sən mənə doğma bacı kimisən. Sənin xoşbəxtliyini görmək, qəh-qəhə ilə gülüşünü eşitmək istəyirəm.

-Çox sağol Cəmilə. Bilirsən ki, sən də mənim üçün bacısan. Rəşid kimi hər zaman mənə dəstək olursan. Sənin etdiklərini mənim üçün kimsə etməzdi. Sən çox fədakar insansan. Mənim gözümü açdığın üçün çox sağol. Mən bu sevgidən xəbərsiz idim. Lakin az çox hiss edirdim. Sabahdan Mehdi bəydən uzaq olacam.

## *VII fəsil*

Bir həftə keçdi o gecədən. Lakin Səma heç cür Mehdi bəydən kənar gəzə bilmirdi. Hara getsə, harda otursa qarşısında görürdü. Hər dəfə bir bəhanə ilə onunla dəhlizdə rastlaşıb necə olduğunu soruşardı. Səma da yaxşı

olduğunu deyib gedərdi. Lakin bir gün düşünüb qəti fikrə gəldi. Mehdi bəylə açıq şəkildə danışıb bu mümkünsüz sevgiyə son qoyacaqdı. İşdə belə çıxmağı gözə almışdı. Qərarı qəti idi. Bu gün iş bitər bitməz kabinetinə baş çəkəcəkdi.

Saat artıq 5 idi. Lakin Mehdi bəy hələ də kabinetə dönməmişdi. Axı Səma işdən çıxmazdan əvvəl onu dəhlizdə söhbətə tutardı. İndi öz ayağı ilə gəlib Mehdi bəyin kabinetində oturmuşdu. Mehdi bəy isə fabrikdə yox idi. Yəqin işdən tez çıxıb deyə düşündü. Beləliklə, evə geri döndü. Sabahsı gün isə faciəvi xəbər bütün rayona yayıldı. Mehdi bəy dünən öz maşınında qəza keçirib. Səma aldığı xəbərdən çox sarsıldı. Ən doğma insanını itirmiş kimi hönkür-hönkür ağladı. İş yoldaşları onu sakitləşdirməyə çalışırdılar. Lakin bacarmırdılar. Ustası Səmanın üzünü yüdü. Bir az özünü əla alsın deyə tənbeh etdi. Səmanı əlində deyildi. Ağlamadan dura bilmirdi. Mehdi bəyi yenidən sağ salamat görmək istəyirdi. Usta xanım artıq hər şeyi anlamışdı.

-Sən Mehdi bəyi bu qədər çox sevirsən?

-Mən....?

-Bəli qızım sən. Məyər məni kor hesab edirsən? Sənin qədər üzülən bir işçi var aramızda?

-....

-Bura bax Mehdi bəy indi xəstəxanadadı. İstəyirsən gedim səninlə. Baş çək.

-Axı mən... Mən özüm də bilmirəm..

-Nəyi bilmirsən?

-...

-Məyər sevdiyini gizlədə bilərsən? Həm də ki məndən...

-O mənim saçımdan xəbərsizdi. Mənim nə həddimə...

-Sus ay qız. Bir ay əvvəl mən ona sənin həyatını danışmışam. Saçından da çəkdiklərindən də xəbəri var. Hər şeyi bilə-bilə bu ay ərzində yenə də

sənə qarşı fikrindən dönmədi. Məyər görmədin ki, o insan sənə necə aşiq olub?

-Onu görməliyəm...

-Mən də bunu deyirəm də... Dur geyin gedək....

Xəstə xana dəhlizində qəlbi göynəməyə başladı. Bir an onu sağ-salamat görmək istəyirdi. “İlahi ona bir şey olmasın. Qoy yaşasın”deyərək Allaha dua etməyə başladı. Bu zaman dəhlizdən Cəlal həkim keçirdi. Səma onu görüb çox sevindi.

-Cəlal bəy. Salam. Mehdi bəy necədi? O hardadı?

-Salam. Səma xanım. Mehdi bəyin vəziyyəti orta ağırdı. Bir tək sizi otağına buraxaram. Hələ çox zəyifdir. Onu yormayın.

-Siz nə danışırsız. Yormaram. Təki sağalsın.

-Buyurun keçin. –Cəlal bəy Səmaya otağı göstərdi. Usta xanım isə dəhlizdə stullardan birində əyləşdi.

Mehdi bəyi ilk dəfə uzanan halda görürdü. Üstəlik də bu vəziyyətdə. Səma onun yatağına yaxınlaşıb saçından dırnağına kimi göz gəzdirdi. Üzündə şüşə kəsikləri, sıyrıqlar vardı. Qolunun biri sarınmışdı. Başında da kiçik bir yer qanayırdı. Sarğı üstündən qan görünürdü. Çox ağır qəza keçirtdiyi göz qabağında idi. Özündən aslı olmadan gözündən yaşlar süzülməyə başladı. Yatağın yanındakı stulu çəkib oturdu. İlk dəfə Mehdi bəyin əlindən tutdu. Əlinin üstündə bəzi yerlərə yod vurulmuşdu. Həmin yerə sığal çəkdi.

-Mehdi bəy. Siz məni eşidirsiz? Sizi görməyə gəldim. Məni belə qarşılayacağınızı ağlıma gətirməzdim. Durun ayağa. Açın gözlərinizi.

Səmanın göz yaşları susmaq bilmirdi. Qəlbində o qədər sözlər vardı ki, deyiləsi. Demək o hər şeydən xəbərdar imiş. Bütün bunlara baxmayaraq yenə də onu sevmişdi.yaşadığı faciələrdən xəbər tutsa belə yenə də

Səmasından üz döndərməmişdi. Bir ay idi hər şeyi bilirdi. Bu bir ayda Səmaya daha da yaxın olmuşdu. Mehdi bəyi hər gün fabrikdə görürdü. İndi ilk dəfə idi ki, Səma bir insanı sevmişdi. Sevgisini də məhz bu gün anlamışdı. Mehdi bəyi heç itirmək istəmirdi. Axı o hər şeyi bilsə də Səmadan üz çevirməmişdi. Demək ki, o da bütün qəlbi ilə sevirmiş. Səma qərara gəlmişdi. Daha Mehdi bəyə özü qulluq edəcəkdi. Hər gün ona baş çəkib yeməyində içməyində kömək olacaqdı. Qəlbindəki hissləri isə o sağalana kimi deməyəcəkdi.

Günlər bir-birini əvəz edirdi. Mehdi bəy hər gün başı üstündə Səmanı görüb xoşbəxt olurdu. Ona yemək gətirər, qulluq edərdi. Üstəlik arada dərdləşər, ümumi problemlərdən söhbət edərdilər. Mehdi bəyin hər gün daha da yaxşı olması Cəlal bəyə də xoş idi. Səmanın Mehdi bəy üçün bütün dərmanlardan tez təsirli olduğunu düşünürdü. Mehdi artıq aya qalxmışdı. Yavaş-yavaş yeriyirdi. Arada gözü qaralsa Səma cəld qolundan tutardı. Bu zaman əlindən tutub heç buraxmazdı. Gözlərinə baxıb:

-Səma...

Hər dəfə Səma söhbəti dəyişərdi. Mehdi bəyə ürəyini açmağa imkan yaratmazdı. Utanırdı. Necə hərəkət edəcəyini də bilmirdi. Axı hec kəsə bu günə kimi sevdiyini deməmişdi. İndi necə deyəcəkdi ki, “Mehdi bəy, mən sizi sevirəm.” Lakin bir gün sözü dəyişə bilmədi. Mehdi bəy onun əlindən tutub gözlərinin içinə baxdı. Sevgi etirafından əvvəl ilk bunu dedi:

-Səma, mən sənsiz bu ömrümdə bir addım da ata bilmərəm. Səninlə ailə qurmaq istəyirəm. Razı olarsan?

-Mehdi bəy, mən...

-Səni ilk gördüyüm andan sevmişəm. Hələ fabrikimdə işlədiyini də bilmirdim. Gülüşünə, gözlərinə, bənizinə aşiq olmuşam. Yaşadıqlarından da xəbərim var. Sənə bütün yaşadıqlarını unutdurmaq istəyirəm. Xahiş edirəm mənə cavab ver.

-Mən razıyam...

-Doğurdan? Siz məni dünyanın ən xoşbəxt insanı etdiz.

-Mən də sizi bu qəzanı keçirdiyiniz gün sevdiyimi anlamışam. Görnüşümlə sizin cəmiyyət arasında fəxriniz olmayacam, amma yenə də sevirəm sizi.

-Sən mənim üçün yer üzündə tayı bərabəri olmayan bir incisən. Saçlarına taxma saç qoysan da kimsə bunu anlamır. Məni üzmə bu sözlərinlə. Sənin gözəlliyinlə mən qürürlanıram. Məndən bir addım da uzaq olma. Gəl burdan çıxar çıxmaz evlənək. Razısan?

-Razıyam Mehdi bəy....

Hal-hazırda:

Dillərdən düməyən möhtəşəm bir toy məclisi qurulur. Səma o məclisəki gəlinlərdən də gözəl gəlin olur. Çox xoşbəxt yaşayır. Toylarından iki il sonra Mehdi bəy Səmaya kiçik atelye hədiyyə edir. Orada özünə və onun vəziyyətində olan bütün xanımlara kömək məqsədi ilə taxma saç istehsal etməyə başlayır. Bir neçə işçi ilə salonlardan təbii saçlar alıb çox gözəl taxma saçlar hazırlayırlar. Hal-hazırda Səmanın taxma saçlarından bir çox salonlarda istifadə edilir.

***Son.***

*May. 2009.*



**"Görünməyən həqiqət"**

**(Xəyalə Muradın Dedektiv-povesti)**

***Birinci fəsil.***

Daha bir gün başlamışdı. Şəhər Polis idarəsinin Cinayət Axtarış şöbəsində növbəti ölüm xəbəri verən zəng çalındı.

--Alo! Alo, - zəng edən sahə müfəttişi Fazil Məmmədov idi.

- Yoldaş Məmmədzadə sahil bağların birində cinayət hadisəsi baş verib. Deyəsən intihardır.

- Bu saat gəlirəm! – Prokurorluğu məlumatlandır. Vaxt itirmədən bir başa hadisə yerinə tələsirdi. Kabinetindən çıxar-çıxmaz cib telefonuna əl atdı. Əsas düymənin altında mayor Qədir Eyvazovun nömrəsi idi. Tez bir zamanda gələn ölüm xəbərindən onu da xəbərdar edib aşağı düşməyi əmr etdi.

Polkovnik-leytenant Asif Məmmədzadə Cinayət axtarış şöbəsinin rəisi idi. Daxilən ciddi insan olsa da zarafat etməyi, sözünü də zarafatda deməyi sevirdi. Yaxın dostu, dünyaca məşhur və hal-hazırda Rusiyanın Rostov şəhərinin Cinayət axtarış bölməsinin rəisi milis polkovniki Murad Muradlıdan yeni aldığı məktubunu hələ ki, oxumamışdı. Qəfil zəngdən dərhal sonra kompüteri söndürərək otağı tərk etdi.

Mayor Qədir Eyvazov artıq onu gözləyirdi. Özünün sahib olduğu qara “Hyundai” maşınının yan aynalarını silirdi.

-- Eyvazov bu nə bəd xəbərdir səhər-səhər verirsən? Adamın lap yuxusu qaçır.– Məmmədzadə zarafatyana soruşdu.

--Bilirəm ki, siz işsiz dayana bilmirsiniz. Ona görə tezdən bütün rayonu alt-üst edib cinayət axtarmışam.

--Görünür tapmısız. Gedək görək hansı axmağın qandal üçün ürəyi gedir.

--Buyurun, əyləşin! O, hər kimdirsə siz onu iki günə taparsız. Buna əminəm.

--Yaxşı tələs!

Qədir Eyvazov şəhər polis idarəsinin Cinayət axtarış bölməsində rəis müavini işləsə də, Asif Məmmədzadə ilə yaxın dostluq edirdi. Aralarında daima səmimiyyət və qarşılıqlı anlaşma vardı. Bu səmimiyyəti yaradan isə rəisi Məmmədzadə idi. Qədir hələ uşaqkən müfəttiş olmaq arzusunda imiş. O hər gün babası ilə birlikdə xəbərlərə qulaq asar, sonra öz düşüncələri ilə bölüşərdi. Babası onu çox sevərdi. İnanırdı ki, nə vaxtsa Qədir də pərəstiş etdiyi xəfiyyələr kimi olacaq. Və bu həvəsi sönməsin deyə orta məktəbi bitirər -bitirməz Polis Akademiyasına oxumağa göndərir. Qədirin həvəsi günbəgün artırdı. O müəllimlərinə diqqətlə qulaq asır, bütün tapşırıqları yerinə yetirərdi. Sevimli müəllimi Bəşir Musayev idi ki, o da həftə ərzində yalnız iki dəfə məruzə oxuyurdu. Keçmiş Sovet İttifaqında məşhur xəfiyyələrdən biri olan Bəşir Musayev tələbələr arasından Qədirə göz qoyurdu. Qısa müddətdən sonra onunla təklikdə dialoq qurmaq istəyir. Bir gün mühazirə başa çatdıqdan sonra Bəşir Musayev Qədiri kabinetində görmək istədiyini deyir. O da çox təəccüb etsə də, razılaşır. Dərsləri bitər- bitməz keçmiş xəfiyyənin kabinetinə girir. Müəllimi gözündə eynək şəxsi masasının arxasında əyləşib az əvvəl dediyi mühazirəyə nəzər salırdı. Qədir həyəcanlə dilləndi:

--Mənə demişdiz ki, dərsdən sonra yanınıza gəlim.

-- Bəli! Keç əyləş!

Eyvazov əlindəki dəftərləri masanın üzərinə qoyub stulda əyləşir. Qəlbindən isə min cür suallar keçir. “Axı görəsən məni niyə çağırdı? Mən ki, vaxtı vaxtında mühazirələrdə iştirak edirəm.” Onu bu fikrindən müəlliminin səsi ayırdı:

-- Çox güman ki, dediyim bütün mühazirələri vaxtı vaxtında yazmısan. Verdiyin imtahanlara da söz ola bilməz. O ki, qaldı bura çağırılmağına.... İş burasındadır ki, mən sentyabr ayından bu günə hər bir yeni tələbəmə göz qoyuram. Onların necə biri olduğunu tam öyrənincəyədək əlbəttə ki... Sən də onların içində idin. Təxminən iki həftədir ki, məhz səni izləyirəm. Və daxilindən gələn istedadını dana

bilmərəm. Həvəsin aşıb daşır. Bu işə marağın güclüdür. Amma sən gərək polis olmayasan. Bu barədə yaxşı düşün.

Qədir özünü lap itirmişdi. İlahi, müəllimi lap onun qəlbini görürmüş. Sanki, nə düşündüyünü oxuyurmuş. Bu təklif onun ürəyincə olur. Tezliklə Bəşir Musayev ona cinayət açmağın sirrlərini və bir neçə sınaqlar qurub ondan məharətlə çıxmağı öyrədir. Sanki özünün cavanlığı ilə danışırmış kimi, bildiyi hər şeyi danışır. Qədir, günlər keçdikcə keçmiş xəfiyyənin dediyi və öyrətdiyi hər şeyi dərk edir. İllərin təsiri ilə müəllimi qocalıb, əldən düşürdü. Qədir isə təhsilini bitirməyinə və leytenant olmağına baxmayaraq yen də akademiyaya gedər və müəllimindən dərs alardı. Nəhayət qocalmış müəllimi dünyasını dəyişir. Ardınca 40 günlük yasını tutan Qədir Eyvazov öz üzərində işləyir. İllər sonra indi tanıdığımız Cinayət Axtarış bölməsinin rəis müavini olanadək yeniliklər axtarışında olur.

O bu vəzifədə artıq 3 il idi ki, işləyirdi. Rəisinə hörmət etməklə yanaşı onu böyük qardaş və yaxın dost hesab edirdi. Sözünü zarafatda deməyə alışan rəisinə tez bir zamanda alışmışdı. Beləliklə, bu günə kimi onunla elə zarafatla danışar, zarafatla da işlərini görərdi. Əslində isə hökmlü və lazım gələrsə cinayətkarın xirtdəyindən basa biləcək xasiyyəti, səbirli davranışı və qolunda bir əllə qoç daşıya biləcək gücü vardı.

Səhərini ölüm xəbəri alaraq açan Qədirin əsas məqsədi Məmmədzadə ilə hadisə yerinə tez bir zamanda çatmaq idi. Odur ki, yolda bir an dayanmayan maşınını sürür və bir neçə dəqiqə sonra Sahil bağlarından birinin qarşısında saxlayır. Orada artıq təcili yardım maşını, iki polis maşını və bir mülki "Opel" markalı maşın vardı. Darvazadan həyətə keçirlər. Bu an polis zabiti onlara yaxınlaşdı. Polkovnik-leytenant Məmmədzadə:

--Burda nə baş verib?

--Bir nəfər öz kabinetində intihar edib.

--İntihar olduğunu haradan çıxartdız? Məgər alnına yazılıb?

--Xeyir! - Həyəcanlanan polis zabiti - İş burasındadır ki, silah sol tərəfdən gicgaha vurulub. Silah da ölmüş insanın əlindədir. Buyurun keçin özünüz baxın.

--Baxarıq! Meyiti kim tapıb?

--Xadimə. Dediyinə görə həftədə bir dəfə villanı təmizləməyə gəlirmiş. Bu səhər də gələndə ev sahibini ölü tapıb.

--Xadimə hardadır? – sağa -sola boylanan Eyvazov soruşdu.

--Təcili yardım maşını apardı. Bizə məlumat verəndə halı pisləşdi. Yazıq ürək xəstəsi imiş.

--Hansı xəstəxanadadır?

--Mərkəzi xəstəxanada. - Əli ilə iki mərtəbəli bağ evinin qapısını göstərdi. –Keçin!

-- Qonşulardan güllə səsini eşidən olub?

-- Kimsənin ruhu da duymayıb. Deyilənə görə yağış yağırmış deyə kimsə evindən çölə çıxmayıb. Həm də bu günlərdə bağ evində az adamlar olur. Artıq yayın sonudu, hər kəs şəhərə qaçır.

-- Yaxşı, kənara çəkilin!- deyən Məmmədzadə içəri keçdi.

Qapı geniş dairəvi dəhlizə açıldı. Sağ tərəfdən aynalı qapısı olan salon vardı. Burada oturacaqlar, yemək masası, divan, kreslo, mebel vardı. Şübhəli bir şey nəzərə çarpmırdı. Hər zaman rast gəlinən bağ evlərindən idi. Dəhlizdən uzun bir yol kabinetə aparırdı. Qarşısında dayanıb Məmmədzadə ilə Eyvazova baxan polis zabiti:

---Buyurun, keçin!

--Demək hadisə mərhumun şəxsi kabinetində baş vermişdir.

Kabinetdə divarda bir ədəd təbiət, iki ədəd dahi şəxslərin təsvir edildiyi rəsm əsərləri vardı. Geniş eyvana açılan şüşəbəndli qapı, küncdə kiçik divan, yerdə ən son dəbə uyğun xalça, qapı ilə üzbəüz isə əl işləmələri olan bahalı iş masası vardı. Sahibkar elə buradaca öz masası arxasında əyləşdiyi yerdəcə ölmüşdü. Hər iki əlləri və başı üz üstə masa üzərində idi. Əynində son dəbə uyğun istirahət geyimi, ağ sadə və yüngül idman köynəyi vardı. Sol əlində dəstəyi şabalıdı rəngdə olan Revolver (odlu silah) vardı. Qarşısında boş ağ vərəqlər, sağ tərəfdən dodağının kənarında kiçik qurumuş qandan ibarət yara vardı.

Polkovnik-leytenant Məmmədzadə asta addımlarla meyitə yaxınlaşdı. Qədirin fikirlərinə daim hörmətlə yanaşan Məmmədzadə bu dəfə nədənsə hadisə barədə bir söz demədən bir başa Qədirin fikirlərini bilmək istədi:

--Qədir, sən bu hadisə barədə nə düşünürsən?

Qəfil sualdan təəccüblənən Eyvazov cəld meyitə yaxınlaşdı.

--Sualınızı gözləmirdim. Əyər fikirlərimi öyrənmək istəyirsinizsə deyə bilərəm ki, burada intihar baş verdiyinə inanmaq olar. Çünki, silah əlində, yaxın məsafədən atılmış sol gicgahın güllə yarası, qarşısında isə qələm və kağız... –bu zaman Qədir, susdu. Sanki nə isə ciddi-ciddi düşünməyə başlamışdı. - Bilirsiniz, mənə qəribə görünən bir şey var.

--Nə?

--Əyər bu şəxs özünü öldürürdüsə qarşısına ağ vərəq və qələmi niyə qoyub? Ya da intihar səbəblərini yazmaq üçün qoymuşsa niyə yazmamışdır? Sizcə bu qəribə deyil?

--Maraqlı fərziyyələrin var –nədənsə polkovnik-leytenant ciddi danışmağa üstünlük vermişdi. – İndi isə mən öz düşündüklərimi sənlə paylaşım. Əvvəla burada bir intihar “səhnə”si təsvir olunub. Əslində bir neçə qaranlıq qalan suallar vardır ki, mənə bu ölümün intihar olduğuna inanmağa qoymur. Demək ən əvvəl şübhələndiyim elə vərəq olmuşdu. İkincisi qələmin sağ tərəfdə olub silahın sol əldən tutulması. Sizin dediyiniz kimi, əyər bu şəxs özünə qəsd etmək istəmişdisə niyə vərəqini boş qoymuşdu. Ya da daha dəqiq desək bu vərəq niyə onun qarşısındadır? Protokolu yazın!

Bu zaman Prokurorluqdan nümayəndə olaraq baş müstəntiq Həsənov gəldi. Otağa gözucu nəzər yetirib Məmmədzadə ilə dəhlizə çıxdılar. Eyni zamanda ekspertizadan Müslimzadə gəldi. İdarənin fotoqrafı hadisə baş vermiş yeri və meyiti çəkirdi.

--Bu açıq aydın intihardır. Bəs mərhumun öz əli ilə yazdığı etiraf məktubu necə, tapmısız? – baş müstəntiq Həsənov soruşdu.

--Xeyir! İş burasındadır ki, burada heç bir etiraf əks olunan məktub aşkar olunmayıb. İntihar olduğuna da şəxsən mən inanmıram. – Məmmədzadə əminliklə dilləndi.

--Yəqin ki, inanmamağa əsaslı səbəbləriniz vardı? Bu barədə prokurorluqda daha dəqiq danışarıq. İşlərinizi yekunlaşdıran kimi ora gələrsiz.

Hadisə yerindən dəlillər götürüldü. Elə həmin gün prokurorluqda baş müstəntiq Həsənovun rəhbərliyi altında cinayət axtarış qrupu yaradılır və bu cinayət işi məhz polkovnik-leytenant Asif Məmmədzadəyə tapşırılır ...

## *İkinci fəsil*

Doqquz mərtəbəli binanın yeddinci mərtəbəsində yaşayan Qönçə bu gün narahat yatdığından işə getməmişdi. Saat 1 olmağına baxmayaraq hələ də yerində sağa-sola çönüb rahatlaşmaq istəyirdi. Lakin bunu bacara bilmirdi. Gecəni qarışıq yuxular gördüyündən bərk qorxmuşdu. Elə gecə saat 4-dən indiyə kimi bu vəziyyətdə yatmağa çalışırdı. Əsəbi halda yerindən durub dənizdən iki kilometr uzaqda yerləşən evinin pəncərəsini açdı. Bayırda sərin yay havası vardı. Səyavuş dünən gecə növbəsində olduğundan Qönçəni tək qoymuşdu. İki ildən artıq evli olsalar da övladları hələ yox idi. Lakin bu onların ailə münasibətlərinə qəti təsir etmirdi. Bəlkə, illər sonra təsir edərdi. Amma indi bundan əsər əlamət yox idi. Qönçə beş il idi ki, Musiqi məktəbində piano müəlliməsi işləyirdi. Şagirdlərini həvəslə və böyük səbirlə öyrədir, onlarla mehriban davranırdı. Şagirdləri də Qönçə müəllimələrini ana qədər hörmət edir, hər bir dərsə həvəslə gəlib, onun tapşırıqlarını səylə yerinə yeritirdilər.

Qönçə Səyavuşla atasının sayəsində tanış olmuşdu. Bir gün atası yanında on üç yaşlı oğlanla işdən evə gəlir. O zaman Qönçənin on yaşı vardı. Qarşısında sadə geyimli, arıq, buğdayı, qara saçlı oğlana maraqla baxır. Atası Qönçənin saçına sığal çəkərək:

-- Qönçə! Bu oğlanın adı Səyavuşdur. O bu gündən etibarən bağda və evdə lazım olan bəzi işlərdə köməkçimiz olacaq.

Qönçə ilk baxışdan Səyavuşu bəyənməsə də onunla mehribancasına salamlaşır. Vaxt keçdikcə evlərində hər gün rastlaşdığı bu oğlana gizlin göz qoyur. Nə edir, necə edir, niyə edir? Bu növ suallarına öz-özlüyündə cavab tapmağa çalışır. Anlayır ki, Səyavuş doğrudan da səmimi, mehriban, istiqanlıdır. Aylar keçdikcə Səyavuşla daha yaxın olur. Onunla oyunlar oynayır. Beləliklə, aralarında bir bağlılıq yaranır. Bir -birlərinə çox öyrəşirlər.

Vaxt gəlir Səyavuş Vətənə olan borcunu ödəmək üçün əsgər getməli olur. Qönçə bu xəbərdən çox təsirlənsə də Səyavuşun yanında qəti ağlamır. Onunla vidalaşıb otağına gedir. O gün Səyavuşu əsgər gedərkən sonuncu dəfə pəncərədən baxıb görür. Səyavuş həyətin qapısına yaxınlaşanda nə düşünmüşdüsə geriyə dönüb Qönçənin pəncərədən baxdığını görür. Bu an Qönçə, Səyavuşu çox sevdiyini və on səkkiz ay müddət ərzində onsuz çox darıxacağını anladı. Lakin artıq gec idi. Hisslərini heç cürə dilə gətirə bilməzdi. O gün indi də yadına düşəndə az qalır uşaq tək ağlasın. Nədənsə Səyavuş geri dönür. Qönçə özünü lap itirir. Düşünür bəlkə o da anlamışdı ki, mənsiz yaşaya bilməz! Bəlkə, o da sevdiyini etiraf edəcəkdi. Daha bir an otaqda dura bilmir. Pillələri sürətlə enir. Giriş qapısı ağzına çatanda Səyavuşun ona tərəf gəldiyini anlayır. Həyəcandan az qalır ürəyi partlaya. İkisi də üz-üzə göz-gözə dururlar. Hər ikisi bir-birinə sanki son dəfə görüşürlərmiş kimi baxır. Qönçənin dili

tutulur. Bir kəlmə də hisslərindən deyə bilmir. Bu an Səyavuş “Məni gözləyərsən?” soruşur. Qönçə hisslərini idarə edə bilmir. Bu nə məna verirdi deyə düşünməyə başlayır. Lakin Səyavuş eyni sualı yenidən təkrarlayır:

-- Qönçə, məni gözləyərsən?

-- Hə-ə- ə.

Bu kəlmə dili tutulmuş insanın zorla dilə gətirdiyi ilk söz kimi səslənir. Səyavuş aldığı cavabdan çox sevinir. Heç gözlənilmədən Qönçənin yanağından öpüb gedir. Qönçə özünü lap itirir. Yalnız bir neçə saat sonra anlayır ki, yanağı daha ona məxsus deyil. Sanki istilik vardı zərif yanağında. Bu istiliyin soymağını heç istəmirdi. Bir həftə sonra Səyavuşdan məktub alır. Lakin orda ailəsinə ümumi yazılmış sözlər olur. Qönçə isə özünə aid nə isə bir sətir oxumaq istəyirdi. Sonra düşündü ki, bəlkə Səyavuş “Məni gözləyərsən?” sualını başqa mənada verirmiş. Yəni bir bacı kimi, ya dost kimi gözləyəcəyini soruşurmuş?! Odur ki, pərt olur. Lakin ona olan sevgisi qəti azalmadı. Günbəgün, anbaan daha da artdı. Özü də qorxurdu ki, bir gün hisslərini cilovlaya bilməz və anası onun məktuba olan marağından nə isə anlaya bilər. Odur ki, ehtiyat edirdi. Məktubu isə bacardıqca hər kəsdən sonra oxuyurdu. On səkkiz ay beləcə həsrət dolu ötüb keçir.

Bir gün Qönçə bağdakı qızılgülləri dəst halında toplayanda həyət darvazası açılır. Qapıdan hündür, arıq, buğdayı gənc oğlan daxil olur. Bu gələn Səyavuş idi. Qönçə onu görəndə özünü necə itirirsə on dəqiqə əvvəl topladığı gülləri əlindən yerə düşür. Səyavuş iri addımlarla Qönçəyə yaxınlaşır. Həyəcandan az qalır qızın ürəyi yerindən qopa. Budur artıq onlar on səkkiz aydan sonra yenidən üz-üzə göz-gözə durmuşdular. Yenə Qönçənin dili tutuldu. Bu an Səyavuş titrək səslə - Məni gözlədiyin üçün çox sağ ol... - bunun mənasını hələ də anlamayan Qönçə bir az cəsarət toplayıb titrək səslə də olsa – Xoş gəlmisən! –dedi.

Zaman keçdi. Keçdikcə də Səyavuş ürəyindəkiləri açmaq istədi. Lakin qorxdu. Qönçəni itirməkdən çox qorxdu. Nəhayət uzun müddət düşündükdən sonra qəlbini açdı, amma Qönçəyə deyil, atası Vahid Zamana. Hansı ki, uşaqlıqdan ona hər bir şeydə dəstək olmuş, bu yaşına kimi əlindən tutmuş, öz övladı kimi böyütmüş, tərbiyə vermiş, hər zaman arzuladığı, lakin qismətində olmayan oğlu kimi sevmişdir. Vahid bəy Səyavuşun cəsarətlə qarşısına çıxıb ürəyini açdığına çox sevinmişdi. Onu oğlu kimi sevirdi. Lakin düşünməmişdi ki, bir gün gələcək qarşısında dayanıb ondan tək övladı olan Qönçəni istəyəcək. Vahid bəy Səyavuşa cavab verməzdən əvvəl gərək Qönçə ilə də məsləhətləşə. Onun da ürəyindən keçənləri bilə. Odur ki, Qönçəni axşam yatmazdan əvvəl birinci mərtəbədəki iş otağına çağırdı. Onun bu məsələ ilə bağlı fikirlərini öyrəndi. Məlum oldu ki, Qönçə atasından çox utansa da başını aşağı salıb-Ata,

sən necə istəyirsənsə Səyavuşa elə də cavab ver – dedi. Bu cümlə dilindən çıxar -çıxmaz üzü qızardı. Vahid bəy o an hər şeyi anladı. Anladı ki, Qönçə də Səyavuşa biganə deyil. Bununla da bir həftənin içində nişanlarını etdi. Səyavuşun atası olmadığından Vahid bəy toy tədarükünü də öz boynuna götürüb, bir ay sonra toylarını etdi. Onların toy hədiyyəsi isə indi yaşadıqları həmin bu iki otaqlı mənzil oldu.

Bu an Qönçəni xəyallardan ev telefonunun səsi ayırdı. Dəstəyi götürüb:

-- Alo?

-- Salam. Qönçə mənəm - danışan Səyavuş idi – necəsən?

-- Yaxşıyam.

-- İşə zəng vurmuşdum. Dedilər icazəlisən. Nə isə olub?

-- Bir az narahat yatmışam. Düşündüm ki, yuxuya gedərəm. Amma yata bilmədim. Ürəyim yaman darıxır.

-- Niyə?

-- Bilmirəm.

-- Darıxma. Bir saat sonra gəlirəm. Gedərik .....–Bir az susub - İstəsən gedərik bağa. Hə?

-- Nə deyirəm. Gedək. Sən gəlincə hazır olaram.

-- Oldu.

Dəstəyi yerinə asıb. Bir az dərindən nəfəs aldı. Sanki, kimsə ürəyini iki əlli tutub sıxırdı. Heç rahat ola bilmirdi. Özünə gəlmək üçün vanna otağına keçdi. Sərin suyun altında bir qədər dayandıqdan sonra sanki, yüngülləşdi. Bu narahatlığının bir səbəbini tapa bilmirdi. Heç nə anlaya bilmirdi. Odur ki, yuyunduqdan sonra qurulanıb bir həftə əvvəl aldığı çit donunu əyninə geyindi. Bu geyim Səyavuşun da, atasının da xoşuna gəlirdi. İlk dəfə geyinəndə atası onu təbəssümlə süzmüş-Sən həqiqətən şirinsən. Körpə vaxtı necə idinsə, indi də eləsən. Bircə balan da olsaydı. Dünya gözü ilə nəvəmi görərdim. Səhərdən axşamadək onunla vaxt keçirərdim. Heç sizə də verməzdim! - demişdi.

Heç Qönçə də bilmirdi ki, atasını niyə bu gün bu qədər çox xatırlayır?! Düşündü ki, bəlkə bir həftədir onu görmür deyə darıxıb? Adətən həftədə iki dəfə görüşərdilər. Qönçənin işlədiyi musiqi məktəbi atasının tikinti şirkətinə yaxın

yerdə idi. Odur ki, Vahid bəy hər fürsət tapanda qızını görməyə bura da gələrdi. İstəsəydi evə də gedərdi.

Bu an nədənsə Səyavuşu xatırladı. Axı o düz yarım saat sonra gəlməli idi. Odur ki, tələsik üz-gözünə əl gəzdirib, saçını yuxarıdan sadə formada yığdı. On dəqiqə sonra Səyavuş Qönçənin mobil telefonuna zəng vurdu:

-- Qönçə, mən həyətdəyəm. Düşürsən?

-- Evə çıxmayacaqsan?

-- Yox... Nə isə istidir. Sən düş.

-- Yaxşı.

Telefonu bağlayıb. Əl çantasını götürüb evdən çıxdı.

***Üçüncü fəsil.***

Dənizdən iki kilometr məsafədə yerləşən doqquz mərtəbəli binanın ikinci blokunun qarşısında "Nissan- Altima" markalı qara maşın dayanmışdı. Səyavuş Qönçəyə zəng etdikdən sonra bir siqaret yandırdı. Nədənsə həmin gecə o özü də narahat idi. Növbətçi olmağına baxmayaraq hər dəfə fürsət düşdükcə kabinetinə çəkilib televizorunu yandırar, rahat divanda uzanıb səhərini açardı. Bəzən də fabrikin qarşısında yaşıllaşdırma işi ilə məşğul olardı. Lakin bu gecə hər dəfə olduğundan çox sıxıntılı keçdi. Demək olar səhərə kimi fabriki başdan başa dövrə vurmuşdu. Heç özü də bunun səbəbini anlamırdı. Nəyinisə, çox önəmli bir şeyi itirmiş insan kimi binanın başına fırlanırdı. Bu hissləri barədə Qönçəyə heç nə demək istəmirdi. Bilirdi ki, Qönçə hər şeyi ürəyinə salandı. Qanını qaraltmaq istəmirdi. Sadəcə onun da bu gecə narahat yatmağından nigaran qalmışdı. Heç nə anlaya bilmirdi.

Səyavuşun işi asan idi. Daha doğrusu onun düşüncəsi belə idi. Əslində isə o da hər bir ailə sahibi kimi, ailəsini dolandırmaq istəyən kişi kimi iş görmək istəyirdi. Dayanmadan, alın təri tökə-tökə, qolunun gücündən istifadə edərək qazanmaq istəyirdi halal pulunu. Əlləri mazutlu yorğun halda girmək istəyirdi qapıdan. Öz doğma atası kimi. Lakin həyatda heç də hər şey insanın istədiyi kimi olmur. Səyavuş toyuq əti və yumurta istehsal edən broylerin nəzarətçisi idi. Bu işə qayınatasının tanışlığı ilə düzəlmişdi. Maaşı maaş, istirahəti istirahət idi. Əti də ət idi. Ayda bir dəfə gecə növbəsində olmalı idi. Bu heç də vacib deyildi. Nə zaman istəsə gecə növbəsini tabeliyində olan şəxslərə verə bilərdi. Amma yenə də bu rahat iş rejimi onun ürəyincə deyildi. Bir sözlə gördüyü bu işdən narazı idi Səyavuş.

Uşaqlıqdan atasını irsi xərçəng xəstəliyindən itirdikdən sonra anasına və kiçik qardaşına baxmaq onun boynuna düşmüşdü. On üç yaşı olmasına baxmayaraq iş axtarıb ailəsini dolandırmaq istəyirdi. Anası da işləyirdi. Amma bağça müəlliməsinin qazancı bu kiçik ailəni yarım aylıq dolandıra bilərdi. O da yarı ac, yarı tox. Səyavuş isə anasını yormaq istəmirdi. Deyirdi "çoxlu pul qazanacam. Sən işləməyəsən. Qardaşımı da ən yaxşı məktəblərdə oxudacam." Buna da tez bir zamanda nail oldu. İş burasındadır ki, Səyavuş işi bazarda axtarırdı. Nə isə daşımaqla, siqaret, alışqan satmaqla qazanırdı çörək pulunu.

Bir gün hər zaman olduğu kimi bazarda yük arabası ilə müştəri axtaranda 30-35 yaşlı, eynəkli kişi onu səsləyir. Simasından nur yağan bu yad şəxsin şirin dili balaca Səyavuşu ovsunlayır. Onun yükünü arabasına yığıb ardınca sürməyə başlayır. Bir neçə satış rəfi dolandıqdan sonra həmin şəxs özünə məxsus maşınını işarə edib malları oraya daşımağı tapşırır. Cəld olmaqla yanaşı Səyavuş həm də ağır çəkili çantaları qaldırmaqda yetərincə ustalaşmışdı. Baxmayaraq ki, xarici görünüşdə cılız və gücsüz görünürdü.

Yükləri maşına yerləşdirdikdən sonra pulunu nə zaman alacağını gözləməli olur. Eynəkli şəxs onun niyə getmədiyini anlayıb yanına çağırır. Səyavuş iri addımlarla başı dik vəziyyətdə nur üzlü yad adama yaxınlaşır. O:

-- Adın nədir, oğul?

-- Səyavuş!

-- Neçə yaşın var?

-- Bunun nə dəxili var ki? –deyən Səyavuş sanki yaşının kiçikliyini başına qaxınc edəcəyindən çəkinirdi.

-- Sadəcə bilmək istəyirəm. Maraqlıdır.

-- On üç!

-- Lap yaxşı. Sən mərd oğlansan. Həm də güclüsən. Burda niyə işləyirsən?

-- Pul qazanmaq üçün! – Səyavuş bu sualları eşidib təəccüblənirdi. Çünki bir neçə ay idi ki, burada yük daşıyan idi. Lakin bir nəfər də ondan adını və yaşını soruşmamışdı. Ümumiyyətlə onunla heç söhbət də etmirdilər.

-- Sən qoçaq oğlansan! Əhsən! Sənin kimi oğul sahibi olsam özümü ən xoşbəxt ata hesab edərdim.

Bu sözlər Səyavuşu kədərləndirirdi. Atasını xatırlamışdı. Onun qaraciyər xərçəngindən necə əzabla öldüyü gözünün qarşısına gəlmişdi. Həmin xəstəlikdən babası da, atasının əmiləri də dünyalarını dəyişmişdilər. Səyavuş düşünürdü ki, o xəstəlik irsidi və gec-tez o da tutulacaq. Onu da yataq xəstəsi edəcək. Bunu isə heç istəmirdi. Xüsusən də indi. Anasına və kiçik qardaşına sahib çıxmalı idi. Ölümdən düşünməyin isə heç yeri deyildi. Fikrini tez bir zamanda alacağı pula yönəltdi. Alan kimi geriyə bazara dönəcəkdi. Elə bu zaman eynəkli, nur üzlü kişi ona əlini uzatdı.

-- Səyavuş, oğul mənə bağda bəzi işləri görməyə köməkçi lazımdı. Amma qoçaq, sözündən dönməyən, daim işinə vaxtında gəlib, vaxtında gedən olsun! Belə birini tanıyırsan?

Yad insanın bu təklifi Səyavuşun lap ürəyincə olmuşdu. Nəhayət ki, gündəlik iş yeri tapmışdı. Belə fürsəti əldən buraxmaq ağılsızlıq olardı.

-- Elə biri mən özüm! - Səyavuş bunu çox əminliklə deyirdi.

-- Sən? Nə deyirəm! Lap yaxşı. Sənin qoçaq olduğuna, mərd olduğuna, gücünə heç şübhəm yoxdur.

-- Mənə nə qədər pul verəcəksiz?

-- Sən günlük işin üçün pul almaq istəyirsən? Yoxsa ayda bir dəfə maaş kimi?

Səyavuş bir qədər düşünüb şıltaq təbəssümlə cavab verdi.

-- Mənə bir aylıq maaşı iki dəfəyə verin. Bir hissəsini ayın biri, digər hissəsini on beşi! Razısız?

-- Nə deyirəm mən razı. - Qarşısındakı uşağın işə həvəsi və pul qazanmaq istəyi yad insanı bir qədər kədərləndirmişdi. Artıq sual vermədən maşına əyləşib uşağa təbəssümlə baxdı:

-- Sabah səni burada bazarın qarşısında gözləyəcəyəm! Saat 11 də burda ol!

-- Baş üstə!

Bu təsadüfi tanışlıq Səyavuşun bütün həyatına dönüş nöqtə qoydu. Onun üçün gələcəyə böyük ümidlər yarandı. Sanki havasız otaqda imiş bu zamanadək. İndi isə otağın geniş pəncərələri peyda olmuşdu. Çox rahat nəfəs alırdı. Beləliklə, Səyavuş Vahid Zamanın evində işə düzəldi. Qısa vaxt ərzində ailənin sevimlisinə çevrildi. Vahid bəy ona atalıq etməyə başlamışdı. Qönçəni də ona

tapşırmışdı. İstəyirdi ki, onunla eyni məktəbə getsin. Əvvəlcə Qönçəyə Vahid bəyin qızı kimi hörmət edirdi. Lakin sonralar bu şirin, sevimli utancaq qızı ürəyinin dərinliyində gizli sevməyə başlamışdı. Eşidəndə ki, Vahid bəy Qönçəni nəzarətdə saxlamaq üçün Səyavuşu da məktəbə qoyacaq çox sevinmişdi. Dərs saatlarında Qönçəni görə bilmədiyindən yaman darıxırdı. İndi isə onunla eyni məktəbdə oxuyacaqdı. Əlbəttə ki, ən az 45 dəqiqədən bir onu görəcəkdi. İlk vaxtlar Səyavuş Qönçənin yanında olurdu. Sonralar Qönçənin ona qarşı hisslərindən şübhələnəcəyindən qorxub uzaqdan-uzağa göz qoymağa başladı. Məktəbdən Qönçəyə qarşı biganə olmayanlar da vardı. Qəribəsi o idi ki, Qönçə onların heç birini yaxınına buraxmırdı. Bu da Səyavuşun lap ürəyindən olurdu. Düzdü onu sevirdi. Qarşılıq istəmədən, gizlicə. Lakin Qönçəni itirməkdən çox qorxurdu. Qorxurdu ki, qəlbindəkiləri ona açsa bir daha Qönçəni görə bilməyəcək. Odur ki, hisslərini cilovlamaqla yaman məşğul olurdu. Çox əlləşirdi. Axırı çarəsini tapdı. Yığdı bütün hisslərini saldı ürəyinin dərinliyindəki bir dar "otaq"dakı sandığa, ağzını da bərk-bərk "qıfıl"layıb açarını da uddu.

Lakin bu çox çəkmədi. Əsgər getməzdən əvvəl Qönçəyə dediklərini xatırladı. Nədənsə qəlbi yenidən isindi. Bu istilik ona Qönçəni hələ də dəlicəsinə sevdiyindən xəbər verirdi. Bu an əlindəki siqaretin külü köynəyinə düşdü. Bununla da xəyallardan ayrılıb indiyə qayıtdı. Blokun ağzında dayanmış Qönçə Səyavuşun bu hərəkətini görüb gülməyə başladı.

-- Bu nədir? Xəyal qurursan?

-- Yox. Sadəcə keçmişi xatırlayırdım - Qönçəni başdan ayağa süzərək cavab verdi.

-- Mən hazıram. Gedək sahildəki bağa. Nədənsə atam üçün darıxmışam.

-- Elə mənim də onunla söhbətim vardı. Əyləş gedək.

## *Dördüncü fəsil.*

Prokurorluqdan yeni qayıtmış polkovnik-leytenant Asif Məmmədzadə dilxor vəziyyətdə kabinetində o başa bu başa gedib-gəlirdi. Bu zaman qapı astadan döyülür.

--Gəlin!

--Yoldaş Məmmədzadə olar?

--Buyur Qədir! Keç əyləş.

--Qanınızı qaraldan nəsə olub?

--Daha nə olacaq... Fələk güclü, mən gücsüz.

--Dərd etməyin bu qədər. Biz tezliklə işin üstünü açacağıq.

--Yaxşı! De görüm mərhumla bağlı nə öyrənə bildin?

--Yoldaş Məmmədzadə, mərhumun adı Vahid Zamandır. 1950-ci ildə mart ayının 10-da Şamaxı şəhərində anadan olub. Atası vaxtilə müəllim olmuş, anası isə evdar qadın. Bir qardaşı və bacısı var. Qardaşı da həmçinin ticarətçidir. Bacısı isə evdar qadındır. Vahid Zaman özü iş adamıdır. Şəhərimizdə tikinti materiallarının istehsalı ilə məşğul olan bir fabriki, iki ticarət obyekti və bir avtomobil servisi vardır ki, orada da həm avtomobil satılır, həm də avtomobil hissələri. Şəxsi ofisi fabrikində yerləşir. Ailə vəziyyəti - evlidir. Yoldaşı şəhərin mərkəzində yerləşən "Moda evi" -nin sahibəsi Vəfa Zamandır. Evlənməzdən əvvəl daşıdığı soyad Musalı olmuşdur. Qönçə adında bir qızları vardır. O da Səyavuş Ömərovla ailəlidir. Övladları yoxdur.

--Ailəsini xəbərdar etdin?

--Bu dəqiqələrdə xəbər almış olmalıdırlar.

--Xadimənin vəziyyəti necədir?

--Həkimlər 3-4 gün xəstəxanada yatmağını məsləhət gördülər. Hadisə ilə bağlı yeni bir şey öyrənə bilmədim. Xadimə öz ifadəsində eyni sözləri təkrar etdi. "Hər həftədə bir gün işə gəlirəm. Səhərdən axşama kimi təmizliklə məşğul oluram." Bu gün səhər gələndə görüb ki, Vahid bəy şəxsi kabinetində ölüb. Kabinetdəki eyvanın qapıları da taybatay açıq olub. O zaman ağlına gəlib ki, polis çağırsın. Polis gələnə kimi həyətdə gözləyib.

--Yaxşı. Bəs ekspertlər nə deyirlər? -deyən Məmmədzadə gözlərini Qədirin ağzına dikdi.

--Ekspertizanın cavabı hələ məlum deyil. Çox güman ki, nahardan sonra məlum olacaq. – Qədir dilxor halda cavab verdi.

--Maraqlıdır.

--Nə?- Qədir təəccübləndi.

--Bu ölüm.

--Düzdür. Maraqlı, həm də qəribə.

--Razıyam-Məmmədzadə bir qədər fikrə gedib – Qədir, səncə bu ölüm nəyin zəminində törədilə bilərdi?

--Doğrusunu desəm Asif müəllim, vərəq gözümə sataşmasaydı bu ölümü elə intihar kimi də biləcəkdim. Lakin vərəqin boşluğu, hətta qarşısında olmağı məni şübhələndirdi.

--Məsələn? - Məmmədzadə diqqətlə Qədirə baxdı.

--Əyər mən özümü öldürürəmsə niyə qarşıma ağ vərəq qoyum? Etiraf məktubu yazıramsa niyə yazmayım? Bir sözlə mənə elə gəlir ki, həmin vərəq ya əvvəldən orada masanın üzərində olub, ya da qatil bizim yanlış yolla addımlamağımızı istəyir.

--Yox. Nədənsə səninlə razılaşa bilmirəm Qədir. Birincisi masanın üzərində əvvəlcədən olmağına gələk. İş burasındadır ki, mən kabinetə girməzdən əvvəl hər tərəfə diqqətlə göz gəzdirdim. O evdə daha doğrusu o iş otağında çoxdandır ki, oturulmurdu. Bunu məhz masanın üzərindəki boşluqdan əsaslanaraq deyirəm. Əyər mən o qədər mülk sahibi olsam iş masamda ən azı üç qovluq, ailə rəsmlərim, cib telefonum, ev telefonum, kompüterim, qayçı, qələm, pozan və. s qoymaq üçün xüsusi qabım olardı. Mən buna misal şəxsən öz iş masamı deyərdim. Bax - polkovnik-leytenant öz iş masasını işarə etdi - İş görən insanın masası ən az bu cür olmalıdır. Odur ki, əvvəlcədən orada vərəq olduğuna inanmıram. O ki, qaldı ikinci fərziyyənə, deyə bilərəm ki, qatil vərəqlə bağlı nə isə düşünməyib. Bəlkə də heç ağlına da gəlməzdi ki, mən və sən bu qətlin intihar olduğuna şübhə edəcəyik. Özü də məhz vərəqə görə. Burda nə isə var. Amma nə? Bax mənə maraqlı olan budur.

--Hər halda ekspertizanın cavabını alandan sonra bu işlə bağlı dəqiq söz deyə bilərik. –deyərək Qədir əlindəki sənədləri gözdən keçirtdi – Mən əyər bu hadisənin qətl olduğuna inansam düşünürəm ki, qatil bu cinayəti ya pul zəminində törətmiş ola bilər, ya da rəqabət zəminində. Göründüyü kimi, mərhum Vahid Zaman iş adamıdır. Bəs sizcə necə?

Ayağa qalxıb çənəsini əlləri arasında ovuşduran polkovnik-leytenant Məmmədzadənin qaşları düyünləndi:

--Mənə elə gəlir ki, ölüm səbəblərini araşdırmaq hələ tezdir. Əvvəla gərək ekspertizanın rəyi ilə tanış olaq. Sonra mərhumun ailə üzvlərinin və yaxınlarının ifadələrini alaq. İşimiz çoxdur. Nahardan sonra səni ekspertizanın cavabları ilə burada gözləyəcəyəm. İndi isə gedə bilərsən.

--Oldu!

Əyləşdiyi stulu irəli çəkən Mayor Eyvazov iri addımlarla otaqdan çıxdı. Bu andan etibarən otağa dərin sükut çökdü. Məmmədzadə qayıdıb yerinə əyləşdi. İki əlini birləşdirib masanın üzərinə vurdu. Bununla bütün narahatlığını fikrini, dərdini sanki bir neçə dəqiqəlik unutdu. Binada demək olar hər kəs nahar etməyə getmişdilər. Odur ki, Məmmədzadə yaxın bir saat ərzində kabinetinə kiminsə gəlməyəcəyinə əmin idi. Pencəyini soyunub əyləşdiyi stulun başına keçirtdi. Özü də qapıya yaxın yerdə qoyulmuş yığcam divana uzandı. Əllərini boynunun altına qoyub bir qədər düşünməyə başladı: - Kimə lazım ola bilərdi Vahid bəyin ölümü? Onun iki əlli masa üzərinə sərilməsi... Silahın sol əldə olması... Qələmin isə sağ tərəfdə masa üzərində olması... Boş vərəq... Sol əllə revolverlə sol gicgaha yaxın məsafədən atəş açılması... Axı bütün bunlar nə deməkdir? Əyər mən özümü öldürmək niyyətindəyəmsə ən əvvəl ailəmə bir kəlmə söz yazaram. Sonra tətiyi çəkərəm. Yox... yox... belə alınmaz. Burda nə isə var. Nə isə... bu "nə isə" -lər məni lap əldən salacaq. Görəsən əynində niyə idman geyimi vardı? Hadisənin dəqiq törədildiyi vaxt məlum olsaydı. Əsas ekspertizanın cavabıdır. Ya torpaq parçası? O tər təmiz xalça üzərində nə gəzirdi? Mərhumun idman ayaqqabısındanmı? Yoxsa qatilə məxsusdu? Əyər qatilə aiddirsə onda əlimdən qaça bilməz. Necə deyərlər-Qaçan büdrəyər.

Bu zaman Məmmədzadə xatırladı ki, dostu Muradlının məktubunu hələ də oxumayıb. Cəld ayağa qalxıb iş stolunun arxasına əyləşdi. Masa üzərinə qoyulmuş noutbukunu işə salıb elektron ünvanına daxil oldu. Bir neçə məktub işarəsini ötdükdən sonra nəhayət axtardığını tapdı. Bu polkovnik-leytenant Murad Muradlıdan aldığı məktub idi. Zərf işarəsi üzərindən basıb açılmış məktubu ürəyində oxumağa başladı:

*" Qardaşım Asif, Necəsən? İşlər necə gedir? Son aldığım məktubuna gec cavab yazdığım üçün üzr istəyirəm. İnan ki, burda keçən həftədən törədilmiş cinayətə başım qarışdığından fürsət olmurdu yazmağa.*

*Yazdığın son məktubda da mənim araşdırdığım cinayətlə maraqlanırdın. Mən sənə keçmiş yox, dünən açdığım cinayət hadisəsindən yazacam. Demək bağ evlərin birində səhər 9-da bir qadın cəsədi aşkar olunur. Cəsəd deyəndə ki, öldürülmüş yaşlı qadın skeleti tapılıb. Cəsədi evin yeni sahibi Valentin tikəcəyi evin təməlini qoyarkən tapıb. İlk baxışdan heç də qətlə bənzəmirdi. Lakin ekspertizanın nəticəsi məlum olduqdan sonra işi mənə tapşırdılar. Demək mərhum düz 20 il əvvəl boğularaq öldürülüb. Elə həmin evin qarajında torpağa tapşırılıb. Cinayəti iki həftəlik araşdırmadan sonra nəhayət ki, aça bildim. Həmin qadın yəni Olqa Sergeyevna 37- il əvvəl övladlığa götürdüyü erməni mənşəli Edik tərəfindən qətlə yetirilib. Səbəbi isə heç qatilin özü də bilmir...*

*Səni bu cür cinayətlərlə yormaq istəmirəm. Amma nədənsə hər məktubunda yeni-yeni qətllər haqqında maraqlanırsan. Bu dəfə isə mənə*

*maraqlıdır. Yaz görək sənin axırıncı araşdırdığın cinayət hadisəsi nə üstündədir? Kim törədib? Necə baş verib?*

*Suallarıma tezliklə cavab gözləyirəm. Nəyə ehtiyacın olsa mən qulluğunda hazır! Özünü qoru. Hələlik! "*

Məktubu oxuduqdan sonra Məmmədzadə cavab yazmaq üçün yeni sənəd açdı. Beləliklə dostunun məktubuna cavab yazmağa başladı:

*"Əziz dostum Murad! Necəsən? Son məktubunda yeni bağladığın cinayət işindən yazmısan. Çox maraqlı və qaranlıq məsələyə oxşadı. Ən sonda biləndə ki, qətli məhz erməni mənşəli oğulluğu törədib tamamilə təəccüblənmədim. Bu ermənilərin xislətinə uyğundur. Bunların təbiətində qəddarlıq, rəzillik, nankorluq həmişə özünü göstərəcək.*

*Yaxşı indi isə sənin suallarına cavab yazım. Xahiş edirsən ki, son araşdırdığım cinayət işi ilə bağlı nə isə yazım. Baş üstə! Əvvəla ondan başlayıb ki, hadisə hələ bu səhər məlum olub. İlk görünüşdə intihar səhnəsinə bənzəyir. Lakin mən intihar olduğuna inanmıram. İş ondadır ki, ölən şəxs 48 yaşlı məşhur iş adamı Vahid Zamandır. Bağ evində iş masası arxasında üz üstə stol üstündə ölmüşdür. Dodağının sağ tərəfində kiçik yara, sol əlində Revolver markalı odlu silah vardı. Sol gicgahdan aldığı güllə yarasından ölmüşdür. Masanın üzərində boş ağ vərəq və mərhumun sağ tərəfində vərəq üzərində qələm vardı. İş otağında ayaq altına salınmış xalçanın üzərində, dəqiq qeyd etsəm tam mərhumun sol tərəfində yerdən qum tapılıb. Hal-hazırda isə ekspertizanın cavabını gözləyirəm."*

Bu an qapı döyüldü:

--Gəlin!- deyən Məmmədzadə narazılıqla cavab verdi.

--Hər vaxtınız xeyir! Sizə nahar gətirmişəm.

--Keç əyləş Qədir. Nə zəhmət çəkdin? –deyib natamam məktubunu yaddaşa verdi.

--Nə zəhməti Asif müəllim?! Sizə canım qurbandır.

--Yaxşı görək...

--Siz necə deyirdiniz? Aha yadıma düşdü: "Qocanın biliyi, cavanın biləyi!"

--Pay atonan! Qədir, məni nə tez qocaltdın?

--Yox-yox polkovnik-leytenant, mən sadəcə sizin vaxtı ikən dediyiniz atalar sözünü xatırladım.

--Onda al cavabını "Qocaya gülən özünə gülər!"

--Hm.... Bu saat, bu saat. Aha.. Xatırladım: "Qocadan demək cavandan kömək!"

--Bəh-bəh! Adamın ürəyinə yağ kimi yayılır. Nə yaxşı ki, sənin kimi cavanlar atalar sözlərimizi unutmurlar. Əhsən! İndi zarafat qalsın bir yana. Naharı bir qədər sonra edərəm. De görək hörmətli ekspertlərimizin rəyi necədir?

--Çox sağ olun! Əslində bütün atalar sözlərini məktəb illərində keçmişdim. Lakin sizinlə işlədiyim bu illər ərzində yenidən öyrənmiş oldum. Siz mənim üçün canlı örnəksiniz. O ki, qaldı ekspertlərin rəyinə o da ki bu qovluqda.

Əlindəki qovluğu açıb masanın üzərinə qoyur. Məmmədzadə ekspertlərinin rəyini göz ucu nəzərdən keçirtməyə başlayır. Bu zaman Qədir:

--Ekspertizanın nəticəsinə əsasən Vahid Zaman gecə 22:30 radələrində qətlə yetirilib. Xalça üzərində tapılmış həmin torpaq parçası heç də mərhumun ayaqqabısından deyil. Biz hadisə yerindən uzaqlaşdıqdan sonra evin bağ hissəsində hasara iki metrlik aralıdakı palçıq ərazidə yeni düşmüş kişi ayaqqabısının izi aşkar olunub. Ayaqqabı ölçüsü 46-dır. Vahid Zamanın ayaqqabı ölçüsü isə 42-dir. Sonra bizim hər ikimizi cavabsız suallarla baş-başa qoyan o ağ vərəqlər də ekspertlərin tam sübutu ilə bizlərə təhvil verilmişdir. Həmin vərəqlər iki ədəd olmaqla A4 formatındadır. Onun üzərindən mərhumun əl izləri aşkarlanıb. Hətta bir ədəd saç teli də varmış ki, o da məhz mərhumun saçındandır. Qeyd olunur ki, iki vərəqdən yalnız birinin üzərində azacıq qələm ucu izləri aşkarlanıb. Ekspertlərin düşündüyünə görə ola bilər ki, iki vərəq üzərində daha bir, yəni üçüncü vərəq də olmuşdur. Məhz həmin vərəqin üzərində yazılmış yazıların bir qismi daha doğrusu bəzi hərflərinin izi ikinci yəni altdan qoyulmuş vərəqə düşmüşdür. Həmin hərflərin sıra və yerləşmə məsafələri də qeyd olunmuşdur. Ən dəqiq bilinən iz isə imzadır. O daha dərin və səliqəsiz yazılmışdır. Bunun əsasında hər iki vərəqə də keçmişdir. Məlum olunmuş hərflər elə aşkar olunduğu yerdə sürəti çıxarılmışdır.

Məmmədzadənin əlindəki qovluğu yenidən açıb iki sənəd çıxardıb uzatdı. Polkovnik-leytenant əlinə aldığı iki vərəqi də incəliklə yoxlamağa başladı:

--Demək belə çıxır ki, Vahid Zaman gecə idman geyimində olarkən öz şəxsi, lakin istifadə etmədiyi kabinetində öldürülüb. Qatil hər kimdirsə bizim əlimizdə indi yalnız bir sübut var. O da qatilin 46 ölçülü ayaqqabı izi. Mümkün

olduğu qədər mərhumun yaxınlarından bu barədə bildiklərinizi gizli saxlayın. Mənə nədənsə elə gəlir ki, Vahid Zamanı yaxın adamlarından biri öldürüb. O hər kimdirsə mütləq tapılacaq.

--Baş üstə!

--Bu mərhumun qarşısındakı ağ vərəq, bu isə həmin vərəqdə aşkar edilmiş cizgilərin surəti.

--Bəli Polkovnik-leytenant! Hərifləri sıra ilə oxuyun bəlkə siz hansısa sözləri aşkar etdiniz. Mən yol boyu təxmini göz gəzdirdim. Göründüyü kimi heç də uzun olmayan mətn izi var:

“ *M,s,a,m,l,n,F,o”*

--Əldə etdiyimiz məlumatlara görə deyəcəyim tək bir söz vardır ki, o da Vahid Zamanı öldürüblər. Biz tezliklə qatili tapmalıyıq. De görək mərhumun ailə üzvləri nə zaman burda olarlar?

--Dəqiq desəm sabah saat 9 dan etibarən ifadə verməyə gələcəklər. Vahid Zamanın qardaşı Nəbi Zaman hələ ki, Gürcüstandadır. Telefon zəngi ilə xəbərdar edilib. O da bacısı Kübra xanım da sabah burda olmalıdırlar.

--Lap yaxşı. İndi isə bir az nahar edim. Sonra işlə məşğul olarıq.

--Əlbəttə. Mən icazənizlə gedim.

--Buyur. Bir də mümkün olduqca dəqiq məlumat lazımdır.

--Bilmək olar, nə barədə?- Qədir soruşdu.

--Hadisə yerindən tapılmış torpağın haraya aid olduğunu dəqiqləşdirmək lazımdır.

--Əlbəttə. Bu gün ekspertlərin diqqətini torpağa yönəldərəm. Səhər hazır cavabla qarşınızda olaram...

--İndi isə gedə bilərsən!

--Sağ olun, Asif müəllim!

Beləcə Məmmədzadə kabinetində tək qaldı. Mayor Eyvazovun aldığı naharı yeməyə başladı. Azacıq bibərli olsa da iştahla yedi.

## *Beşinci fəsil*

Qönçə öz mənzillərindəki divanda əyləşib hönkür-hönkür ağlayırdı.

--Axı, atam niyə öldü? Yəni məni də düşünmədi?

--Qönçə özünü ələ al. Bu qədər ağlamaqla heç nə əldə etməyəcəksən.

--Sən nə danışırsan ana? Məgər sənin qəlbin daşdandır? Atam ölüb e... ölüb!

--Danışığına fikir ver qızım. Mən demirəm ki, yaxşı ki, ölüb! Deyirəm yəni heç olmasa sənə bir şey olmasın. Elə bilirsən iyirmi beş illik ömür yoldaşımın ölümünə sevinirəm?

--Bağışla anacan! Heç özüm də nə danışdığımı bilmirəm. Bircə onu bilirəm ki, ürəyim parçalanır. Nəfəsim ağırlaşır.

--Yaxşı qızım ağla. Ağla yüngülləşərsən. Səyavuş haradadır?

--Eşidənnən dəli kimi bir yerdə dayana bilmir. İki saatda 2 qutu siqaret çəkib. Üzünə baxsan qorxarsan. Yarım saat olar çıxdı. Dedi havam çatmır. Kim qıydı axı ana, kim? - yenidən göz yaşlarını axıdan Qönçə divandakı yastığı qucaqladı.

Vəfa xanım qızının gözündən yayınmış alma yanaqlarından süzülən iki damla yaşı silib ayağa qalxdı. Pəncərə önünə yaxınlaşıb dənizə tamaşa etdi. Bu an Vahid bəylə necə evləndiyini xatırladı:

O zamanlar Vəfa 18 yaşına yeni qədəm qoymuşdu. Vahid də 21 yaşında idi. Əsgərlikdən yeni gəlmişdi. Əvvəlcə fəhləlik etdi. Sonra maşın təmiri ilə məşğul olur. Vəfa da atası və anası ilə kəndə yay tətilini keçirməyə gedirdilər. Şəhərdən çıxar çıxmaz Musa kişi anlayır ki, maşının nəyisə nasazdır. Bu vəziyyətdə uzun səfərə çıxmaq ağılsızlıq olardı. Buna görə də elə yol qırağında təmirçi dükanı görüb saxlayır. Usta ilə bir qədər maşının sağına soluna keçdikdən sonra kapotu açır. Bu zaman usta uca səslə - “Vahid, oğul bura gəl” - deyir. Maşının yarı açıq pəncərəsindən gələn hava ilə sərinlənən Vəfa bu an Vahidi görür. Elə həmin anda da gözləri bir-birinə sataşır. Vahid o an Vəfanı görüb, maraqla baxır. Lakin utanır. Özü də anlamırdı tanımadığı ilk dəfə gördüyü, həm də belə ötəri nəzər yetirməklə, adını da bilmədiyi yaşıl gözlü bu qəşəng qız necə oldu ki, diqqətini çəkdi. Təmirlə bir qədər məşğul olduqdan sonra başını qaldırıb qızın arxa qapını açıb anası ilə maşından çıxdığını görür. Bu an onun gözəl mütənasib yaraşıqlı bədən quruluşunu, incə belini daha rahat görür. Vəfa da ona baxan gözəl gözlərin təsirindən ayaqları yerdən üzülür. Kiminsə tərəfindən sevildiyini, arzulandığını hiss etmək ona ləzzət verir. Maşının təmiri bitərkən atası təmirçi dükanının telefon nömrəsini götürür. Əyər

bir daha maşının təmirə ehtiyacı olarsa mütləq həmin ustaya müraciət edəcəyini deyir. Beləliklə, Vahid də Vəfa da beləcə üz-üzə gəlmiş olurlar. Bir dəfə də olsa bu görüş Vahidin yaddaşından silinmir. Hər gecə gözlərini yumduğunda Vəfanın maşından necə düşdüyünü, gözəl bədən quruluşunu xatırlayır. Tanrıdan o gözəl qızı bir daha qarşısına çıxarmağı diləyir. Bir neçə ay keçdikdən sonra Vəfa anası ilə bazarda həmin maşın təmir edən oğlanı yəni Vahidi görür. Lakin onu harada gördüyünü xatırlaya bilmir. Oğlanın üzü ona çox tanış gəlir. Yaxınlaşıb soruşmağa da utanır. Bu zaman Vahid təsadüfən onun dayandığı satış rəfinə mal almağa yaxınlaşır. Vəfa da bundan istifadə edib üzünü qəsdən ona tərəf çevirir. Bu an gözlər bir daha bir-birinə sataşır. Vahid ona baxan bu gözləri bu gözəlliyi xatırlayır. Qəlbi yerindən çıxmağa can atır. Vəfa:

--Bağışlayın, təsadüfən oldu.

--Salam, xanım!

--Salam!

--Maşının təmirə ehtiyacı varmı? Məni bəlkə də xatırlamırsınız, lakin mən sizi heç bir an belə unutmamışam.

--Kömək edin xatırlayım.

Yanaqları qızarmış, isti təbəssümlü qızı bir daha başdan ayağa süzüb dedi:

--Mən iki ay əvvəl yol qırağında sizin atanızın maşınını təmir etmişəm. Onda ananızla maşından düşmüşdünüz yadımda qalıb.

--A-a-a... xatırladım. Anam da buradadır bazada. Lap yaxşı. Bir daha rastlaşmış olduq.

--Adım Vahiddir! - deyərək əlini uzadır.

--Mənimsə Vəfa!

--“V”, “V” çox gözəldir.

--“V”? Gözəl olan nədir?

--Bir- birinə yaraşmağı.

--Məni özünə yaraşdırırsan? -Vəfa təəccüblə soruşur.

--Əlbəttə sizə kimsəni yaraşdıra bilmərəm. Siz ay kimi gözəlsiniz. İllərlə üzünüzə baxsam yorulmaram.

--Nə demək istəyirsiniz? - bu zaman anasının səsi eşidildi:

--Vəfa, haradasan? Gəl bu dona bax!

--Gəlirəm ana!- deyən Vəfa həyəcanlanır.

--Vəfa, siz harda olursuz?

--Nədir ki, elçi gələcəksən? – Vəfa utanaraq qarşısında ciddi dayanmış, səliqəli geyimli sadə oğlana baxdı.

--Hə! Qardaşımla, atamı göndərəcəm. Razı olarsan?

--Məndən niyə soruşursan? Atam ürəyi kimə istəsə verəcək. Ondan soruş.

--Ondan da soruşarıq. Sən necə mənə ərə gələrsən?

--Mən axı səni tanımıram. Bir dəfə rastlaşmışıq. Bu da ikinci.

--Doğru deyirsən. Gəl sabah mərkəzi kitabxananın qarşısında görüşək. Bir-birimizi tanıyaq. Razı olsan elçi göndərərəm.

--Yaxşı sabah 3-də görüşək – Vəfa sözünü tez bitirib anasının səslədiyi tərəfə getdi.

Bu təsadüfi rastlaşma Vahidi çox sevindirir. Vəfa da həvəslənir. Sabah gedəcəyi görüşə həyəcanla hazırlaşır. İndidən nə geyinəcəyini, saçını hansı formada yığacağını düşünməyə başlayır. Lakin Vahidin ürəyindəki saf məhəbbətdən xəbərsizdir. Anlamır ki, o cavan oğlan onu bütün qəlbi ilə sevir. Görüşə ən səliqəsiz formada getsə də Vahidin gözündə dünya gözəli kimi görünəcəkdi...

Beləcə səhər də açılır. Görüş vaxtı da yaxınlaşır. Vəfa əyninə dünən anası ilə aldığı yay donunu geyinir. Saçını da artıq düşündüyü kimi, yuxarıdan çox səliqə ilə yığır. Anasına da heç nə demədən evdən çıxır. Görüş yerinə çatar çatmaz əlində hələ açılmamış qızılgül dəsti tutmuş yaraşıqlı oğlanı görür. Vahid artıq burda idi. Vəfanı görəndə sevincinin həddi hüdudu olmur. Çox sevinir. Beləcə görüşürlər. Əvvəl bir, sonra iki, sonra üç, və beləcə tam on görüşə çıxmış olurlar. Bununla da Vəfa Vahidə “Hə” deyir. Tezliklə elçilər qız qapısını döyür. Razılıq alıb qısa zamanda toy edirlər. İlk günlər maşın təmirindən aldığı pulla dolanan təzə ailə tezliklə daha da inkişaf etməyə başlayır. Vahid qardaşı Nəbinin köməkliyi ilə Gürcüstana gedib maşın avadanlıqları gətirib vətəndə satmağa başlayır. Əvvəlcə icarəyə obyekt götürür, sonra obyektlər alır. Beləcə ticarətlə məşğul olur. Ailə böyüyür. Qızları Qönçə də doğulur.

--Ana!

Qönçənin qəfil səsindən xəyallardan ayılan Vəfa xanım pəncərə önündən çəkilir. Divanın bir küncündə hələ də gözü yaşlı qızına baxıb:

--Qönçə, özünü ələ al.

--Ana, mənim başım hərlənir. Özümü çox pis hiss edirəm.

--Niyə qızım? Sənə nə oldu? Görürsən bayaqdan ağlayırsan söz eşitmirsən ki-Stol üzərindəki su ilə dolu stəkanı qızına uzadıb - Heç olmasa bir qurtum su iç. Sərinlənərsən.

Sudan iki –üç qurtum içən Qönçə anasını daha da narahat etmək istəmədiyindən qayğılı səslə dedi:

--Artıq yaxşı oldum. Keç əyləş. –yenidən qapıya tərəf boylanıb soruşur: - Səyavuş harada qaldı görəsən?

--İndi harada olsa gələr. Sən onu özünə dərd etmə.

Bu zaman qapı döyüldü. Qönçə anasına möhkəm görünmək üçün qapını açır. Gələn Səyavuş idi. Qızarmış və bir qədər şişmiş gözündən ağladığı və çox dilxor olduğu bilinirdi. Fikirli halda Qönçənin çiynindən tutub qonaq otağına keçdilər. Vəfa xanım artıq divanda əyləşmişdi. Qönçə də Səyavuşun qolundan çıxıb divanın digər küncündə oturub narahat halda soruşdu:

--Səyavuş, hara getmişdin?

--Getdim morqa dedilər ekspertlər baxmalıdırlar. Sonra getdim polis idarəsinə dedilər nahardan sonra gəl. İndi də ayağım getmək istəmir. Bayaqdan blokun qarşısında oturmuşam. Bilmirəm bu necə ola bilərdi? Sağlam bir insan birdən birə necə ölə bilərdi?

--Necə öldüyünü dedilər?

--Yox, Qönçə! Orda bir zabit dedi ki, rəis bizi sabah 9-da kabinetində görmək istəyir. Mən də düşündüm ki, onsuz da indi bizə bir kəlmə deməyəcəklər məcbur səhəri gözləməliyik.

--Düz etmisən oğul! Səhər açılsın mən də sizinlə gedəcəm. Axı Vahid nədən ölə bilərdi? Onun təkcə qan təzyiqi var idi. Mən bilən bu elə də ölümcül deyildi.

--Orasını dəqiq deyə bilmərəm. Amma...

Səyavuş qəflətən susmağa üstünlük verdi. Cəld ayağa qalxıb Qönçədən yeməyə nə isə bişirib bişirmədiyini soruşdu. Qönçə yoldaşının üzündəki dəyişikliyi və bir qədər fikirli olduğunu hələ gələndən hiss etmişdi. Lakin soruşmamışdı. İndi isə Səyavuşun ağzından çıxan "Amma..." onu düşündürürdü. Nədənsə ona elə gəldi ki, Səyavuş ondan söz gizlədir. Odur ki, divandan qalxıb mətbəxə keçib, gözünün yaşını axıda axıda yemək isidirdi. Əli heç nəyə yatmırdı. Lakin Səyavuşu da itirmək istəmirdi. Onu çox sevirdi. Atasının yoxluğuna yalnız Səyavuşun varlığı ilə tab gətirə bilərdi. Dözməli idi. Bunu bacaracaqdı. Əlindəki işini bitirib Səyavuşu süfrəyə çağırdı. Artıq Qönçə ağlamırdı. Dərin-dərin düşünürdü. Səyavuşun bəyaq demədiyi o "amma.."nı, ondan nə gizlədə biləcəyini düşünürdü. Soruşmağa isə ürəyi gəlmirdi. Daha bir bəd xəbərə dözə bilməyəcəyini anlayırdı. Yemək sadəcə bəhanə idi. Yetər ki sözünün arxasını deməsin. Yeməkdən bir qaşıq içən Səyavuş:

--Nə duzludur!?

--Nə?

--Xörək!

--Yadımdan çıxıb ki, 2 dəfə düz atmışam. Başqa nəsə bişirməmişəm.

--Heç lazım da deyil. Düşünmürəm ki, yeməyə iştahımız ola.

--Yox sən heç olmasa bir tikə çörək ye. Yoxsa sənə də bir şey olsa mən nə edərəm? - kədərli halda Qönçə dedi.

--Allahın köməkliyi ilə son nəfəsimə kimi yanında olacam. Bunu özünə dərd etmə. Xörəkdir də bir gün duzlu olar, bir gün də şit. Əsas odur ki, onu sən bişirmisən. Əllərinlə hazırladığın zəhəri belə ləzzətlə yeyərəm. Allah səni mənə çox görməsin.

--Atam səncə nədən ölə bilərdi?

Qönçə bunu Səyavuşun gözlərinin içinə baxaraq soruşdu. Bu qəmli və eyni zamanda fikirli Qönçəyə yalan demək isə Səyavuşa yaraşmazdı. Odur ki, başını aşağı salıb əlindəki cib telefonunu qurdalamağa başladı.

--Qönçə, hər şey səhər məlum olacaq. Mənim nə düşünməyimin bir əhəmiyyəti yoxdur. Səbr elə.

--Bircə gecə tez keçsəydi. Lap ürəyim sıxılır.

--Zaman bütün yaraların məlhəmidir. - deyən Səyavuş yaşlı insanlar kimi təskinlik verdi.

Qönçənin səsindəki kədər hələ də hiss olunurdu. Asan deyildi axı. O boyda insanı itirmişdilər. Səyavuş yeməyinə daha toxunmadı elə hər ikisi də zala Vəfa xanımın yanına gəldilər. Vəfa xanım isə gözlərini bir nöqtəyə zilləyib kənardan heç kəsin hiss etmədiyi və hətta hər kəsdən gizlətdiyi incə göz yaşları axıdırdı. Qızı və kürəkəni onun ağladığını anlamasınlar deyə cəld ayağa qalxıb pəncərə önündə dayandı. Artıq hava qaralmışdı. Otağın işığı pəncərə önündə dayanmış Vəfa xanımı bir ayna kimi özündə əks etdirirdi. Dənizi isə görmək qeyri-mümkün idi. O, dərdini unutmağa çalışırdı. Lakin özü də bilirdi ki, insan həqiqətdən qaça bilməz. Olan olub və artıq nə isə tədbir görmək lazım idi. Səhərin açılmağını ayaq üstündə gözləmək olmazdı. Mütləq yatmaq dincəlmək lazım idi. Odur ki, Qönçəyə:

--Qızım, mümkünsə mən bu gecə sizdə qalım. Səhər elə birlikdə məntəqəyə gedərik.

--Əlbəttə, anacan! Sənə bu saat yer açaram.

Qönçə bunu deyib qonaq otağına döşək gətirib üzərinə ağ çəkdi. Səliqəyə saldı. Az sonra anasını səsləyib yatmağa dəvət etdi. Özü də Səyavuşla yataq otağına keçdi. Yuxuya gedəcəyinə inanmasa da uzandı. Və beləcə səhərin açılacağını gözlədi. Çünki, atasının müəmmalı ölümü ilə bağlı hər şey səhər məlum olacaqdı.

## *Altıncı fəsil.*

Cinayət axtarış bölməsinin dəhlizində bir neçə insanın səsi yüksəlməyə başladı. Səsdən narahat olan polkovnik-leytenant Asif Məmmədzadə qaşqabaqlı halda kabinetindən çıxdı:

--Nə var? Niyə qışqırışırsız?

--Biz iki saatdır ki, burada gözləyirik - hirsli halda Vəfa xanım dilləndi - Suallarımıza cavab verən də yoxdur. Yoldaşım nədən ölüb?

--Bir az da səbir edin öyrənəcəksiniz. Sakitliyə riayət edin. Əks halda məndən inciməyin.

Sözlərini tamamlayıb yenidən kabinetinə girdi. Daha əlavə səs kəsilmişdi. Polkovnik-leytenant masasının arxasına keçər keçməz qapı döyülərək açıldı:

--Olar? - qapıdan cavan, hündür, eynəkli mülki formalı şəxs içəri boylandı.

--Gəl, Hikmət!

--Asif müəllim, sizin zənginizdən sonra axşamı gözləyə bilmədim. Deyin görək məni nədən ötrü çağırmısız? – soruşan Mayor Hikmət Paşazadə iki həftə olardı ki, ezamiyyətdə idi. Odur ki, bura çağırılmasının səbəbini heç də adi hesab etmirdi.

--Hikmət, səni bura ona görə çağırmışam ki, dünən baş vermiş bir cinayət hadisəsi ilə bağlı məlumatın olsun. Bu gündən ezamiyyətin başa çatmış sayılır. Sən burda çox lazım olacaqsan.

--Oldu! Siz necə deyirsiniz elə də olsun!

--Mayor Eyvazov gəlsin birlikdə mərhumun yaxınlarının ifadələrini alacağıq.

--Asif müəllim, icazənizlə Qədir gələnə kimi mən bu işlə yaxından tanış olum.

--Əlbəttə. Al işi incələ. Bu da ekspertlərin rəyi. Oxu sualların olsa verərsən.

--Oldu. Yoldaş Məmmədzadə.

Məmmədzadə Hikməti ezamiyyətdən vaxtından əvvəl çağırmaqla axtarış qrupunu genişləndirmək istəyirdi.  Onun təcrübəsinə hər zaman arxayın idi. Hələ keçənlərdə baş vermiş bir cinayət işini elə məhz Paşazadə özü açmışdı. Qatili də iki günə tapmışdı. Bunun üçün heç rəisindən kömək filan da istəməmişdi. Hikmətin qeyri -adi bacarığı var idi. O sanki qarşısındakı insanın içini oxumağı bacarırdı. Hikmətin dediyinə görə hər bir insanın gözləri və ən əsası əllərinin qurluşu sahibinin daxilindən xəbər verir. Elmdə bunun adı “Xiromantiya” adlanır. Bir qabiliyyəti da güclü yaddaşa malik olması idi. Hikmət bir dəfə gördüyü istənilən əşyanı, istənilən insanı qəti unutmazdı. Harda görsə xatırlayardı. Bunun üçün də Məmmədzadə ezamiyyətdə olan bir neçə işçi arasından yalnız Hikməti çağırtdırmışdı. Ona özü qədər inanırdı.

Bir neçə dəqiqədən sonra kabinetə Mayor Eyvazov daxil oldu. Öz həmkarı və yaxın dostu olan Hikməti gördükdə sevincini və təəccübünü gizlədə bilmədi.

-- Salam.–Məmmədzadəyə salam verib, üzünü dostuna tutdu-Hikmət? Sən nə zaman gəldin?

--Demək olar ki, yarım saat olar. Bir başa bura gəlmişəm. Necəsən?

--Yaxşıyam. Çox sağ ol! De görək nə əcəb səndən? Axı bildiyimə görə ezamiyyətin hələ iki həftəyə ancaq bitəcəkdi?!

--Düzdür. Lakin...

--Onu mən çağırmışam. - Məmmədzadə Hikmətin sözünü yarım qoyub dedi.

Kabinetə bir neçə dəqiqəlik sükut çökdü. Hikmət cinayət işi ilə tanış olub qovluğu qarşısına qoydu. Sanki nə isə düşünürdü. Bu zaman Məmmədzadə:

--Paşazadə, fikrin nədir çinayət barədə?

--Bilirsiniz, Asif müəllim əvvəlcə şəkillərə baxdım. Görünüş tamamilə intihara bənzəyir. Lakin dəqiq desəm mən əminəm ki, bu qətldir.

--Nəyə əsaslanaraq dedin? –Hikmətin fikirləri ilə daha yaxından tanış olmaq istəyən polkovnik-leytenant soruşdu.

--Qələm!

--Qələm? - Sualında daha çox təəccüb hiss olunan Məmmədzadə soruşdu.

--Bəli! Bu qələm niyə sağdadır? Silah isə solda? Yəni Vahid özünü öldürdüyü ərəfədə sağ əli ilə qələm tutub? Sol əli ilə silah?! Bəs onda niyə yazılı vərəq mərhumun qarşısında deyil? Demək ki, qatil o vərəqi Vahid bəyə imzaladaraq  götürüb.

--Maraqlı fərziyyələrin var. Mənim də diqqətimi ağ vərəq cəlb etmişdi. Axı çoxdan bəri istifadə olunmayan masada boş ağ vərəq və qələm nəyə lazım idi? Beləliklə ekspertlərin vərəq üzərində apardıqları araşdırmalara görə məlum oldu ki, vərəq üç ədəd imiş. Yəni üst hissədə olan vərəqdə yazı yazılıb və kiminsə tərəfindən götürülüb. Bunun əsasında ikinci və alt hissədəki vərəq üzərinə qələmlə yazılmış bəzi hərflərin izi keçib.

--Maraqlıdır. Mən hələ ekspertlərin rəyi ilə tanış olmamışdım.

--Elə isə oxuyun. Bu barədə hər ikinizin fikirləri mənim üçün maraqlıdır. Onu da qeyd edim ki, ekspertlər qələmin də üzərində mərhumun əl izlərinə rast gəliblər. Yəni Vahid bəy o qələmlə dəqiq nəsə yazıb imza atıb. Lakin mərhumun silah olan əlində cüzi də olsa barıt izinə rast gəlinməyib. Heç tətiyin üzərində də Vahid bəyin barmaq izi olmayıb. Silahdan atəş açarkən tətiyi barmaqla da olsa bərk basmaq lazımdır.  Yalnız bu zaman barmaq izi tətik üzərinə düşəcək. Belə nəticəyə gəlmək olar ki, Vahid Zaman həqiqətən qətlə yetirilib. Çünki heç kəs tətiyi çəkmədən atəş aça bilməz. Üstəlik də “46” ölçülü ayaqqabı izi.

--Düzdür. Sizinlə tamamilə razıyam. Mən inanıram ki, bu ayaqqabı ölçüsü hər kəsdə rast gəlinmir. Odur ki, qatil bununla aşkarlana bilər –başını aşağı salıb bir an düşündükdən sonra - Əgər istəsəniz ifadə almaq üçün dəhlizdəki şəxslərdən dəvət edə bilərsiniz. Mən də arada sualım olarsa verərəm.

--Yaxşı fikirdir – əlini masanın üzərindəki xüsusi düyməyə basaraq - Dəhlizdəkiləri ardıcıl olaraq ifadə verməyə çağırın. Leytenant Nəsirovu ifadələri yazmaq üçün kabinetimə göndərin!

İki saniyəlik sükutu qapının döyüntüsü pozdu.

--Gəlmək olar? - Üzünə tökülmüş saçını əli ilə qulağının arxasına çəkən Qönçə soruşdu.

--Buyurun keçin. Əyləşin! –mayor Eyvazov əli ilə masanın kənarında qoyulmuş stulu göstərdi. Qönçəni başdan ayağa süzərək – Xahiş edirəm özünüzü təqdim edin.

--Qönçə Vahid qızı Ömərova. 1981-ci il təvəllüdlüyəm. Musiqi məktəbində müəllimə işləyirəm. Piano dərsi verirəm.

--İşinizi çox sevirsiz? - gözlənilmədən polkovnik-leytenant sual verdi.

--Əlbəttə. Musiqini də çox sevirəm. Onu öyrətməyi də.

--Biz də işimizi sevirik. Lakin siçan pişik oynamağı qəti xoşlamırıq. Odur ki, verilən suallarımızı dəqiq və doğru cavablandırın. Sizin də ürəyiniz artıq düşüncələrdən, fikirlərdən rahat olar, bizim də işimiz öz yolunda gedər – Məmmədzadə dedi.

--Mən sizi başa düşürəm. Lakin hələ də anlaya bilmirəm ki, atam nədən ölüb?

--Qönçə xanım, - Qədir stulda öz yerini rahatlayaraq səsləndi - ağır da olsa bunu bilməyə haqqınız vardır. İş burasındadır ki, atanızı öldürüblər.

--Necə? Atamı öldürüblər? - titrəyə-titrəyə ayağa qalxan Qönçə bərəlmiş gözlərini ətrafındakılara zillədərək tutqun səslə soruşdu.

--Bəli! Allah rəhmət eləsin! Özünüzü ələ alın ki, bizə istintaqın gedişində köməklik edəsiniz. Qatili tezliklə tapmaq lazımdır. – Məmmədzadə dilləndi.

--Axı niyə öldürüblər atamı? Kim edə bilərdi bunu? - hələ də təəccüb və narahatlıq içində olan Qönçə ağlaya-ağlaya soruşdu.

--Baxın bu suala sizin də köməkliyinizlə cavab tapa bilərik. Deyin görək atanızı sonuncu dəfə harada və nə vaxt görmüşdüz?– Polkovnik-leytenant əsas mətləbə keçdi.

--Mən bir həftə idi ki, onunla görüşmürdüm. Adətən o fabrikə gedəndə yol üstü mənə də baş çəkərdi. İndi isə bunu da edə bilməyəcək-sözünü bitirməyə macal tapmamış hönkür-hönkür ağlamağa başladı.

--Xahiş edirəm xanım, özünüzü ələ alın. Acınızı yaxşı başa düşürük. Lakin biz də sizə kömək etmək üçün burdayıq. Bizə atanızın qatilini tapmaq önəmlidir. Atanız torpaq altında yatarkən qatil ayağını ayağı üstünə aşırıb kefini çəkməyini istəmirsizsə bizim bütün suallarımıza cavab verin!

--Yox, elə şey istəmərəm. Nə lazım olsa soruşun.

--Onda mümkünsə yenidən başlayaq. Verilən bütün suallara bacardığınız qədər dəqiq cavab verməlisiniz. – Qədir dedi.

--Siz suallarınızı verin. Mən də bacardıqca dəqiq cavab verəcəm.

--Deyin görək bir həftə əvvəl atanızla nə barədə danışırdınız?

--Atam hər dəfə olduğu kimi iş yerimə gəlmişdi. Soruşdum ki, necəsən? Dedi lap əlayam. Bircə nəvəm də olsa məndən xoşbəxti ola bilməz. Mən də güldüm. O gün yaman gülmüşdük. Demək olar çox gülmüşdük. Atamın kefi yaxşı idi. Bunun səbəbini bilmək istəyəndə dedi sənə sürprizim var. Odur ki, hələlik deyə bilmərəm. Bilirsiniz, - üzünü Məmmədzadəyə tutan Qönçə titrək səslə dilləndi - sabah mənim ad günümdür. O də mənə ad günümə sürpriz edəcəkdi.

--Deməli siz o sürprizdən bixəbərsiniz?

--Bilirsinizmi, mənə elə gəlir ki, atam mənə doğum günü hədiyyəsi olaraq dediyi sürprizi maşındır. Bir daha deyirəm ki, bu mənim təxminimə görədir. Başqa düşünə bildiyim heç nə yoxdur. Çünki o bilirdi ki, mən bir ildir maşın almaq istəyirəm.

--Demək təxmininizə görə maşın sizə deyilən doğum günü sürprizidir?! Yaxşın atanızla özgə nədən danışdız?

--Özgə deyəndə ki, işimdən. Şagirdlərimdən.

--Konkret olaraq nədən?

--Dedim bir şagirdim var. Rüstəm. O gün Motsartın simfoniyasını pianoda ifa edərək şagirdlərimə başa salırdım. Rüstəm isə mənə qəti qulaq asmırdı. Elə hey pəncərəyə boylanırdı. Buna görə ona cəza verəcəkdim. Lakin ürək etmədim. Yanıma çağırıb sual verdim. Soruşdum: Rüstəm, Amadey Motsart kimdir? Rüstəm gözünü yerə zilləyib durmuşdu. Sualımı yenə verdim. Cavabında isə - Nədənsə bu an Qönçə gülümsədi – Dedi ki, Müəllimə məgər Amadey Motsart məni tanıyır ki, mən də onu tanıyım?! Bircə görəydiniz atama bunu danışanda necə qəşş edib güldü. Səsi kabinetimə yayılmışdı. Beləcə danışdıq getdi.

--Belə çıxır ki, sizinlə son görüşü heç də vacib hadisə ilə yadda qalmayıb.

--Əlbəttə. Nə ola bilərdi axı?

--Qönçə xanım, bəs siz avqustun 4-ü gecə 10-11 arası nə işlə məşğul idiniz?

--Bu nə deməkdir? Siz məndən şübhələnirsiniz?

--Bilirsinizmi, bu cinayətdir. Və biz Vahid Zamanı tanıyan tanımayan hər kəsdən şübhələnirik. Xətrinizə dəysə də bunu bilmək haqqımızdır. Dəqiq deyin harada və kiminlə idiz?

--Evimizdə. Bir az televizora baxdım. Sonra salat hazırladım. Bir qab da ondan yedim. Təxmini desəm 11 də artıq yerimə uzanmışdım. Lakin səhərə kimi gördüyüm qorxunc yuxular məni rahat yatmağa qoymadı. Hətta düşündüm ki, bəlkə işə getməyib rahat yatam. Lakin o da alınmadı. Demək olar günortaya kimi yerimin içində o başa bu başa fırlanmışam. Haradan bilərdim ki, o gecə atamı öldürüblər. – Gözləri yenidən doldu.

--Qönçə xanım özünüzü ələ alın. Biz əlimizdən gələni edəcəyik ki, qatili tezliklə tapaq. Bəs yoldaşınız Səyavuş harda idi? – Hikmət təmkinlə soruşdu.

--O gecə onun işdə gecə növbəsi var idi.

--O nə işləyir?

--Səyavuş Broylerin birində nəzarətçisidir. Atam özü bu işi ona tanışlıqla düzəldib. Əslinə qalsa Səyavuş əziyyət çəkmək istəyir. Yəni hər gün yorğun gəlmək istəyir. Amma atam onun nəzarətçi kimi daha çox qabağa gedəcəyinə inanırdı.

--Səyavuş o gecə həmin fabrikdə olub?

--Hə. O gecə onun öz qrafikinə görə gecə növbəsi idi.

--Niyə öz qrafikinə görə?

--Bilirsinizmi, Səyavuş özünü adi işçilərdən qəti fərqləndirmir. Odur ki, tərtib etdiyi gecə növbətçisi siyahısına öz adını da əlavə edib. Ayda bir ya iki dəfə gecə orada olur. Özü də bir yerdə duran deyil. Yuxusu gəlməsin deyə gecəni səhərə kimi yaşıllaşdırma işi ilə məşğul olur.

--Gecə növbəsində o tək olur?

--Bəzən hə. Bəzən də yox.

--Bunu necə anlayaq?

--Yəni ki, bir dəfə tək olur. Bir dəfə də işçilərdən kimsə ilə.

--Qönçə xanım, yoldaşınızın ayaqqabı ölçüsü neçədir?

--Başa düşmürəm bunun nə dəxili var atamın ölümünə?! – Qönçə təəccüblə soruşdu.

--Qönçə xanım, artıq sizə dedik ki, bu cinayət işidir. Və biz kim olur olsun hər birinizdən şübhələnirik. Odur ki, səbrimizlə oynamayın. Sizə nə sual verilirsə cavablandırın. – Məmmədzadə əsəbi halda dedi.

--Səyavuşun ayaqqabı ölçüsü 46-dır.

--46? – qəfildən Eyvazov yerindən soruşdu.

--Bəli.

--Atanızla yoldaşınızın münasibəti necə idi?

--Atam biz hələ uşaq ikən Səyavuşu bağımıza işə götürmüşdü. Onu oğlu kimi sevirdi. Səyavuş da atama öz atası kimi baxırdı. Atam Səyavuşu da, onun qardaşını da oxudub. Biz hər zaman mehriban olmuşuq.

--Demək istəyirsiniz ki, Səyavuş atanızı heç bir səbəbə görə öldürə bilməz? – kinayə dolu baxışlarla qarşısında əyləşən xanımı süzən Hikmət soruşdu.

--Bəli. Səyavuş kimsəni öldürməz. Atamı öz atası kimi sevib. Onun çörəyi ilə böyüyüb. Onun yeganə qızı ilə ailə qurub. Onun tanışlığı ilə ən gözəl gəlirli işdə işləyir. Sizcə hansı insan öz çörək verənini öldürər?

--Qönçə xanım, insan çiy süd əmib. Bu həyatdır. Hər şey olur. Amma biz demirik ki, Səyavuş atanızı öldürüb. Bu sadəcə bir fərziyədir. –Məmmədzadə mülayim səslə dedi.

--Bəs sizcə atamı kim öldürə bilər?

--Biz də bu sualı sizə veririk. Mümkünsə dərindən düşünün və bu qətldə kimdən şübhələndiyinizi deyin - Məmmədzadə stulunu daha da yaxınlaşdıraraq soruşdu.

--Əslinə qalsa şübhələndiyim kimsə yoxdur. Çünki atamın iş həyatı ilə bağlı çox şeydən xəbərsizəm. Lakin...- bir qədər susub gözləri qarşısında baş vermiş hadisəni yadına saldı. – Lakin son görüşlərdən birində fikirli olduğunu hiss etmişdim. Soruşdum ki, nə olub? Dedi ki, işlə bağlı bəzi problemlər var onlarla məşğuldur.

--Sizcə bu nə problem ola bilərdi? – Paşazadə soruşdu.

--Düzünü desəm maraqlanmadım. O da bir söz demədi.

--Atanızın heç düşməni var idi?

--Nə deyim vallah. Ola bilərdi. Axı iş adamı idi. Kimsə də ayağını dartan tapılardı. Lakin elə birini dəqiq deyə bilmərəm. Olsa-olsa Faiq bəyi misal göstərərdim. O zamanlar ailə qurmamışdım. Hər fürsət düşdükcə bizə gələrdi. Öz oğlunu tərifləyərdi. Mən isə onun kimilərindən xoşlanmıram. Acığım tuturdu Faiq bəyin danışığına. Hər dəfə danışanda daha çox acığım tuturdu. İyrənc bir insandır. Atam da ondan xoşlanmırdı. Lakin atam məndən fərqli olaraq xoşlamadığı birinə qarşı kobud hərəkət etməzdi. Əksinə dostundan tanışından fərq qoymazdı.

--Faiq bəy atanızın işlə bağlı tanışıdır?

--Hə. Deyilənə görə atam ondan tikinti materialları istehsal edən fabrikini alıb. O da o vaxtdan atamın tanışı olub. İş bağlılıqları mən bilən qalmamışdı. Atam fabrikin tək sahibdi. Amma yenə də gəlib gedərdi bizə. Məni də bezdirərdi ki, oğlum Fuad belədir elədir. Nəhayət atamın icazəsi ilə tezliklə Səyavuşla evləndik. O da toydan sonra bir dəfə də olsun nə atamın evinə, nə də bizə gəlmədi. Atamdan onu görüb görmədiyini soruşanda atam hər zaman gülərək deyərdi ki, heç gözümə görünmür.

--Sizincə o atanızın düşməni ola bilərdi?

--Məncə hə. Əvvəla fabriki ürəksiz satmışdı. Borcu var imiş banklardan birinə. Bir neçə ay sonra geri almaq istəyəndə də atam satmamışdı. Sonra məni oğlu üçün bəyənmişdi atam verməmişdi. Ona görə. Əslinə qalsa mənim tanıdığım və bildiyim atamdan narazı tək insan yalnız Faiq bəydir. Başqa kimsə gəlmir ağlıma. Bircə onu bilirəm ki, o hər kimdirsə öyrənsəm bu iki əllərimlə boğub öldürəcəm –deyən Qönçə, hər iki əllərini irəliyə uzadıb yumruqlarını birləşdirərək ağladı.

--Qönçə xanım özünüzü ələ alın. İndi qanun var, ədalət var. Qatil mütləq tapılacaq. Buna arxayın olun. – yarı əsəbi halda qarşısında əyləşmiş gözü yaşlı Qönçəyə baxan mayor Eyvazov dilləndi.

--Ananızla atanız necə dolanırdılar?

--Normal. Hər kəs kimi. Necə məyər?

--Biz hər şeyi bilməliyik.

--Atamla anam sevib evləniblər. Hər zaman onları mehriban görmüşəm. Atam anamın bütün arzularını çin edib. Nə arzulayıbsa mütləq yerinə yetirib. Məsələn moda evini atam anam üçün tikdirib. Bu onun anama son Qadınlar bayramı hədiyyəsi idi.

--Qönçə xanım, siz ifadənizi imzalayıb gedin. Hələ ki, lazım olan sualları verdik. Ehtiyac olsa bir daha ifadə verməli olacaqsız. Hələ ki, yaxın vaxt ərzində şəhərdən kənara çıxmayın. İndi isə gedə bilərsiz. - Məmmədzadə əli ilə kabinetin qapısını göstərdi.

Qönçə Eyvazovun ona doğru uzatdığı ifadəsinə yüngülcə göz gəzdirib imzaladı. Kabinetdən çıxmazdan əvvəl yenidən geri dönüb polkovnik-leytenanta:

--Sizdən çox xahiş edirəm. Tapın atamın qatilini. Ona azadlıq haramdır.

--Arxayın olun! Əlimizdən gələni əsirgəməyəcəyik. Qatil mütləq həbs olunacaq.

## *Yeddinci fəsil*

Qönçə çıxar-çıxmaz Qədir əlindəki ifadəni yeni qovluğa qoydu. Polkovnik-leytenant gözucu Hikmətə baxıb nə isə demək istəyirdi ki, qapı döyülərək açıldı:

--Salam! Gəlmək olar?

--Salam, Vəfa xanım! Keçin əyləşin! – Məmmədzadə əli ilə Qönçənin bir dəqiqə əvvəl əyləşmiş olduğu stulu göstərdi.

--Bilmək olar yoldaşım nədən ölüb?

--Qızınız sizə heç nə demədi? - təəccüblənən Qədir soruşdu?

--Qızım elə vəziyyətdə çıxdı ki, bir kəlmə soruşa bilmədim.

--Neçə övladınız var?

--Bir.

--Yoldaşınız Vahid Zaman necə insan idi? – Məmmədzadə Qədirin suallarını ağzında qoyub öz suallarını verməyə başladı.

--İnsan kimi insan idi. Ən gözəl insani keyfiyyətlər vardı onda.

--Yoldaşınızla sizin münasibətiniz necə idi?

--Nə mənada?

--Yəni bir -birinizlə necə dolanırdız?

--Hamı əri ilə necə dolanırsa elə. Mehriban idik. Günümüz xoş keçərdi. Birlikdə əylənərdik. Nəvə arzulayırdıq. Vahid mənim bütün istək və arzularımı həmişə yerinə yetirib. Bircə nəvə arzum qalıb. Onu isə görmədən köçdü həyatdan. – gözləri dolsa da ağlamayan Vəfa xanım stulda belə şux oturmuşdu. Sanki düşmən qarşısında əyilmək istəməyən əsgər idi.

--Sizcə yoldaşınız nədən ölə bilərdi? - Məmmədzadə qarşısında əyləşmiş Vəfa xanıma sınayıcı sual verdi.

--Düşünürdüm ki, bu sualıma cavabı siz verəcəksiniz.

--Bizə sizin düşüncələrinizi bilmək maraqlıdır.

--Vahidin qan təzyiqi vardı. Əsəbiləşəndə təzyiqi ya qalxar ya da enərdi. Ona görə özü ilə dərman da gəzdirərdi. Adı səhv etmirəmsə "E" hərfi ilə başlayırdı. Lakin bu elə də ciddi xəstəlik deyildi ki, ondan ölə. Başqa da səbəb tapa bilmirəm.

--İş bundadır ki, Vəfa xanım, yoldaşınızı öldürüblər. – Bunu deyən Məmmədzadə düşündü ki, Vəfa xanım qəfil aldığı xəbərdən az da olsa

təəccüblənəcək. Lakin qarşısında əyləşmiş qadın o qədər möhkəm görünürdü ki, dolmuş gözlərindəki yaşı belə axmağa qoymurdu. –Siz təəccüblənmədiniz?

--Təəccübləndim. Lakin özümü bura gəlməzdən əvvəl hər bir xəbərə hazır etmişdim. Bilirdim ki, Vahidin təzyiq problemi elə də ciddi dərəcədə deyildi ki, onu öldürə. Odur ki, öldürüldüyünü daha dəqiq düşünürdüm.

--Sizcə onu kim öldürə bilərdi?

--Vahidin özünə düşmən bildiyi kimsə yox idi. Lakin çoxları onu düşmən hesab edirdilər. Konkret olaraq kiminsə adını çəksəm bu o demək deyil ki, Vahidi o öldürüb.

--Orasını bizim ixtiyarımıza buraxın. Qatilin kimliyini aşkar etmək bizim işimizdir. Sizin işiniz isə bizə istintaqda kömək etməkdir – bir az ciddi danışan Məmmədzadə yenidən mülayimləşməyə başladı – Siz kimdən şübhələnərdiniz?

-- Faiq bəydən. Lakin o çoxdandır ki, gəlib getmirdi. Demək olar unutmuşduq da. Amma Vahid ölməzdən üç gün əvvəl bizə gəlmişdi. Qönçənin heç nədən xəbəri yoxdur.

--Niyə gəlmişdi?

--Bilirsinizmi, Vahid vaxtilə həmən Faiq bəyin sahib olduğu fabriki satın almışdı. Onun banka faiz borcları var imiş. Lakin müəyyən müddət keçəndən sonra Vahiddən fabriki geri satmasını xahiş etmişdi. Əslinə qalsa Vahid o fabriki heç istəmədən ürəksiz almışdı. Onun əsas planı maşın satışı ilə bağlı idi. Lakin, biləndə ki, Fabriki satmağını mən istəmirəm. Onda Faiq bəyin son təklifini rədd etdi.

-- Fabrikin satılmasına niyə razı olmadız?- Hikmət Vəfa xanımın sözünü ağrında qoydu.

-- Faiq bəy fabriki elə ucuz qiymətə satmışdı ki, geri almaq üçün də eyni məbləği vermək istəyirdi. Mən də dedim onsuz da o qiymətə fabrik satılmaz. Qoy qalsın. Vahid də mən deyənlə razı oldu. Faiq bəy də başqa yola əl atdı. Dedi sənin bir qızın var, mənim də bir oğlum. Gəl tanış edək bəlkə evləndilər. Qohum olarıq. Bu təklif heç birimizin ürəyindən deyildi. Bizim qızımızın qəlbi oyuncaq deyildi ki, ortalıqda oynadaq. Bu barədə Qönçə də biləndə gülmüşdü. Tez bir zamanda Səyavuşla toylarını etdik. Onsuz da bir-birlərini hələ Səyavuş

əsgərlikdən gələndən sevdiklərini anlamışdıq. Odur ki, nişanlandıqdan dərhal sonra toylarını etdik. Bax beləcə Faiq bəy də bizdən əlini əbədi üzdü. O gecə bizə oğlu ilə gələndə hər ikimiz təəccüb etmişdik. Hətta bir az sərxoş idilər. Faiq iki əli ilə Vahidin yaxasından yapışıb onu hədələməyə başladı.

--Nə dedi? – Məmmədzadə qəfildən yerindən sıçradı.

--Dedi əgər fabriki iki günə mənə satmasan, səni öldürəcəm. Vahid də onunla ağızlaşdı. Vahidə yumruq da atdılar. Dodağı azacıq partlamışdı. Mən də polis çağırdım. Bunu bildikləri an evi tərk etdilər.

--Polis gələndə evdə deyildilər?

--Yox. Gəlib dedim ki, polis çağırmışam. Bu saat gəlirlər. Onda oğlu Faiq bəyin qolundan yapışıb darta-darta apardı. Faiq bəy də getdikcə barmağını yellədə-yellədə bir də dedi ki, iki gün vaxt verirəm. Polis zabitləri gələndə şikayətçi olmadıq. Bunu Vahid istəmədi. Ona görə də heç Qönçəyə də demədik. O atasını çox sevirdi. Əgər bilsəydi ki, atasının dodağı azacıq partlayıb, işini gücünü atıb gələcəkdi. Odur ki, Vahid də qərara gəldi ki, dodağı sağalana kimi, Qönçəni görməyə getməsin.

--Bəs bağ evinə nə zaman getmişdi?

--O hadisədən dərhal sonra səhərə yaxın. Dedi bəzi əşyalarımı hazırla gedib bir neçə gün bağda istirahət edəcəm. O zamana kimi də dodağım sağalar. Biz də Qönçənin suallarını cavablandırmaqdan qurtularıq. Bir ədəd idman çantası hazırladım. O sabah çıxdığıdır ki, hələ də qayıtmayıb.

--Demək sonuncu dəfə yoldaşınızı bağ evinə yola salarkən görmüsüz?!

--Bəli. Avqustun 2 sində səhər tezdən. İdman geyimində getdi. Öz maşını ilə. Orada qaldığı vaxtlarda mənimlə əlaqə saxlayırdı.

--Bəs siz niyə getmədiz?

--Mənim “Moda evi”ndə bəzi təxirə salınmaz işlərim var idi. Ona görə yalnız telefonla əlaqə saxlayırdıq. Sonuncu dəfə avqustun 4-ü danışdıq. Dedim səhər gəlmək istəyirəm. Dedi nə zaman istəsən gələrsən.

--Bəs niyə getmədiz? –Hikmət soruşdu.

--Tezdən dükana getməli oldum. Çünki işçilərdən biri zəng vurdu ki, Vergi Nazirliyindən bəzi şəxslər gəliblər. Mənimlə görüşmək istəyirlər. Odur ki, bağa getməyi günortadan sonraya qərara almışdım.

--Vəfa xanım, Səyavuşla yoldaşınızın münasibəti necə idi?

--Ata ilə oğul necə münasibətdə olurlarsa onlar da elə. Mehriban idilər.

--Səyavuşu nə vaxtdan tanıyırsınız?

--Uşaqlığından. On iki, on üç yaşı olardı. Vahid bazarda rast gəlmişdi ona. Bağda görməli bəzi işlər üçün işə götürdü. Əslində isə Vahid yetimlərə əl tutmağı sevərdi. Bunu onların mənliyinə toxunmadan etmək istəyirdi.

--Necə yəni?

--Vahid yetim uşaqları guya işə götürürmüş kimi davranırdı. Onlar da həvəslə razılaşırdılar. Əks halda tanımadıqları birindən qəti pul götürməzdilər. Odur ki, Səyavuşa da az iş müqabilində xeyli pul verirdi. Hələ on ildir ki, şəhərin 1 saylı uşaq evinə gizlin yardım edir. Bunu mətbuatdan da, yaxınlarımızdan da Səyavuşdan da, Qönçədən də gizli edirdi. Tək mən bilirdim.

--Demək onun qazancının müəyyən hissəsi yetimlər evinə yardıma gedirdi. – Polkovnik-leytenant Vəfa xanımın dediklərini təkrarladı. – Siz Vahid bəyə sonuncu zənginizi nə zaman etmişdiniz?

--Avqustun 4-ü axşam idi. Saat haradasa 10-11 arası olardı. Xarici kanaldan bədii filmə baxırdım. Birdən darıxdım.

--Bəs sizdən başqa evdə kimsə var idi?

--Əlbəttə! İşçilərin ikisi də evdə idi.

--Sizin yoldaşınıza zəngini onlar eşitmiş olardılar?

--Bilmirəm bunu niyə soruşursuz, amma onu deyə bilərəm ki, işçiləri ikisi də qapı güdüb, söz aparıb gətirməyi xoşlamadığımı yaxşı bilirlər.

--Bizə maraqlı odur ki, yəni sizin həmin saatlarda evdən çıxıb çıxmadığınızı təsdiqləyəcək kimsə var ya yox?!

--Əgər lazım gələrsə onları da sual-cavab edə bilərsiz. Telefondakı danışığımızı eşidiblərsə də mənim bundan xəbərim yoxdur.

--Bəs bədii film bitəndən sonra nə etdiz?

--Heç bir şey. Əslinə qalsa filmə axıradək baxmağa səbrim çatmadı. Odur ki, başqa kanalları gəzməyə başladım. Hansısa kanalda xalq mahnısı oxuyurdular. Bir parça da ona qulaq asdım. On dəqiqə sonra yerimə uzanıb yuxuya getdim.

--Təxmini yatdığınız vaxt neçə olardı.

--Qulaq asın, mən onu öldürə bilməzdim. Əvvəla ona görə ki, onu çox sevmişəm. Tək balamın atasıdır. Hər istəyimi canla başla yerinə yetirib. Qəti ondan narazı olmamışam. Bir də ki, evdə olduğum halda onu necə gedib öldürə bilərdim? Bundan nə qazanacaqdım ki?

--Sualımıza cavab verin! – Məmmədzadə ciddi nəzərlərlə baxıb soruşdu.

--12-yə 10 dəqiqə işləyirdi ki, yerimə uzandım. Saat yataq otağımda düz gözlərimin önündədir. Ona görə dəqiq deyirəm.

--Bizim vəzifəmiz qatili tezliklə tutub həbs etməkdir. Bunun üçün kim olur olsun biz ondan şübhə edirik. İndi isə ifadənizi diqqətlə oxuyub, imzalayın.

--Gedə bilərəm?

--Əlbəttə! Lakin yaxın zaman ərzində şəhəri tərk etməsəniz yaxşı olar. Lazım ola bilərsiz.

--Yaxşı, sağ olun! – deyən Vəfa xanım leytenant Nəsirovun ona doğru uzatdığı ifadəni gözucu nəzərindən keçirib imzalayaraq getdi.

Vəfa xanımın otağı tərk etməsindən iki saniyə sonra Polkovnik-leytenant əlini qaldırıb stola çırpdı.

--Qatilin izində düşmüşük.

--Mən də belə düşünürəm! - Eyvazov başını tərpədərək Hikmətə baxdı.

--Asif bəy, icazənizlə fikrimi bildirim!

--Buyur!

--Əldə etdiyimiz yeni məlumatlara əsaslanaraq onu deyə bilərik ki, cinayət törədilmiş əraziyə yaxın yerdə aşkar olunmuş

46 ölçülü ayaqqabı izi tamamilə Səyavuş bəyin ayaqqabı ölçüləri ilə uyğun gəlir. Bir tərəfdə də Faiq bəyin Vahid bəyə etdiyi hədəni xatırlayaq. Vəfa xanımın dediyinə inanarsaq onda belə çıxır ki, Faiq bəy fabriki geri satması üçün Vahid bəyə iki günlük möhlət verib. Əks halda onu öldürəcəyi ilə hədələyib. Mən belə düşünürəm ki, Səyavuş və Faiq bəy oğlu ilə istintaqa cəlb olunmalıdırlar.

--Fikirlərinlə tamamilə razıyam. –Məmmədzadə ayağa qalxıb pəncərə önünə keçdi. Ani sükutdan sonra kiçik masa arxasında əyləşən arıq uzun ağbəniz oğlana baxaraq dedi – Leytenant Nəsirov Səyavuş dəhlizdədirsə çağırın ifadə versin.

--Baş üstə!

Bir dəqiqədən sonra Nəsirov Səyavuşla otağa daxil oldu.

--Keçin əyləşin Səyavuş bəy! – Polkovnik-leytenant yarı kinayəli dedi.

--Mənə Səyavuş deyə bilərsiniz. Rəsmiyyətdən  xoşum gəlmir.

--Olsun Səyavuş. Özün haqqında qısaca məlumat verə bilərsən?

--Adım Səyavuş, soyadım Ömərov, ata adı Müşfiqdir. Orta təhsilliyəm. Hal-hazırda yaxın tanışın Fabrikində nəzarətçi işləyirəm. Ailəliyəm.

--Bu qədər kifayət edər. İndi isə bizə avqustun 4-ü gecə 10-11 radələrində harada olduğunu de. – Məmmədzadə gözlərini Səyavuşun ağzına zilləyib diqqətlə qulaq asmağa başladı.

--Cümə axşamına düşür? – öz sualına özü də cavab verməli oldu - Hə, həmin günü cümə axşamı idi. Mənim gecə növbəm var idi. İşdə olmuşam.

--Saat neçədən-neçəyə kimi?

--Saat 9 dan 9-a kimi.

--Sizdən başqa növbədə duran olub?

--Yox. O gecə mən tək idim.

--Deməli sənin  saat 10-11 arası fabrikdən çıxıb çıxmadığını görən olmayıb?

--Mən heç çıxmamışam ki, kimsə də görə. Bütün gecəni narahat olmuşam. Səhərə kimi gah fabrikin başına dolanmışam, gah divanda uzanıb televizora baxmışam, gah da güllərə qulluq etmişəm.

--Səyavuş, ayaqqabı ölçün neçədir?

--Niyə soruşursunuz?

--Ona görə ki, Vahid bəyin bağ evinin hasara yaxın hissəsində palçıq üzərindən ayaqqabı izi tapılıb. Biz əminik ki, bu qatilə məxsusdur.

--Demək istəyirsiniz ki, Vahid əmini mən öldürmüşəm? Yəni məndən də şübhə edirsiz?

--Sualıma sualla cavab vermə. De görək ayaqqabı ölçün neçədir?

--46-dır. Amma mən ona qıymaram. Öldürmək qırağa dursun. Mən heç ona əl də qaldıra bilmərəm. Hörmətim vardı ata kimi. Məni, qardaşımı oxudub, əlimizə sənət verib. Qızını istəmişəm yox deməyib. Siz nə danışırsınız?

--Sakitliyə riayət edin! – Eyvazov ciddi şəkildə dedi.

--Məgər tapdığınız ayaqqabı izində bilinmir ki, neçə ölçülü ayaqqabıdır? Tutuşdurun da. Mənim ayaq ölçümdən az adamda rast gəlmək olur. Əminəm ki, orda 44-dən yuxarı ölçü olmaz.

--Biz bu suala cavab tapmışıq. Orda səninki kimi 46- ölçülü ayaqqabı izi tapılıb.

--Necə? Onda bu bir təsadüfdür. Başqa cür ola da bilməz.

--Şahidin olsaydı bəlkə də işimiz çətin olardı. Amma sən həmin gecə fabriki tərk edə də bilərdin, Vahid bəyi öldürə də bilərdin. Biz sənin quru sözlərinə inana bilmərik.

--Nə edim indi mən? Bir şey ki, indi sözə inam da qalmayıb. Bəs necə inandırım sizi ki, o gecə həmin vaxtda da, ondan sonra da səhərə kimi fabrikdən bayıra bir addım da çıxmamışam.

--Sonuncu dəfə Vahid bəyi harada və necə görmüsüz? – Mayor Paşazadə qəfildən soruşdu.

--Bir həftəndən də çox olar. Dəqiq gününü xatırlamıram. Dedi ki, günortadan sonra tək məni sahildəki bağ evində gözləyəcək.

--Getdin? Niyə tək?

--Getdim. Tək getməyimin səbəbi isə onun Qönçənin ad gününə etmək istədiyi sürprizlə bağlı idi. Məsləhətləşmək istiyirdi.

--Səninlə?

--Hə! Evdə onun kabineti var. Oturduq orda. 2-3 saat danışdıq. Qəti qərara gəlib birlikdə şəhərə qayıtdıq. Evin yaxınlığında maşından düşəndə tapşırdı ki, Qönçəyə heç bir söz deməyim. Mən də demədim.

--Sürpriz nə idi?

--Həmin gün məndən onun nə arzuladığını soruşdu. Dedim bir ildir maşın istəyir. Pulum kifayət etmir. İki aya ancaq ala biləcəm. O da çek yazıb pulun qalan hissəsini verdi. Həmin günün səhəri gedib pulları bankdan aldım. İstəsəniz bankdan maraqlana bilərsiniz. Onda günü də dəqiqləşər.

--Bəs sonra?

--Sonra da özünün ona nə hədiyyə edəcəyini düşünməyə başladıq. Mən də dedim ki, heç əziyyət çəkməsin. Maşını sizin aldığınızı deyərəm. O da narazı oldu. Dedi bircə qızım var. Ona da elə hədiyyə etməliyəm ki, nə şiş yansın nə kabab.

--Bunu  nə mənada deyirdi?

--Deyirdi ki, Qönçəyə böyük hədiyyə verəcəyəm. Elə bir hədiyyə ki, ondan qəti etiraz edə bilməyəcək.

--Hədiyyəsi nə ola bilərdi?

--Vallah yalan niyə deyim. Dedi ki, fabriki onun adına keçirəcək.

--Hansı fabriki? – Məmmədzadə stulunu daha da irəliyə çəkib maraqla soruşdu.

--Hansı olacaq?! Tikinti materialları istehsal edən fabriki deyirəm.

--Bunu birdən birə niyə edəcəkdi axı? – Eyvazov təəccüb dolu baxışlarla soruşdu.

--Bilmirəm... Bəzən insan öləcəyini hiss edir. Deyirəm bəlkə onun da ürəyinə nə isə damıb?

--Ürəyinə nə dama bilərdi? Yağış, qar, yoxsa dolu? – kinayəli halda əllərini havada yellədərək danışan Polkovnik-leytenant ayağa qalxdı. – İndi məlum oldu.

--Nə?- Səyavuş təəccüblə soruşdu.

--Nə olacaq? Əlbəttə ki, sənin qayınatanı nəyin üstündə öldürdüyün məlum oldu. Ə-ə-ə ..Sən bizi ələ salırsan? Səni elə hala qoyaram ki, dəymişin dura-dura kalın tökülər.

--Mən nə dedim axı? – bir daha təəccüblənmiş Səyavuş soruşdu.

--Kişisənsə düzünü de də. Kişi kimi  de ki, mən öldürmüşəm. Biz də bilək də işimizi.

--Mən niyə yalandan boynuma götürməliyəm ki?

--Bizi ələ salmısan hə? Sən öl səni - əsəbi halda iki əli ilə Səyavuşun yaxasından yapışıb yuxarı dartaraq -  Öz çörək verəninə etdiklərin az deyil, hələ üstəlik bizi də axmaq yerinə qoymusan?!

--Özünüzü ələ alın. – bir əli ilə Məmmədzadənin qolundan tutub, digər əli ilə Səyavuşun yaxasını boşaltmağa çalışan Eyvazov dilləndi.

--Mən heç vaxt yalan danışmaram. Kişi kimi sözümü dedim. Onu mən öldürməmişəm.  Mənə böhtan atmayın.

--Onda de görək həmin gecə harada olmusan?

--Dedim də fabrikdə.

--Gördün? Sənin gecə saat 10-11 arası orda olduğuna subutun yoxdur. Şahidin yoxdur. Qətl yerində ayaqqabının izi tapılıb bundan artıq nə istəyirsən? Üstəlik də yoldaşının fabrik sahibi olmağı. - Mayor Eyvazov yenidən stulda əyləşdi.

--Vallah da, billah da mənim günahım yoxdur. Öldürməmişəm onu. Necə qıyardım axı? – Səyavuş boğuq səslə dilləndi.

--Bunu dəqiqləşdirmək üçün ayaqqabınızı bizə verməlisiniz - Mayor Paşazadə təmkinlə dedi.

--Necə yəni?

--Yəni ki, ayaqqabınızı verəcəyik ekspertizaya. Onlar da tapılmış ayaq izləri ilə sizin ayaqqabınızın alt hissəsinin bir-birinə uyğun olub olmadığını müəyyən edəcəklər. Əyər uyğun gələrsə bu o demək olur ki, siz Vahid Zamanı qətlə yetirmisiz.

--Onda alın bu da ayaqqabılarım. –Səyavuş tələsik ayaqqabılarını çıxarıb Hikmətə ötürdü. – Göndərin ekspertizaya. Mən müqəssir deyiləm.

--Bu gecəni burda qalmalı olacaqsan. Zəng et evə nigaran qalmasınlar. – Paşazadə ayaqqabıları iri torbaya salıb, barmağı ilə masanın üzərindəki şəhər telefonunu göstərdi.

--Yaxşı...- Səyavuş telefonun dəstəyini qaldırıb öz ev nömrəsini yığdı. –Alo? Alo? Salam Qönçə. Mən bu gecə burda qalacam. Sən nigaran qalma. Səhər hər şey aydınlaşsın gələcəm. Qapını kimsəyə açma. Vəfa xala da bizdə qalsa yaxşı olar. Dedim axı, nigaran qalma. Hər şey yolundadır. Birlikdə qatili tapacıq. Sağ ol. –Dəstəyi yerinə asıb üzünü Məmmədzadəyə tutdu - Sizi qınamıram. Vəzifənizi yerinə yetirirsiniz. Bəlkə mən də sizin yerinizdə olsaydım eyni hərəkət edərdim. Bircə onu bilin ki, mən Vahid əmini öldürməmişəm. Öldürə də bilməzdim. Siz burada məni qatil hesab edirsiniz. Əsil qatil isə rahat yatağında şirin yuxusunu görür.

--Aparın içəri. –Məmmədzadə arxaya çevrilmədən əmrini verdi.

Bir dəqiqə ərzində Leytenant Nəsirov Səyavuşu kameraya apardı. Artıq hava qaralmışdı. Hikmət Qədirin əsnədiyini görüb, gülümsədi.

--Deyəsən çox yorulmusan?

--Hə! – üzünü Məmmədzadəyə tutub – Siz nə düşünürsünüz?

--Heç nə! Heç nə düşünə bilmirəm. Səyavuşa inansaq belə çıxır ki, bu qətli başqası törədib. Özü də elə qətiyyətlə ayaqqabılarını verdi ki, az qalıram inanım. Əyər səhər ekspertlər təyin etsələr ki, Səyavuşun ayaqqabısı qatilin ayaqqabısına uyğun gəlmir, işimiz daha da uzanır.

--Səyavuş o qədər ağıllı birinə bənzəmir. – Paşazadə dilləndi. – Mən belə düşünürəm ki, qatil hər kimdirsə çox bic adamdır. Biz ağ vərəqləri, yerdə tapılmış torpaq parçasını unutmuşuq.

--Yox unutmamışıq. Onların ekspertiza cavablarını səhər təhvil verərəm. – Eyvazov qarşısındakı qələmi barmaqları arasında fırladaraq dedi. – Tezdən

Səyavuşun işlədiyi fabrikə gedib müqaisə üçün torpaq parçası götürərəm ki, ekspertlər hadisə yerində tapılmış torpaqla tutuşdursunlar.

--Yaxşı gedin dincəlin. Səhər burada görüşərik. –Məmmədzadə yorğun sələ dedi.

--Oldu Asif bəy. Sabahadək! – Mayor Eyvazov və Mayor Paşazadə kabinetdən çıxdılar.

## *Səkkizinci fəsil*

Kabinetində tək qalan polkovnik-leytenant Məmmədzadə fikirli halda divana yaxınlaşdı. Havanın qaralmağına baxmayaraq evə getmək istəmirdi. Bilirdi ki, onu gözləyən yoxdur. İki həftədir ki, yoldaşı Qumru xanım uşaqlarla birlikdə yay tətilini keçirmək üçün gözəl rayonlardan birinə istirahətə gediblər. Bəzən Məmmədzadə özü də onların yanında olmaq istəyir, lakin bilir ki, qarşısındakı cinayəti mütləq açmalıdır. İstirahət etməyə isə hər zaman vaxt tapılar. Görəsən bu hadisəni belə qəlizləşdirən məqam nədir? Yəni qatil doğurdanmı inanırdı ki, bunun intihar olduğunu düşünəcəyik? Ya o ağ vərəqlər? Bunlar nə deməkdir axı? Vahid bəy Faiq bəyin qurbanı ola bilərdimi? Bəlkə də... Qatilə lazım olacaq nə vardı Vahid bəydə? Fabriki? Var dövləti? Yoxsa ölümü? Kim qazandı onun ölümündən? Qönçə sevimli atasını itirdi. Vəfa xanım sadiq yoldaşını-amma o Qönçəyə nisbətən soyuqqanlı görünürdü. Səyavuş ata bildiyi insanı itirsə də qazandığı da oldu. Belə çıxır ki, fabrikin idarəsi Səyavuşla Qönçəyə qalır. Bunu dəqiqləşdirmək lazım gələcək. Faiq bəy də qazanır. O da Vahid bəyi öldürərkən fabriki öz adına keçirəcək sənəd imzalatdıra bilərdi. Hansı ki, əlimizdə o vərəqdən yalnız həriflərinin izi qalıb. Başqa hansı sənəd ola bilərdi ki, Vahid bəy son nəfəsində yazıb imzalaya? Deyəsən iş getdikcə aydınlaşmağa başladı. Bəs onda tapılan ayaqqabı izi? Əyər o doğurdan da qatilindirsə belə çıxır ki, qatil qapıdan deyil hasardan aşaraq gəlmiş və getmişdir. Evə də kabinetin pəncərəsindən daxil ola bilərdi. Kabinetin birinci mərtəbədə olmasına baxmayaraq ev kürsülüdür. Elə buna görə də həmin otaqda eyvan da vardı. Çox güman ki, qatil məhz eyvandan daxil olaraq girmiş və oradan da çıxmışdır. Qatilə lazım olan təkcə Vahid bəyi öldürmək deyil, hətta

sənədi onun öz əli ilə yazdırmaq, imzalatdırmaq idi. Səyavuş yalan danışana bənzəmir. Lakin fabrikdən rahat çıxıb Vahid bəyi öldürməyə də, geri qayıtmağa da kifayət qədər zamanı vardı. Onu görə biləcək kimsə yox idi.

Məmmədzadə cəld ayağa qalxıb masanın üzərindəki şəhər telefonuna əl atdı. Bir neçə rəqəmi daxil etdikdən sonra dinləməyə başladı.

- Alo?
- Salam, Xatirə xanım!
- Salam, Asif məllim. Nə təərisiniz? Qumru xanım nə təəridir?
- Çox sağ olun yaxşıdılar. Sizlərə salam duası var.
- Sizlər sağ olun. Nə əcəb sizdən?
- Qədirə deyiləsi sözüm vardı. Gəldisə dəstəyi ona verin.
- Elə indi gəlib. Bir dəyqə....- ani olaraq eşidilən xışıltını Qədirin səsi pozdu. – Alo?
- Eyvazov sənə sözüm var. Diqqətlə qulaq as.
- Buyurun!
- Səhər tezdən iki nəfər polis işçisi ilə Faiq bəyin evinə gedirsən. Oğlunu və özünü təcili bura gətirirsən. Torpaq işini isə uzatma. Onları məni təhvil verər verməz gedib fabrikin torpaq ərazisindən analiz üçün nümunə alarsan. Mənə elə gəlir ki, ekspertlər qətl yerindən tapılmış torpaqla fabrikin ərazisindəki torpaqda uyğunluq tapacaq.
- Sizcə qatil Səyavuşdur?
- Mən buna əmin deyiləm. Hələ ki, qarşıda Faiq bəyin ifadəsini almaq durur. Deyəcəyim bu qədər. Sağ ol.
- Gecəniz xeyrə qalsın!

Dəstəyi yerinə asıb, stulunu altına çəkdi. Bu an xatırladı ki, dostu Murad Muradlıya yazacağı məktubu yarımçıq halda qoyub.Onu davam etməli və tezliklə göndərməli idi. Masadakı noutbukunu yandırdı. Az bir zamanda açdığı pəncərədə nəhayət ki, yarımçıq məktubun tapdı. Əvvəldən oxumağa başladı:

*"Əziz dostum Murad! Necəsən? Son məktubunda yeni bağladığın cinayət işindən yazmısan. Çox maraqlı və qaranlıq məsələyə oxşadı. Ən sonda biləndə ki, qətli məhz erməni mənşəli oğulluğu törədib tamamilə təəccüblənmədim. Bu ermənilərin xislətinə uyğundur. Bunların təbiətində qəddarlıq, rəzillik, nankorluq həmişə özünü göstərəcək.*

*Yaxşı indi isə sənin suallarına cavab yazım. Dedin ki, son araşdırdığım cinayət işi ilə bağlı nə isə yazım. Baş üstə! Əvvəla ondan başlayıb ki, hadisə hələ bu səhər məlum olub. İlk görünüşdə intihar səhnəsinə bənzəyir. Lakin mən intihar olduğuna inanmıram. İş ondadır ki, ölən şəxs 50 yaşlı məşhur iş adamı*

*Vahid Zamandır. Bağ evində iş masası arxasında üz üstə stol üstündə ölmüşdür. Sol əlində Revolver markalı odlu silah vardı. Sol gicgahdan aldığı güllə yarasından ölmüşdür. Masanın üzərində boş ağ vərəq və mərhumun sağ tərəfində vərəq üzərində qələm vardı. İş otağında ayaq altına salınmış xalçanın üzərində, dəqiq qeyd etsəm tam mərhumun sol tərəfində yerdən qum tapılmışdı. Hal hazırda isə ekspertizanın cavabını gözləyirəm."* –məktubu oxuyan kimi son cümləsini ləğv etdi. Beləliklə, ardını yazmağa başladı. – *Əziz dostum Murad! Ekspertizanın nəticəsinə əsasən məlum olmuşdur ki, Vahid bəyin sol əlində barıt izi aşkarlanmayıb. Qarşısındakı vərəq sayı əslində üç ya da artıq olubmuş. Bunu bizim aşkarladığımız üst vərəqdəki qələm izinin dərinliyi sübut edir. Orada məhz bu həriflərin izinə rast gəlinir: " M,s,a,m,l,n,F,o. Bir də ən dəqiq bilinən iz Vahid bəyin şəxsi imzasıdır. O ölümdən əvvəl nə isə vacib sənədə qol çəkib. Vahid bəy bağ evinə üç gün əvvəl gedibmiş. İki ay əvvəl Faiq adlı biznesmendən fabrik almışdı. Lakin Həmin sahibkar Fabriki geri istəmişdi. Vahid bəy də yeganə qızı olan Qönçəyə doğum günü hədiyyəsi olaraq fabriki verəcəkmiş. Faiq bəy oğlu Fuad ilə Vahid bəyin ölümündən üç gün əvvəl evinə gələrək hədə qorxu gəlmiş, fabriki iki günə geri satmağını tələb etmişdir. Bu mübahisə nəticəsində Vahid bəy dodağından zərbə də almışdır. Hadisə yerində həmin yaranın izinə rast gəlinmişdir. Vahid bəyin dodağı sağ tərəfdən azacıq partlamışdı. Hasar kənarından da 46 ölçülü ayaqqabı izi aşkar etdik. Fərziyyəmizə görə iz yenidir. Və yalnız qatilə məxsus ola bilərdi. Vahid bəyin kürəkəninin də ayaqqabı ölçüsü 46-dır. Hadisə baş verən gecə Səyavuş fabrikdə növbədə olduğunu bildirir. Lakin onun gecə saat 10-11 arası fabrikdə olub olmadığını təsdiqləyəcək şahid yoxdur. Ekspertiza ayaqqabı altının cizgilərini hadisə yerindən tapılmış ayaqqabı izinin cizgiləri ilə müqayisə edəcək. Fabrik ərazisindən alınan torpaq nümunəsi ilə də qətl baş vermiş kabinetdən aşkar olunmuş torpaq parçası ilə müqayisə olunacaq. Səhər Faiq bəy də istintaqa cəlb olunacaq.*

*Hələlik ki, bu qədər. Hadisə ilə bağlı fikirlərini bilmək maraqlı olardı. Özünə yaxşı bax.*

*Xoş istirahətlər arzusu ilə dostun Asif Məmmədzadə!*

Bununla da Polkovnik-leytenant məktubunu yekunlaşdırdı. İki dəqiqə ərzində şəxsi elektron poçtunu açıb məktub göndər yazısını basdı. Açılmış yeni pəncərədə yazmış olduğu və sənədləşdirdiyi məktubunu həmin pəncərə üzərinə yapışdırdı. Ünvan sahibi yerinə isə Polkovnik-leytenant Murad Muradlının elektron ünvanını qeyd etdi. Beləliklə, internetin bacardığı tam sürətlə

məktubunu sahibinə yolladı. Bu an yanağına təbəssüm qondu. Düşündü ki, nə yaxşı ki, kompüteri vaxtında öyrənib və hal -hazırda da internetin bacarığından işində belə  istifadə edə bilir.

## *Doqquzuncu fəsil*

“Ey Ulu Tanrı, mənə bir yol göstər! Məni ümidsiz qoyma! Atamın qatilini ifşa etməyə kömək ol. Sevimli quluna qarşı törətdiyi cinayəti cəzasız qalmasın. Səyavuşun bir günahı varsa bağışla. Qəlbimdəki şübhələrdən məni azad elə. Amin!”

Qönçə anasından gizli öz otağına çəkilib, dua edirdi. Bununla özünü bir qədər yüngülləşmiş hiss etməyə başladı. Səyavuşdan aldığı zəngdən sonra hələ də özünə gələ bilmirdi. Niyə axı onu saxlatdılar. Axı günahı olmayan birinin orada nə işi ola bilərdi. Amma yox, Səyavuş atama qıymazdı. Əli gəlməzdi. Heç bu barədə düşünməyə belə cəsarət etməzdi. İlahi, bu nədir? Sanki içimdə şeytan gəzir. Fikirlərimə əngəl olur. Normal düşünə bilmirəm. Bunlar sadəcə istintaqa görədir. Səyavuşun polis idarəsində gecələyəcəyinə başqa açıqlaması ola bilməzdi. Niyə də olsun ki? Məgər Səyavuş qatildir? Yox inanmaram. İnana bilmərəm. Nə olur olsun Səyavuşa olan güvənimdən, inamımdan dönmərəm. Dönə də bilmərəm.

- Qızım, gəlirsən? – Mətbəxdən Vəfa xanımın səsi eşidildi.
- Bu saat gəlirəm.

Ayağa qalxıb gözlərinin yaşını əllərinin içi ilə sildi. Güzgünün qarşısında durdu. Bir anlıq özünə nəzər yetirib daxili bir səslə dedi: “Sən hər şeyə dözəcəksən! Həqiqətin tezliklə aşkar olması naminə dözməlisən! ” Bir daha gözlərinin altına diqqətlə baxıb otaqdan çıxdı.

- Hardasan ana?
- Mətbəxdə. Badımcan, qızartmışam. Qatıq da var. Əllərini yu süfrəyə əyləş.
- Bu saat gəlirəm. – deyərək əlini mətbəxdəki televizorun pultuna uzatdı. – Görəsən bizdən nəsə göstərirlər?
- Gəl əyləş yemək soyumadan yeyək. – Vəfa xanım öz yerində əyləşib yeməyini boşqabına çəkdi. Sanki dünən sevimli həyat yoldaşının ölüm xəbərini alan insan o deyildi.

Bir neçə kanal dolaşdıqdan sonra dalğanı bir milli kanal üzərində saxladı. Orada idman xəbərləri gedirdi. Qönçə anasının yanında əyləşib televizora baxaraq çörəyini yeməyə başladı. Atasının yoxluğuna inana bilmirdi. Lakin

ağlamasın deyə, anasına bir dərd daha verməsin deyə özünü televizora baxan kimi göstərirdi.

Vəfa Vahidi çox sevirdi. Lakin Vəfanın xasiyyətindəki soyuqluq onların aralarındakı səmimiyyətə də az təsir etməmişdi. Bir dəfə belə olsun Vahid onun ürəkdən sevindiyini və ya ürəkdən ağladığını görməmişdi. Nə evliliyə razı olduğu gün, nə Qönçə doğulan gün, nə illərlə qəbul etdiyi hədiyyələri aldığında. Bir dəfə belə olsun. Vəfa əslində bu soyuqluğundan bezmişdi. Amma əksini də bacarmırdı. Onun da xəmiri belə "yoğrulmuşdu". Ana olduğu gün, balasını ilk qucağına aldığı an nəyə desə dəyərdi. Lakin həkiminin dediyi o xəbərdən sonra get gedə "daşlaşdı". "Siz bir daha ana ola bilməyəcəksiz.". Vəfa o günlərdə o qədər ağlamışdı ki, daha bir dəfə belə olsun sevincini ya kədərini göz yaşları ilə biruzə verə bilmirdi. Balasının gözlərinə baxıb ürəyinin dərinliyində onu nə dərəcədə çox sevdiyini hiss edirdi. Bu sevgi onun qəlbini isidirdi. Otaq qonşuları da onun belə soyuq olmasını anlamaya bilməmişdilər. Halbuki ana olmaq arzusu ilə yaşayan o qədər qadın vardı ki. Vəfanın isə yeqanə balası olacaqdı bu körpə. Buna da şükr edərək yaşamaq lazım idi. Vahid Vəfaya arzulaya bildiyi nə vardısa almışdı. Lakin nə fayda xoşbəxtlikdən uçacaq insana bənzəmirdi. Onun sevinci içində kədəri içində idi. Çox "soyuq" xarakterə malik idi. Vahid ona "Moda evini" hədiyyə edəndə də sevinmişdi. Əlbəttə ki özünə məxsus şəkildə...

- Ana, bir şey soruşmaq istəyirəm. Lakin düzünü deyəcəyinə söz ver.
- Əlbəttə. O nə sözdür. Soruş görək nə soruşacaqsan?!
- Ana mənə de görüm atam niyə sahildəki bağa getmişdi? Küsülü idiz?
- Bizim küsülü qaldığımızı nə zaman görmüsən? Özü iki-üç gün şəhərdən uzaq olmaq istədi. Mən də həmin günü gedəcəkdim. Lakin işim çıxdı. Bilsəydim ki, o gecə onu kimsə öldürəcək qəti işə getməzdim. Yanında olardım.
- Ana. Sən orda olsaydın qatil bəlkə də səni də....- Qönçə sözünün ardını deyə bilməmiş ağlamağa başladı.
- Yaxşı, Qönçə! Ağlayıb özünü yorma. Bil ki, hər insanın alın yazısı var. Qisməti var. Taleyi var. Yaşamaq lazım olduğu qədər yaşayır. Atanı nə qədər sevdiyimi bilirsən. Mən sənin kimi ağlayıb sızlayıb rahatlaşa bilmirəm. Amma ən azından bilirəm ki, bu bir qismətdir. Ölüm hələ son deyil ki. Ölüm əbədi həyatın qapısıdı. Hər kəs öləcək. Kim dünyanın ətəyindən tutub yaşayıb ki? Sən də gəl ürəyini sıxma. Bəzən soyuqqanlı olmaq da lazımdı.

Anasının sözlərini dinləsə də ondan fərqli olaraq göz yaşını silmədən ağlayırdı. Elə bu zaman Qönçənin mədəsində ağrılar baş qaldırdı. Özünü saxlaya bilməyib cəld vanna otağına keçdi. Yediyi yeməkləri qaytardıqdan sonra rahatlaşdığını hiss etdi.

- Qönçə, özünü necə hiss edirsən?
- İndi yaxşıyam. Narahat olma.
- Yəqin soyuqlamısan. Soyuq su içmisən?
- Yox. Nədənsə iki gündür beləyəm. Səhər Səyavuşla həkimə getmək istəyirdim. Alınmadı.
- Mən səni sabah apararam.
- Yaxşı. – Bir anlıq susan Qönçə yenidən yemək süfrəsinin arxasına keçib əyləşdi.

Bu zaman ev telefonu zəng çaldı. Qönçə dəstəyi götürdü:
--Alo?
--Salam, qızım. Necəsən? Allah rəhmət etsin.-danışan Səyavuşun anası idi.
--Ölənlərinizə rəhmət Süsən xala. –kədərli halda.
--Özünü üzmə qızım, ölümlü dünyadı. Kimləri aparmadı ki...
--Düzdü. Amma onun yoxluğuna inanmağım gəlmir. Sanki qorxulu yuxudayam ayıla bilmirəm.
-- Bu da keçəcək qızım. Zamanla bir közərən şam tək qalacaq ürəyinin küncündə. Xatırladıqca o şam səni yandıracaq içindən. Mən bilmirəmi bu dərdi. Az insan itirmədim bu yaşımacan.
-- Çingiz necədi?- Qönçə Səyavuşun qardaşını nəzərdə tutdu.
--Yaxşıdı qızım. Onun şad xəbərini deyəcəkdim Səyavuşa ki, qəfldən Çingiz gəldi ki, bəs ana, Vahid əmi ölüb.
-- Bəs o hardan bilib?
-- Ona da əmin deyib qızım. Zəng ediblər bura əminə. O da eşidəndən yazıq hala düşüb. Axşam Çingizlə getdik onlara. Nina yaxşı qarşıladı bizi. Gürcü qızıdı da adətimizi hardan bilsin. Hə nəsə ... Sözün qısası əmin xəbəri alandan əriyib şam kimi. Elə yazığım gəldi ona ki. Dünən nə qədər etdim sizə düşə bilmədim. Xətt qırılırdı.
-- Ola bilər. Siz axı Tbilisidən zəng vurursuz. Bəs Əmi gəlməyəcək?
--Bu gecə çıxasıdı. Dedi Vəfa xanımla danışıblar. Sabah yas olacaq. Dedim mən də gəlim. Çingiz qoymadı ki, ayaqlarının müalicəsini yarım qoyma. Çingiz də əminlə gələcək.
-- Gəlsinlər. Sənə kim baxacaq ay Süsən xala?
--Nina baxar. Onsuz da bir ehtiyacım yoxdu. Amma yenə də təklikdənsə elə yaxşıdı. Səyavuş hardadı?
--O polis məntəqəsindədi. İstintaq gedir.
--Nə istintaq ay bala?

--Bəs atamı kimsə öldürüb deyə cinayət işi açıblar.
--Boyy... başıma xeyir bu nə danışır? Ay bala əmin bilsə dəliyə dönər.
-- Siz deməyin. Onsuz da gələndə biləcək.
--Hə düzdü. Bəs Səyavuşun orda nə işi?
--O da kömək edir bəzi məsələlərdə.
--Can,yetimim can.. Yaman çox sevərdi Vahid qardaşı. Yaman. Allah köməyi olsun balalarıma gün ağladı. Öz balası kimi ikisini də oxutdu. Bu deyy Çingizi də qardaşına tapşırdı. Birlikdə necə yola gedirlər bir görsən. Sanki ata bala kimi ticarət edirlər. Maşallah olsun. Ruhu şad olsun Vahid qardaşımın. Nə deyim. Ona qıyan əllər qurusun inşallah.
--.....- Qönçə ağlayırdı.
--Yaxşı qızım ağlama. Ağlamaqla öləni geri qaytarmaq olsaydı kimlər kimlər qayıdardı. Özünə fikir ver. Dərd etmə.
-- Yaxşı Süsən xala.
-- Di get bala, sağol. Müalicəm bitsən gələcəm özüm də. Gecəniz xeyirə qalsın.
--Sizin də. Sağolun.

Qönçə dəstəyi asıb yerinə keçdi. Bəyaqdan kənarda oturub onun danışqıdlarına qulaq asan Vəfa xanım dilləndi.
--Süsən yaxşı qadındı.
--....-Başı ilə razılaşdı.
-- Nə deyirdi? Əmin gəlir?
--Hə deyir gecə çıxacqlar. Çingiz də gəlir onunla.
--Qoy gəlsin ən azından burda lazımdılar.
- Ana, səncə atamı kim öldürüb?
- Bilmirəm. Şübhələndiyim tək insan varsa o da Faiq bəydir.
- Mən də ondan şübhələndiyimi ifadə verəndə qeyd elədim. Dedim ki, vaxtı ilə atamdan əl çəkmirdi.
- Qönçə, - Vəfa xanım tərəddüd etsə də, demək məcburiyyətində qaldı. Anladı ki, qızının bunu bilməyə haqqı var. Odur ki, danışmağa başladı. – Bilirsən, atanın ölümündən üç gün əvvəl axşam Faiq bəy oğlu ilə bizə gəlmişdilər. Atandan fabriki geri satmağını tələb etdilər. O da qəti etiraz elədi. Dedilər ki, əyər iki günə geri satmasan özündən küs.
- Səncə atamı o öldürüb?
- Başqa kim ola bilərdi ki?
- Bilmirəm. Heç kim ağlıma gəlmir. - əllərini alnında birləşdirən Qönçə dərindən ah çəkib - Bəs atam niyə satmadı fabriki? Nəyinə lazım idi axı? Onsuz da tikinti işindən uzaq dururdu. Nə edəcəkdi o xarabanı? İndi də ölümünə səbəb oldu...
- Sənin doğum günü hədiyyən idi. Ona görə satmadı.
- Nə-ə-ə? – təəccüblənmiş Qönçənin rəngi qaçdı. – Onlar atamı mənim hədiyyəm üstündə öldürüblər? Bunu necə qəbul edə bilərəm axı? Heç

cür anlaya bilmirəm. – Bir anlıq susdu. Gözlərinin qaraldığını hiss edib, əlləri ilə üzünü tutdu. – Gözüm qaralır.

- Soyuq ol biraz. Qönçə, sənə nə oldu ? – Ayağa qalxan Vəfa xanım Qönçəyə yaxınlaşdı.
- Ana, özümü pis hiss edirəm. - Bu an ayağa qalxmaq istədi. Lakin gözlənilmədən yerə yıxıldı.
- Qönçə? Qönçə? Nə oldu sənə qızım aç gözlərini.

Bir neçə dəqiqə sonra gözlərini açan Qönçə başı üstündə dayanmış ağ xalatlı həkimi görüb təəccübləndi. Anladı ki, özündə olmadığı vaxt anası yaxınlıqdakı tibb məntəqəsinə zəng vurub, həkim çağırıb.

- Ay, başım! – Ayğa qalxmaq istəyən Qönçə zarıdı. Bu zaman həkim onun çiynindən tutub yenidən uzandırdı.
- Ayağa qalxmaq olmaz. Siz hələ zəifsiz. Bir az dincəlmək lazımdır.
- Ana?
- Özünü necə hiss edirsən qızım?
- Yaxşı deyiləm. Başım yaman hərlənir. Mədəm də yaxşı deyil. Qaytarmaq istəyirəm.
- Siz bacardığınız qədər həyəcandan uzaq olun. – ayağa qalxan həkim Vəfa xanıma baxaraq – siz də bacardığınız qədər xanımı yalnız buraxmayın. Bol su və meyvə tərəvəz yesin. Gün ərzində ən az dörd dəfə qidalanmaq lazımdır. Bir müddət yataqda uzansa daha rahat olacaq. Qazlı, rəngli içkilərdən uzaq tutun.
- Axı mədəm göynədir. Qaytarıram. Necə yemək yeyim? – Qönçənin zəif səsi eşidildi.
- Narahat olmayın. Əyər ilıq halda qida qəbul etsəniz qəti qaytarmazsız.
- Həkim, qızım mədəsində nə isə problem var? Məndən heç nə gizlətməyin. – Vəfa xanım soruşdu.
- Yox. Heç bir problem yoxdur. – Ayaqqabısını geyinən həkim tam arxayınlıqla dedi. - Bu orqanizmin verə bildiyi tamamilə təbii reaksiyadır.
- Necə məyər?
- İş bundadır ki, sizin qızınız hamilədir.
- Necə? – səsində sevinc və fərəh hiss olunan Vəfa xanım təəccüblə soruşdu.
- Bəli. Sizi və xanımı təbrik edirəm. Sağlıqla qalın. Dediklərimə əməl etsəniz hər şey yoluna düşəcək.
- Çox sağ olun. – Vəfa xanım bunu deyərək həkimin arxasından qapını bağladı.

Sevincinin həddi hüdudu yox idi. Yataq otağına keçəndə isə Qönçənin yuxuya getdiyini görüb oyatmağa qıymadı. Əllərini açıb tanrıya dua etdi.

- Şükürlər olsun sənə İlahi! Heyf ki, Vahid bu günü görmədi. Allahım, özün bilən məsləhətdir! Bircə balamı qoru başqa heç nə istəmirəm. Qoy övladını sağ salamat həyata gətirsin! Ailəsinə və vətənə layiqli övlad olsun! Amin!

## *Onuncu fəsil*

Faiq bəy gözünü Bakı şəhərində açmışdı. Tamamilə sadə və orta səviyyəli ailədə böyümüşdü. Atası müəllim, anası evdar qadın idi. 15 yaşında yaşıdlarından fərqli olaraq Faiq sayılıb seçilən varlı iş adamlarından olmaq arzusunda idi. Bunun üçün çox oxuyurdu. Atasından fizikanın incəliklərini, məktəbdə isə referendlərdən kimyanın, biologiyanın dərin mahiyyətini öyrənməyə çalışırdı. O qədər təhsilə marağı vardı ki, hər kəs İsabala müəllimə "Deyəsən Faiq də atasının yolu ilə gedəcək, müəllim olacaq" deyirdilər. O da oğlu ilə fəxr edərdi. Müəllim maaşı ilə kifayət qədər yaxşı dolana bilmirdilər, lakin buna baxmayaraq Faiqin bitib tükənməyən oxumaq həvəsini məhv etmək istəmirdi. İllər keçir. Faiq artıq İnistuta qəbul olur. Elə oradaca həyatı tamam dəyişir. Bütün sevgisini oxumağa verən Faiqi də sevirlər. Yaraşığına söz ola bilməzdi. Enli kürək, boynu qalın idmançı oğlan idi. Qruplarında belə ona saatlarla tamaşa edən qızlar vardı. Əlbəttə bütün bu diqqət hər oğlanın xoşuna gələrdi. Eləcə də Faiqin. Lakin ona sadəcə baxmaqla kifayətlənməyən bir qız vardı-Erna. Milliyyətçə erməni olan o qız mühazirələrdən birində Faiqə sevgi məktubu yazıb göndərir. Digər pərəstişkarları onun bu addımını cəsarət kimi qiymətləndirirlər, amma Faiq bundan xoşlanmır. Məktubu açar açmaz nə olduğunu anlayıb kənara qoyur. Saat yarım ərzində Erna özünə yer tapa bilmir. Faiqin ona qarşı olan soyuqluğu əsəblərinə toxunurdu. Növbəti planlarını qurmağa başlayır. Diqqətini çəkə biləcək geyimlər, saç düzümləri edir. Qarşısında ürəkdən gülməklə ən azından Faiqin fikrini yayındırmaq istəyir. Lakin alınmır ki, alınmır. Təcrübələr aparmağı çox sevən professorlardan biri növbəti dəfə meşəyə getməyi təklif edəndə Erna çirkin planlarını cızmağa başlayır. Ona bu işdə iki rəfiqəsi də kömək edəcəyini deyir. Faiq bu cür təcrübələrdən imtina etməzdi. Əksinə çox sevərdi. Meşənin yamşaşıl talasında çadır qururlar. Faiqi uzaqdan izləyən Erna çadırını qurması üçün kömək istəyir. Faiq də yarım saatlıq iş prosesindən sonra çadırı hazır edir. Professor Ernaya göbələk yığmaq üçün meşəyə getməsini istəyir. Ona yoldaş olaraq elə Faiqi seçir. Bu təsadüfən alınsa da Ernanın tam ürəyincə olur. Onunla ikilikdə ola biləcəyi yerlərə tərəf addımlayır:

--Sən göbələkləri seçə bilirsən?

--Əlbəttə. Onları hər kəs seçə bilir.

--Oy, nə yaxşı ki, professor səni mənimlə göndərdi. Mən ki, göbələkləri tanımıram. Birdən zəhərlilərini seçərdim. Onda işimiz lap əngəl olardı.- deyən Erna ürəkdən güldü.

-- Onda həqiqətən işimiz əngəl olardı. Ehtiyyatlı ol orda tikanlı kol var.- Faiq Ernanın ayağını cızaraq qanadan kolu işarə etdi.

-Ay... Çox incidir.-Erna azacıq qanayan ayağını tutub ufuldamağa başladı.

--Səbr et. Üstümdə sarğı üçün bint var.

--Sən necə də ehtiyyatlısan.

--Biz ki, təbiət qoynundayıq. Burda hər şey ola bilər. Ona görə ehtiyyatlı olmaq lazımdır.

--Onda sənin üstündə ehtiyyatdan bıçaq da olar. Hə? Yəni ayı ya canavarla rastlaşsaq qorunmaq üçün.

--Əlbəttə! Həm də ayağımda. –Faiq bir az gülümsündü.

--Sən çox qoçaq oğlansan- Ayağını sarıyan Faiqin əlindən tutaraq dedi.

--Sən də cəsarətli qızsan. Meşənin dərinliyinə qorxmadan gəlmisən. Həm də göbələkləri tanımayaraq.- Bu zaman Faiq ürəkdən güldü.

-- Hə sənə gülünc gəlir. Amma bax yaralanmışam.

Bu kiçik yara sanki Faiqin qazılmış quyusu olur. Söhbətləri uzandıqca uzanır. Faiq get gedə Ernanın şirin dilinə aldanır. Erna gah yeriyə bilmədiyini bəhanə edərək ona qısılır, gah da elə vəziyyətdə hərəkət edir ki, burun-buruna durmalı olurlar. Bu kimsəsiz meşə içində sanki yalnız ikisi idi. Faiq Ernanın tələsinə "düşür". Gözləri və dodaqları ilə Faiqin ağlını başından alır. Bir necə saatlıq yaxınlıq edirlər. Bu münasibət hər ikisinin ürəyincə olur. Faiq da necə olduğunu anlamasa da Ernanın ehtiraslı qucağında hər şeyi unudur.

Bir müddət keçir. Faiq dərslərinə fikrini toplaya bilmədiyindən Erna ilə ayrılmağı qərara alır. Bunu özünə qarşı haqsızlıq hesab edən Erna ondan intiqam almağı qətiləşdirir. İsabala müəllimin qarşısına çıxıb "Oğlunuz namusumu ləkələyib. Mənimlə evlənməkdən boyun qaçırdır" -deyir. Bu bir yara olur İsabala müəllimin sinəsində. Çox çalışır, lakin Faiqi yola gətirə bilmir.

Vəziyyəti belə görən Erna gecə ikən bir bağlama paltarla onlara gəlib hamilə olduğunu və atası anası tərəfindən evdən qovulduğunu deyir. Ulduzun ürəyi yanır Ernaya. Nə də olsa öz oğlunun günahını daşıyırdı bətnində. Odur ki, İsabala ilə qərarlaşıb onları evləndirirlər. Qısa zamandan sonra Ulduz ürək çatışmamazlığından dünyasını dəyişir. Bu itgi Faiqi sarsıdır. Atasını da itirməmək üçün anasına verdiyi son vədinə əməl etmək üçün gecələri oxuyur, gündüzləri işləyirdi. Çox çətin olsa da səbr edirdi. Erna evin xanımı olmuşdu artıq. İsabala müəllim də xanımının ölümündən sonra Bakıda qala bilməyib rayonların birinə köçdü. Tək yaşamağa üstünlük verdi. Faiq isə atasının bu addımını anlaya bilmədi. Ondan bərk incidi. Zamanla Ernadan oğlu doğuldu. Faiq hər uşağa baxanda öz qanından olmadığını hiss edirdi. Lakin Erna onun bu şübhəsini də yoluna qoymuşdu. Hadisələri su kimi axarlı etmişdi. Erna hətta uşağa öz atasının adını qoymaq istəsə də Faiq Fuad qoydu. Günləri mübahisələrlə bol idi. Ernanın əvvəllər nümayiş etdiyi sevgisindən bir parça da qalmamışdı. Faiq isə yalnız oğlu üçün işləyirdi. Erna Fuadın tərbiyəsinə ciddi yanaşırdı. Ona qəddarlığı öyrədirdi. Qarşısına çıxan uşağı döyməyi, dalaşmağı, əlinə daş alıb baş yarmağı öyrədirdi. Oyuncaqlarının əksəriyyəti tapanca idi. Onu zalım və qorxusuz böyüdürdü. Bu tərbiyyədən Faiqin xəbəri olmurdu. Bütün gününü evdən çöldə keçirirdi. Tezliklə İnistutu bitirdi və işləməyə başladı. Əvvəlcə kiçik işdə işləyirdi. Bu onu qane etsə də Ernanı qane etmirdi. Daha çox pul, daha çox yemək, daha çox geyinmək istəyirdi. Bir gün işdən evə gələn Faiq Ernanın masa üzərinə qoyduğu məktubu tapır. Əvvəlcə nə baş verdiyini anlamasa da məktubda yazılanları oxuyub hər şeyi dərk edir.

*Faiq, sənin nazına çox dözdüm. Evə gətirdiyi 5-3 manatla güclə dolandırırsan məni. Atamla anam İrəvana dönürlər. Mən də onlarla birlikdə gedirəm. Fuadı aparmağa qoymadılar. Mən də sənə verirəm. O sənin oğlun, o da sən. Mənsə hələ cavanam. Evlənib həyatımı yaşayacam. Məni itirib axtarma.*

*Erna...*

Bu sanki məktub deyildi, xəncər idi Faiqin sinəsinə batmışdı. Sadəcə oğlunun anası idi. Bir qədər stulda əyləşib əsəbindən nə edəcəyini düşünsə də, Fuadı aparmadığına şükr edib həyatını yaşamağa başladı. Əvvəlcə Fuada səbəb demədi. Sanki Erna harasa dincəlməyə gedib. Lakin sonra Fuada hər şeyi başa saldı. Ayrıldıqlarını və anasının ondan imtina etdiyini dedi. Fuad bunu başqa uşaqlara nisbətən soyuq qarşıladı. Lakin içində nələr yaşadığını kim bilə bilərdi ki...

İllər keçir Fuad İnistuta qəbul olur. Faiq vəzifəcə yüksəlməyə başlayır. İşləri əvvəlkindən qat-qat yaxşı gedir. Hər hansısa işə sərmayə qoyub artıqlaması ilə qazanır. Faiq fabriklərdən birində işləyən mehriban bir xanımla evlənir. Ernanı onsuz da sevməmişdi. Buna görə də sevginin nə olduğunu ilk dəfə İradə xanımdan duyur. Onunla xoşbəxt həyatına qədəm qoyur. Tezliklə ekiz qızları doğulur. Onlar məktəbə gedəndə Fuad evlənir. Beləliklə Faiqin başı ailəsinə qarışır. Fuad onun tək varisi, yeganə oğlu olur.

## *On birinci fəsil*

Səhərin nə zaman açıldığının fərqinə varmayan Məmmədzadə gecəni divanda yatıb qalmışdı. O qədər dərin yatmışdı ki, kabinetinə daxil olub sənədləri masa üzərinə qoyan Qədiri belə görməmişdi. Qədir də istəməzdi ki, şirin yuxu ilə yatan rəisini cinayət işinə aid sənədə görə oyatsın. Odur ki, sənədləri sakitcə masa üzərinə qoyub getmişdi. Polkovnik-leytenant ayıldıqda isə artıq günorta saat 12 idi. Çox yatmışdı. Lakin gecə də gec yatmışdı. Demək olar səhərə kimi düşünmüşdü. Ayağa qalxıb küncdəki otağın qapısını açdı. Əl - üzünü yuyub dəsmalla qurulandı. Sonra yenidən iş otağına qayıdıb, şəxsi stulunda əyləşdi. Qədirin qoyduğu qovluğu diqqətlə nəzərdən keçirib masa üzərindəki müvafiq düyməni basdı:

- Mayor Paşazadə və mayor Eyvazovu yanıma çağırın!
- Baş üstə! – Leytenant Nəsirovun səsi eşidildi.

Bir dəqiqə sonra qabı döyülərək açıldı.

- Sabahınız xeyir olsun yoldaş Məmmədzadə! – hər ikisi birlikdə salamlaşdılar.
- Sabahınız xeyir. Qədir, qoçaq adammışan, maşallah!
- Sizin kimi rəisi olan işçi qoçaq olmayıb nə etməlidir?
- Yaxşı. Əhsən sənə. Demək tezdən fabrikə gedərək analiz üçün torpaq götürüb, ekspertizaya təhvil vermisən.
- Üstəlik ekspertizanın rəyini və tapşırdığınız kimi Faiq bəyi də oğlu ilə gətirib. – Paşazadə fərəhlə dilləndi.
- Vallah qızıl oğlansan. – yarı gerçək, yarı istehzalı danışan polkovnik-leytenant ayağa qalxıb pəncərə önündə dayandı. Eyvazova baxaraq dedi– Ekspertlərin rəyini oxu.
- Baş üstə! - qovluğu əlinə alıb stulda əyləşdi. Burada qeyd olunur ki, həqiqətən də torpaq nümunələri arasında 99% oxşarlıq var. Bu o deməkdir ki, cinayət törədilmiş yerdən tapılmış torpaq qalığı ilə həm fabrikdən mənim nümunə olaraq verdiyim torpaq parçası, həm də

Səyavuş bəyin ayaqqabısının altından alınmış torpaq nümunəsi ilə eynilik təşkil edir. Lakin hadisə yerindən tapılmış ayaqqabı izi ilə Səyavuş bəyin ayaqqabısının izi eyni deyil. Səyavuş bəyin ayaqqabısı həm də pəncəsiz olmağı ilə həmin ayaqqabı izindən fərqlənir. Həmin gün Səyacuş ayrı ayaqqabıd olsaydı da yenə də tapılan ayaqqabı izi ilə eyni olmayacaqdı. Qeyd etdiyim kimi, qatilin ayağı 46 ölçülü olmaqla yanaşı həm də pəncəlidir. Səyavuşun isə ayağı pəncəsizdir.

- Dayan! – polkovnik-leytenant qəfildən Eyvazovun nitqini yarımçıq qoydu. – Belə çıxır ki, həmin gecə Səyavuş orada olmayıb?
- Görünür ki, elədir.
- Bəs onda xalça üzərindən tapılan torpaq qalığı? O ki, Səyavuşun ayaqqabısındakı torpaqla, üstəlik fabrikin torpağı ilə eynidir.
- Yoldaş polkovnik-leytenant mənə elə gəlir ki, Səyavuş burada günahsızdır. Torpaq xalça üzərinə Vahid bəylə ölümündən 3-4 gün əvvəl həmin kabinetdə keçirdiyi söhbət zamanı da düşə bilərdi. – Mayor Paşazadə dedi.
- Bildiyinizə görə xadimə həmin evə həftədə yalnız bir dəfə baş çəkir. Bu isə o deməkdir ki, Səyavuşla Vahid bəyin məhz həmin kabinetdə görüşləri olmuşdu. Ya görüşündən sonra xadimə orada olmayıb, ya da xadimə həmin həftəni işə gəlməyib.
- Bu dəfə gərək özüm xadiməni danışdırım. Unutmayın, Qüsursuz cinayət yoxdur. Qatil mütləq nədəsə səhv edir. Bizim işimizdə isə o ayaqqabı izini səhv olaraq buraxıb. Daha bir neçə bu növ səhvlər aşkar etsək bir o qədər tez qatili həbs edərik.
- Sizinlə tamamilə razıyıq Asif müəllim. Bu arada onu da deyim ki, xadiməni xəstəxanadan vaxtından əvvəl buraxıblar.
- Lap yaxşı xadimə nahardan sonra burda olsun. O zamanadək Faiq bəyin ifadəsini alaq.

Eyvazov cəld dəhlizə çıxdı. Məmmədzadə yenidən pəncərə önünə keçdi. Hikmət isə qovluqdakı sənədləri daha da dərindən oxuyur, nəyisə beynində götür qoy edirdi. Bu an Qədir alçaq boy, dolu bədənli, qara saçı ağ saçları arasından güclə seçilən, çənəsində və burnunun altında seyrək saqqalı olan, bahalı kostyum geyinmiş şəxslə otağa daxil oldu. Qədir əli ilə həmin şəxsi işarə edib:

- Cənab polkovnik-leytenant sizə Faiq bəyi təqdim edirəm.
- Keçin əyləşin! – Məmmədzadə qarşısında dayanmış boynu yoğun kişiyə stulda yer göstərdi. Özü də onunla üz -üzə əyləşdi. – Özünüzü təqdim edin!
- Faiq bəy İsabala oğlu İsayev. 1956-cı il təvəllüdüyəm. Bir oğlum, üç qızım, iki nəvəm var. – mehribancasına dilləndi.

- Kifayətdir. – polkovnik-leytenant əlini yuxarı qaldırıb – Deyin görək Vahid Zaman adlı iş adamını tanıyırdızmı?
- O nə sözdür. Heç Vahid bəyi tanımamaq olar? O mənim yaxın dostumdur. Mehriban adam idi.
- Siz onun öldüyü barədə bilirsiz?
- Bəli. Bu gün evində yas verilirdi. Orda eşitdim ki, Səyavuşu buraxmamısız. Dünəndən buradadı. Onun bu işdə əli var bəyəm?
- Orası bizim işimizdir. Siz yalnız verilən suallara cavab verin. Xatırladaq ki, verəcəyiniz yalnış ifadəyə görə məsuliyyətə cəlb oluna bilərsiniz.
- Bəli, bəli. Bu barədə artıq məlumatım var. Siz deyin görək məni bura nöşün çağırmısız?
- Siz avqust ayının 4-ü axşam 10-11 arası harda nə işlə məşğul idiz? - Məmmədzadə masa üzərindən qələmi əlinə alıb oynatmağa başladı.
- Bircə deməyin ki, məndən şübhə edirsiniz. Bu ki, axmaqlıqdır. – ürəkdən güldü.
- Burada gülməli heç bir şey yoxdur - polkovnik-leytenant əsəbi halda dilləndi.
- Üzür istəyirəm. Lakin gülməkdən başqa bir şey bacarmıram. O ki, qala adam öldürməyə. Biz ki, onunla dost idik.
- Hansı dost? Hansı dost soruşuram? – Paşazadə ayağa qalxıb qışqırdı. – Dost dosta hədə gələr ki, iki günə fabriki geri satmasan səni öldürəcəyəm? Buna dostluq deyirsiz?
- Onu kim deyir? Mən ölümlə heç kəsi hədələməmişəm.
- Vəfa xanım ifadəsində belə qeyd edib. Üstəlik Vahid bəyə yumuruq da vurmusuz. Dodağı sağ tərəfdən partlamışdı. – Məmmədzadə səbrini boğaraq dedi.
- Bilirsiz, mən o gecə oğlumun evində idim. Nəvəmin ad günü idi. – mehriban görkəmindən əsər əlamət qalmadı. - Qonaqlıq verirdik. Bir çox insanlar, yeri gəlsə hamısı mənim şahidim ola bilərlər. O ki, qaldı ölümlə hədələməyə bunu demişəm. Amma sadəcə hədə idi. Mən indiyə kimi cinayətə cəlb olunmamışam. Kiməsə ziyanım, zərərim dəyməyib.
- Necə dəyməyib? Bəs Vahid bəyin dodağını vurub partlatmaq zərər yetirmək deyilmi? - Eyvazov yerindən sıçradı.
- Düzdür. Razıyam. Amma o zərbəni mən yox, oğlum Fuad vurub. Cavanlıqdır da. Qan vurub təpəsinə. Amma yaxşı oğuldur. Kimsəni qoymaz mənə artıq hərəkət eləsin. O gecə bizim mübahisəmizdə anladı ki, mən haqlıyam vurub itələdi. Vahid də pələng kimi cumdu üstümə. Fuad yumruqla vurub dodağını partlatdı. Bu sadəcə məni müdafiə üçün idi. Əyər buna görə Fuadı ya məni həbs etmək lazımdırsa buyurun. Qanun naminə nə lazımdırsa edin.

Bu zaman qapı döyüldü. Vahid bəyin xadiməsi ifadə vermək üçün gətirilmişdi. Asif Məmmədazadə Faiq bəyə kənardakı stulda oturmağı tapşdırdı. Xadimə işəri daxil olub göstərilən yerdə əyləşdi.

- Özünüzü təqdim edin.
- Əhmədova Fəxriyə Ağabala qızı.
- Vahid bəyi ən son harda və necə görmüsüz?
- Ölü görmüşəm. Yadıma düşdükcə bədənim əsir. O boyda adam olasan bir gündə yox olasan. Bilirsiz necə yaxşı adam idi...Ehh hardan biləsiz ki, onun necə insan olduğunu bir mən bilirəm.
- Niyə siz?- Qədir soruşdu.
- Ay oğul, o kimlərə kömək etməyib ki. Mən də onlardan biri. Əlil qızım var onu yetimçiliklə böyüdürəm. Özünü idarə edə bilmir. Evdə bacım baxır mən də iş axtarırdım. Çox əlləşdim amma işə alan olmurdu. Axırda məcbur olub əl açdıb diləndim. Elə tamamilə təsadüfən Allah mənimq arşıma çıxardı Vahid bəyi. Qızıl adamdı. Vallah. Məni bağ evində xadiməliyə götürdü. Maaşımı da vaxtı vaxtında verirdi. Hətta bəzən arada da bayramda filan pul verərdi. Ya bazarlığımı edərdi. Ehh hanı o insan, hanı? İndi onun kimisi varmı yer üzündə? Çox çətin çox...
- Fəxriyə xanım, siz deyin görək ən son o kabineti ümumiyyətlə evi nə zaman təmizləmişdiz?
- Ay oğul xatırlamıram ki, amma ölməyindən xeylaq qabaq yığışdırmışdım. Hətta Vahid bəyə zəng edib dedim ki, gələn dəfə gec gələcəm. Qızım xəstələnmişdi onun dərmanları da ki, Allah göstərməsin od qiymətinədi. Sağolsun Vahid bəy mənə həmin günü işçisinin əli ilə pul yetirmişdi. O qədər ağlamışdım ki, o gecə. Nə gözəl insandır deyə. Yaman dağ basdı sinəmə onun ölümü. Meydini görəndən özümə gələ bilmirəm. Özümə bir böyük qardaş sanırdım onu. Allah rəhmət etsin.
- Yaxşı siz ifadənizi imzalyıb gedin. Lazım olsa əlaqə saxlayarıq.

Xadimə kabineti tərk etdikdən sonra, kənarda oturub gözünün yaşını silən Faiq bəyi yenidən stula dəvət etdilər. Az əvvəl xadimənin dediklərindən təsirlənmişdi. Məmmədzadə suala davam etdi:

- Həmin gecədən sonra Vahid bəylə görüşmüsüz?
- Yox. Görüşməmişəm. Amma telefonla əlaqə saxlamışıq. Avqustun 3-ü səhər zəng etmişdi.
- O zəng etmişdi?
- Həri. Dedi ki, Qönçənin ad gününə fabriki hədiyyə eləmək istəyir. Buna görə də satmaq istəmir. Halalıq istədi. Mən də Qönçəni öz balam kimi çox istiyirəm. – Faiq bəy əllərini havada yellədərək danışırdı.

Bu zaman Məmmədzadə əsəbi halda noutbukunda elektron poçtunu açdı. Ümid edirdi ki, polkovnik-leytenant Murad Muradlı məktubuna cavab yazmışdır. Beləcə bəzi qaranlıq qalmış məsələlərin həllini tapmaqda dostunun

köməyi ola bilər. Kodu daxil edər etməz ünvanına göndərilmiş məktubları gözdən keçirməyə başladı. Nəhayət polkovnik-leytenant Muradlının bu səhər 8 də göndərdiyi məktubu gördü. Üzərindən bir dəfə basaraq açdı. Faiq bəy isə hələ də danışırdı:

- Dedim ki, ver. Halal xoşu olsun. O gündən danışmadıq. Beləcə mən də fabrikdən əlimi üzdüm.

Məmmədzadə artıq ürəyində dostunun məktubunu oxuyurdu:

"*Asif, salam! Necəsən?*

*Sənin göndərdiyin məktubu dönə-dönə oxudum. Nəhayət qəti fikrə gəlib cavab yazıram. Özümü sizlərin yanında təsəvvür etdim. Bilmirəm Faiq bəyin ifadəsi necə olacaq. Ancaq onu deyə bilərəm ki, bu qətl yalnız onun fabrikinə görə ola bilərdi. Sən meyiti təsvir edərkən dedin ki, sol əlində Revolver vardı. Qələm isə sağ əli tərəfdə masa üzərində imiş. Belə çıxır ki, qatil Vahid bəyə sənəd imzaladıb. Bu an hələ qələm sahibinin əlində ikən sol tərəfdən gicgahına vurub öldürüb. Qələm əlindən masaya düşüb. Qatil solaxay olduğundan düşünməyib ki, Vahid bəy əsasən sağ əlini işlədir. Beləcə silahı Vahid bəyin sol əlinə verib.*

*Qısaca bir söz deyə bilərəm qatil solaxaydır. Və əyər Vahid bəyin dodağındakı çapıqla qətl hadisəsini müqayisə etsək, əmin ola bilərik ki, Vahid bəyin dodağını vurub partladan elə qatilin özüdür.*

*Vacib sənəd isə: hərflərə diqqətlə baxanda orada bəzi sözlərin əvvəlinci hərfini oxumaq olur. Məsələn: M,s,a,m,l,n,F,o.*

*M= "Mən" sözü ola bilər; Digər həriflərə bənzər bir neçə söz ola bilər: "s" = sahib, vəsiyyət və. s; "m,l" daha çox mülk, mülkiyyət sözlərinə işarə ola bilər. Lakin böyük "F" hərfi ya Faiq bəyin adına ya da Fuad adına işarə ola bilərdi.*

*İşinə azacıq da olsa köməyim dəydisə çox sevinərəm. Hələlik!*"

Məktubu bitirər bitirməz Faiq bəyə ciddi nəzərlərlə baxdı. Ayağa qalxıb Faiq bəyə yaxınlaşdı:

- Dediniz ki, Fuad vurub Vahid bəyi?
- Necə bəyəm?
- Hədə qorxu gəldiyin gecə Fuad vurub Vahid bəyi?
- Həri! Amma məni müdafiə məqsədi ilə.
- Fuad hardadır?
- Aşağıda maşında. Dedim ifadə verib gəlirəm. Məni gözləyir.
- Qədir, düş aşağı. Fuadı bura gətir!

- Oldu! – Mayor Eyvazov kabinetdən sürətlə çıxdı.
- Deməli, avqustunun 4-ü 10-11 arası oğlunuzun evində olmusuz? – Məmmədzadə üzünə təəccüblə baxan Faiq bəydən soruşdu.
- Bəli. Niyə bir də soruşursuz?
- Neçə dəfə lazım gəlsə soruşacağıq. Oğlunuz bütün gecəni yanınızda olub?
- Əlbəttə. Onun qonaqları vardı. Camaatı qoyub heç yerə gedə bilməzdi.
- Bəlkə dəqiq düşünəsiz? Məclis saat neçədə dağıldı?
- Gecə Saat 12-yə qalırdı. Hər kəs evinə getdi.
- Demək o vaxta qədər Fuad bəy yanınızda olub? - Paşazadə polkovnik-leytenantın nəyi dəqiqləşdirmək istədiyini anlayaraq soruşdu.
- Bütün gecəni mənim yanımda dayanası deyildi ki? Arada başqa qonaqlarla da salamlaşırdı. Ayaq yoluna da gedirdi. O gecə bərk soyuqlamışdı. Yaman qaytarırdı.
- Qaytardanda yanında kim olurdu?
- Heç kəs. Kimin tox mədəsi o səhnəni götürərdi ki?
- Məclis keçirilən ev hardadı? – Məmmədzadə sözü dəyişdi.
- Sahil bağında. Oğluma o evi mən almışam. –fərəhlə əlini sinəsinə qoydu.

Bu zaman qapı döyülərək açıldı. Qədir yanında gətirdiyi enli kürək üzü təmiz qırxılmış sadə idman geyimində uca boylu 25-30 yaş arası şəxsə oturmaq üçün yer göstərdi. Bu Faiq bəyin yeganə oğlu Fuad idi. Məmmədzadə qarşısında əyləşmiş gəncə diqqətlə baxaraq:

- Özünüzü təqdim edin.
- İsayev Fuad Faiq oğlu. İdman klubunun sahibiyəm.
- Kifayətdir. – Məmmədzadə qəfil dilləndi. – Sizin avqust ayının 4-ü axşam saat 10-11 arası harda və nə işlə məşğul idiz?
- Həmin günü oğlumun ad günü idi. Evimdə qonaqlarımın yanında idim.
- Məclis neçədə dağıldı?
- Gecə 12 olardı.
- Vahid Zamanı tanıyırsınız? - polkovnik-leytenant davam etdi.
- Şəxsən yox. Amma bir dəfə atamla onlara gedəndə görüşmüşəm.
- Daha doğrusu yumruqla vurub dodağını partladanda. – Paşazadə yerindən dilləndi.
- Atamla mübahisə edirdilər. Cumdu onu vursun. Mən də kənarda dayanıb gözləməli deyildim ki, buyur vur sənə qurbandır. Atama hələ kimsə mənim gözlərim önündə əl qaldırmayıb. Qaldıra da bilməz.
- Nə qoçaq oğlansan ə-ə-ə! – Məmmədzadə ayağa qalxıb Fuadın yanından keçdi. Bu zaman bayaqdan əlində oynatdığı qələmini qəsdən yerə atdı. Məqsədi Fuadın qələmi hansı əli ilə qaldıracağını yoxlamaqdır.

- Qələminiz düşdü. – Fuad əyilərək sol əli ilə yerə düşmüş qələmi qaldırdı.
- Bərəkallah, həm də cəld adamsan. – Məmmədzadə ona doğru uzanmış sol əli qələmi götürmədən bərk sıxdı.
- Siz nə edirsiz? – təəccüblənə Fuad Məmmədzadənin gözləri içinə baxdı.
- Sən solaxaysan?
- Həri. Dedim axı körpəlikdən elədir. – yerindən sıçrayan Faiq bəy təbəssümlə dilləndi.
- Siz qarışmayın. – Məmmədzadə hələ də sol əlini tutduğu Fuadın gözləri içinə baxırdı.
- Bəlkə qolumu buraxasız?
- Buyur! İndi buraxdım. Lakin bir neçə dəqiqədən sonra uzun müddətlik tutacam. – Məmmədzadə qarşısında əyləşmiş güclü adama diqqətlə baxaraq əlini onun biləyindən çəkdi. - Ayaqqabı ölçün neçədir?
- 46. Nolub ki? Sozünüzün canını deyin. Vaxtım yoxdur. Məşqim var. – Əsəbi halda ayağa qalxan Fuad dilləndi.
- Qorxma çox çəkməyəcək. Sadəcə o gecə qaytarmaq bəhanəsi ilə haraya getdiyini boynuna alsan daha da tez bitirərik.
- Nə demək istəyirsiz?
- Onu demək istəyirəm ki, sən avqust ayının 4-ü axşam saat 10-11 arası Vahid bəyin şəxsi bağ evinə hasardan aşaraq daxil olmusan. Vahid bəyin kabinetindəki eyvanın açıq olmağından istifadə edərək. Evə daxil olmusan. Mərhumun qarşısına gözlənilməz anda çıxaraq, əlində gətirdiyin revolver markalı odlu silahla hədələmisən. İş otağına salaraq orada vacib sənəd imzalatdırmısan. İmzanı alan kimi soldan sol əlində tutduğun silahla yaxın məsafədən gicgahından atəş açaraq öldürmüsən. Burada buraxdığın bir səhv vardı ki, onu bu bir neçə gündə aşkar etməmişdik. Sən Vahid Zamanın solaxay olmadığını unutmusan. Bundan da əlavə hasardan aşarkən palçıq üzərində ayaqqabı izinin qalacağına əhəmiyyət verməmisən.

Polkovnik-leytenant Məmmədzadənin təsvir etdiyi ölüm səhnəsini eşitmək Fuada heç də asan olmadı. Sanki həmin gecəni yenidən yaşayırdı. Başını iki əlinin arasına qoyaraq qışqırmağa başladı:

- Siz heç nə bilmirsiz. O mənim varis olduğum fabrikə yiyə çıxıb. Geri satmamağı cəhənnəmə qalsın, hələ üstəlik öz qızına da hədiyyə vermək istəyirdi. Nə etməli idim? Get ver. Fabrik zad istəmirəm deməli idim? Əcəb eləmişəm. Lazım olsaydı yenə öldürərdim. Fabrik mənimdi. Eşidirsiz? Mənim!
- Ə-ə-ə, sən özünü nə hesab edirsən? Fabrikin sahibi o özü idi. Nə edəcəyinə də qərar o verməli idi. Sən isə bu qədər axmaqlıq eləmisən. – Bayaqdan eşitdiklərinə inana bilməyən Faiq bəy özünü saxlaya

bilmədi. – Axmaqsan! Axmaq! Sən adında oğlum yoxdur mənim. Rədd ol gözüm görməsin səni!

- Susun!- Məmmədzadə əsəbi halda yerinə keçdi.- aparın bunu.

Paşazadə belindəki qandalları Fuadın qollarına salaraq kabinetdən çıxartdı. Polkovnik-leytenantın dilxor olduğunu anlayan Qədir də kabineti tərk etdi.

## *Onikinci fəsil*

Yayın sərin gecələrindən biri idi. Məmmədzadə qocaman tut ağacının altında əyləşmişdi. Təmiz dağ havasını ciyərlərinə çəkərək tətilin ləzzətini dadırdı. O bura iki həftə əvvəl qəfildən gəlməyi qərarlaşdırmışdı. Nədənsə ailəsi üçün yaman darıxmışdı. Kiçik oğlu Elcanın sabah 10 yaşı olacaqdı. Hər zaman olduğu kimi gün doğar doğmaz yuxudan ayılacaq, soyuducuda ad günü üçün hazırlanmış tortdan bir barmaq krem oğurlayaraq yeyəcək. Bununla kifayətlənmədən yatmış olan hər bir kəsi oyatmağa çalışacaq. Kimsə doğum günü hədiyyəsi verməsə küsəcəyi ilə hədələyəcək. Qızı Selcan isə hər zaman olduğu kimi qardaşını aldadaraq ona hədiyyə almadığını deyəcək.

Məmmədzadə ailəsini çox sevirdi. Bəzən işdən yorğun gəlsə də yoldaşının övladlarının mehriban üzünə baxmaq kifayət edər ki, bütün günü yaşadığı əsəb və yorğunluqları unutsun. İki həftə əvvəl də hər zaman olduğu kimi əsəbi və yorğun idi. Ani qərar verərək kəndə ailəsinin yanına gəldi. Hikmətlə Qədirə isə artıq kənddə olanda zəng vurub müəyyən müddət olmayacağını bildirmişdi. Üzərində məşğul olduğu cinayət işini isə bağlamışdı. Qatil hər şeyi etiraf etdi. Səyavuş sərbəst buraxıldı. Qönçə isə atasını itirməsinə baxmayaraq həyatın davam etdiyini anlayırdı. Başa düşürdü ki, atası yalnız onun qəlbində yaşadıqca əbədi olaraq var olacaq. Onu Qönçə var olduqca yaşadacaqdı. Bir tərəfdən də iki həftə əvvəl aldığı sevincli xəbər onu lap göylərə qaldırmışdı. Çünki, Qönçə ana olmaqla yanaşı atasının və anasının ən böyük arzusunu gerçək edəcəkdi. Bundan böyük sevinc ola da bilməzdi. Səyavuş qardaşınındəstəyi ilə bir gecəlik həbsi unudub həytına davam etdi. Qönçə ilə doğulacaq balasını düşünməlkə Vahid bəyin yoxluğunu pərdələməyə çalışdı. Vəfa xanım hər zamankı soyuqluğunu qoruyaraq yenidən “Moda evi”nə döndü. Vahid bəyin bütün mirası Qönçəyə qaldı.

Faiq bəy isə cəmiyyətdən uzaq gəzməyə başlamışdı. Özü ilə tək qalanda düşünərdi: “Bütün günah məndədi. Axı mən ölmüş erməni balası ilə evlənəndə

bilməliydim ki, ondan törəmə ondan artıq olmayacaq. Kül mənim başıma! Anası xəyanət etdiyi az deyildi, bir də yetimçəsi xəyanət elədi. Zalımlar, nadanlar. Heç səni görməz olaydım Erna! Yerlə yeksan etdin bütün həyatımı. Bircə oğlum vardı yer üzündə. Vətənimdə vətənimin suyu ilə, havası ilə, torpağı ilə böyütdüm, amma nə faydası. Qan ki erməni qanıdı. Qanınız kəsilsin sizin elə, qanınız! Yox olasız yer üzündən necə ki yox iydiz..” Əlbəttə bu sözləri o özünə deyərdi. Onu kimsə eşitməzdi, eşidən də qulaq ardına vurub “başına hava gəlib” deyərək keçərdi.  Yeganə oğlunun xəyanəti onu tamamilə əldən salmışdı. Fuadı varislikdən məhrum etmişdi. Sahib olduğu fabrik və tikinti firmasını isə satmışdı. Özü də uzaq rayonlardan birində sahib olduğu villasına köçərək ömrünün son anınadək orada yaşayacağına qərar vermişdi. Eyni ilə atası İsbala müəllim kimi...

Fuad isə qətli necə törətdiyini sonradan ifadəsində qeyd etdi. Həmin gecə evində ziyafət verməsinə baxmayaraq tez-tez ürəyinin bulandığını bəhanə edərək məclisdən uzaqlaşırmış.  Saat 11-ə 20 dəqiqə işləmiş bir neçə dəqiqəlik evindən uzaqlaşıb. Vahid Zamanın evindən 4 ev sonra yaşamağına baxmayaraq onunla cəmi bir dəfə rastlaşmışdı. Həmin gün atasının Vahid bəylə telefon danışıqlarını eşitmişdi. Bilirdi ki, Vahid bəy həmin evdə təkdir. Əgər ona nəsə olsaydı kimsə xəbər tutmazdı. Bunun üçün əlini cəld tutmalı idi. Evindən kimsənin gözünə görünmədən tələsik çıxaraq Vahid bəyin evinə yaxınlaşdı. Sahibi gözlənilmədən vurmaq üçün gərək hasarı aşardı. Belə də edir. Ətrafın 2 saat əvvəl yağmış  yay yağışı ilə palçıq olduğunu unudaraq hasarı aşır. İri addımlarla hansı pəncərənin açıq olduğunu axtarmağa başlayır. Çox keçmədən kürsülü villanın birinci mərtəbəsindəki eyvanın açıq olduğunu görür. Beləcə evə daxil olmağı bacarır. Vahid bəy həmin anlarda televizora baxırmış.  Fuad özü ilə gətirdiyi qeydiyyatsız revolveri əlində bərk tutaraq Vahid bəyi öldürməklə hədələyir. Sonra qəfil fikrini dəyişir. Vahid bəydən  şəxsi kabinetinə keçərək masa arxasında əyləşməsini tələb edir. O da elə həmin mərtəbədə özünə aid olan kabinetinə keçir. Masa arxasına əyləşərək Fuadın sonrakı göstərişini gözləyir. Bu zaman Fuad intihar “səhnəsi”-ni qurmağı planlaşdırır. Gicgahından vurulan güllə ilə öldürmək istəyir. Vahid bəy:

- Çox gözünü döymə. Vurmağa gəlmisənsə vur kişi kimi.
- Tələsmə o da olacaq. – bu zaman Fuadın gözü Vahid bəyin qarşısındakı masadakı üç ədəd ağ vərəqə sataşır. – Qələm götür! Dediklərimi yaz!
- Nə yazım? – soruşan Vahid bəy masanın birinci çəkməcəsindən çoxdandır ki, istifadə etmədiyi qələmini götürdü.

- Yaz ki, “Mən Vahid Zaman sahib olduğum tikinti fabrikini Fuad Faiq oğluna verilməsini vəsiyyət edirəm. Qızıma və yoldaşıma isə sahib olduğum hər bir şeyi vəsiyyət edirəm. İmza: Vahid Zaman.” – ani olaraq susduqdan sonra – İmzanı da çək!
- Elə bu?
- Bəli. Bu da sonun.
- Sən nə əclaf insansan! Fabrik atanın olub. Onunla da halallaşmışam. Bilir ki, qızıma hədiyyə verəcəkdim.
- Kəs səsini. Əclaf sənsən ki, gələcəkdə mənim sahib ola biləcəyim fabriki qızcığazına hədiyyə vermək istəyirsən.
- Alçaq! Bəs atan? Onun sənin tutduğun işdən xəbəri olarsa nə deyəcək?
- Heç nə! Heç nə deməyəcək. Desə də sonradan başa düşəcək. Çünki onsuz da fabrik mənim olacaqdı. Ya 10 il sonra. Ya da indi. Yəni səni öldürəndən sonra.
- Vur! Vur deyirəm sənə axmaq! Əlindən heç nə gəlmir. Kişisənsə vur!

Bu zaman güllə açıldı. Fuad əlində əsə-əsə tutduğu revolveri ilə Vahid zamanın sol gicgahından vurdu. Sonra heç nə olmamış kimi cibindən yaylıq çıxardaraq silahın üzərindən əl izlərini silməyə başladı. İzlərini tamamilə sildiyindən əmin olandan sonra silahı Vahid bəyin əlinə qoyaraq. Masa üzərindəki ağ vərəqlərdən yazılı olanını götürüb cibinə qoydu. Burada olduğunu kimsə anlamasın deyə elə gəldiyi yolla da geri qayıtdı.

Evində verdiyi ziyafət başa çatdıqdan sonra anladı ki, Vahid bəyi çox tez öldürməkdə səhv edib. Gərək ona intihar etdiyi barədə etiraf məktubu yazdırardı. Lakin tezliklə özü özlüyündə hərəkətinə bəraət qazandırdı. Bu isə uzun çəkmədi. Tezliklə həbs olundu. Atasının varisliyindən də, məhrum olundu. Üstəlik övladlarının gələcəyini də ləkələdi. Onları cəmiyyət içindən uzaqlaşdırdı.

- Ata! Ata!
- Burdayam Elcan. – qəfil fikirdən ayılan Məmmədzadə oğlunu səslədi.
- Ata, qorxulu yuxu gördüm.
- Nə gördün?
- Gördüm ki, maşınlar surətlə üstümə gəlir. Sürücülərin heç birini görə bilmirəm. Mən də dayanmadan qaçıram. Çox yoruluram. – sanki həqiqətən qaçırmış kimi göstərən Elcan atasını qucaqladı.
- Yaxşı. Qorxma! Sən axı kişisən. Gedək sən yerinə uzan. – Məmmədzadə sevimli oğlunun başını sığallayıb evə getdi.

Bir neçə dəqiqə sonra yenidən həyətə çıxdı. Yayın istisi gecə də olsa öz təsirini göstərirdi. Bunun üçün yuyunmağa getdi. Gecə 2-yə on dəqiqə işləyirdi. Məmmədzadə evə daxil olub yatağına uzandı.

Yarım saat keçməmiş cib telefonundan gələn zəngə oyandı. Xəttin digər tərəfində Qədir Eyvazov idi:

- Axşamınız xeyir!
- Hər vaxtın xeyir! Nəsə olub?
- Çox pis xəbərim var. Təəssüflər olsun ki, istirahətinizi yarımçıq qoyacaqsız.
- Mən isə Elcanın doğum günündə iştirak edə bilməyəcəyimə təəssüflənirəm. Buyur eşidirəm.
- Şəhərdən bir qədər aralıda qəza nəticəsində körpüdən düşmüş taksi alışıb yanıb. İçində sürücüdən başqa sərnişin də olub. Sürücü sağdır. Sərnişin isə yanıb.
- Necə? – təəccüblənmiş Məmmədzadə qəfil qışqırdı. Əllərini alnında ovuşdurub yenidən danışmağa başladı. – Qədir, sürücünü içəri sal. Özüm də tezdən yola çıxaram. Görüşənədək.

***SON 2007-2010.***

*"Hər bir həqiqətdə bir yalan, hər bir yalanda bir həqiqət vardır."*

*Helbert.*


By Ceylan Mumoglu www.qadin.net
Xəyalə Murad
Görünməyən
həqiqət
www.qadin.net 2012


Xeyale Murad (Memmedli)
1986-cı il 25 noyabrda
Sumqayıt şeherinde
mühendis ailesinde
dünyaya göz açıb.
2004 -cü ilde Nesreddin
Tusi adına 12 saylı orta
mektebi ferqlenme ile
bitirib.Ədebiyyata hele orta
mektebden maraq gösterib.
Ədebiyyat müellimesinin
sevimli şagirdi ve dinleyicisi
olub. İster dünya edebiyyatı,
isterse de milli edebiyyatımızın
incileri ile yaxından maraqlanır.
Bu müellifin ilk kitabıdır.
Hal-hazırda Tbilisi şeherinde
yaşayır.
Ailelidir. Bir övladı var.
By Ceylan Mumoglu www.qadin.net
Xəyalə Murad
Görünməyən
həqiqət
www.qadin.net 2012


Xəyalə Murad
Görünməyən
həqiqət
www.qadin.net 2012